**Rafiq İsmayılov**
**Ülkər Nurullayeva**
**Reyhan Həbibli**

Ümumi təhsil müəssisələrinin **7**-ci sinifləri üçün

# AZƏRBAYCAN DİLİ *(dövlət dili)*

fənni üzrə dərsliyin
METODİK VƏSAİTİ

Layihə

© Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

**Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 International (CC BY-NC-SA 4.0)**

Bu nəşr Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 International lisenziyası (CC BY-NC-SA 4.0) ilə **www.trims.edu.az** saytında əlçatandır. Bu nəşrin məzmunundan istifadə edərkən sözügedən lisenziyanın şərtlərini qəbul etmiş olursunuz:

İstinad zamanı nəşrin müəllif(lər)inin adı göstərilməlidir.
Nəşrdən kommersiya məqsədilə istifadə qadağandır.
Törəmə nəşrlər orijinal nəşrin lisenziya şərtlərilə yayılmalıdır.

Bu nəşrlə bağlı irad və təkliflərinizi
trm@arti.edu.az və derslik@edu.gov.az
elektron ünvanlarına göndərməyiniz xahiş olunur.
Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

## MÜNDƏRİCAT

GİRİŞ .......... 3-7

I BÖLMƏ. QAYĞI VƏ MƏRHƏMƏT
1-ci fəsil. Vətənə qayğı .......... 14-23
2-ci fəsil. Empatiya .......... 24-32
3-cü fəsil. Xeyirxahlıq .......... 33-39
Ümumiləşdirici təkrar .......... 40-42

II BÖLMƏ. İNCƏSƏNƏT
1-ci fəsil. Dahi bəstəkar .......... 45-55
2-ci fəsil. Əsrin dahisi – sənətin fədaisi .......... 56-63
3-cü fəsil. Cığır açan qadınlar .......... 64-67
Ümumiləşdirici təkrar .......... 68-70

III BÖLMƏ. TƏBİƏT
1-ci fəsil. Təbiətin mühafizəsi .......... 75-84
2-ci fəsil. Təbii fəlakətlər .......... 85-92
3-cü fəsil. Planetimizi birlikdə qoruyaq .......... 93-101
Ümumiləşdirici təkrar .......... 102-104

IV BÖLMƏ. FƏRDİ İNKİŞAF
1-ci fəsil. Özünə inan .......... 109-114
2-ci fəsil. Təslim olma .......... 115-121
3-cü fəsil. Mütaliə et .......... 122-126
Ümumiləşdirici təkrar .......... 127-129

V BÖLMƏ. VƏTƏNİN KEŞİYİNDƏ
1-ci fəsil. Tarixi yaddaş .......... 133-142
2-ci fəsil. Qəhrəmanlıq .......... 143-153
3-cü fəsil. Qələbə .......... 154-158
Ümumiləşdirici təkrar .......... 159-162

VI BÖLMƏ. ADLAR VƏ DEYİMLƏR
1-ci fəsil. Şəhər və ölkə adları .......... 166-175
2-ci fəsil. Deyimlər .......... 176-183
3-cü fəsil. Tarixi ifadələr .......... 184-188
Ümumiləşdirici təkrar .......... 189-191

Layihə

# GİRİŞ

## 1. Dərsliyin məzmun-struktur konsepsiyası

**Tədris vahidləri**. 7-ci sinifdə Azərbaycan dilinin (dövlət dili kimi) tədrisinin 6 mərhələdə keçilməsi nəzərdə tutulur. Dərslik komplektində bu mərhələlər ayrı-ayrı bölmələr (tədris vahidləri) şəklində təqdim olunmuşdur. Hər yarımil üçün 3 bölmə nəzərdə tutulmuşdur.

**Bölmənin strukturu**. Hər bir bölmə üç fəsil və ümumiləşdirici təkrardan ibarətdir.

Ümumiləşdirici təkrar dərsində müvafiq bölmədə mənimsədilmiş dil qaydalarının tətbiqi üzrə çalışmalar yerinə yetirilir.

**Fəslin strukturu**. Dərslikdə ən kiçik məzmun vahidi fəsildir. O, bir neçə dərsi (3–5) əhatə edir.

Fəsildə müəyyən mövzu zəminində müxtəlif nitq bacarıqlarının inkişafı üçün materiallar verilir. Bu materiallar oxu üçün nəzərdə tutulmuş mətn(lər) üzərində qurulur, bütün məzmun xətləri üzrə standartlar müvafiq mövzuya aid nitq materialı üzərində reallaşdırılır. Ona görə də dərsliyin məzmun-struktur vahidləri haqqında danışarkən bir dərsin deyil, bir neçə dərsi əhatə edən fəslin mərhələlərindən danışmaq lazım gəlir. Bu struktur hər bir fəsildə müxtəlif məzmun xətlərinə aid standartların taksonomiyanın səviyyələrinə uyğun reallaşdırılmasına imkan yaradır.

Fəsillərin strukturu aşağıdakı kimidir:

**Oxu**. Şagirdlər mətni oxuyur, mövzu üzrə yeni məlumat əldə edirlər; bu zaman müxtəlif oxu strategiyaları tətbiq olunur: növbəli oxu, istiqamətləndirilmiş oxu, qruplarla oxu və s. Bu mərhələdə mətndə ayrı-ayrı cümlə və abzaslardakı faktoloji informasiyanın mənimsənilməsi yoxlanılır, həmçinin yeni sözlərin izahı üzrə iş aparılır.

↓

**Şərhetmə və analiz**. Bu mərhələdə mətn ümumi məzmun səviyyəsində qavranılır. Belə ki, şagird mətnin ayrı-ayrı hissələrini əlaqələndirməklə nəticələr çıxarır, obrazlar haqqında fikir yürüdür, əsas fikri və mətndə onu dəstəkləyən fakt və hadisələri şərh edir.

↓

**Özünüifadə**. Əldə etdikləri məlumat və ya ideya ətrafında danışır (müzakirə, debat), yazır (təqdimat, esse), dinlədiklərini oxuduqları ilə müqayisə edirlər.

↓

**Ədəbi dil normalarına uyğun yazı**. Hər fəsildə yazı bacarığının inkişafı üçün praktiki əhəmiyyət daşıyan müəyyən dil qaydası mənimsədilir. Möhkəmləndirici tapşırıqlardan sonra şagirdlər həmin qaydanı yazıda tətbiq edirlər.

Layihə

# 2. MƏZMUN XƏTLƏRİNİN TƏDRİS VAHİDLƏRİ ÜZRƏ BÖLGÜSÜ

| Fəsil | Oxu | Dinləmə | Danışma |
|---|---|---|---|
| **1-ci bölmə. Qayğı və mərhəmət** | | | |
| 1 | Vətənə qayğı | | Güllələnmiş heykəllərlə bağlı yaradıcı nəqletmə |
| 2 | Empatiya | Asqıda qəhvə | Təhkiyəçini dəyişməklə nəqletmə |
| 3 | Xeyirxahlıq | Müqəddəs bayramlar | "Dünya xalqlarının müqəddəs bayramları" mövzusunda təqdimat |
| 1-ci bölmə üzrə ümumiləşdirici təkrar (Dil qaydaları) | | | |
| **2-ci bölmə. İncəsənət** | | | |
| 1 | Dahi bəstəkar | Unudulmaz obraz | "Dahi bəstəkarın adının əbədiləşdiril-məsi" mövzusunda təqdimat |
| 2 | Əsrin dahisi – sənətin fədaisi | | |
| 3 | Cığır açan qadınlar | | |
| 2-ci bölmə üzrə ümumiləşdirici təkrar (Dil qaydaları) | | | |
| **3-cü bölmə. Təbiət** | | | |
| 1 | Təbiətin mühafizəsi | | "Qırmızı kitab"da heyvanların təsnifatı haqqında rabitəli mətn |
| 2 | Təbii fəlakətlər | | |
| 3 | Planetimizi birlikdə qoruyaq | Yer Günü – dünyanın təbiət bayramı | "Qlobal iqlim dəyişiklikləri" mövzu-sunda təqdimat Nəqletmə |
| 3-cü bölmə üzrə ümumiləşdirici təkrar (Dil qaydaları) | | | |

Layihə

| Yazı | Dil qaydaları | Dərs |
|---|---|---|
| | | |
| | Vurğu | 4 |
| "Rəfdə kitab" adlı hekayə | Rus-Avropa mənşəli sözlərin yazılışı | 4 |
| | Mürəkkəb şəxs və yer adlarının yazılışı | 4 |
| | | 1 |
| | | |
| | Hiponimlərdən yaranan mürəkkəb sözlər | 5 |
| Təsviri mətn | Mürəkkəb sözlərin yazılışı | 5 |
| Esse | Ayrı yazılan mürəkkəb sözlər | 3 |
| | | 1 |
| | | |
| Azərbaycanın təbiət qoruqları haqqında reklam prospekti və ya buklet | Qoşma. Qoşmaların orfoqrafiyası, qram-matik omonimliyi və sinonimliyi | 6 |
| Esse | Bağlayıcıların funksiyaları. Bağlayıcılarda vergülün işlənməsi | 5 |
| Çağırış nitqi | | 4 |
| | | 1 |

Layihə

| Fəsil | Oxu | Dinləmə | Danışma |
| --- | --- | --- | --- |
| **4-cü bölmə. Fərdi inkişaf** | | | |
| 1 | Özünə inan | | |
| 2 | Təslim olma | | Mətnin qısa məzmunu<br>Məruzə |
| 3 | Mütaliə et | | Mətnin məzmunu |
| 4-cü bölmə üzrə ümumiləşdirici təkrar (Dil qaydaları) | | | |
| **5-ci bölmə. Vətənin keşiyində** | | | |
| 1 | Tarixi yaddaş | | |
| 2 | Qəhrəmanlıq | Mən gərək oğul doğulaydım | Müəllifin təxəyyülünə uyğun təsvir olunmuş epizodlar |
| 3 | Qələbə | | |
| 5-ci bölmə üzrə ümumiləşdirici təkrar (Dil qaydaları) | | | |
| **6-cı bölmə. Adlar və deyimlər** | | | |
| 1 | Şəhər və ölkə adları | Əbədi şəhər | Təqdimat |
| 2 | Deyimlər | Hamıya qulaq assan, gərək eşşəyi dalına alasan | |
| 3 | Tarixi ifadələr | | Təqdimat |
| 6-cı bölmə üzrə ümumiləşdirici təkrar (Dil qaydaları) | | | |

Layihə

| Yazı | Dil qaydaları | Dərs |
|---|---|---|
| | | |
| Esse | Ədat. "Ki", "da", "də" ədat, bağlayıcı və şəkilçi kimi | 4 |
| | Modal sözlər | 3 |
| | Nida | 2 |
| | | 1 |
| | | |
| "İşğaldan azad olunan şəhərlər" mövzusunda esse | Feilin xəbər və əmr şəkli | 5 |
| Azərbaycan qəhrəmanları haqqında qeyri-bədii mətn | Feilin lazım və arzu şəkli | 6 |
| | Feilin vacib və şərt şəkli | 3 |
| | | 1 |
| | | |
| | Eyniköklü sözlər. Sözönü və sözsonu şəkilçilər | 5 |
| | $-la^2$ şəkilçisinin funksiyaları. Çıxışlıq hal şəkilçisinin, saitlə bitən sözlərdə $-la^2$ şəkilçisinin deyilişi və yazılışı | 4 |
| | | 1 |
| | | 1 |

Layihə

# 3. Məzmun standartları və təlim nəticələri

## 1.1. Dinləmə

**1. Dinləyib-anlama**

**Şagird:**

**1.1. Dinlədiyi fikri anladığını nümayiş etdirir.**

**1.1.1. Dinlədiyi mətnin məzmununu anladığını nümayiş etdirir.**

• Dinlədiyi mətn üzrə faktoloji suallara cavab verir.

**1.1.2. Dinlədiyi fikirləri şərh edir.**

• Dinlədiyi və oxuduğu mətnlərdəki məlumatları müqayisə edir.
• Dinlədiyi mətndəki fakt və hadisələri şərh edir.
• Dinlədiyi mətndəki obraz, fakt və fikirlərə münasibət bildirir.

## 2. Danışma

**Şagird:**

**2.1. Şifahi nitq bacarıqları nümayiş etdirir.**

**2.1.1. Şifahi nitqində sadə fonetik, leksik, qrammatik normalara riayət edir.**

• Sözlərdə sait və samitlərin tələffüzü ilə bağlı orfoepik normalara riayət edir.
• Sözlərdə vurğulu hecanı müəyyən edir.

**2.1.2. Oxuduğu, dinlədiyi və müşahidə etdiyi hadisə və varlıqlar haqqında danışır.**

• Oxuduqları, həyatda gördükləri və təəssüratları haqqında danışır.
• Fikrini əsaslandırmaqla fakt və hadisələrə münasibət bildirir.
• Fikirlərini arqumentlər əsasında məntiqi ardıcıllıqla ifadə edir.

**2.1.3. Aldığı məlumatlar əsasında rabitəli mətn qurub danışır.**

• Təqdimat zamanı fikirlərin məntiqi ardıcıllığına riayət edir.
• Verbal və qrafik materialları (şəkil, sxem, xəritə və s.) şərh etməklə mövzu üzrə danışır.
• Aldığı məlumatları rabitəli mətn halına salaraq şifahi təqdim edir.
• Aldığı məlumatları sadə formada şərh edir və genişləndirir.
• Hər hansı hadisə, varlıq haqqında fikir və təəssüratlarını, apardığı araşdırmaların nəticələrini rabitəli mətn şəklində təqdim edir.
• Təhkiyəçini dəyişməklə mətni nəql edir.

**2.1.4. Dialoq zamanı fikirlərə münasibət bildirir.**

• Müzakirə zamanı mövzuya uyğun fikir yürüdür.

## 3. Oxu

**Şagird:**

**3.1. Mətni mənimsədiyini nümayiş etdirir.**

**3.1.1. Mətnləri düzgün və ifadəli oxuyur.**

• Mətni ifadəli oxumaqla məzmunu anladığını nümayiş etdirir.

**3.1.2. Mətndə rast gəldiyi yeni sözlərin mənasını müəyyən edir.**

• Yeni tanış olduğu sözə uyğun gələn izahı müəyyən edir.

Layihə

• Kontekstdən çıxış edərək söz və ifadələrin mənasını müəyyən edir.
• Oxuduğu mətndəki sözlərin mənasını müəyyən edir.
• Söz və ifadələrin həqiqi və məcazi mənalarını fərqləndirir.

**3.1.3. Mətndə açıq şəkildə ifadə olunmuş informasiyanı mənimsədiyini nümayiş etdirir.**
• Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir.

**3.1.4. Mətnin müxtəlif hissələrini əlaqələndirməklə məzmununu şərh edir.**
• Əlavə biliklərindən istifadə etməklə mətndəki fakt və hadisələri izah edir.
• Bədii mətndəki obrazlara, onların davranışına, müəllif mövqeyinə münasibət bildirir.
• Faktlardan istifadə etməklə mətndə açıq şəkildə ifadə olunmayan məlumatı müəyyən edir.
• Mətndə ifadə olunmuş fikirlə bağlı mülahizəsini bildirir və onu əsaslandırır.

**3.1.5. Mətni məzmun-struktur və dil-üslub baxımından təhlil edir.**
• Verilmiş fikirləri aid olduqları başlıqlar üzrə qruplaşdırır.
• Mətnin tərkib hissələrini müəyyən edir.
• Mətndən əsas fikri müəyyənləşdirməyə kömək edən məqamları seçir.
• Mətni dil-üslub xüsusiyyətlərinə görə təhlil edir.
• Mətnin tərkib hissələrini, struktur elementlərini (haşiyə, başlıq, yarımbaşlıq və s.) onun əsas məzmunu ilə əlaqələndirir.
• Eyni mövzuda olan mətnləri məzmun və ideya baxımından müqayisə edir.
• Bədii və qeyri-bədii mətnləri növündən asılı olaraq məzmun-struktur xüsusiyyətlərinə görə təhlil edir.
• Müəllifin mətndə istifadə etdiyi üslubi xüsusiyyətləri (yarımçıq cümlələr) və bədii priyomları (bədii detallar) müəyyən edir.

**4. Yazı**
**Şagird:**
**4.1. Rabitəli yazı vərdişlərinə yiyələndiyini nümayiş etdirir.**
**4.1.1. Topladığı məlumatları, fikir və duyğularını yazıda əks etdirir.**
• Fakt, hadisə, fikir və təəssüratlarını yazıda əks etdirir.
• Verbal və vizual məlumatlardan ibarət təqdimat materialı hazırlayır.
• Verilmiş informasiyalardan istifadə etməklə rabitəli mətn yazır.
• Verilmiş situasiyaya, məqsədə uyğun kiçikhəcmli mətn (hekayə, təlimat və s.) yazır.
• Əldə etdiyi məlumatlar əsasında kiçikhəcmli informativ mətn yazır.

**4.1.2. Yazıda orfoqrafiya və punktuasiya normalarına riayət edir.**
• Bağlayıcılardan əvvəl və sonra vergül işarəsindən yerində istifadə edir.
• Sözlərin yazılışında orfoqrafik normalara riayət edir.
• Bəzi mürəkkəb adların (şəxs və yer adlarının) böyük hərflə yazılışı qaydalarına əməl edir.
• Qoşmaların yazılışında orfoqrafik normalara riayət edir.
• Mürəkkəb sözlərin yazılış qaydalarına riayət edir.

Layihə

• Sözlərdə -la$^2$ şəkilçisinin (bağlayıcı, qoşma, zərf düzəldən şəkilçi) düzgün yazılışı qaydalarına əməl edir.

**4.1.3. Kontekstdən və qrammatik formadan çıxış edərək sözlərin qrammatik-semantik xüsusiyyətlərini izah edir.**

• Söz tərkibindəki morfemlərin (-gah, -pərəst) semantikasından çıxış edərək sözün mənasını müəyyən edir.
• Feilin şəkillərini fərqləndirir.
• Hiponimləri sinonimlərdən fərqləndirir və onların iştirakı ilə yaranan mürəkkəb sözlərin yazılış qaydalarına əməl edir.
• Kontekstdən çıxış edərək bəzi köməkçi nitq hissələrinin və şəkilçilərin omonimliyini müəyyən edir.
• Kontekstdən çıxış edərək köməkçi nitq hissələrinin semantik xüsusiyyətlərini izah edir.
• Kontekstdən və qrammatik formadan çıxış edərək feillərin qrammatik-semantik xüsusiyyətlərini izah edir.
• Kontekstdən və qrammatik formadan çıxış edərək qoşmaların qrammatik sinonimlik və omonimliyini izah edir.
• Omonim və omoformların fərqini müəyyənləşdirir.
• Sözün başlanğıc formasını müəyyənləşdirir.
• Eyniköklü sözləri müəyyənləşdirir.
• Sözlərdə -dan$^2$ çıxışlıq hal şəkilçisinin [nan$^2$] kimi tələffüzünə əməl edir.
• Sözlərdə -la$^2$ şəkilçisinin funksiyalarını müəyyən edir.

Layihə

Bölmə 1

# QAYĞI VƏ MƏRHƏMƏT

| Dərs | Mövzu | Məzmun xətti | Dərslik səh. | İş dəftəri səh. | Metodik vəsait səh. |
|---|---|---|---|---|---|
| | Giriş | | 6-7 | | 12-13 |
| 1-ci fəsil. **Vətənə qayğı** | | | | | |
| 1 | Unudulmuş qala | Oxu | 8-10 | 3 | 14-15 |
| 2 | Unudulmuş qala | Oxu | 10-11 | | 16-18 |
| 3 | Tarixi abidələr | Yazı | 12-15 | 4 | 19-21 |
| 4 | Vurğu | Yazı | 16-17 | 5 | 21-23 |
| 2-ci fəsil. **Empatiya** | | | | | |
| 5 | İdman ayaqqabısı | Oxu | 18-21 | 6 | 24-26 |
| 6 | İdman ayaqqabısı<br>Asqıda qəhvə | Oxu<br>Dinləmə | 22-23 | 7 | 26-29 |
| 7 | Rəfdə kitab | Yazı | 23 | | 29-30 |
| 8 | Rus-Avropa mənşəli sözlər | Yazı | 24-25 | 8 | 30-32 |
| 3-cü fəsil. **Xeyirxahlıq** | | | | | |
| 9 | Məhəllə dükanında | Oxu<br>Danışma | 26-28 | 9 | 33-34 |
| 10 | Məhəllə dükanında<br>Müqəddəs bayramlar | Oxu<br>Dinləmə | 28-29 | 10 | 34-36 |
| 11 | Dünya xalqlarının müqəddəs bayramları | Danışma | 29 | | 37 |
| 12 | Mürəkkəb şəxs və yer adlarının yazılışı | Yazı | 30 | 11 | 37-39 |
| 13 | Ümumiləşdirici təkrar | Yazı | 31 | 12-13 | 40-42 |

Layihə

# GİRİŞ DƏRSİ

**Təlim nəticələri:**
- Verbal və qrafik materialları (sxem, diaqram) şərh etməklə mövzu üzrə danışır (st. 2.1.3).
- Verbal və vizual məlumatlardan ibarət təqdimat materialı hazırlayır (st. 4.1.1).

**Mövzuya yönəltmə.** Müəllim şagirdlərin diqqətini bölmənin adına yönəldir.

**Söz ehtiyatı**

**Dərslik, səh. 6**

**a.** "Qayğıkeş" və "mərhəmətli" sözlərinin mənasını lüğət vasitəsilə araşdırın. Bu sözləri cümlələrdə işlətməklə mənaları arasındakı fərqi izah edin.

Cavab: Qayğıkeşlik daha çox daimi diqqət və yardım etmə davranışıdır. Mərhəmətlilik isə başqasının vəziyyətinə acıyıb ona şəfqət göstərmək duyğusudur.

**Danışma**

**Dərslik, səh. 6**

**b.** Aforizmlərdə ifadə olunan fikirləri şərh etməklə qayğı və mərhəmət haqqında danışın.

Şagirdlər tapşırıqda təqdim olunmuş aforizmləri şərh edirlər.

**Müəllimin nəzərinə!** Şagirdləri dinlədikdən sonra mövzunu ümumiləşdirə bilərsiniz. Məsələn, "Bu aforizmlər göstərir ki, mərhəmət və qayğı insanlığın ən vacib dəyərlərindəndir. Mərhəmət və qayğı hissi insanın daxilini gözəlləşdirir. Mərhəmətli insanlar daha sağlam bir cəmiyyət yaradır".

**Dərslik, səh. 6**

**c.** Sxem əsasında cəmiyyətdə qayğıkeşlik haqqında danışın.

Cavab: Şagirdlər tapşırıqda verilmiş sxemi şərh edirlər. Nümunə:

Qayğıkeşlik Vətənə, ailəyə, təbiətə, heyvanlara, kimsəsiz insanlara qayğı, diqqət göstərməkdir.

**Vətənə qayğı** – xalqına, torpağına, təbiətinə və dəyərlərinə hörmət və məsuliyyət göstərməkdir. İnsan doğulub böyüdüyü ölkəyə, torpağa, xalqa hörmətlə, məsuliyyətlə yanaşmalıdır. Vətənin hər qarışını qorumalı, ölkəsinin, dövlətinin inkişafına xeyir verən işlər görməlidir.

**Ailəyə qayğı** – öz ailə üzvlərinə həm mənəvi, həm də maddi dəstək verməkdir. Məsələn, valideynlər öz övladlarının qida, geyim, yaşayış yeri, təhsil və sair kimi əsas ehtiyaclarını qarşılayır. Ailə üzvləri bir-birinə sevgi, hörmət, şəfqət göstərir.

**Təbiətə qayğı** – onu qorumaq demədir. Çalışmalıyıq ki, yaşıllıqları məhv etməyək, ətrafı zibilləməyək, suyu, havanı və torpağı çirkləndirməyək, heyvanların yaşayış mühitinə zərər verməyək. Təbiətə qayğı göstərmək əslində öz evimizi qorumaq kimidir: biz ona yaxşı baxsaq, təmiz hava, sağlam su və rahat yaşam mühiti ilə təbiət də bizə cavab verəcək.

**Heyvanlara qayğı** – evsiz, sahibsiz heyvanları müdafiə etmək, onları yemləmək, sığınacaqla təmin etməkdir.

**Kimsəsiz qocalara qayğı** – tək yaşayan, ailə dəstəyi olmayan və ya öz ehtiyaclarını müstəqil şəkildə qarşılamaqda çətinlik çəkən yaşlı insanlara hərtərəfli dəstək göstərməkdir.

**Uşaqlara qayğı** – valideynlər öz övladlarına, böyüklərin özlərindən kiçiklərə qayğı göstərməsidir. Məsələn, yuxarı sinif şagirdləri aşağı sinifdə oxuyan şagirdlərə diqqət göstərirlər. Dövlət uşaqlara təhsil almaq üçün şərait yaradır və s.

**Dərslik, səh. 6**

**ç.** Verilmiş nümunələrdən də istifadə edərək aşağıdakı fikirləri genişləndirin və xeyriyyə aksiyalarının cəmiyyətin dəyişməsində rolu haqqında danışın.

Cavab:
- Qayğıkeş və mərhəmətli insanlar ətrafdakı insanlara, adətən, könüllü olaraq yardım edirlər.



Ləyli

Əsasən də, sosial problemlərin həllində könüllülər əhəmiyyətli rol oynayırlar. Məsələn, COVID-19 pandemiyası zamanı könüllülər yaşlı və xəstə insanlara yardım göstərirdilər. Bununla da öz dövlətinə dəstək nümayiş etdirirdilər.

• Mərhəmətli insanlar ətrafdakılara empatiya nümayiş etdirirlər. Məsələn, uşaqlar dərslərində çətinlik çəkən sinif yoldaşlarını yaxşı anlayır, onların düşdüyü situasiyanı başa düşür və bu vəziyyətdən çıxmaq üçün onlara dəstək olurlar.

• Gənclərin iştirakı ilə keçirilən sosial layihələr (ağacəkmə, təmizlik, qocalar və ya uşaq evlərinə yardım kampaniyaları və s.) mərhəmət və qayğı dəyərlərini aşılamağa kömək edir.

• Qayğıkeşlik cəmiyyətdə birlik yaradır. Çətin günlərdə insanlar bir-birlərinə dəstək olmaq üçün birləşirlər. Məsələn, təbii fəlakətlər (zəlzələ, daşqın) zamanı insanlar bir-birinə kömək etmək üçün birləşirlər. Və yaxud insanların xoş günlərində, toy, bayram, ad günlərində yaxınları bu günü qeyd etmək üçün bir yerə toplaşırlar.

**Dərslik, səh. 7**

**d.** Vətənə qayğı ilə bağlı keçirilmiş sorğunun nəticələrini əks etdirən diaqrama baxın. Diaqrama istinad etməklə sualları cavablandırın.

• **Diaqramda əks etdirilmiş məlumatları rabitəli mətnə çevirib nəql edin.** Nümunə:

Diaqram “Vətənə qayğı” mövzusundadır və “Vətənə qayğı nə deməkdir?” sualının nəticələrini əks etdirir. Bu sorğu müxtəlif yaş qruplarındakı insanlar arasında aparılıb. 12–18 və 18–25 yaş qrupundakı insanlar düşünürlər ki, sosial fəallıqla, məsələn, könüllü fəaliyyətlə “Vətənə qayğı” göstərmək olar. 25–40, 40 və daha böyük yaşda olan insanlar isə düşünürlər ki, xalqın adət-ənənələrini, tarixi abidələrini qoruyan şəxs vətəninə qayğı göstərir. Vətən torpaqlarının müdafiə edilməsinin vacibliyini isə, demək olar ki, bütün yaş qruplarına aid olan insanlar qeyd ediblər.

**Təqdimat**

**Dərslik, səh. 7**

**e.** Verilmiş anketə əsasən sinfinizdə sorğu aparın. Sorğunun nəticələrinə uyğun diaqram hazırlayın və onu şərh edin.

Şagirdlərə tapşırıqda qoyulmuş sorğu anketi paylanır. Daha sonra isə sorğunun nəticələrinə əsasən diaqram hazırlanır və sinfə nümayiş edilərək şərh olunur.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Verbal və qrafik materialları (sxem, diaqram) şərh etməklə mövzu üzrə danışır. | Tapşırıq b, c, ç, d (dərslik) |
| Verbal və vizual məlumatlardan ibarət təqdimat materialı hazırlayır. | Tapşırıq e (dərslik) |

Layihə

# 1-ci fəsil
# VƏTƏNƏ QAYĞI

## 1-ci DƏRS
## Unudulmuş qala

**Təlim nəticələri:**
- Fikirlərini arqumentlər əsasında məntiqi ardıcıllıqla ifadə edir (st. 2.1.2).
- Kontekstə əsasən sözün mənasını müəyyən edir (st. 3.1.2).
- Sözün həqiqi və məcazi mənalarını fərqləndirir (st. 3.1.2).
- Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir (st. 3.1.3).

**Mövzuya yönəltmə**

**Danışma**

**Dərslik, səh. 8**

**a.** Xalqın tarixini, qədim abidələrini və mədəni dəyərlərini qorumaq nə üçün vacibdir? Sizcə, bu məqsədlə hansı işlər görülməlidir?

Şagirdlərin fikirləri dinlənilir, müzakirə edilir.

**Oxu**

**Mətnlə iş.** "Unudulmuş qala" mətni müvafiq jest və mimikalardan istifadə edilməklə müxtəlif şagirdlər tərəfindən oxunur. Müəllim şagirdlərin nitqinə diqqət edir, obrazların hiss və həyəcanını ifadə etmək üçün onlara məsləhətlər verir.

**Söz ehtiyatı**

**Dərslik, səh. 8**

Daha sonra müəllim "Söz mücrüsü"ndə verilmiş sözlərin mənasını şagirdlərə izah edir. Şagirdlər yeni sözləri cümlələrdə işlətməklə onların mənasını anladıqlarını nümayiş etdirirlər.

**Dərslik, səh. 9**

**b.** Mətndən seçilmiş ifadələrin qarşılığını verilmiş cümlələrdə tapın.

Cavab: 1 – b, 2 – c, 3 – a.

**Dərslik, səh. 9**

**c.** Cümlələrdə fərqləndirilmiş sözlərin sinonimini "Söz mücrüsü"ndən seçin.

Cavab: 1. tumarlayırdı – sığallayırdı; 2. izləri – nişanələri; 3. müqaviləsi – sazişi; 4. yad – qərib.

**Dərslik, səh. 9**

**ç.** "Nostalji" sözünün izahını oxuyun. Mətndən nümunələr söyləməklə qalanın nostalji hisslər keçirdiyini əsaslandırın.

Şagirdlər mətnin müvafiq hissəsini oxuyub "nostalji" sözünün mənasını anladıqlarını nümayiş etdirirlər.

Cavab: Bir zamanlar at nallarının səsi divarlarımı titrədər, bürclərim üstündə qalxanlar bərq vurardı. Burada hökmdarlar qərar verər, sazişlər bağlayarlar, saray şairləri şeirlər oxuyardılar.

**Oxuyub-qavrama**

**Dərslik, səh. 10**

**d.** Aşağıdakı cümlələri müqayisə edin. Hansı fikir daha ifadəlidir?

Motivasiya xarakterli bu tapşırıq şagirdlərin diqqətini məcazların cümlədəki roluna yönəldir.

**"Xatırla" rubrikası.** Aşağı siniflərdə sözlərin məcazi mənası haqqında məlumat alan şagirdlər "Xa-

Layihə

tırla" rubrikasındakı məlumatları oxuyaraq biliklərini yeniləyirlər.

Cavab: b. Divarlarımın çatlarında qərib otlar boy atdı.

**Dərslik, səh. 10**

**e.** Mətndən seçilmiş cümlələrdə hansı söz və ifadələr məcaz kimi işlənib?

Cavab: 1. **Səssiz-səmirsiz** dayanıb əsrlərin axarını **izləmişəm**. (Qala insan kimi səssiz dayanır, insan kimi izləyir.)

2. Zaman məni **sınağa çəkib**, küləklər daşlarımı ovub. (Zaman insan kimi sınayır, yoxlayır.)

3. Ayaq səsləri torpağı titrədirdi, sanki **keçmişin qapıları** yavaş-yavaş aralanırdı. (Keçmişin qapıları sanki evin qapısı kimi aralanır.)

**Dərslik, səh. 10**

**ə.** Mətnə istinad etməklə suallara cavab verin.

Şagirdlər faktoloji sualları cavablandırmaqla mətni oxuyub-qavradıqlarını nümayiş etdirirlər.

**İş dəftəri, səh. 3**

**a.** "Unudulmuş qala" mətninə əsasən fikirlərin düzgün, yoxsa yanlış olduğunu müəyyən et.

Cavab: 1 – D, 2 – D, 3 – Y, 4 – Y, 5 – D, 6 – D.

**İş dəftəri, səh. 3**

**b.** Hansı cümlələrdə şəxsləndirmədən istifadə olunmuşdur?

Cavab: 1 və 3-cü cümlələr.

**İş dəftəri, səh. 3**

**c.** Müvafiq məcazlardan istifadə edərək cümlələri tamamla.

Cavab: 1. Şairin qılınc kimi kəskin sözləri padşahı qəzəbləndirdi.
2. Müharibə onun qəlbini daş kimi sərtləşdirmişdi.
3. Dünəndən yağan qar dərələri, təpələri yorğan kimi örtmüşdü.
4. Uşağın əlləri buz kimi soyuq idi.
5. Cəngi səsini eşidən igidlər şir kimi döyüşə atıldılar.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Fikirlərini arqumentlər əsasında məntiqi ardıcıllıqla ifadə edir. | Tapşırıq a (dərslik) |
| Kontekstə əsasən sözün mənasını müəyyən edir. | Tapşırıq ç (dərslik) |
| Sözün həqiqi və məcazi mənalarını fərqləndirir. | Tapşırıq d, e dərslik);<br>b, c (iş dəftəri) |
| Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir. | Tapşırıq ə (dərslik);<br>a (iş dəftəri) |

# 2-ci DƏRS
# Unudulmuş qala

**Təlim nəticələri:**
• Bədii mətndəki obrazlara, onların davranışına, müəllif mövqeyinə münasibət bildirir (st. 3.1.4).
• Omonim və omoformların fərqini müəyyənləşdirir (st. 4.1.3).

**Mövzuya yönəltmə.** Müəllim yönəldici suallar vasitəsilə "Unudulmuş qala" mətninin məzmununu xatırladır.

**Oxuyub-qavrama**

**Dərslik, səh. 10**

**a.** Mətnin müvafiq hissələrinə istinad edərək qalanın keçirdiyi hisslər haqqında danışın. Mətndə qalanın şəxsləndirildiyini əsaslandırın.

Şagirdlərin cavabları təxminən belə ola bilər:

• Qala nostalji hisslər keçirir.

**Mətndən nümunə:** Bir zamanlar at nallarının səsi divarlarımı titrədər, bürclərim üstündə qalxanlar bərq vurardı. Burada hökmdarlar qərar verər, sazişlər bağlayarlar, saray şairləri şeirlər oxuyardılar.

• Qala kədərlənir.

**Mətndən nümunə:** İnsanlar məni unutdular. Divarlarımın çatlarında qərib otlar boy atdı, quşlar məni öz yuvalarına çevirdi.

• Qala həyəcanlanır.

**Mətndən nümunə:** Mən susdum, amma ruhum titrədi.

• Qala sevinir.

**Mətndən nümunə:** Mən yenidən yaşayıram. Artıq tək deyiləm. Tarixiмə sahib çıxanlar var. Mənim hekayəm davam edir...

Motivasiya xarakterli bu tapşırıq şagirdlərin diqqətini şəxsləndirmə mövzusuna yönəldir.

**"Xatırla" rubrikası.** Aşağı siniflərdə şəxsləndirmə haqqında məlumat alan şagirdlər "Xatırla" rubrikasındakı məlumatları oxuyaraq biliklərini yeniləyirlər.

**İş dəftəri, səh. 3**

**ç.** Uyğunluğu müəyyən et və şəxsləndirmə əsasında cümlələr yaz.

Cavab:

2. Günəş buludların arasından boylanıb sanki bizə gülümsəyirdi.
3. Külək əsdikcə yarpaqlar titrəyir, sanki bir-biri ilə pıçıldaşırdılar.
4. Dalğalar sahilə can atır, sanki buradakı qayaları qucaqlayırdılar.

**Dərslik, səh. 10**

**b.** Mətnin sonunda qala yenidən yaşadığını və hekayəsinin davam etdiyini söyləməklə hansı fikri vurğulayır?

Şagirdlərin cavabları təxminən belə ola bilər: Xalqın, ölkənin tarixi yaşayır. Tarixi abidələr keçmişdən gələcəyə bir körpü salır.

**Dərslik, səh. 10**

**c.** "Unudulmuş qala" mətnini təhlil edin.

Cavab:

**Mətnin mövzusu:** Tarixi abidələrin qorunması

**Əsas xarakterlərin səciyyələndirilməsi:** Qala — səbirli, həssas, qürurlu

Layihə

Oğlan – diqqətli, tarixə dəyər verən, bacarıqlı

**Müəllifin qaldırdığı problem:**

• Tarixi abidələrin unudulması və baxımsız qalması

• Tarixi abidələrə qarşı laqeydlik

• Maddi-mədəni irsin qorunmasının vacibliyi

**Müəllifin oxucuya çatdırmaq istədiyi fikir:**

Tarixə sahib çıxmaq həm milli kimliyi, həm də mədəni yaddaşı yaşatmaq deməkdir.

**Dərslik, səh. 11**

**ç.** Aşağıdakı bayatını oxuyun və mətnin ideyası ilə əlaqələndirib şərh edin.

**"Sözlərin izahı" rubrikası.** Müəllim tapşırıqda verilmiş nümunə əsasında "bayatı" haqqında məlumatı şərh edir.

Cavab: Tarixi abidələr insanın dünyada buraxdığı izdir. Cəmiyyət onları qoruduqca xalqın kimliyini, yaddaşını və əcdadların izini yaşadır.

**Dərslik, səh. 11**

**d.** Bayatıda fərqləndirilmiş sözlərin kökünü müəyyənləşdirin və mənasını izah edin. Sizcə, bu sözlər omonimdirmi?

Bu tapşırıq omoform və omonim anlayışlarını izah etmək üçün motivasiya rolu daşıyır.

**Müəllimin nəzərinə!** Şagirdlərə sözün tərkib hissələri haqqında xatırlatma edilməsi tövsiyə edilir.

Daha sonra bayatının ilk iki misrası bir daha oxunur və bu misralardakı "qala" sözlərinin tərkib hissələri müəyyənləşdirilir.

Bu **qala** (tikili mənasında, yalnız kök) bizim **qala, (qal**maq feili + **a** şəkilçisi)

Həmişə bizim **qala**. (**qal**maq feili + **a** şəkilçisi)

Nəticə: Bu sözlər omonim deyil.

**"Yadda saxla" rubrikası.** Müəllim bu rubrikada verilmiş məlumatları şərh edir. Nümunələr əsasında çoxmənalı söz, omonim və omoformları müqayisə edir.

**Dərslik, səh. 11**

**e.** Nümunələrdə fərqləndirilmiş sözlərin omoform və ya omonim olduğunu müəyyən edin və fikrinizi əsaslandırın.

Cavab:

Əzizinəm **gündə** mən,
Kölgədə sən, **gündə** mən.
İldə qurban bir olar,
Sənə qurban **gündə** mən.

Bu bayatının 1-ci və 4-cü misralarındakı "gündə" sözü hər gün mənasındadır. Gün (kök) + də (yerlik hal şəkilçisi)

2-ci misrasında isə "gündə", yəni günəşin altında deməkdir. Gün (kök) + də (yerlik hal şəkilçisi)

Bu sözlərin deyilişi və yazılışı eyni, mənaları tamamilə fərqli olduğu üçün omonimdir.

Aşığam, yaxşı **qala**,
Ocağı yaxşı **qala**.
İstərəm bu dünyada
Pis ölə, yaxşı **qala**.

Bu bayatının 1-ci və 4-cü misrasındakı "qala" sözünün tərkib hissələrinə nəzər salaq: qal(maq) (kök) + a (qrammatik şəkilçi)

2-ci misrada "qala" sözünün tərkib hissələrinə nəzər salaq: qala(maq) (kök)

Yazılışı və tələffüzü eyni, lakin qrammatik formaları müxtəlif olan sözlərdir, deməli, omoformdur.

Xoşdur bu dağların sərin **havası**,
Çal, qarışsın ona gürcü **havası**. *(S.Vurğun)*

Bu şeirin 1-ci misrasındakı "havası" sözü hər hansı bir yerdə müəyyən vaxtda atmosferin vəziyyəti

Layihə

(buludluluq, rütubət, yağıntı, hərarət və s.) mənasındadır. Hava (kök) + sı (mənsubiyyət şəkilçisi)

2-ci misrasında isə "havası" mahnısı mənasında işlənib.

Bu sözlərin deyilişi və yazılışı eyni, mənaları tamamilə fərqli olduğu üçün omonimdir.

Keçək Kür çayını, Araz **çayını**,
İçək Lənkəranın pürrəng **çayını**. *(S.Vurğun)*

Bu şeirin 1-ci misrasındakı "çayını" sözü fasiləsiz təbii su axını deməkdir. Çay (kök) + ı (mənsubiyyət şəkilçisi) + nı (hal şəkilçisi)

2-ci misrasında isə "çayını" çay bitkisinin yarpaqlarından dəmlənib hazırlanan ətirli içki mənasında işlənib. Çay (kök) + ı (mənsubiyyət şəkilçisi) + nı (hal şəkilçisi)

Bu sözlərin deyilişi və yazılışı eyni, mənaları tamamilə fərqli olduğu üçün omonimdir.

Sürüdən ayırıb tez əlli **qoyun**,
Dedi ki, bunları yol üstə **qoyun**. *(S.Ə.Şirvani)*

Bu şeirin 1-ci və 2-ci misrasındakı "qoyun" sözünün tərkib hissələrinə nəzər salaq: qoyun sözün köküdür, isimdir, heyvan mənasındadır.

2-ci misrada isə "qoyun" sözünün kökü qoy(maq) feilidir.

Yazılışı və tələffüzü eyni, lakin qrammatik formaları müxtəlif olan sözlərdir, deməli, omoformdur.

**Dərslik, səh. 11**

**ə.** Verilmiş nümunələrdə omoformları müəyyənləşdirin. Sözlərin leksik və qrammatik mənalarını izah edin.

Cavab:

Dağdan yel **əsir** yenə,
Səbrimi kəsir yenə.
Gəldin məni eylədin
Yolunda **əsir** yenə.

Bu şeirin 1-ci və 4-cü misrasındakı "əsir" sözləri omoformdur.

1-ci misrada əs (kök, feil) + ir (indiki zaman şəkilçisi)

4-cü misrada isə "əsir" sözü isimdir.

Bu yurdun tacı **bağlar**,
Meyvəsi acı **bağlar**.
Ağrısa qardaş başı,
Yenə də bacı **bağlar**.

Bu şeirin 1-ci, 2-ci və 4-cü misralarındakı "bağlar" sözləri omoformdur.

1-ci və 2-ci misralarda bağ (kök, isim) + lar (cəm şəkilçisi)

4-cü misrada "bağlar" sözü isə feildir (bağlayar). Bağ + la (leksik şəkilçi) + yar (gələcək zaman şəkilçisi)

Mən aşiqəm bir **ata**,
Bir oğuldur, bir **ata**.
Qırx dəvə, səksən qatır
Yüklənibdi bir **ata**.

Bu şeirin 1-ci, 2-ci və 4-cü misralarındakı "ata" sözləri omoformdur.

1-ci və 4-cü misralarda at (kök, isim, heyvan) + a (yönlük hal şəkilçisi)

2-ci misrada isə "ata" sözü isimdir (yalnız kökdən ibarətdir, valideynlərdən biri)

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Bədii mətndəki obrazlara, onların davranışına, müəllif mövqeyinə münasibət bildirir. | Tapşırıq a, b, c (dərslik) |

Layihə

| | |
|---|---|
| Omonim və omoformların fərqini müəyyənləşdirir. | Tapşırıq d, e, ə (dərslik) |

# 3-cü DƏRS
# Tarixi abidələr

**Təlim nəticələri:**
- Verilmiş informasiyalardan istifadə etməklə rabitəli mətn yazır (st. 4.1.1).

**Mövzuya yönəltmə**
Müəllim sinfə müraciət edir:
— Qarabağda yerləşən hansı tarixi abidələri tanıyırsınız?
**"Sözlərin izahı" rubrikası.** Şagirdlər "vandalizm" sözünün izahı ilə tanış olur və bu haqda bildiklərini danışırlar.
**Yazı**
**Dərslik, səh. 12**

**a.** Sizcə, Qarabağda əsirlikdən azad edilən bir tarixi abidə danışa bilsəydi, nə deyərdi? Abidələr haqqında məlumatlarla tanış olun. Abidənin dili ilə plana uyğun mətn yazın.

Əvvəlcə şagirdlər qruplara ayrılır. Tapşırıqda verilmiş plan müzakirə olunur.
Dərslikdə güllələnmiş heykəllərin, eləcə də digər abidələrin şəkilləri öz əksini tapıb. Şagirdlər abidələr haqqında mətn hazırlayarkən tapşırıqda qoyulmuş şəkillərdən də istifadə edə bilərlər.
**Müəllimin nəzərinə!** Şagirdlərə "Unudulmuş qala" mətni nümunə kimi xatırladılır. Bu mətndə qədim bir qala şəxsləndirilir. Dərsliyin 10-cu səhifəsində verilən şəxsləndirmə haqqında məlumatın yenidən xatırlanması tövsiyə edilir. Şagirdlər tapşırığın şərtinə və plana uyğun kiçikhəcmli mətnlər yazıb sinfə təqdim edirlər.
Mətn nümunələri
**I qrup. Güllələnmiş heykəllər**
Mən Şuşanın mərkəzində ucalan tarixi bir abidəyəm. Dahi Üzeyirin, Bülbülün, söz sultanı Natəvanın yaddaşıyam. 1982-ci ildə Şuşada ucaldılmışam.
1992-ci ildə düşmən hücumunda mən də yaralandım... Düşmən məni elimdən-obamdan qoparıb yad torpaqlara aparmağa çalışdı. Mənə dəyən hər zərbə bu torpağın musiqisinə, sözünə, mədəniyyətinə vurulan zədə idi. Mən susdum, səbir etdim. Çünki bilirdim ki, gec-tez Vətənimə dönəcəyəm.
Və budur, həmin gün yetişdi. 8 noyabr 2020... O gün illər boyu donmuş ürəyim sanki yenidən canlandı. Şuşanın azadlığı ilə mənim yolum işıqlandı. Elə bil daşa dönmüş qəlbim dilə gəldi: "Sən qayıdırsan...", — deyə pıçıldadı.
2021-ci ildə yenidən yurduma, Şuşanın qoynuna döndüm. İndi elim-obam canlanır. Mən artıq tənha deyiləm. Burada, doğulduğum məkanda öz hekayəmi yenidən yazıram. İstəyim odur ki, bu torpaq bir daha qaranlıq görməsin. Mənim daşlarımda yalnız musiqinin səsi, poeziyanın ahəngi və azadlığın nəfəsi əks-səda versin.
**II qrup. Ağdam Çörək Muzeyi**
Mən Ağdam Çörək Muzeyiyəm. Bir vaxtlar qədim bir dəyirman idim, 1983-cü ildə sanki yenidən doğuldum. Xalqın çörəyə olan sevgisini, zəhmətə verdiyi dəyəri yaşatmaq üçün muzey oldum. İndi mən çörəyin tarixini danışan bir yaddaş idim.
Yaddaşıma həkk olunan həmin o gün... 1992-ci ilin 12 avqustu... O gün çörək ətri ilə dolu salonlarım dağıldı, minillik buğdanın xatirəsi toza qarışdı. Divarlarım arasında qoruyub saxladığım tarixin yaddaşı itib-batdı. Bir vaxtlar insanların qürurla gəzdiyi sərgi salonlarım xarabalığa çevrildi. Bu mənim üçün təkcə daşların dağılması deyildi – çörəyin, zəhmətin, minillik ənənənin yaralanması idi. Lakin ümidimi

itirmədim, gözlədim.

20 noyabr 2020... Ağdam azad edildi. Sanki illər sonra ilk dəfə nəfəs aldım. Mən bilirdim ki, ana torpağım azad olanda, yaddaşım yenidən dirçələcək. O gün qürurla düşündüm: "Mən yenə bu yurdun bir parçasıyam".

Bu gün ətrafımda yenidən qurulan Ağdamın nəfəsini duyuram. İnsanlar haqqımda danışır, hekayəmi öyrənir, məni diriltməyə çalışırlar. Arzum odur ki, yenidən qurulum, yenidən ucalım, yenidən qonaqlarımı çörəyin tarixi ilə salamlayım.

**III qrup. Yuxarı Gövhər Ağa məscidi**

Mən Şuşanın səmasına boylanan qədim bir məscidəm. Məni belə çağırırlar: Yuxarı Gövhər Ağa məscidi. Mən əsrlərin nəfəsi ilə yoğrulmuş bir tale yolu keçmişəm. Təməlim Pənahəli xanın dövründə qoyulub, sonralar İbrahimxəlil xanın zəhməti ilə ucalmışam. Daha sonra bu torpağın mərd qızı Gövhər ağa tərəfindən yenidən qurulmuşam, gözəlləşmişəm. Mən Qarabağ memarlığının incəliyini daşıyıram.

Təəssüf ki, 1992-ci ildə düşmənlər Şuşaya əl uzadanda mən də yaralandım. Minarələrimin nəfəsi kəsildi, qəlbim parçalandı. İçimdə əsrlərlə oxunan azan yavaş-yavaş susdu. Amma ümidimi itirmədim. Səbir etdim. Vətənimin igid övladlarının qayıdışını gözlədim.

Budur, həmin gün gəldi. 8 noyabr 2020-ci il – Şuşa azad edildi. Mənim də ruhum dirildi. İllər sonra ilk dəfə doğma insanların səsi minarələrimdə əks-səda verdi: *"Sən yenə bizimləsən".*

2020–2023-cü illərdə mən yenidən doğuldum. Usta əlləri daşlarımı sığalladı, divarlarımı təmizlədi, minarələrimdən azan səsi eşidildi. İndi mən ibadət edən insanları qarşılayıram. Qapılarım dua etmək, tariximə toxunmaq istəyən hər kəs üçün açıqdır.

**IV qrup. Xan qızı Natəvanın ev muzeyi**

Mən Şuşanın çiçək qoxulu yamaclarında ucalan muzeyəm. Əvvəllər, XIX əsrdə İbrahimxəlil xanın nəvəsi Xurşidbanu Natəvanın evi olmuşam. Natəvan xeyriyyəçiliklə məşğul olurdu, gözəl şeirlər yazırdı. Divarlarım arasında neçə-neçə şeirlər yazılıb, ziyalıların söhbətləri dinlənilib. Mənim hər daşım onun zərif addımlarını xatırlayır.

1932-ci ildə burada ilk uşaq musiqi məktəbi açıldı. Sonralar, 1987-ci ildə isə mən yenidən bəzənib Natəvanın ev muzeyi kimi fəaliyyətə başladım. Burada Natəvanın qələminin izi, ailəsinin yadigarları, tarixin inciləri toplandı.

1992-ci ilin 8 mayı... Mənim üçün sanki zaman dayandı. Natəvanın yadigarları, nadir sənət nümunələri, xalçalar, sənədlər, rəsmlər — hamısı dağıdıldı, talan edildi. Hər qırılan əşya sanki mənim ruhumdan qopmuş bir parça idi. Mən tənha qaldım, toz, sükut və kədər içində...

2020-ci ildə azadlıq nəfəsi Şuşaya qayıdanda mən də dirildim. Divarlarım yenidən canlandı, ruhum yenidən dirçəldi. İndi mən Natəvanın izlərini görmək istəyənləri, Şuşanın sirrini, zərifliyini hiss etmək istəyənləri sevinclə qarşılayıram. Arzum budur ki, mənim qapım həmişə işığa, sənətə, mədəniyyətə açılsın və bir daha qaranlıq günlərə qayıtmasın.

**Diferensial təlim.** Sinifdə bəzi şagirdlər ola bilər ki, bu tapşırığı yerinə yetirməkdə çətinlik çəksinlər. Belə şagirdlər eyni qrupda işləyə bilərlər Müəllim onlara yarımçıq cümlələr təqdim edə bilər. Şagirdlər məlumat vərəqindəki məlumatlara əsasən cümlələri tamamlayırlar. Məsələn:

**I qrup. Güllələnmiş heykəllər.** Mən ..... ucalan tarixi bir abidəyəm. Dahi ..., ..., söz sultanı ... yaddaşıyam. ... ildə Şuşada ucaldılmışam. ... ildə düşmən hücumunda mən də yaralandım... Düşmən məni elimdən-obamdan qoparıb ... aparmağa çalışdı. Mənə dəyən hər zərbə bu torpağın musiqisinə, sözünə, ... vurulan zədə idi. Mən susdum, səbir etdim. Çünki bilirdim ki, gec-tez ... dönəcəyəm. Və budur, həmin gün yetişdi. ... noyabr ... il. O gün illər boyu donmuş ürəyim sanki yenidən canlandı. Şuşanın azadlığı ilə mənim yolum işıqlandı. Elə bil daşa dönmüş qəlbim dilə gəldi: "Sən qayıdırsan...", — deyə pıçıldadı. ... ildə yenidən yurduma, ... döndüm. İndi elim-obam canlanır. Mən artıq tənha deyiləm. Burada, doğulduğum məkanda öz hekayəmi yenidən yazıram. İstəyim odur ki, ... . Mənim daşlarımda yalnız musiqinin səsi, poeziyanın ahəngi və azadlığın nəfəsi əks-səda versin.

**Oxuyub-qavrama**

**İş dəftəri, səh. 4**

**a.** Mətni oxu və suallara cavab ver.

Şagirdlər “Vandalizm” mətnini oxuyub tapşırıqları yerinə yetirir və bununla da mətni oxuyub qavradıqlarını nümayiş etdirirlər.

**İş dəftəri, səh. 4**

**b.** Mətnə istinad edərək doğru fikirləri müəyyən et.

Cavab: 1, 3.

**İş dəftəri, səh. 4**

**c.** Roma papası niyə vandallara müqavimət göstərmədi? Roma papasının bu qərarına münasibət bildir.

Şagirdlər Roma papasının qərarı haqqında şəxsi fikirlərini yazırlar.

**İş dəftəri, səh. 4**

**ç.** Qarabağda işğal dövründə dağıdılan tarixi abidələri nümunə gətirməklə “vandalizm” sözünün mənasını izah et.

Cavab: Qarabağın işğalı zamanı burada yerləşən bir çox abidələr, məscidlər, muzeylər talan edilmişdir. Maddi və mədəni sərvətlərin, mədəniyyət abidələrinin vəhşicəsinə məhv edilməsi vandalizm adlanır.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Verilmiş informasiyalardan istifadə etməklə rabitəli mətn yazır. | Tapşırıq a (dərslik) |

# 4-cü DƏRS
# Vurğu

**Təlim nəticələri:**
- Sözlərin yazılışında orfoqrafik normalara riayət edir (st. 4.1.2).
- Sözlərdə vurğulu hecanı müəyyən edir (st. 2.1.1).

**Mövzuya yönəltmə**

**Dərslik, səh. 16**

**a.** Nöqtələrin yerinə hansı hərf yazılmalıdır?

Bu dərsdə ilk tapşırıqlar şagirdlərin saitlər haqqında əvvəlki biliklərini təkrarlamaq məqsədi daşıyır.

Cavab: i; ümid, müdir, münsif, mühit, müdrik, münbit, müflis
ə; pilləkən, qəhrəman, həyəcan, həşərat, tələbat, təbaşir, nəqərat
ü; nümunə, günah, rütubət, sübut, mühazirə, münasibət
o; konqres, avtomat, kosmonavt, şokolad, samovar, fontan

**Dərslik, səh. 16**

**b.** Sözləri orfoqrafik normalara uyğun yazaraq cədvəl üzrə qruplaşdırın.

Cavab:

| Eynicinsli qoşasaitli sözlər | Müxtəlifcinsli qoşasaitli sözlər |
|---|---|
| inşaat, məəttəl, bədii | kainat, təbiət, dialoq, Səidə, radio, stadion |

layihə

**Dərslik, səh. 16**

**c.** Sözləri orfoqrafik normalara uyğun yazın.

Cavab: əmioğlu, bacıoğlu, əliaçıq.

**Dərslik, səh. 16**

**ç.** Sözlərə hal və mənsubiyyət şəkilçisi əlavə edərək qaydalara əsasən qruplaşdırın. Sözlərin kökündə hansı dəyişiklik baş verdi?

Cavab:

| Həm mənsubiyyət, həm də hal şəkilçisi qoşulduqda ikinci sait düşür: | Yalnız mənsubiyyət şəkilçisi qoşulduqda ikinci sait düşür: |
|---|---|
| cisim, nəsil, sətir, fəsil, isim, ömür, zehin, səbir, eyib, ətir, sinif | ağıl, qoyun (qucaq), beyin, burun, boyun, alın, çiyin, ovuc, könül, qayın, əyin, oğul, xeyir, qarın |

**Dərslik, səh. 16**

**d.** Sözləri düzgün tələffüz edin. Hansı hecalar daha qüvvətli deyilir?

Motivasiya xarakterli bu tapşırıq şagirdlərin diqqətini yeni mövzuya yönəldir.

Cavab: opera – 1-ci heca, qalaktika – 2-ci heca, dəyirman – 3-cü heca, nəvaziş – 3-cü heca, yadelli – 3-cü heca, antonim – 2-ci heca, aksiya – 1-ci heca, eksperiment – 4-cü heca, avtobus – 2-ci heca.

**“Bunları bilməliyik!” rubrikası.** Müəllim şagirdlərin diqqətini “Bunları bilməliyik!” rubrikasına yönəldir. Vurğu haqqında qaydanı nümunələrlə şərh edir.

**Dərslik, səh. 17**

**e.** Sözlərdə vurğunun yerini müəyyənləşdirin və cədvəl üzrə qruplaşdırın.

Cavab: Vurğusu birinci hecaya düşən sözlər: hospital, marşal, Afrika, lirika, flora, bəzi

Vurğusu ikinci hecaya düşən sözlər: hərbi, mexanika, benzin, coğrafiya, fonetika, ürəklə, memar

Vurğusu üçüncü hecaya düşən sözlər: deputat, nəğməkar, məktəbli, kitablar, sənətçi

**“Bunları bilməliyik!” rubrikası.** Müəllim şagirdlərin diqqətini “Bunları bilməliyik!” rubrikasına yönəldir. Sözlərdə “o” saitinin tələffüzü haqqında qaydanı nümunələrlə şərh edir.

**Dərslik, səh. 17**

**ə.** Nöqtələrin yerinə “o” və ya “a” hərfini artırmaqla sözləri tamamlayın.

Cavab: biologiya, mavzoley, favorit, laboratoriya, prototip, astronomiya, orfoqrafiya

**Dərslik, səh. 17**

**f.** Fərqləndirilmiş sözlərdə vurğunun yerini müəyyən edin.

Cavab:

1. Anası Leylaya təzə **çəkmə** (2-ci heca) aldı. 2. Leyla, bura şəkil **çəkmə (1-ci heca)**.

**“Bunları bilməliyik!” rubrikası.** Müəllim şagirdlərin diqqətini “Bunları bilməliyik!” rubrikasına yönəldir. Vurğusu dəyişməklə mənası dəyişən sözlər haqqında qaydanı nümunələrlə şərh edir.

**Dərslik, səh. 17**

**g.** Fərqləndirilmiş sözlərdə vurğunun yerini tapın və həmin sözlərin mənalarını aydınlaşdırın. Hansı nitq hissəsinə aid olduğunu müəyyən edin.

Cavab:

a. Alma (2-ci heca, isim) çox faydalı meyvədir. b. Çürük meyvələri alma (1-ci heca, feil).

a. Traktorlar əkin (2-ci heca, isim) sahələrini şumladı. b. Bu sahələrə buğda əkin (1-ci heca, feil).

a. Mirzə Ələkbər Sabir məşhur satirikdir. (2-ci heca, isim). b. O, satirik şeirlərin müəllifidir. (3-cü heca, sifət).

Layihə

İş dəftərində təqdim edilmiş tapşırıqlar şagirdlərin saitlər və vurğu haqqında aldıqları biliklərin möhkəmləndirilməsinə yönəlib.

**İş dəftəri, səh. 5**

**a.** Tələffüz forması verilmiş sözləri orfoqrafik normalara uyğun yaz və cədvəl üzrə qruplaşdır.

Cavab: Eynicinsli qoşasaitli sözlər: maaş, mətbəə, təbii, təəssüf, camaat, əmtəə, saat, bədii.
Müxtəlifcinsli qoşasaitli sözlər: dairə, daim, çempion, zəif, müraciət, faciə, məişət, ailə.

**İş dəftəri, səh. 5**

**b.** Sözlərdə vurğunun yerini müəyyənləşdir.

Cavab: Göygöl (1-ci heca), Qarabağ (2-ci heca), ssenari (2-ci heca), poema (2-ci heca), cürbəcür (1-ci heca), Ağdam (1-ci heca), defis (2-ci heca)

**İş dəftəri, səh. 5**

**c.** Fərqləndirilmiş sözlərin kontekstə əsasən mənasını müəyyən et və vurğulu hecasını tap.

Cavab: 1. Güclü **şaxta** kəndin bütün su borularını dondurmuşdu. (Çox soyuq, qış havası, bərk soyuq, sıfırdan aşağı hava temperaturu. 2-ci heca)

2. Kömür **şaxtasında** çalışan işçilərə təhlükəsizlik qaydaları izah olundu. (Faydalı qazıntıların çıxarıldığı və yeraltı işlərin aparıldığı yer. 1-ci heca)

3. **Orqan** musiqi alətləri içərisində ölçüsünə görə ən böyüyüdür. (Musiqi aləti. 2-ci heca)

4. Beyin insan orqanizminin ən mürəkkəb **orqanıdır**. (İnsanın bədən üzvü. 1-ci heca)

5. Bəzi quşların **dimdikləri** biz kimi uzun və nazik olur. (Quşların ağızlarının irəliyə uzanmış buynuz kimi sərt hissəsi. 2-ci heca)

6. Çətinliklər qarşısında **dimdik** dayanıb mübarizə apar. (Ayaq üstə lap dik. 1-ci heca)

**İş dəftəri, səh. 5**

**ç.** Nöqtələrin yerinə “o” və ya “a” hərfini artırmaqla sözləri tamamla. Sözləri cədvəl üzrə qruplaşdır.

Cavab: **[o] ilə tələffüz olunan sözlər:** orden, etnoqraf, opera.

**[a] ilə tələffüz olunan sözlər:** komandir, favorit, qonorar, kollektiv, kapella, mavzoley, orfoqrafiya, qarnizon.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Sözlərin yazılışında orfoqrafik normalara riayət edir. | Tapşırıq a, b, c, ə (dərslik) |
| Sözlərdə vurğulu hecanı müəyyən edir. | Tapşırıq e, f, g (dərslik) |

Layihə

# 2-ci fəsil
# EMPATİYA

## 1-ci DƏRS
## İdman ayaqqabısı

**Təlim nəticələri:**
- Yeni tanış olduğu sözə uyğun gələn izahı müəyyən edir (st. 3.1.2).
- Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir (st. 3.1.3).
- Bədii mətndəki obrazlara, onların davranışına, müəllif mövqeyinə münasibət bildirir (st. 3.1.4).

**Mövzuya yönəltmə.** Müəllim şagirdlərin diqqətini fəslin adına yönəldir.

**Dərslik, səh. 18**

**a.** Özünüzü aşağıdakı situasiyalara düşmüş insanların yerində təsəvvür edin. Onların hisslərini 5-6 cümlə ilə ifadə edin.

Şagirdlərin fikirləri dinlənilir və müzakirə edilir. Motivasiya xarakterli bu tapşırıq şagirdlərin diqqətini empatiya sözünün mənasına yönəldir.

**Oxu**

**Mətnlə iş**. Mətnin ilk hissəsi oxunur və istiqamətləndirici sual cavablandırılır.

**Dərslik, səh. 19**

**b.** Oğlanın almaq istədiyi ayaqqabının ilkin satış qiyməti neçə manat idi?

Cavab:

Oğlan ayaqqabının yalnız bir tayını alacaqdı. Bu, yarı qiymət deməkdir. Mətndə yarı qiymətin 12 manat 50 qəpik olduğu yazılıb. Deməli, ayaqqabının ilkin qiyməti 25 manatdır.

**Mətnlə iş**. İstiqamətləndirici sual cavablandırıldıqdan sonra mətnin oxusu davam etdirilir. “Söz mücrüsü”ndəki yeni sözlər izah edilir.

**Dərslik, səh. 20**

**Söz ehtiyatı**

**c.** Mətndə “əqidə” sözünü hansı cümlədəki fərqləndirilmiş sözlə əvəz etmək olar?

Cavab:

c. Xalqının azadlığı uğrunda mübarizə aparmaq onun amalına çevrilmişdi.

**Dərslik, səh. 20**

**ç.** “Mövsüm” sözünün cümlələrdə mənasına görə uyğunluğu müəyyən edin. Mətndə bu söz hansı mənada işlənmişdir?

Cavab:

1 – c, 2 – a, 3 – b.

**Dərslik, səh. 20**

**d.** Mətnə əsasən aşağıdakı ifadələrin mənasını izah edin. Bu ifadələri yaxınmənalı sözlərlə əvəz edin.

Cavab:

Həsəd aparmaq – qibtə etmək, paxıllıq etmək.

Gözlərini zilləmək – yəni gözünü ondan çəkmədən diqqətlə baxmaq.



Layihə

**Oxuyub-qavrama**

**Dərslik, səh. 21**

**e.** Mətndə hansı suala cavab yoxdur?

Cavab:

d. Oğlan hansı səbəbdən sol ayağını itirmişdi?

**Dərslik, səh. 21**

**ə.** Kalkulyatorun ekranında Əşrəf əminin apardığı hesab təsvir olunub. Şəkillərdən istifadə etməklə satıcının hesablamasını şərh edin.

Cavab:

Ayaqqabının yarı qiyməti 12.5 manatdır. Bu yarı qiymətə 20% endirim tətbiq olunur.

12.5-in 20%-i 2.5 manat edir.

3-cü şəkildəki kalkulyatorda göstərilib: 12.5-2.5=10. Yəni 20% endirimlə ayaqqabının bir tayının qiyməti 10 manat edir.

4-cü şəkildəki kalkulyatorda göstərilib: 10-5=5. Mən bu məktəbin uşaqlarına hər ayaqqabıda beş manat güzəşt edirəm. Deməli, sənin mənə borcun beş manatdır.

**Dərslik, səh. 21**

**f.** Əşrəf əminin nitqinə aid cümləni bir daha oxuyun. Sizcə, həqiqətən də, Əşrəf əmi uğurlu alver etmişdi? O nə üçün həmin günü uğurlu hesab edirdi?

Şagirdlərin cavabı təxminən belə ola bilər: Maddi baxımdan Əşrəf əmi çox böyük gəlir əldə etməyib. Oğlana endirim edib və hətta bir hissəsini özü ödəyib. Amma uğur burada puldan çox münasibət və insanlıqla bağlıdır:

Oğlana kömək edib, ona xoşbəxtlik bəxş edib.

Oğlanın sevinci və minnətdarlığı Əşrəf əmi üçün daha qiymətlidir.

Əşrəf əmi insanlara yardım etməklə özünü xoşbəxt hiss edib.

**Dərslik, səh. 21**

**g.** Mətnin giriş hissəsi neçə abzasdan ibarətdir? "Xatırla" rubrikasındakı məlumatlara istinad edərək fikrinizi əsaslandırın.

**"Xatırla" rubrikası.** Şagirdlər aşağı siniflərdə mətnin strukturu haqqında məlumat alıblar. Onlar "Xatırla" rubrikasındakı məlumatlarla biliklərini yeniləyirlər.

Cavab:

Mətnin giriş hissəsi iki abzasdan ibarətdir. Burada hadisələrin yeri (məktəbin yaxınlığındakı balaca dükan), zamanı (yay tətilinin başlanmasına az qalmış), əsas obrazlardan biri (dükan sahibi Əşrəf əmi) haqqında məlumat verilib.

*İş dəftərində verilmiş tapşırıqlar faktoloji məlumatların yoxlanılmasına imkan yaradır.*

**İş dəftəri, səh. 6**

**a.** "İdman ayaqqabısı" mətninə əsasən doğru fikri müəyyən et.

Cavab:

3. Dükan sahibi çalışırdı ki, oğlan ona yardım edildiyini anlamasın.

**İş dəftəri, səh. 6**

**b.** Mətnin məzmununa uyğun olaraq cümlələri tamamla.

Cavab:

1. Əşrəf əmi çox imkanlı adam deyildi, belə ki, *əlavə işçi saxlaya bilmirdi və satışdan gəliri cüzi idi.*

2. Buna baxmayaraq, Əşrəf əmi oğlana kömək etmək istəyirdi, çünki *oğlanın sevinci və xoşbəxtliyi onun üçün daha önəmli idi və insanlara yardım etməkdən məmnunluq duyurdu.*



Layihə

3. Oğlan əvvəlcə ayaqqabını almaqdan imtina etdi, çünki *ayaqqabının qiyməti onun üçün uyğun deyildi.*

4. Əşrəf əmi istəyinə nail oldu, amma bunu elə etdi ki, *oğlan ona göstərilən xüsusi diqqətdən inciməsin.*

**İş dəftəri, səh. 6**

**c.** Mətnin əsas ideyasını əks etdirən aforizmləri seç. Həmin aforizmləri Əşrəf əminin davranışı ilə əlaqələndirib seçimini əsaslandır.

Cavab:

1. Bir ürəyi sevindirmək min var-dövlətdən dəyərlidir. 3. İnsanın ən böyük sərvəti yaxşılıq etmək bacarığıdır.

Mətndə qeyd olunur ki, Əşrəf əmi imkanlı insan deyil. Cüzi gəliri olur, hətta satıcılığı da özü edir. Lakin o insanlara yardım etməyi var-dövlətdən, gəlirdən üstün tutur. Onun əqidəsinə görə ən böyük var-dövlət yaxşılıq etmək bacarığıdır.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Yeni tanış olduğu sözə uyğun gələn izahı müəyyən edir. | Tapşırıq c, ç, d (dərslik) |
| Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir. | Tapşırıq e (dərslik); a, b (iş dəftəri) |
| Bədii mətndəki obrazlara, onların davranışına, müəllif mövqeyinə münasibət bildirir. | Tapşırıq ə, f (dərslik); c (iş dəftəri) |

# 2-ci DƏRS
# İdman ayaqqabısı

**Təlim nəticələri:**
- Təhkiyəçini dəyişməklə mətni nəql edir (st. 2.1.3).
- Bədii mətndəki obrazlara, onların davranışına, müəllif mövqeyinə münasibət bildirir (st. 3.1.4).
- Dinlədiyi mətn üzrə faktoloji suallara cavab verir (st. 1.1.1).

**Mövzuya yönəltmə**

Müəllimin yönəldici sualları ilə şagirdlər keçən dərsdə oxuduqları "İdman ayaqqabısı" mətninin məzmununu xatırlayırlar.

**Danışma**

**Dərslik, səh. 22**

**a.** "İdman ayaqqabısı" mətnindəki hadisələri oğlanın dilindən nəql edin. Oğlanın duyğu və düşüncələrini əks etdirməklə mətni genişləndirin.

"İdman ayaqqabısı" mətni III şəxsin dilindən nəql edilir. Şagirdlər təhkiyəçini dəyişir, hadisələri oğlanın dilindən nəql edirlər.

Şagirdlər təxminən bu məzmunda mətn təqdim edə bilərlər:

Mağazanın yanından keçəndə vitrindəki gözəl idman ayaqqabısını gördüm. Belə bir ayaqqabım olmasını çoxdan istəyirdim. Gözlərimi ayaqqabıya zilləyib baxırdım. Amma elə həmin anda düşündüm ki, qiyməti çox bahadır, pulum çatmaz.



Layihə

Satıcı məni çağıranda əvvəlcə çox utandım. O, ayaqqabını geyinib yoxlamağı təklif edəndə isə lap çaşdım. Özümü pis hiss etdim, çünki mən yalnız bir tayını ala bilərdim. “Mənə bir tayı lazımdır” demək o qədər də asan olmadı. Bir az utandım, sıxıldım. Narahat oldum ki, satıcı məni başa düşməz.

Əşrəf əmi isə tam əksinə, o qədər mehriban davrandı ki... Mövsüm endirimindən əlavə güzəştlər də etdi. Ayaqqabının yalnız bir tayını alacağımı anlayışla qarşıladı. Üstəlik köhnə ayaqqabımı almaq istədi! Mənim üçün gözlənilməz oldu. Köhnə ayaqqabımın heç bir dəyəri olmadığını düşünürdüm. Amma Əşrəf əmi mənim fikrimi dəyişdirdi.

Bu gün çox uğurlu bir gün oldu. Həm uğurlu alış-veriş etdim, həm də gözəl bir insanla tanış oldum. Əşrəf əmiyə qarşı içimdə böyük bir hörmət və sevgi yarandı. Özümü çox xoşbəxt hiss edirdim.

**Oxuyub-qavrama**

**Dərslik, səh. 22**

**b.** Sizcə, Əşrəf əmi oğlana yardım etmək istəyərkən onun haqqında nə düşünürdü? Mətn Əşrəf əminin dilindən nəql olunsaydı, o, düşüncələrini necə ifadə edərdi?

Cavab:

Dükanın qarşısında qoltuqağacına söykənmiş bir oğlan uşağı dayanmışdı. Vitrindəki idman ayaqqabısına həvəslə baxırdı. Gözlərindəki işığı görsəydiniz... Mən həmin ayaqqabını oğlana vermək istəyirdim. Amma necə? İstəmədim ki, o özünü kasıb, aciz, kimsəsiz sansın. Düşündüm ki, bəzən insanın ehtiyacı puldan çox, özünü dəyərli hiss etməsidir.

Ayaqqabını ona satmaq bəhanə idi, məqsədim onun qürurunu qorumaq, “mən də hamı kimi ola bilərəm” deməsinə kömək etmək idi. Elə buna görə də yardım etdiyimi bildirmədim. Onun üzündəki təbəssümü görmək mənim üçün dünyanın ən böyük qazancı oldu.

**Dərslik, səh. 22**

**c.** Sizcə, Əşrəf əmi nə üçün uşağın köhnə ayaqqabısını satın alır? Niyə ona yardım etmək istədiyini birbaşa söyləmir?

**Müəllimin nəzərinə!** B və c tapşırıqlarını yerinə yetirməzdən əvvəl şagirdlərin diqqətini fəslin adına yönəltmək məqsədəuyğundur. Bu açar söz onları düzgün istiqamətləndirəcək.

**Dərslik, səh. 22**

**ç.** Mətnə istinad edərək dükan sahibinin xarakterini səciyyələndirin. Mətnin əsas ideyasını Əşrəf əminin xarakteri ilə əlaqələndirib şərh edin.

Cavab:

Əşrəf əmi:

**Sadə insandır.** O, sadə həyat tərzi sürür.

**Zəhmətkeşdir.** Mətndə deyilir ki, satışdan gəliri az olduğuna görə əlavə işçi saxlaya bilmir və bütün işi özü görür. Bu onun zəhmətkeş olduğunu göstərir. Dükanı təkbaşına idarə edir.

**Nəcibdir.** Əşrəf əmi oğlana heç bir qarşılıq gözləmədən yaxşılıq edir. Oğlanın yalnız bir tay ayaqqabı almasını normal qarşılayır, üstəlik endirim edir, borcunu azaltmaq üçün köhnə ayaqqabısını almağa çalışır. Bütün davranışları onun alicənab və vicdanlı biri olduğunu göstərir.

**Həssasdır.** O, oğlanın xüsusi durumuna həssaslıqla yanaşır. Oğlanın vəziyyətini tez anlayır və onu incitmədən kömək etməyə çalışır. Sonda oğlan onu qucaqlayanda Əşrəf əminin gözlərinin yaşarması həssas bir insan olduğunu sübut edir.

**Xeyirxahdır.** Əşrəf əmi imkanlı olmasa da, köməyə ehtiyacı olanlara yardım edir. Onların sevincini öz qazancından üstün tutur.

**Dərslik, səh. 22**

**d.** Sizcə, Əşrəf əminin davranışı oğlanın bir şəxsiyyət kimi formalaşmasına necə təsir edəcək? Şəklə və təxəyyülünüzə əsasən oğlanın gələcək həyatı və cəmiyyətdəki yeri haqqında danışın.

layihə

Cavab nümunəsi:

Əşrəf əminin etdiyi yaxşılıq və göstərdiyi mərhəmət oğlanın həyatında çox böyük iz buraxacaq. Hiss edəcək ki, dünyada yaxşı insanlar var. Bu da onda insanlara qarşı inam yaradacaq. O, yaxşılığın əhəmiyyətini anlayacaq. Anlayacaq ki, kiçik bir yaxşılıq kiminsə həyatını dəyişə bilər. Əşrəf əminin ona göstərdiyi anlayış və nəzakət oğlanda empatiya hissini formalaşdıracaq. O da insanlara qarşı anlayışlı, yardımsevər və həssas davranacaq.

**Dərslik, səh. 22**

**e.** Təsəvvür edin ki, sahibkarsınız. Xeyriyyə məqsədilə hansı tədbirlər görərdiniz?

Şagirdlərin seçimi müxtəlif ola bilər. Onların fikirləri dinlənilir və müzakirə edilir.

**Dərslik, səh. 23**

**ə.** Sizcə, bir insana heç bir qarşılıq gözləmədən edilən yardımın dəyəri nədir? Heç tanımadığınız birinə kömək edərdinizmi?

Bu tapşırıq motivasiya məqsədilə verilib. Şagirdlərin fikirləri dinlənilir.

**Dinləmə**

**Dərslik, səh. 23**

**f.** "Asqıda qəhvə" mətnini dinləyin. Mətnə əsasən fikirlərin doğru, yoxsa yanlış olduğunu müəyyən edin.

***Asqıda qəhvə***

*İzmirdə kiçik bir kafedə idim. İki müştəri gəldi.*

*– Beş qəhvə, – dedilər. – İkisi bizim üçün, üçü asqıda.*

*Onlar beş qəhvənin pulunu ödəyib ikisini alıb içdilər. Müştərilər gedəndən sonra:*

*– Asqıda qəhvə nədir? – deyə ofisiantdan soruşdum.*

*Ofisiant:*

*– Gözləyin, – dedi. – Görəcəksiniz.*

*Bu vaxt başqa müştərilər gəldi. İki qız öz içdiklərinin pulunu ödəyib getdi. Daha sonra üç vəkil gəldi. Yeddi qəhvə dedilər, üçünü içib yeddisinin pulunu verib getdilər.*

*Bir müddət sonra kasıb bir adam içəri girdi. Yazıq bir səs tonuyla: "Heç asqıda qəhvəniz varmı?", – deyə soruşdu. Ofisiant: "Var", – dedi və pulunu almadan ona qəhvə süzdü. Sonra mənə baxıb gözü ilə kişiyə işarə etdi. Yəni: "Asqıda qəhvə bax budur".*

*Beləcə, İzmirdə insanlar bir-birini görmədən qəhvə və hətta yeməyə də qonaq edirlər.*

Cavab:

1 – D, 2 – D, 3 – Y,
4 – Y, 5 – D, 6 – D.

**Dərslik, səh. 23**

**g.** Mətnə əsasən "Asqıda qəhvə" ifadəsini izah edin. İzmirdə bu ənənə nə məqsədlə tətbiq olunur?

Cavab:

İzmirdə bu ənənənin məqsədi ehtiyacı olan insanlara yardım etmək, insanlara sevinc bəxş etmək və cəmiyyətdə qarşılıq gözləmədən xeyirxahlığı təşviq etməkdir.

**Dərslik, səh. 23**

**ğ.** Aşağıdakı atalar sözünü "Asqıda qəhvə" mətninin ideyası ilə əlaqələndirib şərh edin.

Cavab:

"Asqıda qəhvə" mətninin əsas ideyası belədir: Təmənnasız yaxşılıq etmək lazımdır. Bu atalar sözü də mətnin ideyasını təsdiqləyir. Etdiyin yaxşılığın qarşılığını almasan da, Allah bilir və qiymətləndirir.

Layihə

**İş dəftəri, səh. 7**

**a.** Obrazlara aid xüsusiyyətləri müəyyənləşdir və obraz xəritəsini tamamla.

İş dəftərində verilmiş bu tapşırıq şagirdlərin mətnin məzmununu necə qavradıqlarını yoxlamağa imkan yaradır. Şagirdlər "İdman ayaqqabısı" mətnindəki obrazlara aid "obraz xəritəsi"ni tamamlayırlar.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Təhkiyəçini dəyişməklə mətni nəql edir. | Tapşırıq a (dərslik) |
| Bədii mətndəki obrazlara, onların davranışına, müəllif mövqeyinə münasibət bildirir. | Tapşırıq b, c, ç, d (dərslik); a (iş dəftəri) |
| Dinlədiyi mətn üzrə faktoloji suallara cavab verir. | Tapşırıq f (dərslik) |

# 3-cü DƏRS
# Rəfdə kitab

**Təlim nəticələri:**
- Verilmiş situasiyaya, məqsədə uyğun kiçikhəcmli mətn (hekayə) yazır (st. 4.1.3).

Müəllim şagirdlərin diqqətini tapşırığa çəkilmiş şəklə yönəldir və deyir:

– Kitab mağazasına yeni gəlmiş kitabları alıb oxuya bilməyən uşaqları düşünün. Hamının mütaliə etməsinə imkan yaratmaq üçün nə etmək olar?

**Dərslik, səh. 23**

**a.** Aşağıdakı şəkillər və plan nümunəsi əsasında təmənnasız yardım mövzusunda "Rəfdə kitab" adlı kiçik hekayə yazın.

**Müəllimin nəzərinə!** Şagirdlərə "Asqıda qəhvə" mətninin məzmununu xatırlatmaq məqsədəuyğundur. Hekayəni düzgün strukturlaşdırmaq məqsədilə isə mətnin strukturu haqqında məlumatlar təkrar edilməlidir. Şagirdlərə öz yazılarını yoxlamaq üçün özünüqiymətləndirmə cədvəli təqdim etmək olar.

| Meyarlar | Bəli | Xeyr | Qismən | Qeydlərim |
|---|---|---|---|---|
| Hekayəmin giriş hissəsi var. | | | | |
| Giriş hissəsində hadisələrin yerini, zamanını və əsas obrazı göstərmişəm. | | | | |
| Əsas hissədə hekayənin ideyasını açan əsas situasiyanı təsvir etmişəm. | | | | |
| Sonda obrazın gəldiyi nəticəni təsvir etmişəm. | | | | |

Layihə

| | | | | |
|---|---|---|---|---|
| Hekayəmi plana uyğun yazmışam. | | | | |

**Hekayəyə nümunə:**

***Rəfdə kitab***

*Arzu ucqar dağ kəndlərinin birində yaşayırdı. Hər fürsətdə kitab oxumağı sevirdi. Ancaq oxumaq istədiyi yeni kitablar kəndin kitabxanasına çox gec gətirilirdi. Qəsəbədəki kitab mağazasından isə kitab almağa imkanı çatmırdı.*

*Bir gün Arzu kənd meydanından keçərkən üzərində "Rəfdə kitab" yazılmış bir qutu gördü. "Kitab" sözü diqqətini cəlb etdi. Bir az duruxdu. Sonra qutuya yaxınlaşıb qapağını açdı. Qutuda müxtəlif kitablar vardı. Arzu çox sevincək bir neçə kitab götürüb vərəqlədi. Hamısı yeni nəşrlər idi. O, bir neçə kitab götürüb evlərinə getdi. Həvəslə oxumağa başladı. Hər oxuduğu kitab onun xəyal dünyasını genişləndirir və gələcək arzularını formalaşdırırdı. Kitabları oxuduqdan sonra götürdüyü rəfə qaytardı.*

*İllər sonra Arzu məşhur bir naşir oldu. Ucqar kəndlərdə "Rəfdə kitab" layihəsini davam etdirdi. O bütün uşaqlar üçün kitabların əlçatan olmasını istəyirdi.*

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Verilmiş situasiyaya, məqsədə uyğun kiçikhəcmli mətn (hekayə) yazır. | Tapşırıq a (dərslik) |

# 4-cü DƏRS
# Rus-Avropa mənşəli sözlərin yazılışı

**Təlim nəticələri:**

• Sözlərin yazılışında orfoqrafik normalara riayət edir (st. 4.1.2).

**Mövzuya yönəltmə**

**Dərslik, səh. 24**

**a.** Lüğətin köməyi ilə cümlələrdə fərqləndirilmiş sözlərin yazılışındakı səhvi müəyyən edin.

Cavab:

aparat, şose, kompüter, hobbilər

**Müəllimin nəzərinə!** Bu dərsdə şagirdin tapşırıqları lüğət vasitəsilə yerinə yetirməsi nəzərdə tutulub. Sinfin imkanlarını nəzərə alaraq onlayn lüğətlərdən və yaxud lüğət kitablarından istifadə etmək olar.

**"Bunları bilməliyik!" rubrikası.** Müəllim rubrikada verilmiş məlumatları nümunələr əsasında izah edir.

**Dərslik, səh. 24**

**b.** Lüğətin köməyi ilə aşağıdakı sözlərin bir və yaxud qoşa samitlə yazıldığını müəyyənləşdirib sözləri tamamlayın.

Cavab:

kaset, qrammatika, masaj, spagetti, attestat, opponent, paralel, akkord, aplikasiya

**Dərslik, səh. 24**

Layihə

**c.** Uyğun hərf(lər)i əlavə edib sözləri tamamlayın. Lüğət vasitəsilə dəqiqləşdirin.

Cavab:
stres, konqres, ekspres, teleqram, kros, diaqram

**"Bunları bilməliyik!" rubrikası.** Müəllim rubrikada verilmiş məlumatları nümunələr əsasında izah edir.

**Dərslik, səh. 25**

**ç.** Sözləri orfoqrafik normalara uyğun yazın.

Cavab:
anket, anten, büro, struktur, kompüter

**"Bunları bilməliyik!" rubrikası.** Müəllim rubrikada verilmiş məlumatları nümunələr əsasında izah edir.

**Dərslik, səh. 25**

**d.** Uyğun hərfi əlavə edib sözləri tamamlayın. Lüğət vasitəsilə dəqiqləşdirin.

Cavab:
hektar, hokkey, hot-doq, hipotez, hibrid, hospital, hegemon, hidrogen, xuliqan
general, gitara, genetika, gimnastika, geologiya, gigiyena.

**İş dəftəri, səh. 8**

**a.** Nöqtələrin yerinə uyğun hərf(lər)i yaz.

Cavab: **s,** yoxsa **ss:** ekspres, aksesuar, aqressiya
**p,** yoxsa **pp:** aparat, opponent, apendisit
**m,** yoxsa **mm:** simmetriya, diaqram, qrammatika
**f,** yoxsa **ff:** effekt, diferensial, şəffaf
**t,** yoxsa **tt:** attestat, spagetti, kilovat

**İş dəftəri, səh. 8**

**b.** Orfoqrafik normaya uyğun yazılmış sözlər sırasını tap.

Cavab:
c. sfera, forma

**İş dəftəri, səh. 8**

**c.** Səhv yazılmış sözü müəyyən et.

Cavab:
a. alyuminium

**İş dəftəri, səh. 8**

**ç.** Cümlələrdə səhv yazılmış sözü müəyyən et və orfoqrafik normalara uyğun yaz.

Cavab:
1. Fermer bu il on ***hektar*** torpaqda buğda əkdi.
2. Tədbir başlayanda əvvəlcə dövlət ***himni*** səsləndirildi.
3. Onun ***hobbisi*** müxtəlif ölkələrə aid pul toplamaqdır.
4. Turizm şirkətinin ***agenti*** bizə maraqlı səyahət turları təklif etdi.
5. O ən çox xardallı və ketçuplu ***hot-doq*** sevir.
6. Uşaqlar məktəbin idman zalında ***hokkey*** oynayırlar.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

Layihə

| Meyarlar | Materiallar |
|---|---|
| Sözlərin yazılışında orfoqrafik normalara riayət edir. | Dərslikdə və iş dəftərində təqdim edilmiş tapşırıqlar |

Layihə

# 3-cü fəsil
# XEYİRXAHLIQ

## 1-ci DƏRS
## Məhəllə dükanında

**Təlim nəticələri:**
• Kontekstdən çıxış edərək söz və ifadələrin mənasını müəyyən edir (st. 3.1.2).
• Sözün həqiqi və məcazi mənalarını fərqləndirir (st. 3.1.2).

**Mövzuya yönəltmə**

**Dərslik, səh. 26**

**a.** “Güvənc” sözünün izahına əsasən aşağıdakı ifadələrin mənasını şərh edin.

Motivasiya xarakterli bu tapşırıq şagirdlərin diqqətini fəslin açar sözünə yönəldir. Bu tapşırıqda mənasını izah etdikləri ifadələr fəsildəki mətnlərin əsas ideyasını söyləməyə kömək edəcək.

Cavab:
Güvənmək – arxalanmaq, bel bağlamaq, inanmaq
Güvənsiz – inamsız
Güvənini qazanmaq – bir insanın sənə inanmasına, sənə etibar etməsinə səbəb olacaq davranışlar göstərmək.
Sənə güvəndiyim dağlar, sənə də qar yağarmış – arxa, dayaq hesab edilən, güvənilən şəxs etimadı doğrultmadıqda təəssüflə işlədilən ifadə.

**Dərslik, səh. 26**

**b.** İnsanların bir-birinə güvənməsi münasibətlərə necə təsir göstərir? Başqasının güvənini qazanmaq üçün nə etmək olar?

Şagirdlərin fikirləri dinlənilir, onların təklifləri lövhədə qeyd edilir.

**Oxu**

**Mətnlə iş**. Əvvəlcə şagirdlər onlara verilmiş vaxt ərzində “Məhəllə dükanında” mətnini səssiz oxuyur, onlara tanış olmayan söz və ifadələri dəftərlərində qeyd edirlər. Şagirdlərin qeyd etdikləri və “Söz mücrüsü”ndəki yeni sözlərin mənası izah edilir.

**Söz ehtiyatı**

**Dərslik, səh. 28**

**c.** “Söz mücrüsü”ndən izahlara uyğun sözləri seçin.

Cavab:
1 – nisyə, 2 – piştaxta, 3 – iftar, 4 – vəd etmək, 5 – savab.

**Dərslik, səh. 28**

**ç.** “Savab” sözünün izahına əsasən “savab qazanmaq” ifadəsinin mənasını izah edin və mətnin məzmunu ilə əlaqələndirib bu haqda danışın.

Cavab nümunəsi:
“Savab qazanmaq” birinə yaxşılıq etməklə, ehtiyacı olanı qorumaqla, təmənnasız yardım göstərməklə mənəvi olaraq yüksəlmək deməkdir. Mətndə satıcı kasıb insanlara nisyə ərzaq verir, hətta çox vaxt ödənməyəcəyini bilə-bilə borc yazırdı.

Layihə

Dərslik, səh. 28

**d.** Aşağıdakı ifadələrdə "nisyə" sözünün mənasını izah edin. Hansı ifadədə bu söz məcazi mənada işlənmişdir?

Cavab:
nisyə mal – pulunu sonradan ödəmək şərti ilə alınan mal
nisyə söhbət – etibarsız, dəqiq olmayan, sadəcə söz olaraq qalan və yerinə yetirilməyən vədlər
"Nisyə söhbət" ifadəsində "nisyə" sözü məcazi mənada işlənmişdir.
Nağdı qoyub nisyə dalınca getmək (nağdı nisyəyə satmaq) – asan işi qoyub ağır işdən yapışmaq, özünü ikiqat əziyyətə salmaq.

**Oxuyub-qavrama**

İş dəftəri, səh. 9

**a.** "Məhəllə dükanında" mətninə aid hekayə xəritəsini tamamla.

Şagirdlər tapşırığı yerinə yetirməklə "Məhəllə dükanında" mətnini oxuyub qavradıqlarını nümayiş etdirirlər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Kontekstdən çıxış edərək söz və ifadələrin mənasını müəyyən edir. | Tapşırıq a, c, ç (dərslik) |
| Sözün həqiqi və məcazi mənalarını fərqləndirir. | Tapşırıq d (dərslik) |

# 2-ci DƏRS
# Məhəllə dükanında

**Təlim nəticələri:**
- Mətndə ifadə olunmuş fikirlə bağlı mülahizəsini bildirir və onu əsaslandırır (st. 3.1.4).
- Dinlədiyi mətndəki obraz, fakt və fikirlərə münasibət bildirir (st. 1.1.2).

**Mövzuya yönəltmə**

Dərslik, səh. 28

**a.** Mətnə əsasən suallara cavab verin.

Şagirdlər tapşırıqda qoyulmuş suallara cavab verməklə mətnin məzmununu xatırlayırlar.

Dərslik, səh. 28

**b.** Yad adam və dükançı obrazlarını müqayisə edin. Onların davranışlarında hansı oxşar cəhətlər var? Hər iki obraz insanlara hansı dəyərləri aşılayır? Aşağıdakı fikri obrazların davranışı ilə əlaqələndirib şərh edin.

Layihə

Cavab:

| Obrazların oxşar xüsusiyyətləri | Aşıladıqları dəyərlər | Fikrin şərhi |
|---|---|---|
| Mərhəmətlidirlər. | Mərhəmət | Əsl səxavət heç kəs görməyəndə və qarşındakının qürurunu sındırmadan edilən yaxşılıqdır. Hər iki mətndə əsas obrazların empatiya hissi yüksəkdir. Onlar yardıma ehtiyacı olan insanlara onları incitmədən, minnət qoymadan, utandırmadan yaxşılıq edirlər. |
| Təmənnasız yaxşılıq etməyi bacarırlar. | Xeyirxahlıq | |
| İnsanlara güvənirlər. | Empatiya hissi | |

**Dərslik, səh. 28**

**c.** Mətnin əsas ideyası nədir? Bu hekayə cəmiyyətdə hansı dəyərlərin önəmli olduğunu göstərir?

Cavab:

Cəmiyyətdə ən önəmli dəyərlər insanlıq, mərhəmət, paylaşmaq və başqasının qürurunu sındırmadan kömək etməkdir. İnsanlar bir-birinə yaxşılıq etdikcə dünya daha gözəl bir yer olur.

**Dinləmə**

**Dərslik, səh. 29**

**ç.** "Müqəddəs bayramlar" mətnini dinləyin və tapşırıqları yerinə yetirin.

***Müqəddəs bayramlar***

*Hər bir xalqın milli-mənəvi dəyərlərini yaşadan ən vacib amillərdən biri müqəddəs bayramlardır. Bu bayramlar cəmiyyətdə həmrəylik, paylaşma, mərhəmət və sevgi kimi dəyərləri təbliğ edir.*

*Müqəddəs bayramlar insanların bir-birinə daha yaxın olmasına şərait yaradır. Məsələn, Ramazan və Qurban bayramlarında maddi imkanı olan insanlar ehtiyacı olanlara əl tutur, qonşular bir-birini ziyarət edir, küsülülər barışırlar. Bu isə cəmiyyətdə həmrəylik, xeyirxahlıq və qarşılıqlı anlayışın möhkəmlənməsinə səbəb olur. İnsanlar paylaşmağın sevincini yaşayır və bu, ümumi sosial münasibətlərə müsbət təsir göstərir.*

*Digər tərəfdən, müqəddəs bayramlar milli dəyərlərin qorunması və nəsildən nəslə ötürülməsində əvəzsiz rol oynayır. Bayramlarda icra olunan mərasimlər gənc nəslin milli kimliyini formalaşdırır və onları öz köklərinə bağlayır.*

*Müqəddəs bayramların insanların daxili dünyasına təsiri də danılmazdır. Bayram günlərində bağışlama və savab qazanmaq kimi dəyərlər ön plana çıxır. İnsanlar daha çox yaxşılıq etməyə çalışır, mənəvi rahatlıq tapırlar. Bütün bunlar daha humanist bir cəmiyyətin formalaşmasına töhfə verir.*

*Göründüyü kimi, müqəddəs bayramlar cəmiyyətdə həm sosial, həm də mənəvi baxımdan mühüm rol oynayır.*

**Dərslik, səh. 29**

**d.** Aşağıdakı plan bəndlərindən biri mətnə aid edilə bilməz:

Cavab:

E. Maddi qazancın artması.

**Dərslik, səh. 29**

**e.** Aşağıdakı fikirlərdən uyğun olanları seçərək "Məhəllə dükanında" (MD) və "Müqəddəs bayramlar" (MB) mətnlərini müqayisə edin.

Cavab:

1. Müəllifin əsas məqsədi obrazın daxili aləmini açmaq, oxucunu müəyyən mənəvi dəyərlər haq-

Layihə

qında düşündürməkdir. **(MD)**

2. Müəllifin məqsədi mövzu haqqında fikir bildirməkdir. **(MB)**
3. Mətndə dialoqlara geniş yer verilib. **(MD)**
4. Müəllif fikirlərini nümunələrlə izah edir. **(MB)**

**Dərslik, səh. 29**

**ə.** Yad adamın və dükançının düşüncələrini "Müqəddəs bayramlar" mətnində verilmiş fikirlərlə əlaqələndirərək şərh edin.

Cavab nümunəsi:

Mətndə deyilir ki, müqəddəs bayramlarda insanlar bir-birinə yardım edir, xüsusən ehtiyacı olanlara əl tuturlar. Dükançı insanları ac qoymur, nisyə də olsa, onlara ərzaq verir. Yad adam isə bu insanların bütün borcunu ödəməklə böyük bir paylaşma və mərhəmət nümunəsi göstərir. Bu, bayramların təbliğ etdiyi "paylaşmaq" dəyərinin bariz nümunəsidir.

Mətndə qeyd olunur ki, bayramlarda savab qazanmaq, yaxşılıq etmək kimi mənəvi dəyərlər ön plana çıxır. Yad adam borcları gizlicə ödəyir və dəftəri basdırmaq istəyir ki, heç kəs onun etdiyini bilməsin. Bu, mətnin vurğuladığı "əsl savab gizli edilən yaxşılıqdır" fikri ilə uyğun gəlir.

Dükançı da insanlara kömək edərkən qarşılıq gözləmir. Bu da savab qazanmaq niyyəti ilə edilən xeyirxahlığa uyğundur.

"Müqəddəs bayramlar" mətnində həmrəylik, qarşılıqlı anlayış və insanlara yaxınlaşma kimi dəyərlərin gücləndiyi vurğulanır. Dükançının və yad adamın davranışları qarşılıqlı anlayışa, birliyə, həmrəyliyə nümunədir.

**İş dəftəri, səh. 10**

**a.** "Müqəddəs bayramlar" mətninin məzmununa əsasən aşağıdakı suala cavab ver və nümunələr gətirməklə fikrini əsaslandır.

Cavab nümunəsi:

Bayramlar əsrlər boyu formalaşmış adət-ənənələrin davam etdirilməsinə şərait yaradır. Bu mərasimlər keçirilməsə, bir çox ənənə və mənəvi dəyərlər unudula bilər.

Bayramlar bir xalqın ortaq dəyərlər ətrafında birləşməsinə kömək edir. İnsanlar eyni ənənələri paylaşdığı üçün toplumda həmrəylik artır.

Paylaşmaq, böyüklərə hörmət, xeyirxahlıq və sairə kimi yüksək keyfiyyətləri təbliğ edir.

**İş dəftəri, səh. 10**

**b.** Sənin ailəndə hansı bayram ənənələri yaşayır?

Şagirdlər şəxsi təcrübələrini paylaşırlar.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətndə ifadə olunmuş fikirlə bağlı mülahizəsini bildirir və onu əsaslandırır. | Tapşırıq b, c (dərslik) |
| Dinlədiyi mətndəki obraz, fakt və fikirlərə münasibət bildirir. | Tapşırıq d, e (dərslik); a, b (iş dəftəri) |

Layihə

# 3-cü DƏRS
# Dünya xalqlarının müqəddəs bayramları

**Təlim nəticələri:**
• Verbal və vizual məlumatlardan ibarət təqdimat materialı hazırlayır (st. 4.1.1).
• Sözlərdə sait və samitlərin tələffüzü ilə bağlı orfoepik normalara riayət edir (st. 2.1.1).

**Mövzuya yönəltmə**

**Dərslik, səh. 29**

**a.** Təlimata əsasən "Dünya xalqlarının müqəddəs bayramları" mövzusunda araşdırma aparın və təqdimat hazırlayın.

Şagirdlər qruplara ayrılır və tapşırıqda verilmiş təlimatla tanış olurlar. Təlimatın hər bir bəndi müzakirə olunur. Şagirdlər müvafiq bayramlar haqqında araşdırma aparırlar.

**Müəllimin nəzərinə!** Sinfin təchizat imkanları nəzərə alınmalı, tapşırığı uğurla yerinə yetirmək üçün addımlar atılmalıdır. Əgər sinfin internet təminatı varsa, araşdırmanı dərs müddətində aparmaq olar. Əks təqdirdə şagirdlərə bir neçə gün əvvəl müvafiq mövzularda araşdırma aparmağı tapşırmaq lazımdır. Onlar araşdırma nəticəsində əldə etdikləri məlumatları sinfə gətirir, təqdimatı dərs zamanı hazırlayırlar. Hər iki halda şagirdlərə araşdırma aparmaq üçün linklər təqdim edilməsi məqsədəuyğundur.

Müəllim təqdimat zamanı şagirdlərin nitqinə, sözləri necə tələffüz etməsinə diqqət edir.

**Dərslik, səh. 29**

**b.** Təqdimatlara əsasən bayramları mənəvi dəyərlər və mərasimlər baxımından müqayisə edin.

Qruplar "Dünya xalqlarının müqəddəs bayramları" haqqında təqdimatları sinfə təqdim edirlər. Bütün təqdimatlar dinlənəndən sonra bu bayramları mənəvi dəyərlər və mərasimlər baxımından müqayisə edir, oxşar və fərqli xüsusiyyətlərini müzakirə edirlər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Verbal və vizual məlumatlardan ibarət təqdimat materialı hazırlayır. | Tapşırıq a (dərslik) |
| Sözlərdə sait və samitlərin tələffüzü ilə bağlı orfoepik normalara riayət edir. | Tapşırıq a (dərslik) |

# 4-cü DƏRS
# Mürəkkəb şəxs və yer adlarının yazılışı

**Təlim nəticələri:**
• Bəzi mürəkkəb adların (şəxs və yer adlarının) böyük hərflə yazılışı qaydalarına əməl edir (st. 4.1.2).

**Mövzuya yönəltmə**

**Dərslik, səh. 30**

**a.** Cümlələrdəki fərqləndirilmiş ifadələrə əsasən uyğunluğu müəyyən edin.

Lavihə

Tapşırıq şagirdlərin mürəkkəb adla bağlı ilkin biliklərini yoxlamaq və onların diqqətini bu mövzuya yönəltmək məqsədi daşıyır.

Cavab:

1 – c, 2 – ç, 3 – b, 4 – a.

**"Bunları bilməliyik!" rubrikası.** Müəllim rubrikada mürəkkəb şəxs adlarının yazılışı haqqında məlumatları nümunələrlə şərh edir.

**Dərslik, səh. 30**

**b.** Mürəkkəb şəxs adlarını orfoqrafik normalara uyğun yazın.

Cavab:

Cəlil Məmmədquluzadə, Mirzə Fətəli Axundov, Fətəli xan Xoyski, İbrahimxəlil xan, Seyid Əzim Şirvani, Həsən bəy Zərdabi, Sultan Süleyman Qanuni

**"Bunları bilməliyik!" rubrikası.** Müəllim rubrikada mürəkkəb yer adlarının yazılışı haqqında məlumatları nümunələrlə şərh edir.

**Dərslik, səh. 30**

**c.** Mürəkkəb yer adlarını orfoqrafik normalara uyğun yazın.

Cavab:

İsa bulağı, Şuşa şəhəri, Şəhidlər xiyabanı, Azadlıq prospekti, Araz çayı, Muğan düzü, Azov dənizi, Cənubi Azərbaycan, Orta Anadolu, Böyükşor gölü, Şərqi Zəngəzur

**Dərslik, səh. 30**

**ç.** Cümlələrdə səhv yazılmış sözləri seçib düzgün yazın.

Cavab:

1. Zəngin sualtı aləminə malik ***Qırmızı dəniz*** dalğıclar üçün ideal məkandır.
2. Çox hissəsi buzla örtülmüş ***Şimal Buzlu okeanı*** Avrasiya və ***Şimali Amerika*** materiklərinin sahilləri ilə əhatə olunur.
3. ***Sara xatun*** Azərbaycanın ilk diplomat qadınıdır.

**İş dəftəri, səh. 11**

**a.** Cümlələrdə hansı sözlərin yazılışında səhvə yol verilmişdir? Öyrəndiyin qaydadan çıxış edərək fikrini əsaslandır.

Cavab:

1. Leyla Məmmədbəyova Azərbaycanda, Qafqazda, həmçinin bütün ***Cənubi Avropada*** və ***Ön Asiyada*** ilk qadın təyyarəçi idi.
2. Azərbaycan Respublikasının ***cənubunda İran*** və ***Türkiyə*** dövlətləri ilə sərhəd yerləşir. Cənubda həmçinin ***Talış dağları***, Araz çayı və ***Muğan düzü*** bu sərhəd boyu uzanır.

**İş dəftəri, səh. 11**

**b.** Hansı variantda mürəkkəb şəxs adı düzgün yazılıb?

Cavab:

d. Sara xatun

**İş dəftəri, səh. 11**

**c.** Düzgün yazılmış mürəkkəb yer adını müəyyənləşdir.

Cavab:

Cıdır düzü

**İş dəftəri, səh. 11**

**ç.** Hər sıraya iki mürəkkəb yer adı yaz.

**Çay adı:** Amazon çayı, Kür çayı

Layihə

**Dağ adı:** Qafqaz dağları, Himalay dağı
**Dəniz adı:** Aralıq dənizi, Qırmızı dəniz
**Okean adı:** Sakit okean, Hind okeanı
**İş dəftəri, səh. 11**

**d.** Mürəkkəb yer adlarının yazılışındakı səhvləri düzəldib yaz.

Cavab: 1. Xəritədə ***Şərqi Avropa*** düzənliyi ***Karpat*** dağlarından ***Ural*** dağlarınadək uzanır.

2. Ağ Nil başlanğıcını ***Şərqi Afrika*** yaylasındakı ***Viktoriya*** göləndən, ***Mavi Nil*** isə Efiopiya ***yaylasındakı Tana*** gölündən götürür.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Bəzi mürəkkəb adların (şəxs və yer adlarının) böyük hərflə yazılışı qaydalarına əməl edir. | Dərslikdə və iş dəftərində təqdim edilmiş tapşırıqlar |

Layihə

# Ümumiləşdirici təkrar

**Təlim nəticələri:**
- Sözlərin yazılışında orfoqrafik normalara riayət edir (st. 4.1.2).
- Bəzi mürəkkəb adların (şəxs və yer adlarının) böyük hərflə yazılışı qaydalarına əməl edir (st. 4.1.2).

Dərslikdə və iş dəftərində verilmiş ümumiləşdirici təkrar müəllimə şagirdlərin bölmə üzrə keçilmiş mövzular haqqında aldıqları bilikləri möhkəmləndirməyə imkan yaradır.

**Dərslik, səh. 31**

**1.** Sözlərdə vurğunun yerini müəyyənləşdirin və cədvəl üzrə qruplaşdırın.

Cavab:

| Vurğusu birinci hecaya düşən sözlər | Vurğusu ikinci hecaya düşən sözlər | Vurğusu üçüncü hecaya düşən sözlər |
|---|---|---|
| biznes<br>kosmos<br>hamı<br>bomboş<br>çünki<br>qlobus | empatiya<br>defis<br>diqqətlə<br>esse<br>dizayner<br>kompüter | antivirus<br>ekologiya<br>kenquru<br>lotereya<br>bankomat<br>monoloq |

**Dərslik, səh. 31**

**2.** Sözləri orfoqrafik normalara uyğun yazın.

Cavab: model, personaj, operator, montaj, korrektor, parovoz, ornament, konstruksiya

**Dərslik, səh. 31**

**3.** Vurğunun yerini dəyişməklə hər sözü iki fərqli cümlədə işlədin.

Cavab: İndi yazdır. Şagirdin tapşırıqlarını yazdır.
Elektrik soba aldıq. Elektrik cərəyan xətlərini birləşdirdi.
Uşaqlar dondurma aldılar. Bu əti yenidən dondurma.
Lalə mənim ən çox sevdiyim güldür. Valideynlərinin üzünü güldür.
Əsgər komandirinin qarşısında dimdik dayanmışdı. Quşların ağızlarının irəliyə uzanmış buynuz kimi sərt hissəsi dimdik adlanır.
Babam komik insandır. O, Azərbaycan kinosunun ən yaxşı komikidir.
Qazma işlərini bitirdik. Bu yeri qazma.
Bacım bildir məktəbə getdi. Öz fikrini mənə bildir.

**Dərslik, səh. 31**

**4.** Fərqləndirilmiş sözlərdən yazılışı səhv olanları müəyyən edin.

Cavab:
1. ***Aplikasiya*** uşaqların yaradıcılıq bacarıqlarını inkişaf etdirməyə kömək edir.
3. Mağazada müxtəlif növ saç ***aksesuarları*** satılır.
4. Bu ***diaqram*** statistik məlumatları daha aydın şəkildə göstərir.

**Dərslik, səh. 31**

**5.** Aşağıdakı şəxs adlarını qaydaya uyğun olaraq düzgün yazın.

Cavab: Hacı Zeynalabdin Tağıyev, Yusif ağa, Şah Təhmasib, Məhəmməd Hadi, Əhməd bəy Cavanşir, Əli bəy Hüseynzadə, Məhəmməd şah

**Dərslik, səh. 31**

**6.** Mürəkkəb yer adlarını seçin və düzgün yazın.

Cavab: 1. Şuşaya gedəndə ***Yuxarı Gövhər Ağa*** məscidini də ziyarət etdik.
2. Biz ***Kür çayı*** sahilində düşərgə qurduq, gözəl bir həftə keçirdik.
3. Efes ***Kiçik Asiyanın*** ən qədim şəhərlərindən biridir.
4. Təbriz şəhəri ***Cənubi Azərbaycanın*** əsas mədəniyyət mərkəzlərindəndir.
5. Azərbaycanın şimal-şərq sərhədi ***Xəzər dənizi*** ilə əhatə olunur.

**İş dəftəri, səh. 12**

**1.** Üçüncü insana aid xüsusiyyətləri seç.

Cavab: gözütox, nəcib, mərhəmətli

**İş dəftəri, səh. 12**

**2.** Aşağıdakı cümləni tamamla və mətnin ideyası ilə əlaqələndir.

Cavab: Xoşbəxtlik üçüncü insanın arxasınca gedir və heç vaxt ondan ayrılmır, çünki o, təmənnasız yaxşılıq etmişdi. Mətnin ideyası da budur, təmənnasız edilən yaxşılıq insana daim xoşbəxtlik gətirir.

**İş dəftəri, səh. 12**

**3.** Mətnin müvafiq hissələrinə istinad edərək Xoşbəxtliyin keçirdiyi hisslər haqqında yaz. Mətndə Xoşbəxtliyin şəxsləndirildiyini əsaslandır.

Cavab: Xoşbəxtlik birinci və ikinci insandan kömək istəyəndə ümidsizlik və qorxu hissi keçirir, məyus olur. Üçüncü insan onu qarşılıqsız şəkildə xilas edəndə Xoşbəxtlik sevinir və minnətdarlıq hissi duyur. Xoşbəxtlik insana aid hissləri keçirir, yəni şəxsləndirilir.

**İş dəftəri, səh. 13**

**4.** Sözlərdə vurğunun yerini müəyyənləşdir və cədvəl üzrə qruplaşdır.

Cavab:

| Vurğusu birinci hecaya düşən sözlər | Vurğusu ikinci hecaya düşən sözlər | Vurğusu üçüncü hecaya düşən sözlər |
|---|---|---|
| sintez<br>fizika<br>atom | analiz<br>komediya<br>molekul | ehtimal<br>uzunsaç<br>çəmənlik |

**İş dəftəri, səh. 13**

**5.** Sözləri orfoqrafik normaya uyğun yaz.

Cavab: poeziya, ornament, samovar, monoloq, kombinat, komissar

**İş dəftəri, səh. 13**

**6.** Vurğusu dəyişməklə mənası dəyişən sözləri fərqli cümlələrdə işlət.

Cavab: Ürək insanın ən vacib orqanlarından biridir. Orqan musiqi alətinin gözəl səsi var.
Biz keçən il yox, bildir Türkiyəyə getmişdik. Öz arzularını bizə bildir.
Quşların dimdiyi iti olur. O, qarşımda dimdik dayanmışdı.

**İş dəftəri, səh. 13**

**7.** Uyğun hərf(lər)i əlavə edib sözləri tamamla. Lüğət vasitəsilə dəqiqləşdir.

Cavab: konqres, effekt, hospital, akkord, orfoqram, dendrari, hokkey, spagetti

**İş dəftəri, səh. 13**

**8.** Cümlələrdə işlənmiş mürəkkəb yer adlarını seç və düzgün yaz.

<u>Cavab</u>: 1. Turistlər Yuxarı ***Gövhər Ağa*** məscidini ziyarət etdilər.

2. Sakit okeanın cənub-şərqində yerləşən ***Yeni Zelandiya*** iki böyük adadan ibarətdir.

3. Qarabağın mühüm tarixi abidələrindən biri də ***Şahbulaq qalasıdır.***

4. Sonralar ***Böyük Çin səddi*** daha 2000 kilometr uzadılaraq dünyanın ən uzun səddinə çevrilmişdir.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Sözlərin yazılışında orfoqrafik normalara riayət edir. | Tapşırıq 1, 2, 3, 4 (dərslik), 5, 7 (iş dəftəri) |
| Bəzi mürəkkəb adların (şəxs və yer adlarının) böyük hərflə yazılışı qaydalarına əməl edir. | Tapşırıq 5, 6 (dərslik), 8 (iş dəftəri) |

Layihə

Bölmə **2** **İNCƏSƏNƏT**

| Dərs | Mövzu | Məzmun xətti | Dərslik səh. | İş dəftəri səh. | Metodik vəsait səh. |
|---|---|---|---|---|---|
| | Giriş | | 32-33 | | 44 |
| 1-ci fəsil. **Dahi bəstəkar** | | | | | |
| 1 | Üzeyir Hacıbəyli | Oxu | 34-37 | 14 | 45-47 |
| 2 | Üzeyir Hacıbəyli<br>Qafqazın konservatoriyası | Oxu<br>Danışma | 37-38 | | 47-49 |
| 3 | Xatirə | Oxu | 39-40 | 15 | 49-50 |
| 4 | Unudulmaz obraz | Dinləmə | 41 | 16 | 50-52 |
| 5 | Mürəkkəb sözlərin yazılışı | Yazı | 42-43 | 17 | 52-55 |
| 2-ci fəsil. **Əsrin dahisi – sənətin fədaisi** | | | | | |
| 6 | Peyzaj | Danışma | 44-45 | 17 | 56-58 |
| 7 | Torpağın arzusu | Danışma | 46-47 | | 58-59 |
| 8 | Təsviri mətn | Yazı | 48-49 | | 59-60 |
| 9 | Ustadın məsləhəti | Oxu | 50-52 | 18 | 60-61 |
| 10 | Mürəkkəb sözlərin yazılışı | Yazı | 53 | 19 | 62-63 |
| 3-cü fəsil. **Cığır açan qadınlar** | | | | | |
| 11 | Stereotipləri qıran qadınlar.<br>Esse | Danışma<br>Yazı | 54-55 | 20 | 64-65 |
| 12 | Mürəkkəb sözlərin yazılışı | Yazı | 56 | 21 | 66-67 |
| 13 | Ümumiləşdirici təkrar | Yazı | 57 | 22-23 | 68-70 |

Layihə

# GİRİŞ DƏRSİ

**<u>Təlim nəticələri</u>:**
- Oxuduqları, həyatda gördükləri və təəssüratları haqqında danışır (st. 2.1.2).
- Müzakirə zamanı mövzuya uyğun fikir yürüdür (st. 2.1.4).
- Verbal və qrafik materialları (şəkil) şərh etməklə mövzu üzrə danışır (st. 2.1.3).

**Mövzuya yönəltmə.** Müəllim şagirdlərin diqqətini bölmənin adına yönəldir.

**Danışma**

**Dərslik, səh. 32**

**a.** Azərbaycan incəsənəti haqqında nə bilirsiniz? Onun hansı sahələri sizi daha çox maraqlandırır? Ən çox sevdiyiniz sənətkarlar və sənət əsərləri haqqında danışın.

**Müəllimin nəzərinə!** "İncəsənət" sözünün mənasını izah etmək, incəsənətin müxtəlif sahələrinin adlarını çəkmək tövsiyə olunur.

**Dərslik, səh. 32**

**b.** Dahilərin sənət haqqında söylədikləri fikirləri bölmənin mövzusu ilə əlaqələndirib şərh edin.

Tapşırıqda dahi bəstəkar Üzeyir Hacıbəylinin və Xalq rəssamı Səttar Bəhlulzadənin fikirləri verilmişdir. Şagirdlərin diqqəti "qəlbə yol açmaq" ifadəsinə yönəldilir və sənətin mahiyyəti açılır.

**Dərslik, səh. 32**

**c.** Məlumat vərəqlərindən və əlavə biliklərinizdən istifadə etməklə Azərbaycanda incəsənətin müxtəlif sahələri ilə bağlı təqdimatlar edin.

Şagirdlər qruplara ayrılır. I qrup "Azərbaycan musiqisi", II qrup "Azərbaycan təsviri incəsənəti", III qrup "Azərbaycan teatrı" haqqında verilmiş məlumat vərəqləri üzrə işləyirlər. Məlumatları rabitəli mətn halına salaraq sinfə təqdim edirlər. Təqdimat zamanı şagirdlər aydın nitq, intonasiya və jest/mimikadan istifadə etməyə təşviq olunur.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Oxuduqları, həyatda gördükləri və təəssüratları haqqında danışır. | Tapşırıq a (dərslik) |
| Müzakirə zamanı mövzuya uyğun fikir yürüdür. | Tapşırıq b (dərslik) |
| Verbal və qrafik materialları (şəkil) şərh etməklə mövzu üzrə danışır. | Tapşırıq c (dərslik) |

Layihə

# 1-ci fəsil
# DAHİ BƏSTƏKAR

## 1-ci DƏRS
## Üzeyir Hacıbəyli

**Təlim nəticələri:**
• Verbal və vizual məlumatlardan ibarət təqdimat materialı hazırlayır (st. 4.1.1).

**Mövzuya yönəltmə**
**Dərslik, səh. 34**

**a.** Məşhur Azərbaycan bəstəkarı Üzeyir Hacıbəyli haqqında bildiklərinizi danışın. Bu şəxsiyyətin həyat və yaradıcılığı haqqında daha nələri öyrənmək istərdiniz?

**Müəllimin nəzərinə!** Bu tapşırığı BİBÖ cədvəli ilə də yerinə yetirmək olar.

**Oxu**
**Dərslik, səh. 34**

**b.** Üzeyir Hacıbəylinin yaradıcılığı haqqında mətnləri oxuyun. Hər hissəyə aid açar sözləri müəyyən edin və yarımbaşlıqla adlandırın. Hər bir hissə ilə bağlı məlumat vərəqi hazırlayıb sinfə təqdim edin.

**Mətnlə iş.** Şagirdlər qruplara ayrılır. Hər qrup "Üzeyir Hacıbəyli" mətninin müəyyən hissəsini oxuyur, qeydlər götürərək məlumat vərəqi hazırlayır, qısa və aydın şəkildə sinfə təqdim edir.

Şagirdlərin hazırladığı məlumat vərəqlərinə nümunə:

**I qrup: Üzeyir Hacıbəylinin pedaqoji fəaliyyəti**

Üzeyir Hacıbəylinin pedaqoji fəaliyyəti Azərbaycan xalqının maariflənməsində mühüm rol oynamışdır. O yalnız müəllimlik etməklə kifayətlənməmiş, dərsliklər hazırlayaraq və təhsil müəssisələrinin yaradılmasında iştirak edərək ölkə təhsilinin inkişafına böyük töhfə vermişdir.

**Müəllimlik fəaliyyəti**

• 1904–1905-ci illərdə Cəbrayıl bölgəsində müəllim kimi çalışıb.
• 1905-ci ildən etibarən Bakı şəhərindəki Bibiheybət və Səadət məktəbində dərs deyib.
• Tədris etdiyi fənlər: ana dili, rus dili, hesab, musiqi

**Müəlliflik fəaliyyəti**

• "Hesab məsələləri" dərsliyi: Azərbaycan dilində hazırlanmış mühüm riyaziyyat dərsliyidir. Sadə və aydın dildə yazıldığı üçün şagirdlərin riyazi təfəkkürünü inkişaf etdirirdi. Ana dilində elmi biliklərin mənimsənilməsini asanlaşdırırdı.

• "Mətbuatda istifadə olunan siyasi, hüquqi, iqtisadi və hərbi terminlərin türk-rus və rus-türk lüğəti": Mətbuat işçiləri, müəllimlər, tələbələr, dövlət qulluqçuları üçün çox əhəmiyyətli idi. Terminləri anlamağı asanlaşdırır, tərcümə ədəbiyyatının inkişafına təsir edirdi.

**Təhsil müəssisələrinin yaradılmasında rolu**

• Bakı Musiqi Texnikumunun yaradılmasında – 1920-ci il
• Azərbaycan Dövlət Konservatoriyasının qurulmasında – 1921-ci il

Bu təhsil ocaqlarında xalq musiqisinin əsaslarını qoymuş, bəstəkarlıq üzrə dərs demişdir. Çoxsaylı istedadlı bəstəkar və musiqişünas yetişdirmişdir.

**II qrup: Üzeyir Hacıbəylinin yaradıcılığı**

Üzeyir Hacıbəyli – Azərbaycan peşəkar musiqisinin banisi, Yaxın Şərqdə ilk operanın müəllifi və milli musiqi məktəbinin yaradıcısıdır. O, xalq musiqisi ənənələrini Qərb musiqi mədəniyyəti ilə birləşdirərək Azərbaycan klassik musiqisinin inkişafında böyük rol oynamışdır.

**Operaları:**

• "Leyli və Məcnun" operası. 1908-ci ildə yaradılıb. Şərq aləmində opera sənətinin təməlini qoyan ilk operadır.
• "Şeyx Sənan"
• "Rüstəm və Söhrab"
• "Əsli və Kərəm"
• "Koroğlu" – bəstəkarın yaradıcılığının zirvəsi hesab olunur və dünyanın müxtəlif səhnələrində uğurla tamaşaya qoyulmuşdur.

**Operettaları:**

• "Arşın mal alan"
• "O olmasın, bu olsun". Bu əsərlər Azərbaycan musiqisinin beynəlxalq səviyyədə tanınmasında mühüm rol oynamışdır.

**Üzeyir Hacıbəylinin Azərbaycan musiqisinə gətirdiyi yeniliklər:**

• Milli musiqi ilə Qərb musiqisinin sintezi
• Operanı Şərq dünyasında məşhurlaşdırması
• Azərbaycan musiqi teatrının inkişafı
• Yeni janr və üslubların tətbiqi

**III qrup: Üzeyir Hacıbəylinin publisistik fəaliyyəti**

Üzeyir Hacıbəyli yalnız bəstəkar və pedaqoq kimi deyil, həm də istedadlı publisist kimi Azərbaycan mətbuatının inkişafında mühüm rol oynamışdır. Onun publisistik fəaliyyəti milli oyanış dövründə cəmiyyətin düşüncəsinə ciddi təsir göstərmişdir.

**Publisistik fəaliyyətinin başlanğıcı**

**Zaman:** XX əsrin əvvəlləri

**Səbəb:** milli oyanış və mətbuatın canlanması

**"Azərbaycan" qəzetində fəaliyyəti**

Vəzifəsi: qəzetin redaktoru

Qəzetin fəaliyyətində rolu: O həm ədəbi, həm də ictimai-siyasi mövzulara toxunan yazılar dərc edirdi və qəzetin məzmununu zənginləşdirirdi.

Gizli imzaları: "Millət tərəfdarı", "Namuslu", "Rəhmsiz", "Yalançı", "Zurnaçı" və s.

Publisist yazılarının əsas mövzuları:

• Savadsızlıq və gerilikla mübarizə
• Xalqın maariflənməsi
• Qadın azadlığı
• Milli musiqinin inkişafı
• Cəmiyyətin öz hüquqlarını və dəyərlərini qoruması

**IV qrup: Üzeyir Hacıbəylinin ictimai fəaliyyəti**

1918–1920-ci illərdə fəaliyyət göstərmiş Azərbaycan Xalq Cümhuriyyəti dövründə Üzeyir Hacıbəyli dövlət müstəqilliyinin möhkəmlənməsi üçün təbliğat və maarifçilik fəaliyyəti ilə məşğul olmuşdur.

• Dövlət himninin, türk dünyasının birliyini əks etdirən "Çırpınırdı Qara dəniz"in müəllifi
• Milli qürur, vətənpərvərlik, dövlətçilik əzmi kimi dəyərlərin təbliğatçısı

Üzeyir Hacıbəylinin dövlətçilik ideyalarına töhfəsi:

• Milli kimlik və müstəqillik düşüncəsinin gücləndirilməsi
• Dövlət rəmzlərinin formalaşmasında rolu
• Vətənpərvərlik ruhunun musiqi vasitəsilə təbliği
• Cümhuriyyət dövründə milli şüurun inkişafına xidmət

**İş dəftəri, səh. 14**

**a.** "Üzeyir Hacıbəyli" mətninə əsasən fikirlərin düzgün, yoxsa yanlış olduğunu müəyyən et.

Layihə

Cavab:
1 – D, 2 – Y, 3 – Y, 4 – D, 5 – Y.
**İş dəftəri, səh. 14**

**b.** Mətnə əsasən uyğunluğu müəyyən et.

Cavab:
1 – d, 2 – c, 3 – a, 4 – ç, 5 – e, 6 – b.
**İş dəftəri, səh. 14**

**c.** Mətndə hansı suallara cavab var?

Cavab:
1, 2, 4, 6-cı suallara cavab var.
**İş dəftəri, səh. 14**

**ç.** Mətnə əsasən cümlələri tamamla.

Cavab:
1. Üzeyir Hacıbəyli 1908-ci ildə **"Leyli və Məcnun"** operasını yaratdı. O bu əsərlə **Şərq aləmində** opera sənətinin əsasını qoydu.
2. Üzeyir Hacıbəyli "Şeyx Sənan", "Rüstəm və Söhrab", "Əsli və Kərəm", "Koroğlu" kimi **operalar**, "Arşın mal alan", "O olmasın, bu olsun" kimi **operettalar** bəstələmişdir.
3. Bəstəkarın yazıları çox kəskin olduğuna görə "Millət tərəfdarı", "Namuslu", "Rəhmsiz", "Yalançı", "Zurnaçı" və s. gizli **imzalarla** dərc olunurdu.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Verbal və vizual məlumatlardan ibarət təqdimat materialı hazırlayır. | Tapşırıq b (dərslik) |

# 2-ci DƏRS
# Üzeyir Hacıbəyli

**Təlim nəticələri:**
- Söz tərkibindəki morfemlərin semantikasından çıxış edərək sözün mənasını müəyyənləşdirir (st. 4.1.3).
- Söz və ifadələrin həqiqi və məcazi mənalarını fərqləndirir (st. 3.1.2).

**Mövzuya yönəltmə.** Müəllim yönəldici suallar vasitəsilə "Üzeyir Hacıbəyli" mətninin məzmununu xatırladır.

**Söz ehtiyatı**

**Dərslik, səh. 37**

**a.** Verilmiş izahlara əsasən "bəstəkar" və "publisist" sözlərinin mənalarını müəyyən edin.

Cavab:
bəstəkar – musiqi əsərləri yaradan şəxs; publisist – ictimai-siyasi mövzuda əsərlər yazan yazıçı.

Layihə

**Dərslik, səh. 37**

**b.** “Musiqişünas” sözündə *-şünas* şəkilçisinin funksiyasını izah edin. Bu şəkilçini *-çi* şəkilçisi ilə əvəz etsəniz, sözün mənası dəyişərmi? Sizcə, bu şəkilçilər həmişə bir-birini əvəz edə bilərmi? Aşağıdakı nümunələr əsasında fikrinizi əsaslandırın.

Şagirdlərin cavabları təxminən belə ola bilər: -şünas şəkilçisi “bir sahəni öyrənən, araşdıran, həmin sahənin mütəxəssisi olan şəxs” mənasını yaradır. Məsələn: musiqişünas – musiqini elmi şəkildə araşdıran mütəxəssis, tarixşünas – tarixi tədqiq edən alim, ədəbiyyatşünas – ədəbiyyatı araşdıran mütəxəssis. Yəni -şünas daha çox alimlik, tədqiqatçılıq mənası verir.

-çı[4] şəkilçisi əsasən bir işlə məşğul olanı, bir sahənin peşə sahibini bildirir.

| -şünas | -çı | Əvəz edə bilərmi? |
|---|---|---|
| sabirşünas | – | – |
| şərqşünas | – | – |
| hüquqşünas | hüquqçu | + |
| – | qapıçı | – |
| – | odunçu | – |
| – | üzgüçü | – |
| dilşünas | dilçi | + |

Göründüyü kimi, -şünas və -çı[4] şəkilçiləri həmişə deyil, bəzən bir-birini əvəz edə bilir.

• Sözlərlə şəkilçiləri uyğunlaşdırın.

Cavab:

ədəbiyyatşünas, dənizçi, peşəkar, idealist.

**Dərslik, səh. 38**

**c.** Aşağıdakı cümlələrdə “təməlini qoymaq” ifadəsinin mənasına diqqət edin. Bu ifadə hansı cümlədə mətndəki mənasında işlənmişdir?

Cavab:

1-ci cümlədə.

**Dərslik, səh. 38**

**ç.** Musiqi fənnindən aldığınız bilgilərə istinad edərək Venn diaqramı qurmaqla opera ilə operetta arasındakı fərqi izah edin.

Cavab:

Opera – sözün, səhnə hərəkəti və musiqinin sintezindən ibarət dram sənəti janrı.

Operetta – kiçik opera; danışıq, rəqs və vokal-musiqi ifalarının növbələşdiyi, adətən, komediya xarakterli səhnə əsəri.

Opera, adətən, ciddi, dramatik, operetta isə əyləncəli, komik mövzuda olur.

**Oxuyub-qavrama**

**Dərslik, səh. 38**

**d.** Mətnə əsasən Üzeyir Hacıbəylinin fəaliyyət sahələrinə aid nümunələr söyləyin.

**Müəllimin nəzərinə!** Şagirdlər 1-ci dərsdə Üzeyir Hacıbəylinin fəaliyyətinə aid təqdimat ediblər. Bu təqdimatı xatırlatmaqla şagirdləri istiqamətləndirmək mümkündür.

Layihə

**Dərslik, səh. 38**

**e.** Sizcə, Şuşanı nə üçün "Qafqazın konservatoriyası" adlandırırlar? Mətndə bu ifadə nə üçün dırnaq içərisində yazılıb? Aşağıdakı məlumatlara və "konservatoriya" sözünün izahına əsasən fikrinizi şərh edin.

**"Sözlərin izahı" rubrikası.** Şagirdlər bu rubrikada verilmiş "konservatoriya" sözünün mənası ilə tanış olurlar. Cabbar Qaryağdıoğlu, Sadıqcan, Xan Şuşinski, Bülbül haqqında məlumatlara əsasən "Qafqazın konservatoriyası" ifadəsinin nə üçün dırnaq içərisində yazıldığını əsaslandırırlar.

Şagirdlərin cavabı təxminən belə ola bilər: Şuşada çoxlu musiqiçilər, xanəndələr, bəstəkarlar yetişib. Qafqazda ən güclü musiqi mühiti olan şəhərlərdən biri olub. Burada muğam, xalq musiqisi və peşəkar musiqi ən yüksək səviyyədə inkişaf edib. Mətndə Şuşa obrazlı olaraq, məcazi mənada "Qafqazın konservatoriyası" adlandırıldığı üçün dırnaq içərisində yazılıb.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Söz tərkibindəki morfemlərin semantikasından çıxış edərək sözün mənasını müəyyənləşdirir. | Tapşırıq a, b (dərslik) |
| Söz və ifadələrin həqiqi və məcazi mənalarını fərqləndirir. | Tapşırıq c, e (dərslik) |

# 3-cü DƏRS
# Xatirə

**Təlim nəticələri:**
- Mətni ifadəli oxumaqla məzmunu anladığını nümayiş etdirir (st. 3.1.1).
- Verilmiş fikirləri aid olduqları başlıqlar üzrə qruplaşdırır (st. 3.1.5).

**Mövzuya yönəltmə**

**Dərslik, səh. 39**

**a.** Sizcə, bir sənətkarın həyat və yaradıcılığının öyrənilməsində müasirlərinin xatirələri nə üçün əhəmiyyətlidir?

Tapşırıqda təqdim edilmiş sual şagirdlərin diqqətini mövzuya yönəldir.

**"Sözlərin izahı" rubrikası.** Şagirdlər "xatirə" sözünün izahı ilə tanış olurlar.

**Oxu**

**Dərslik, səh. 39**

**b.** Üzeyir Hacıbəylinin və onun müasirlərinin xatirələrini oxuyun. Hansı faktlar "Üzeyir Hacıbəyli" mətnindəki məlumatları təsdiq edir? Xatirələrdən Üzeyir bəyin yaradıcılığı və şəxsiyyəti haqqında daha hansı məlumatları aldınız?

Şagirdlər Üzeyir Hacıbəylinin və onun müasirlərinin xatirələrini oxuyurlar.

**Oxuyub-qavrama**

**Dərslik, səh. 40**

**c.** Aşağıdakı cümlələri hansı sənətkarların xatirəsinə əlavə etmək mümkündür?

Cavab:

1 – Cövdət Hacıyev, 2 – Üzeyir Hacıbəyli, 3 – Şəfiqə Axundova, 4 – Mirzə İbrahimov, 5 – Məmməd Səid Ordubadi.

Layihə

İş dəftəri, səh. 15

**a.** Aşağıdakı xatirələri oxu və hər birini müvafiq şəxslə əlaqələndir.

Cavab:
1 – B, 2 – D, 3 – Ç, 4 – A, 5 – C.

**Yazı**

İş dəftəri, səh. 15

**b.** Dərslikdən əldə etdiyin məlumatlara əsaslanaraq "Üzeyir Hacıbəylinin Azərbaycan mədəniyyətinin inkişafında rolu" mövzusunda esse yaz.

**Esse nümunəsi:**

***Üzeyir Hacıbəylinin Azərbaycan mədəniyyətinin inkişafında rolu***

*Üzeyir Hacıbəyli Azərbaycan musiqi mədəniyyətinin banilərindən biri, böyük bəstəkar, publisist və maarifçi kimi tanınır. O, milli musiqimizin inkişafında rol oynayan şəxsiyyətdir. Onun yaratdığı əsərlər, gördüyü işlər bu gün də milli mədəniyyətimiz üçün əhəmiyyətlidir.*

*Üzeyir Hacıbəyli 1908-ci ildə "Leyli və Məcnun" operasını yaratmış, bununla da Şərqdə ilk operanın əsasını qoymuşdur. Dahi bəstəkar "Arşın mal alan", "O olmasın, bu olsun", "Koroğlu" kimi operalar və operettalar yazaraq milli musiqimizi dünya səviyyəsində tanıtmışdır. Onun əsərləri xalqın sevdiyi melodiyalara əsaslandığı üçün geniş rəğbət qazanmışdır.*

*Bəstəkar təkcə musiqiçi kimi deyil, publisist kimi də fəaliyyət göstərmişdir. O, müxtəlif qəzet və jurnallarda yazılar dərc etdirmişdir. Yazılarında savadsızlıq, gerilik, qadın azadlığı və maariflənmə kimi mövzulara toxunmuş, xalqı düşünməyə, birliyə və müasirliyə çağırmışdır.*

*Üzeyir bəy müəllim kimi də fəaliyyət göstərmişdir. O, tələbələrinə yalnız bilik öyrətməmiş, həm də yaradıcılığa həvəsləndirmişdir. Xatirələrdən məlum olur ki, o, tələbələrinə qayğı göstərmiş, hər zaman dəstək olmuşdur. Müharibə illərində tələbələrinə maddi yardım etməsi onun yüksək insanpərvərliyini göstərir.*

*Üzeyir Hacıbəylinin yaratdıqları bu gün də yaşayır və böyük bir məktəb kimi davam edir.*

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətni ifadəli oxumaqla məzmunu anladığını nümayiş etdirir. | Tapşırıq b (dərslik) |
| Verilmiş fikirləri aid olduqları başlıqlar üzrə qruplaşdırır. | Tapşırıq c (dərslik); a (iş dəftəri) |

# 4-cü DƏRS
# Unudulmaz obraz

**Təlim nəticələri:**
- Dinlədiyi mətndəki obraz, fakt və fikirlərə münasibət bildirir (st. 1.1.2).
- Aldığı məlumatları rabitəli mətn halına salaraq şifahi təqdim edir (st. 2.1.3).

**Mövzuya yönəltmə**

Müəllim şagirdlərə Üzeyir Hacıbəylinin həyat və yaradıcılığı haqqında suallar verməklə bu şəxsiyyət haqqında aldıqları məlumatları xatırladır.

**Dinləmə**

**Dərslik, səh. 41**

**a.** Qeydlər götürməklə "Unudulmaz obraz" mətnini dinləyin və tapşırıqları yerinə yetirin.

***Unudulmaz obraz***

*(Azərbaycanın Xalq rəssamı Mikayıl Abdullayevin xatirələrindən)*

*1943-cü il idi. Azərbaycan Dövlət Teatr Muzeyi üçün böyük bəstəkarımız Üzeyir Hacıbəylinin portreti çəkilməli idi. Muzeyin rəhbərliyi bu şərəfli işi mənə tapşırmışdı.*

*Mən portreti naturadan çəkmək istəyirdim. Lakin məlum oldu ki, Üzeyir bəy vaxtının azlığından, həm də təvazökarlığından heç vaxt portret çəkdirmək təkliflərinə razılıq verməyib. Xeyli danışıqdan sonra Üzeyir bəyi portretinin naturadan çəkilməsinə razı sala bildik.*

*Üzeyir bəylə görüşmək üçün konservatoriyanın köhnə binasına gəldim. Onunla salamlaşdım, günahkar adamlar kimi dayanıb gözlədim. O, bəlkə də, məni bu vəziyyətdən çıxarmaq üçün dodaqaltı dedi: "Bilirəm, portret yaratmaq çətin məsələdir, mürəkkəb işdir". Sonra kresloya əyləşdi, ayağını ayağının üstünə aşırdı, başını bir az qaldırıb soruşdu: "Necə oturmalıyam?" Mən tez cavab verdim: "Elə bu cür – sərbəst". Mən portreti üç günə bitirdim. Hiss edirdim ki, Üzeyir bəy portreti çox bəyənib. Odur ki bu əsəri bəstəkara bağışladım.*

*Muzeyin sifarişi isə hələ də yerinə yetirilməmişdi. Odur ki bəstəkarın ikinci portreti üzərində işə başladım. Bu dəfə Üzeyir bəy kabinetdəki iş masasının arxasında, tünd-qırmızı xalçanın fonunda əyləşdi və yavaşca dedi: "İndi də belə oturaq".*

*İkinci portretin maraqlı bir macərası olmuşdu.*

*İşimizi yenicə qurtarmışdıq. Portret hələ ki bəstəkarın iş otağında idi. Üzeyir bəy bir balaca xəstələnmişdi. O, iki-üç gün işə çıxmadı. Arada mən gəlib öz iş ləvazimatımı aparmalı oldum. Bu zaman portreti iş masasının arxasındakı stulun üstünə qoyaraq divar xalçasına söykədim.*

*Ertəsi gün Üzeyir bəy konservatoriyaya zəng vurub nə isə soruşur. Kabinetin açarını xidmətçi qadına verirlər ki, gedib bəstəkarın istədiyini gətirsin. Xidmətçi qadın qapını açıb içəri girir və cəld geri dönüb dəftərxanaya qayıdır. Bildirir ki, Üzeyir bəy özü işə gəlib və öz kabinetindədir. Təəccüblənirlər ki, elə şey ola bilməz. Əvvəla, Üzeyir bəy xəstədir, ikincisi, telefon zəngindən heç beş dəqiqə keçməyib. Bu tezliklə işə gəlib çatmaq olmaz. Kimsə tez gedib kabinetin qapısının açar yerindən baxıb görür ki, doğrudan da, Üzeyir Hacıbəyli öz yerindədir.*

*Nəhayət, dəftərxana müdiri özü gedir və kabineti açıb içəri girəndə əvvəl çaşır, sonra masa arxasında bəstəkarın özünün yox, portretinin olduğunu görüb gülməyə başlayır...*

*Bu əhvalatı xeyli vaxt deyib-gülərdilər. Böyük bəstəkar isə deyərdi ki, bax ikinci portret özü müəllifsiz imtahandan çıxdı...*

**Dərslik, səh. 41**

**b.** Şəklə və mətnin məzmununa əsasən "natura" sözünün mənasını izah edin.

Cavab:
Şəkli çəkilən canlı nümunə; şəklinin çəkilməsi üçün rəssamın qabağında duran adam.

**Dərslik, səh. 41**

**c.** Mətnə əsasən aşağıdakı suallara cavab verin.

Cavab:
Şagirdlər tapşırıqda qoyulmuş sualları cavablandırmaqla mətni dinləyib anladıqlarını nümayiş etdirirlər.

**Dərslik, səh. 41**

Layihə

**ç.** Mətnə əsasən doğru və ya yanlış fikirləri müəyyən edin.

Cavab:
1 – Y, 2 – D, 3 – Y, 4 – D, 5 – D.
**Dərslik, səh. 41**

**d.** Mətnin sonuncu cümləsini şərh edin.

Cavab:
Üzeyir bəy bu cümlə ilə portretin çox uğurlu alındığını özünəməxsus şəkildə ifadə edir.
**Dərslik, səh. 41**

**e.** Bu fəsildə aldığınız məlumatlara və aşağıdakı şəkillərə əsasən "Dahi bəstəkarın adının əbədiləşdirilməsi" mövzusunda təqdimat hazırlayın.

Şagirdlər bu fəsildə Üzeyir bəy Hacıbəyli haqqında aldıqları məlumatlara və tapşırıqda təqdim edilmiş şəkillərə, şəkilaltı məlumatlara əsasən təqdimat mətni hazırlayırlar.

**Nümunə:**

Üzeyir Hacıbəyli Azərbaycan musiqisinin banisi, böyük bəstəkar və milli mədəniyyətimizin simasıdır. Onun yaradıcılığı və xidmətləri Azərbaycan xalqının yaddaşında silinməz iz qoymuşdur. Xalqımız dahi bəstəkarın adını daim əbədiləşdirmişdir.

1995-ci ildə Üzeyir Hacıbəylinin 110 illik yubileyinə həsr edilmiş marka buraxılmışdır. 2008-ci ildə bəstəkarın təsviri olan qızıl xatirə sikkəsi hazırlanmış və kolleksiyaçılar üçün təqdim olunmuşdur. Azərbaycanın və dünyanın müxtəlif bölgələrində dahi bəstəkarın xatirəsinə həsr edilmiş abidələr ucaldılmışdır. Məsələn, Vyanada Üzeyir Hacıbəylinin abidəsi qoyulub. Bu, Üzeyir Hacıbəylinin həm ölkə daxilində, həm də beynəlxalq səviyyədə tanınmasını göstərir.

Azərbaycan Dövlət Konservatoriyası və Musiqi Texnikumu Üzeyir Hacıbəylinin adı ilə bağlıdır. Konservatoriyada portretləri, foto və xatirə əşyaları sərgilənir.

Bu xatirələr dahi bəstəkarın yaradıcılığı haqqında məlumatları gələcək nəsillərə ötürür və gənc musiqiçilərə ilham verir.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Dinlədiyi mətndəki obraz, fakt və fikirlərə münasibət bildirir. | Tapşırıq a, b, c, ç, d (dərslik) |
| Aldığı məlumatları rabitəli mətn halına salaraq şifahi təqdim edir. | Tapşırıq e (dərslik) |

# 5-ci DƏRS
# Mürəkkəb sözlərin yazılışı

**Təlim nəticələri:**
• Mürəkkəb sözlərin yazılış qaydalarına riayət edir (st. 4.1.2).
• Hiponimləri sinonimlərdən fərqləndirir və onların iştirakı ilə yaranan mürəkkəb sözlərin yazılış qaydalarına əməl edir (st. 4.1.3).

**Mövzuya yönəltmə.** İlk tapşırıqlar (a, b, c, ç) motivasiya xarakterlidir və şagirdlərin mürəkkəb sözlərin yazılışı haqqında ilkin biliklərini xatırlatmaq məqsədi daşıyır.

**Dərslik, səh. 42**



Layihə

**a.** Mürəkkəb sözlərin tərkib hissələrinə diqqət edin. Uyğunluğu müəyyən edin.

Cavab:
1 – d, 2 – ç, 3 – a, 4 – b, 5 – e, 6 – c.
**Dərslik, səh. 42**

**b.** Cümlələrdəki mürəkkəb sözlərin yaranma yollarını müəyyən edin.

Cavab:
1) bərpa-quruculuq – yaxınmənalı sözlərin birləşməsi
2) dənizkənarı – müxtəlifmənalı sözlərin birləşməsi
3) ictimai-siyasi – yaxınmənalı sözlərin birləşməsi
4) gec-tez – əksmənalı sözlərin iştirakı
5) filankəs – müxtəlifmənalı sözlərin birləşməsi
6) birbəbir – bitişdiricilərin iştirakı ilə eyni sözün təkrarı
**Dərslik, səh. 42**

**c.** Verilmiş sözlərin köməyi ilə mürəkkəb sözlər düzəldib yazın.

Cavab:
Əksmənalı sözlər: gecə-gündüz, get-gəl, dərə-təpə
Eyni sözlərin təkrarı: tez-tez, gülə-gülə, az-az
Ayrılıqda işlənə bilməyən sözlər: əyri-üyrü, kağız-kuğuz, qara-qura
Yaxınmənalı sözlər: adət-ənənə, gözəl-göyçək, gül-çiçək
Müxtəlifmənalı sözlər: gözmuncuğu, ayaqaltı, dəvəquşu
**Dərslik, səh. 42**

**ç.** Nöqtələrin yerinə *a, ha, ba, bə* bitişdiricilərindən uyğun gələnini yazmaqla cümlələri köçürün.

Cavab:
1. Müəllim məsələnin həlli yolunu *addımbaaddım* izah edirdi.
2. Elə *gəlhagəlin* belə də *gethagedi* olar. *(Atalar sözü)*
3. Birdən camaatın arasına *qaçaqaç* düşdü.
4. Azərbaycanın beynəlxalq aləmdə nüfuzu *günbəgün* artır.

**Dərslik, səh. 42**

**d.** Hər sırada səhv yazılmış sözü müəyyən edin. Mürəkkəb sözlərin yazılışına aid bilgilərinizə əsasən seçiminizi izah edin.

Cavab:
1-ci sırada: a. *Gözütox* sözü bitişik yazılmalıdır, çünki müxtəlifmənalı sözlərin birləşməsi ilə yaranan mürəkkəb sözlər bitişik yazılır.

2-ci sırada: b. *Səs-küy* sözü defislə yazılmalıdır, çünki yaxınmənalı sözlərin birləşməsi ilə yaranan mürəkkəb sözlər defislə yazılır.

3-cü sırada: b. *Qaçaqaç* sözü bitişik yazılmalıdır, çünki bitişdiricilərin iştirakı ilə eyni sözün təkrarından yaranan mürəkkəb sözlər bitişik yazılır.

**Dərslik, səh. 43**

**e.** Cümlələrdə azaltma və çoxaltma dərəcəsində işlənmiş sifətlərin düzgün yazılışını müəyyən edin.

Cavab:
1. Məktubun *sarıtəhər* kağızı onun neçə illər öncə yazıldığını göstərirdi.
2. Qızın *dümqara* saçları ay işığında parıldayırdı.
3. Layihənin işləri *ala-yarımçıq* olduğu üçün vaxtında təhvil verilə bilmədi.
4. *Tünd-qırmızı* güllər bağçaya xüsusi yaraşıq verirdi.



Layihə

**Dərslik, səh. 43**

**ə.** Verilmiş sözləri ümumi mənasına görə cədvəl üzrə qruplaşdırın.

| qohum | ərzaq | əmək aləti | geyim | bədən üzvü |
|---|---|---|---|---|
| əmi, nənə, bibi, ana | süd, qatıq, xama, ayran | mişar, kəlbətin, mala, rəndə, çəkic | şalvar, köynək, palto, don, papaq | ayaq, qol, çənə, çiyin |

**Dərslik, səh. 43**

**f.** Verilmiş mürəkkəb sözlərin tərkibindəki sözlərin mənasını izah edin. Onların bildirdiyi ümumi mənanı müəyyənləşdirin.

Motivasiya məqsədli bu tapşırıq şagirdlərin diqqətini yeni mövzuya yönəldir. Tapşırıqda təqdim edilən mürəkkəb sözlərin tərkib hissələri bir-birinə yaxınmənalı deyil, eyni məna qrupuna aiddir. Məsələn, alma-armud (meyvə), dəftər-kitab (məktəb ləvazimatı), süd-qatıq (süd məhsulları).

**"Bunları bilməliyik!" rubrikası.** Müəllim şagirdlərin diqqətini bu rubrikaya yönəldərək məlumatları şərh edir. "Hiponim" və "hiperonim" anlayışlarını izah edir. Komponentləri fərqli anlayışları ifadə edən, yalnız eyni məna qrupuna aid olan mürəkkəb sözlər və onların yazılışı haqqında məlumat verir.

**Dərslik, səh. 43**

**g.** Uyğunluğu müəyyənləşdirərək hiponimlərin iştirakı ilə mürəkkəb sözlər yaradıb yazın.

Cavab: dost-tanış, dəftər-kitab, meyvə-tərəvəz, oğul-uşaq, qol-qanad, şimal-qərb, dil-dodaq, şalvar-köynək, çəngəl-bıçaq, nəvə-nəticə.

**Dərslik, səh. 43**

**ğ.** Mürəkkəb sözlər düzəldin. Həmin sözlər bitişik, yoxsa defislə yazılmalıdır? Fikrinizi əsaslandırın.

1) Qara-qura (komponentlərindən biri təklikdə işlənə bilmir), qarabəniz, qaragöz (müxtəlifmənalı sözlərin birləşməsindən yaranıb)

2) Açıqürəkli (müxtəlifmənalı sözlərin birləşməsindən yaranıb), açıq-saçıq (komponentlərindən biri təklikdə işlənə bilmir), açıq-aşkar (yaxınmənalı sözlərin iştirakı ilə yaranıb)

3) Gül-çiçək (yaxınmənalı sözlərin iştirakı ilə yaranıb), gülçöhrə, gülbəniz (müxtəlifmənalı sözlərin birləşməsindən yaranıb)

**İş dəftəri, səh. 16**

**a.** Mürəkkəb sözlərin tərkib hissələrinə diqqət et. Cədvəl üzrə qruplaşdır.

Cavab:

| Mürəkkəb sözlərin yaranma yolları | Nümunələr |
|---|---|
| müxtəlifmənalı sözlərin birləşməsi | günorta, istiqanlı |
| eyni sözün təkrarı | gec-gec, baxa-baxa |
| bitişdiricilərin iştirakı ilə eyni sözün təkrarı | gəlhagəl, qaçaqaç |
| əksmənalı sözlərin iştirakı | irəli-geri, yalan-gerçək |
| biri ayrılıqda işlənə bilməyən sözlərin iştirakı | kol-kos, sür-sümük |
| hiponimlərin iştirakı | xalça-palaz, qol-qanad |
| yaxınmənalı sözlərin iştirakı | gözəl-göyçək, qəm-qüssə |

Layihə

**İş dəftəri, səh. 16**

**b.** Fərqləndirilmiş sözlərə uyğun hiponimlər artırmaqla mürəkkəb sözlər düzəldib cümlələri tamamla.

Cavab:
1) stol-stul; 2) göz-qulaq; 3) qoyun-quzu; 4) söz-söhbət; 5) əl-ayaq; 6) dil-dodaq

**İş dəftəri, səh. 16**

**c.** Hər sütunda orfoqrafik normalara uyğun olmayan sözü seç.

Cavab:
tünd-göy, ala-yarımçıq, açıq söhbət

**İş dəftəri, səh. 16**

**ç.** Cümlələrdə səhv yazılmış mürəkkəb sözləri seçib düzgün yaz.

Cavab:
1) beşmərtəbəli; 2) üçbucaqlı; 3) itburnu; 4) bəzək-düzək.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mürəkkəb sözlərin yazılış qaydalarına riayət edir. | Dərslikdə və iş dəftərində təqdim edilmiş tapşırıqlar |

Layihə

# 2-ci fəsil
# ƏSRİN DAHİSİ – SƏNƏTİN FƏDAİSİ

## 1-ci DƏRS
## Peyzaj

**Təlim nəticələri:**
- Verbal və qrafik materialları (şəkil) şərh etməklə mövzu üzrə danışır (st. 2.1.3).
- Müəllifin mətndə istifadə etdiyi üslubi xüsusiyyətləri (yarımçıq cümlələr) və bədii priyomları (bədii detallar) müəyyən edir (st. 3.1.5).

**Mövzuya yönəltmə.** Müəllim şagirdlərin diqqətini fəslin adına yönəldir. “Fədai” sözünün mənası araşdırılır.

Bu ifadədə “fədai” sözü məcazi mənada işlənmişdir: ümumi bir iş yolunda, məslək uğrunda təhlükəli işlərə qoşulub canından keçməyə hazır olan şəxs. Məsələn, sənətin fədaisi deyərkən öz sənəti uğrunda canından belə keçməyə hazır olan şəxs nəzərdə tutulur.

**Dərslik, səh. 44**

**a.** Rəsm əsərinə diqqətlə baxın. Hər bir detalı nəzərdən keçirin. Əsər haqqında məlumatı oxuyun və suallar əsasında tablonu şərh edin.

**“Sözlərin izahı” rubrikası.** Şagirdlər bu rubrikada verilmiş “peyzaj” sözünün mənası ilə tanış olurlar. Müəllim şagirdlərin diqqətini tapşırıqda təqdim edilmiş tabloya yönəldir. Şagirdlər tapşırıqda təqdim edilmiş məlumatları rabitəli nitqə çevirərək tablo haqqında ümumi məlumat verirlər.

**Nümunə:** “Torpağın arzusu” 1963-cü ildə Azərbaycanın görkəmli rəssamı Səttar Bəhlulzadə tərəfindən çəkilmişdir. Ölçüləri 150 sm × 225 sm olan kətan üzərində yağlı boya ilə işlənmiş bu əsər peyzaj janrındadır. Hal-hazırda Azərbaycan Milli İncəsənət Muzeyində saxlanılır.

Şagirdlər tapşırığa qoyulmuş sualları cavablandırmaqla tablonu şərh edirlər.

**Oxu. Oxuyub-qavrama**

**Dərslik, səh. 45**

**b.** İndi isə həmin mənzərənin sözlə təsvirini oxuyun. Mətndə işlənən bənzətmələrə əsasən cədvəli tamamlayın. Peyzajın yaradılmasında bənzətmənin rolunu izah edin.

**Mətnlə iş**. Şagirdlər tapşırıqda qoyulmuş cədvəllə tanış olurlar. Daha sonra mətni oxuyur, tapşırıqda qoyulmuş cədvəli tamamlayırlar.

**Müəllimin nəzərinə!** Mətnin bir neçə şagird tərəfindən səsli və ifadəli oxunması tövsiyə edilir. Şagirdlərə “bənzətmə”, “bənzəyən” və “bənzədilən” sözlərinin nümunələrlə izahı məqsədəuyğundur.

Cavab:

| Bənzətmə | Bənzəyən | Bənzədilən |
|---|---|---|
| Lalələr küləyin ahəstə toxunuşuyla dəniz kimi dalğalanır. | lalələr | dəniz |
| Gölün suyu o qədər durudur ki, sanki güzgüdür. | gölün suyu | güzgü |
| Dağlar dumana elə bürünüb ki, sanki yorğandır. | duman | yorğan |

Layihə

| | | |
|---|---|---|
| Əkin sahələri rəssamın palitrası kimi görünür. | əkin sahələri | palitra |

**Dərslik, səh. 45**

**c.** Mətnin ilk cümləsini bir daha oxuyun. Sizcə, nə üçün müəllif cümlədə söz sırasını pozub? Söz sırasını bərpa edib cümləni yenidən oxuyun. Cümlələrin təsir gücünü müqayisə edin.

**“Sözlərin izahı” rubrikası.** Şagirdlər “inversiya” sözünün izahı ilə tanış olurlar.

**Müəllimin nəzərinə!** Şagirdlər aşağı siniflərdən cümlədə söz sırası mövzusu ilə tanışdırlar. Onların diqqətinə inversiyanın bədii ifadə vasitəsi kimi rolunu çatdırmaq tövsiyə edilir.

**Dərslik, səh. 45**

**ç.** Hansı cümlələr daha yüksək bədii təsir gücünə malikdir? Səbəbini izah edin.

Cavab: 1. A) Dəyişir donunu meşə, dağ, dərə.
2. A) Həzin nəğmə deyir indi bağça, bağ.
Bu cümlələrdə inversiyadan istifadə edilib və cümlənin təsir gücü daha da artıb.

**İş dəftəri, səh. 17**

**a.** Söz sırasını bərpa edərək şeiri nəsrə çevirib yaz.

Cavab: Günəşdən tez oyanıb öz bağımda gəzirəm. Bu ana torpağımda nələr, nələr bitməyir! Ağaclar min dil töküb sanki mənə “gəl” deyir. Deyir ki, gəl bizə ot-alaq əngəl olmasın. Şeh çiçəklərin üstdə incilərtək parlayır. Deyirəm ki, mən həvəsdə bir bağban tapılmaz. Əkdiyim hər fidançın əldən-ayaqdan gedib bağ-bostanın canını alaqdan qurtararam.

**İş dəftəri, səh. 17**

**b.** Şeirdə inversiyadan istifadə edilmiş misralarda söz sırasını bərpa edib yaz. Şeirdə işlənən bənzətmələrə əsasən cədvəli tamamla.

Cavab:
1. Dünyada məktəb yolları kimi əziz nə var? Məktəb yolları qarşımızda ana qolları kimi açılır.
2. Bizim məktəbə baxın. Məktəbimiz dağ kimi dayanıbdır. Cığırlar bu dağdan bulaq kimi axıb gedir.
3. Cığırlar boyunbağıya, sapa bənzər. Uşaqlar muncuq kimi bu saplara düzülər.

| Bənzətmə | Bənzəyən | Bənzədilən |
|---|---|---|
| Məktəb yolları qarşımızda ana qolları kimi açılır. | məktəb yolları | ana qolları |
| Məktəbimiz dağ kimi dayanıbdır. | məktəbimiz | dağ kimi |
| Cığırlar bu dağdan bulaq kimi axıb gedir. | cığırlar | bulaq kimi |
| Cığırlar boyunbağıya, sapa bənzər. | cığırlar | boyunbağı, sap |
| Uşaqlar muncuq kimi bu saplara düzülər. | uşaqlar | muncuq kimi |

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Verbal və qrafik materialları (şəkil) şərh etməklə mövzu üzrə danışır. | Tapşırıq a (dərslik) |

Layihə

| | |
|---|---|
| Müəllifin mətndə istifadə etdiyi üslubi xüsusiyyətləri müəyyən edir. | Tapşırıq b, c (dərslik); a, b (iş dəftəri) |

# 2-ci DƏRS
## Torpağın arzusu

**<u>Təlim nəticələri</u>:**
- Yeni tanış olduğu sözə uyğun gələn izahı müəyyən edir (st. 3.1.2).
- Sözün həqiqi və məcazi mənalarını fərqləndirir (st. 3.1.2).
- Bədii mətndəki obrazlara, onların davranışına, müəllif mövqeyinə münasibət bildirir (st. 3.1.4).

**Mövzuya yönəltmə**

**Dərslik, səh. 46**

**a.** "Torpağın arzusu" tablosuna bir daha nəzər salın. Siz bu əsəri necə adlandırardınız? Mətni oxuyun və mətni yazmaqda müəllifin məqsədini müəyyən edin.

**Oxu**

**Mətnlə iş.** Şagirdlər "Torpağın arzusu" mətnini oxuyur, mənasını anlamadıqları sözləri lüğət vasitəsilə araşdırırlar.

**Söz ehtiyatı**

**Dərslik, səh. 47**

**b.** "Söz mücrüsü"ndən izahlara uyğun gələn sözləri seçin.

<u>Cavab</u>: 1 – səciyyəvi, 2 – laləzar, 3 – cansıxıcı, 4 – kəsək, 5 – təravətli.

**Dərslik, səh. 47**

**c.** "Sarsıtmaq" sözünün hansı izahı mətndəki mənasına uyğundur?

<u>Cavab</u>: 2. Məcazi mənada: bərk həyəcanlandırmaq, narahat etmək. □Olub-keçənlər Əşrəf kişini bərk sarsıtmışdı.

**Oxuyub-qavrama**

**Dərslik, səh. 47**

**ç.** Aşağıdakı fikri oxuyun və mətnin məzmunu ilə əlaqələndirib şərh edin.

<u>Şagirdlərin cavabı müxtəlif ola bilər</u>. **Nümunə:** Səttar Bəhlulzadə sadəcə gözəlliyi müşahidə edən bir rəssam deyildi. O, təbiəti görmək istədiyi kimi, öz təsəvvürü və duyğuları ilə təsvir edirdi.

**Dərslik, səh. 47**

**d.** Səttar Bəhlulzadə əsərini nə üçün "Torpağın həsrəti" adlandırmışdır? Mətnin məzmununa əsasən əsərin adını şərh edin.

<u>Cavab nümunəsi</u>: Səttar Bəhlulzadə əsəri "Torpağın həsrəti" adlandırmaqla təbiətin həsrətini, onun yenidən canlanmaq istəyini, susuzluqdan doğan kədərini ifadə etmək istəyirdi.

**Dərslik, səh. 47**

**e.** Sizcə, nə üçün insanlar sonradan bu əsəri "Torpağın arzusu" adlandırdılar? Siz bu tablonu necə adlandırardınız?

<u>Şagirdlərin cavabı müxtəlif ola bilər</u>. Çünki tabloda torpağın həsrəti yox, ümidi və arzusu daha çox ön plana çıxır. Səttar Bəhlulzadə Ceyranbatan gölünün qurumuş sahilində tək bir lalə görür və bu lalə sanki torpağın yenidən canlanmaq, laləzara çevrilmək arzusunu simvolizə edir. Tabloda da məhz laləzara bürünmüş bir Ceyranbatan təsvir olunur. Bu isə reallıqdan çox, torpağın içində gizlənmiş

Layihə

böyük arzunu göstərir. Ona görə insanlar əsərin mahiyyətini əks etdirən "Torpağın arzusu" adını daha uyğun biliblər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Yeni tanış olduğu sözə uyğun gələn izahı müəyyən edir. | Tapşırıq b (dərslik) |
| Sözün həqiqi və məcazi mənalarını fərqləndirir. | Tapşırıq c (dərslik) |
| Bədii mətndəki obrazlara, onların davranışına, müəllif mövqeyinə münasibət bildirir. | Tapşırıq ç, d, e (dərslik) |

# 3-cü DƏRS
# Təsviri mətn

**Təlim nəticələri:**

• Fakt, hadisə, fikir və təəssüratlarını yazıda əks etdirir (st. 4.1.1).

**Mövzuya yönəltmə.** Şagirdlər bu fəslin birinci dərsində təsviri mətnlə tanış olublar. Müəllim şagirdlərin diqqətini dərsliyin 44 və 45-ci səhifəsinə yönəldir. Onlar bir daha "Torpağın arzusu" tablosuna baxır və bu tablonun sözlərlə təsvirini oxuyurlar.

**Dərslik, səh. 48**

**a.** Səttar Bəhlulzadənin mənzərə tablolarına baxın. Təqdim edilən məlumatlardan və söz ehtiyatından istifadə edərək qısa təsviri mətn yazın.

Bu tapşırıq qruplarla yerinə yetirilir. Əvvəlcə şagirdlər 2 qrupa ayrılır.

**Müəllimin nəzərinə!** Şagirdlərə təsviri mətn haqqında məlumat verilməsi məqsədəuyğundur.

Təsviri mətn bir əşyanın, təbiət mənzərəsinin, insanın, hadisənin və ya məkanın xüsusiyyətlərini, görünüşünü və vəziyyətini sözlərlə canlandıran mətn növüdür. Bu mətn oxucuya təsvir olunan şeyi "gözünün qarşısında canlandırmağa" kömək edir.

Təsviri mətnin əsas xüsusiyyətləri:

• Əşyaların və ya hadisələrin detallı təsviri verilir (rəng, forma, ölçü, səslər, qoxular və s.).
• Məqsəd — oxucuda təsəvvür yaratmaqdır.
• Sifət və bənzətmələrdən çox istifadə edilir.

Hər bir qrupa Səttar Bəhlulzadənin bir tablosu təqdim edilmişdir. İstifadə üçün hər tabloya aid məlumatlar, söz ehtiyatı, bənzətmələr təqdim edilmişdir. Şagirdlər həmin məlumatlardan, söz ehtiyatından istifadə edərək tabloya aid təsviri mətn yazırlar.

**I qrup. "Amsar bağlarında" tablosunun təsvirinə nümunə:**

Səttar Bəhlulzadənin 1959-cu ildə çəkdiyi "Amsar bağlarında" tablosu sakit və gözəl bir peyzaj əsəridir. Tabloda uzaqda ucalan dağ zirvələri görünür. Onların qarlı yamacları uzaqdan sanki pambıq tayalarına bənzəyir. Səmanın üzərində dolaşan çəhrayı buludlar ağ yelkənli gəmilər kimi yavaş-yavaş üzür.

Dağların ətəyində geniş çəmənlik uzanır. Yerə sərilmiş yumşaq bir xalını xatırladır bu al-əlvan yamaclar. Çəmənlik boyu əkilmiş ağaclar isə sıra ilə düzülmüş əsgərləri xatırladır. Onlar sanki bu gözəlliyi qoruyurlar.

Gün batır və günəşin zəif işığı ağacların gövdəsinə toxunur. Ətrafdakı saralmış kollar payızın yaxınlaşdığından xəbər verir.

Tablodakı hər şey — dağlar, otlar, buludlar birlikdə çox sakit və gözəl bir mənzərə yaradır.

Layihə

**II qrup. "Göygöl" tablosunun təsvirinə nümunə:**

Səttar Bəhlulzadənin 1964-cü ildə yaratdığı "Göygöl" tablosu təbiətin gözəlliyini özündə əks etdirən bir peyzaj əsəridir. Kətan üzərində yağlı boya ilə çəkilmiş tablo sanki insanı sehrli bir məkana aparır.

Tablonun fonunda əzəmətli dağlar ucalır. Onların uca zirvələri ağappaq dumanla örtülüb. Ağ duvağa bürünmüş gəlinə bənzəyir bu dağlar.

Dağların al-əlvan xalçaya bənzəyən yamacları göz oxşayır. Rənglərin müxtəlifliyi o qədər zəngindir ki, bu yamaclar rəssamın rəng palitrasını xatırladır. Sanki təbiət özü bir rəssama çevrilib və torpağı ən gözəl boyalarla bəzəyib.

Aşağıda, rəngbərəng yamacların arasında sakit bir göl uzanır. Gölün səthi o qədər təmiz və hamar təsvir edilib ki, sanki hər şeyi əks etdirən bir güzgüdür. Dağlar, ağaclar gölün üzərində əks olunur.

Gölün ətrafında rəngarəng təbiət canlanır. Ağaclar al-əlvan payız rənglərinə bürünərək elə bil toy əhli kimi yaraşıqlı geyiniblər.

Bəhlulzadənin fırçası ilə yaranmış bu tablo təbiətin təkcə gözəlliyini deyil, həm də onun əzəmətini, rənglərini duymağa imkan verir.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Fakt, hadisə, fikir və təəssüratlarını yazıda əks etdirir. | Tapşırıq a (dərslik) |

# 4-cü DƏRS
# Ustadın məsləhəti

**Təlim nəticələri:**

- Kontekstdən çıxış edərək söz və ifadələrin mənasını müəyyən edir (st. 3.1.2).
- Yeni tanış olduğu sözə uyğun gələn izahı müəyyən edir (st. 3.1.2).
- Mətndə ifadə olunmuş fikirlə bağlı mülahizəsini bildirir və onu əsaslandırır (st. 3.1.4).

**Mövzuya yönəltmə**

**Dərslik, səh. 50**

**a.** "Tənqid" sözünün izahı ilə tanış olun. Sizcə, hər hansı sənət əsərini tənqid etmək onu, sadəcə, pisləmək və ya tərifləməkdən nə ilə fərqlənir?

"Tənqid" sözü bu mətnin açar sözlərindən biridir. Motivasiya xarakterli bu sual şagirdləri istiqamətləndirir.

**Oxu. Mətn üzrə iş.**

"Ustadın məsləhəti" mətni şagirdlər tərəfindən oxunur və mənasını anlamadıqları sözlər üzrə iş aparılır.

**Söz ehtiyatı**

**Dərslik, səh. 51**

**b.** "Fürsət" sözünün izahı ilə tanış olun. Aşağıdakı ifadələri cümlələrdə işlədin.

**Cümlələrə nümunə:**

Müəllim Ranqa Raca öz istedadını göstərməsi üçün tam fürsət verdi.
Racın rəssamlıq bacarığını nümayiş etdirmək üçün əlinə fürsət düşdü.
O bu əlverişli fürsəti əlindən qaçırmaq istəmirdi.
Səlim səbir etməsəydi, öz istedadını nümayiş etdirmək üçün verilən fürsəti əldən verərdi.

Layihə

**Dərslik, səh. 52**

**c.** "Söz mücrüsü"ndən izahlara uyğun gələn sözləri seçin.

Cavab: 1 – cürət etmək; 2 – məzun; 3 – qapılmaq; 4 – mükəmməl.

**Dərslik, səh. 52**

**ç.** Mətndən verilmiş cümləni bir daha oxuyun. "İncəlik" sözü bu cümlədə hansı mənasında işlənmişdir?

Cavab: 3. Ən xırda təfərrüat, bir şeyin ən spesifik cəhəti

**Oxuyub-qavrama**

**Dərslik, səh. 52**

**d.** Mətnin əsas ideyasını ifadə edən fikirləri seçin və həyatdan nümunələr gətirməklə şərh edin.

Cavab: 1 və 3-cü fikirlər mətnin ideyasını əks etdirir.

**1. İnsanlar tənqidə hər zaman hazırdırlar, amma düzəltməyə gəlincə çoxu susmağa üstünlük verirlər.**

Həyatdan nümunə: Sosial mediada insanlar tez-tez bir işi tənqid edir, amma problemi həll etmək üçün təklif vermir və ya kömək etməyə cəsarət etmirlər.

**3. Müəllifi tənqid etmək asan, qiymətləndirmək çətindir.** ***(Lyuk de Klapye Vovenarq)***

Bəzən insanlar hər hansı bir əsəri tənqid edirlər. Lakin hər hansı bir işi düzgün qiymətləndirmək üçün onu dərindən araşdırmaq, mahiyyətini anlamaq lazım gəlir. Bu isə zəhmət tələb edir.

**Dərslik, səh. 52**

**e.** Ranqanın Raca verdiyi məsləhəti bir daha oxuyun və mətnin əsas ideyası ilə əlaqələndirib şərh edin.

Cavab: Hər hansı bir sahədə uğur qazanmaq üçün istedad və bacarıqla yanaşı, tənqidlərə qarşı səbirli olmaq lazımdır. Dözümlülük və tənqid qarşısında səbir insanı uğura aparan vacib amillərdir.

**Dərslik, səh. 53**

**ə.** Sizcə, Ranqanın "sonuncu imtahan"ının məqsədi nə idi? Bu hadisə Racın gələcək həyatı üçün niyə önəmli idi?

Cavab: Ranqanın sonuncu imtahanı Racın yalnız rəssamlıq bacarığını yoxlamaq üçün deyil, dözümlülüyünü, tənqid qarşısında səbrini və özünə inamını inkişaf etdirmək məqsədi daşıyırdı. Bu təcrübə onun gələcək həyatı üçün vacib bir dərs oldu.

**İş dəftəri, səh. 18**

**a.** "Ustadın məsləhəti" mətninə aid hekayə xəritəsini tamamla.

Şagirdlər "Ustadın məsləhəti" mətninə aid hekayə xəritəsini tamamlayır və bu mətni oxuyub qavradıqlarını nümayiş etdirirlər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Kontekstdən çıxış edərək söz və ifadələrin mənasını müəyyən edir. | Tapşırıq a, b, ç (dərslik) |
| Yeni tanış olduğu sözə uyğun gələn izahı müəyyən edir. | Tapşırıq c (dərslik) |
| Mətndə ifadə olunmuş fikirlə bağlı mülahizəsini bildirir və onu əsaslandırır. | Tapşırıq d, e, ə (dərslik) |

Layihə

# 5-ci DƏRS
# Tərəfləri qrammatik şəkilçi ilə işlənən mürəkkəb sözlər

**Təlim nəticələri:**
- Mürəkkəb sözlərin yazılış qaydalarına riayət edir (st. 4.1.2).

**Mövzuya yönəltmə**

**Dərslik, səh. 53**

**a.** Sizcə, cümlələrdə yanaşı gələn hansı sözlər vahid məna bildirir, bir suala cavab verir və defislə yazılır?

Motivasiya xarakterli bu tapşırıq şagirdlərin diqqətini mövzuya yönəldir. Şagirdlər cümlələrdə fərqləndirilmiş ifadələri oxuyur və sual verirlər. Müəllim hansı ifadələrin bir suala cavab verdiyini onlardan soruşur, daha sonra həmin ifadələrlə bağlı izahat verir.

Cavab: 1-ci cümlədə "başdan-başa" ifadəsi bir suala cavab verir, yəni bütünlüklə, tamamilə.

**"Bunları bilməliyik!" rubrikası.** Müəllim rubrikada verilmiş məlumatları nümunələr əsasında izah edir.

**Dərslik, səh. 53**

**b.** Hansı cümlələrdə fərqləndirilmiş sözlər defislə yazılmalıdır?

Cavab: 1. Eyvazla Aslan ***uzaqdan-uzağa*** qohum idlər.

4. Bu şəhər haqqında əfsanə tezliklə ***dildən-dilə düşüb*** yayıldı.

**"Bunları bilməliyik!" rubrikası.** Müəllim rubrikada verilmiş məlumatları nümunələr əsasında izah edir.

**Dərslik, səh. 53**

**c.** Aşağıdakı sözləri tərkib hissələrinə ayırın. Hansı sözlər defislə yazılmalıdır?

Cavab: eks-çempion, qeyri-adi, əks-istiqamət, art-dizayn, vitse-prezident.

**İş dəftəri, səh. 19**

**a.** Cümlələrdə fərqləndirilmiş sözlərin mənasına əsasən uyğunluğu müəyyən et.

Cavab: 1 – c, 2 – ç, 3 – d, 4 – b, 5 – a.

**İş dəftəri, səh. 19**

**b.** Cümlələri oxu. Altından xətt çəkilmiş uyğun sözlər arasında defis yaz.

Cavab: sonradan-sonraya, ildən-ilə

**İş dəftəri, səh. 19**

**c.** Səhv yazılmış sözü müəyyən et.

Cavab: a. evdən evə köçmək

**İş dəftəri, səh. 19**

**ç.** Hansı cümlələrdə səhv yazılmış söz var? Onları müəyyən et və orfoqrafik normalara uyğun yaz.

Cavab: 1. Şirkətin ***vitse-prezidenti*** yeni layihələr haqqında təqdimat keçirdi.

2. Dünənki turnirdə ***eks-çempionlar*** iştirak edirdilər.

3. O, ***art-biznes*** sahəsində uğur qazanmaq üçün sərgilərdə iştirak edir.

4. Tədbirdə təqdim olunan geyimlər ***qeyri-adi*** dizaynı ilə seçilirdi.

Layihə

**İş dəftəri, səh. 19**

**d.** Tərkibində art-, eks-, əks-, kontr-, qeyri-, ober-, veb-, vitse- morfemləri olan mürəkkəb sözlərə nümunə yaz.

Şagirdlərin cavabı təxminən belə ola bilər: art-dizayn, eks-prezident, kontr-admiral, qeyri-dəqiq, ober-leytenant, veb-sayt, vitse-prezident.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mürəkkəb sözlərin yazılış qaydalarına riayət edir. | Dərslikdə və iş dəftərində təqdim edilmiş tapşırıqlar |

Layihə

# 3-cü fəsil
# CIĞIR AÇAN QADINLAR

## 1-ci DƏRS
## Stereotipləri qıran qadınlar

**Təlim nəticələri:**
• Verilmiş informasiyalardan istifadə etməklə rabitəli mətn yazır (st. 4.1.1).

**Mövzuya yönəltmə**
**Dərslik, səh. 54**

**a.** Bəzən peşə seçimindən söhbət düşəndə “kişi peşəsi”, “qadın peşəsi” ifadələri işlədilir. Bu cür stereotiplərə münasibətinizi bildirin.

**“Sözlərin izahı” rubrikası.** “Stereotip” sözünün izahı verilir. Daha sonra tapşırıqdakı sualla bağlı şagirdlərin fikirləri dinlənilir, müzakirə edilir.

**Yazı**
**Dərslik, səh. 54**

**b.** Məlumat vərəqlərini oxuyun. Verilmiş plan əsasında esse yazın.

**Müəllimin nəzərinə!** İlk növbədə şagirdlərin məlumat vərəqindəki məlumatları necə qavradıqlarını yoxlamaq tövsiyə edilir. Bu məqsədlə aşağıdakı tapşırıqlardan istifadə etmək olar.

**1. Frontal sorğu.**

• Şövkət Məmmədova hansı sənət sahəsində ilk qadın hesab olunur? Onun Avropada təhsili yarımçıq qalmasının səbəbi nə idi? O, cəmiyyətdə hansı çətinliklərlə üzləşmişdi?

• Qəmər Almaszadə hansı sənətdə ilk qadın kimi tarixə düşüb? O hansı baletdə baş rol ifa edib? Cəmiyyətin hansı stereotipini qırıb?

• Xədicə Əlibəyova hansı peşənin sahibi idi? O hansı qəzetin təsisçisidir? Onun yazılarında əsas mövzular nə idi? Qəzetin fəaliyyətinin dayanmasının səbəbi nə idi?

**2. Müzakirə sualları:**

• Niyə bütün bu qadınlar cəmiyyətin ciddi qınağına məruz qalırdı?
• Onların mübarizəsi gələcək nəsil üçün nəyi dəyişdi?
• Hər üç qadının fəaliyyətində ortaq cəhət nədir?

Məlumat vərəqlərinin müzakirəsindən sonra şagirdlər essenin planı ilə tanış olurlar. Plan müzakirə edilir, şagirdlərin sualları cavablandırılır.

**Esse nümunəsi:**

**Stereotipləri qıran qadınlar**

Cəmiyyətdə mövcud olan stereotiplər uzun illər boyu qadınların inkişafına ciddi maneələr yaradıb. Onların təhsil alması, istədikləri peşəyə yiyələnməsi, ictimai həyatda söz sahibi olması çox vaxt qadağalarla, qınaqlarla qarşılanıb. Halbuki qadınların azad düşüncəsi və fəaliyyəti bütün cəmiyyətin inkişafına təsir edir.

Tarixdə bu stereotipləri qıran cəsarətli qadınlar çoxdur. Şövkət Məmmədova Azərbaycan səhnəsində ilk qadın opera müğənnisi kimi çıxış etdikdə böyük cəsarət göstərmişdi. O, cəmiyyətin qınaqlarına baxmayaraq, sənətini davam etdirib və gələcək nəsil qadın ifaçılar üçün yol açıb.

Eyni cəsarəti Qəmər Almaszadə də nümayiş etdirib. O, balet kimi zərif, eyni zamanda, çətin bir sənəti Azərbaycanda inkişaf etdirib. Bununla da ilk peşəkar qadın balerina kimi tarixə adını yazdırıb. Cəmiyyətin “qadın səhnəyə çıxmamalıdır” kimi fikirlərinə qarşı çıxaraq bu stereotipləri qırıb.

Xədicə Əlibəyova isə başqa bir sahədə — mətbuatda qadınların səsini yüksəldib. O, 1911-ci ildə

Layihə

"İşıq" qəzetini təsis edib. Bu həmin dövr üçün olduqca böyük və cəsarətli addım idi. Xədicə xanım maarifçilik məqalələri ilə qadınların təhsilini, hüquqlarını müdafiə edib, onları öz sözünü deməyə çağırıb.

Stereotipləri qıran bu qadınlar yalnız öz həyatlarını dəyişmədilər. Onlar bütün millətin inkişafına təsir göstərdilər. Onların fəaliyyəti ictimai düşüncəni dəyişdi, qadınların hüquqlarına yeni baxış formalaşdırdı. Bu gün cəmiyyətdə gender bərabərliyinin möhkəmlənməsi məhz həmin cəsarətli qadınların atdığı addımların davamıdır. Onların izi ilə gedən hər bir qadın bu bərabərliyi daha da gücləndirir və millətin tərəqqisinə töhfə verir.

**İş dəftəri, səh. 20**

**a.** Mətni oxu və tapşırıqları yerinə yetir.

**"Zirvələri fəth edən qadınlar" mətni üzrə iş.** Şagirdlər mətni oxuyur və oxuyub-qavrama tapşırıqlarını yerinə yetirir.

**İş dəftəri, səh. 20**

**b.** Mətndən fərqləndirilmiş sözləri seçib uyğun izahın qarşısında yaz.

Cavab: 1 – ekstremal, 2 – aeroklub, 3 – potensial, 4 – gender bərabərliyi, 5 – stereotip.

**İş dəftəri, səh. 20**

**c.** Mətndə hansı suala cavab yoxdur?

Cavab: d. Leyla Məmmədbəyova neçə yaşında təyyarəçi olmuşdur?

**İş dəftəri, səh. 20**

**ç.** Mətndəki əsas fikri müəyyən et.

Cavab: Qadınlar istənilən sahədə uğur qazana bilərlər; stereotipləri qıran qadınlar cəmiyyətin düşüncəsini dəyişdirir və gender bərabərliyinə yol açırlar.

**İş dəftəri, səh. 20**

**d.** Səncə, stereotipləri qıran qadınların uğurları gənc nəslə necə təsir edə bilər? Fikrini əsaslandır.

Cavab nümunəsi: Stereotipləri qıran qadınların uğurları gənc nəslə çox müsbət təsir edir. Onlar gənclərə göstərir ki, cinsindən asılı olmayaraq hər kəs istədiyi sahədə uğur qazana bilər. Belə nümunələr gənclərdə özünə inam yaradır, daha cəsarətli olmağa, əngəllərdən qorxmamağa və arzularının arxasınca getməyə ruhlandırır.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Verilmiş informasiyalardan istifadə etməklə rabitəli mətn yazır. | Tapşırıq b (dərslik) |

Layihə

# 2-ci DƏRS
# Ayrı yazılan mürəkkəb sözlər

**Təlim nəticələri:**
• Mürəkkəb sözlərin yazılış qaydalarına riayət edir (st. 4.1.2).

**Mövzuya yönəltmə**
**Dərslik, səh. 56**

**a.** Hansı cümlədə fərqləndirilmiş sözlər bir suala cavab verir və bir cümlə üzvü kimi çıxış edir?

Motivasiya xarakterli bu tapşırıq şagirdlərin diqqətini dərsin mövzusuna yönəldir.
Cavab: Bu məqaləni yenidən ***yaza bilərəm***. (bacararam)
**"Bunları bilməliyik!" rubrikası.** Müəllim rubrikada verilmiş məlumatları nümunələrlə şərh edir.
**Dərslik, səh. 56**

**b.** Ayrı yazılan mürəkkəb sözləri tapın və hansı nitq hissəsi olduğunu müəyyən edin.

Cavab: 1. ***Heç kim (əvəzlik)*** mübarizəni görmədən uğurunu ***qiymətləndirə bilməz (feil)***.
2. ***Bir çox (say)*** insanlar uğurun yalnız bacarıqdan ***ibarət olduğunu (feil)*** düşünürlər, amma zəhmət daha vacibdir.
3. Mətndə çoxlu yeni söz olduğu üçün lüğətdən ***istifadə etdim (feil)***.
4. Şorbaya ***ikidə bir (kəsr sayı)*** stəkan süd ***əlavə etdim (feil)***.
5. ***Bu gün (zərf)*** dağı qaldıra bilən ***(feil)*** adam nə vaxtsa ***(əvəzlik)*** kiçik daşları daşımaqdan başlayıb. *(Çin atalar sözü)*
**Dərslik, səh. 56**

**c.** Hansı sözlərə "hər" sözünü əlavə etməklə mürəkkəb söz yaratmaq olar?

Cavab: hər gün, hər dəfə, hər an, hər zaman, hər şey, hər nə
**Dərslik, səh. 56**

**ç.** Hansı sözlər həm *etmək,* həm də *olmaq* köməkçi feilləri ilə işlənərək mürəkkəb sözlər yarada bilir?

Cavab: biabır, qonaq, məcbur, razı
**Dərslik, səh. 56**

**d.** Köməkçi nitq hissələrini uyğun cümlələrə artırmaqla cümlələri tamamlayın.

Cavab: 1. O, *doğrudan da,* çox istedadlı bir musiqiçidir.
2. Səlimə işinə *daha da* ciddi yanaşmağa başladı.
3. Gecikdim, *ona görə ki* avtobus uzun müddət gəlmədi.
4. Qorxdum, *ay aman,* bu nə gurultu idi!
**İş dəftəri, səh. 21**

**a.** Uyğunluğu müəyyən et və ayrı yazılan mürəkkəb sözlər düzəldib yaz.

Cavab: qaça bilmək, heç nə, zəng eləmək, kim isə, bir neçə
**İş dəftəri, səh. 21**

**b.** Uyğun nöqtələrin yerinə *olmaq* və ya *etmək* feillərini əlavə edib cümləleri tamamla.

Cavab: 1. Müştərilər yüksək xidmətə görə razılıq *etdilər.*
2. Yağışlı hava futbol matçının keçirilməsinə mane *oldu.*

3. O, vəziyyətin ciddiliyini yaxşı dərk *edirdi.*
4. Qoca otaqda sakitcə var-gəl *edirdi.*
5. Səbir və əzm sayəsində hər kəs uğura nail *olacaq.*

**İş dəftəri, səh. 21**

**c.** Cümlələrdə ayrı yazılan mürəkkəb sözləri müəyyən et və cədvəl üzrə qruplaşdır.

Cavab:

| Aid olduğu nitq hissəsi | Nümunələr |
|---|---|
| say | iki min |
| əvəzlik | heç nə |
| feil | yaza bilmək, kömək etmək, idman etmək, yardım eləmək, daxil ola bilmək |
| zərf | hər gün |
| köməkçi nitq hissələri | ay haray, həqiqətən də |

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mürəkkəb sözlərin yazılış qaydalarına riayət edir. | Dərslikdə və iş dəftərində təqdim edilmiş tapşırıqlar |

Layihə

# Ümumiləşdirici təkrar

**Təlim nəticələri:**
- Mürəkkəb sözlərin yazılış qaydalarına riayət edir (st. 4.1.2).

Dərslikdə və iş dəftərində verilmiş ümumiləşdirici təkrar müəllimə şagirdlərin bölmə üzrə keçilmiş mövzular haqqında aldıqları bilikləri möhkəmləndirməyə imkan yaradır.

**Dərslik, səh. 57**

**1.** Sütunlarda verilmiş sözlərin köməyi ilə mürəkkəb sözlər düzəldin və yaranma yollarına görə uyğunluğu müəyyən edin. Hansı yollarla yaranan mürəkkəb sözlər defislə, hansılar bitişik yazılır?

Cavab:
1. ağıllı-kamallı – ç; 2. yorğan-döşək – ə; 3. sağ-sol – a; 4. dönə-dönə – b; 5. günbəgün – d; 6. çör-çöp – c; 7. sarıköynək – e.

**Dərslik, səh. 57**

**2.** Hansı cümlələrdə altından xətt çəkilmiş sözlər defislə yazılmalıdır?

Cavab:
1. Həkimin məsləhətlərinə riayət etməlisən, əks halda sağalmazsan.
2. Futbolçular *əks-hücuma* keçərək oyunun gedişatını dəyişdilər.
3. Balaca, alagöz qız nənəsinə sıxılıb utancaq-utancaq bizə baxırdı.
4. *Ala-çiy* ətləri sacın üstünə düzüb yenidən bişirdim.

**Dərslik, səh. 57**

**3.** Hansı cümlələrdə fərqləndirilmiş ifadə bir suala cavab verir və bir cümlə üzvü kimi çıxış edir?

Cavab:
1. Bu saat cavab ver, məndən xəbər gözləyirlər.
4. Bir gün padşah vəziri çağırıb məsləhət istədi.

**Dərslik, səh. 57**

**4.** Biri "etmək" sözü ilə işlənərək mürəkkəb söz yaratmır:

Cavab:
b. göz-qulaq

**Dərslik, səh. 57**

**5.** Aşağıdakı mürəkkəb sözləri cədvəl üzrə qruplaşdırın.

Cavab:

| Əsas nitq hissəsi | Köməkçi nitq hissəsi |
|---|---|
| üç-dörd, filankəs, heç kəs, gəzə bilmək, tayba-tay, axşamüstü, günorta, yaxşı olmaq, deyib-gülmək, nə qədər | elə bil ki, ay haray, pəh-pəh, istərsə də, bir halda ki |

**İş dəftəri, səh. 22**

**1.** Mətndə işlənən bənzətmələrə əsasən cədvəli tamamla.

Layihə

Cavab:

| Bənzətmə | Bənzəyən | Bənzədilən |
|---|---|---|
| Ceyranbatan gölü mavi ayna kimi parıldayırdı. | göl | mavi ayna |
| Dağlar sanki yaşıl yorğana bürünmüşdü. | dağlar | yaşıl yorğan |
| Yol boyu bitən sarı, ağ, qırmızı güllər rəngbərəng xalı kimi ətrafı bəzəyirdi. | güllər | rəngbərəng xalı |
| Göy üzündə topalaşan ağ buludlar kəpənək kimi uçuşurdu. | buludlar | kəpənək kimi |
| Şamaxı daş-qaş kimi parıldayırdı. | Şamaxı | daş-qaş kimi |
| Dağlar gizlənpaç oynayan uşaqlar kimi gah dumana qərq olur, gah da aydın görünürdü. | dağlar | uşaqlar |

**İş dəftəri, səh. 22**

**2.** Mətnin müvafiq hissələrinə istinad edərək rəssamın keçirdiyi hisslər haqqında yaz.

Cavab:
Rəssam gördüyü təbiət mənzərələrinin gözəlliyi qarşısında dərin heyranlıq, sevinc və qürur hissləri keçirir.

**İş dəftəri, səh. 22**

**3.** Təsəvvür et ki, Səttar Bəhlulzadə bu səfərdən ilham alaraq bir tablo çəkmişdir. Səncə, o həmin tablonu necə adlandırardı?

Şagirdlərin cavabları müxtəlif ola bilər.

**İş dəftəri, səh. 23**

**4.** Nöqtələrin yerinə uyğun sözlər yazaraq mürəkkəb sözlər düzəlt. Onların yaranma yolunu müəyyən et.

Cavab:
2. *Qəm-qüssə* dolu günlər artıq arxada qaldı. (yaxınmənalı sözlərin birləşməsi ilə)
3. Fəhlələr işi *pis-yaxşı* görüb qurtardılar. (əksmənalı sözlərin birləşməsi ilə)
4. *Kağız-qələm* götürüb məktub yazdı. (hiperonimlərin iştirakı ilə)

**İş dəftəri, səh. 23**

**5.** Səhv yazılmış sözləri seçib düzgün yaz.

Cavab:
anbaan, daş-kəsək, qaçaqaç, əks-kəşfiyyat, kələ-kötür, lüləkabab, al-əlvan, dəvədabanı, rəngbərəng

**İş dəftəri, səh. 23**

**6.** Uyğunluğu müəyyən et.

Cavab:
Defislə yazılır: diz-dizə oturmaq, baş-başa gəlmək, əl-ələ vermək
Ayrı yazılır: söz sözü gətirər, dişi dişinə dəymək, əlini əlinə vurmaq

**İş dəftəri, səh. 23**

**7.** Köməkçi nitq hissələrinə aid mürəkkəb sözləri seç və cümlədə işlət.

Cavab:
**Ay hay,** işi düzəldənə bir bax!

Layihə

Sən Şamaxıya avtobusla **və ya** maşınla gedə bilərsən.
Göy üzündəki buludlar **elə bil ki** kəpənəklər kimi uçuşurdu.
Gecikdim, **ona görə ki** yatıb qalmışdım.
**Bəh-bəh**, nə gözəl çaydır.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mürəkkəb sözlərin yazılış qaydalarına riayət edir. | Tapşırıq 1, 2 (dərslik); 5, 6 (iş dəftəri) |

Layihə

Bölmə **3** **TƏBİƏT**

| Dərs | Mövzu | Məzmun xətti | Dərslik səh. | İş dəftəri səh. | Metodik vəsait səh. |
|---|---|---|---|---|---|
| | Giriş | | 58-59 | | 72-74 |
| 1-ci fəsil. **Təbiətin mühafizəsi** | | | | | |
| 1 | Qoruqlar və milli parklar | Oxu | 60-62 | 24 | 75-76 |
| 2 | Azərbaycanın təbiət qoruqları haqqında reklam prospekti və ya buklet | Yazı | 62-65 | | 77 |
| 3 | "Qırmızı kitab" | Oxu | 66-67 | 25 | 77-79 |
| 4 | "Qırmızı kitab" | Danışma | 68 | | 79-80 |
| 5 | Qoşma. Qoşmaların orfoqrafiyası | Yazı | 69 | 26 | 81-82 |
| 6 | Qoşmaların qrammatik omonimliyi və sinonimliyi | Yazı | 70 | 27 | 82-84 |
| 2-ci fəsil. **Təbii fəlakətlər** | | | | | |
| 7 | Təbii fəlakətlər | Oxuyub-qavrama | 71-72 | 28 | 85-87 |
| 8 | Maqmatik vulkanlarla palçıq vulkanlarının fərqi | Oxu. Yazı | 73 | 29 | 87-88 |
| 9 | Palçıq vulkanları – yer altında qaynayan möcüzə | Oxuyub-qavrama | 74-75 | | 88-90 |
| 10 | Bağlayıcıların funksiyaları | Yazı | 76 | 30 | 90-91 |
| 11 | Bağlayıcılarda vergülün işlənməsi | Yazı | 77 | 30 | 91-92 |
| 3-cü fəsil. **Planetimizi birlikdə qoruyaq** | | | | | |
| 12 | Yer Günü – dünyanın təbiət bayramı | Dinləmə | 78-80 | 31 | 93-97 |
| 13 | "Qlobal iqlim dəyişiklikləri" mövzusunda təqdimat | Danışma | 80 | | 97 |
| 14 | "Yaşıl dünya" naminə | Oxu | 81-83 | 32 | 98-100 |
| 15 | Çağırış nitqi | Yazı | 83 | | 100-101 |
| 16 | Ümumiləşdirici təkrar | Yazı | 84-85 | 33 | 102-104 |

Layihə

# GİRİŞ DƏRSİ

**Təlim nəticələri:**
- Oxuduqları, həyatda gördükləri və təəssüratları haqqında danışır (st. 2.1.2).
- Kontekstdən çıxış edərək sözlərin mənasını müəyyən edir (st. 3.1.2).
- Verilmiş situasiyaya, məqsədə uyğun kiçikhəcmli mətn (təlimat) yazır (st. 4.1.1).

**Mövzuya yönəltmə. Danışma**

Şagirdləri mövzuya yönəltmək üçün müəllim onlara belə suallar verə bilər:

*Zibili düzgün konteynerə atırsınızmı?*

*İstifadə etmədiyiniz əşyaları nə edirsiniz?*

Mətndən əvvəlki tapşırıqlarla şagirdləri mövzuya yönəltmək olar.

**Dərslik, səh. 58**

**a.** Şəkillərə baxın. Nə üçün zibil qablarının üstündə tullantının növü qeyd edilib?

Şagirdlər bu barədə bildiklərini söyləyə bilərlər. Bu suala təxminən belə cavab vermək olar:

Zibil qutularının üzərində tullantının növü ona görə qeyd olunub ki, tullantılar düzgün ayrılsın və təkrar emal asanlaşsın. Bu həm ətraf mühitin qorunması, həm də resursların səmərəli istifadəsi baxımından çox vacibdir.

**Dərslik, səh. 58**

**b.** Təkrar istehsal haqqında nə bilirsiniz?
- Sizcə, aşağıdakı işarə nəyi bildirir?

Bu tapşırığı yerinə yetirərkən əvvəlcə “Sözlərin izahı” rubrikasına diqqət yetirilməlidir. Şagirdlər “ideoqrafiya” sözünün mənası ilə tanış olurlar.

Şagirdlərin cavabı təxminən belə ola bilər:

Təkrar istehsal – köhnə və ya istifadəyə yararsız olan tullantıların toplanaraq təmizlənməsi, emal edilməsi və yenidən istifadə oluna biləcək məhsullara çevrilməsidir. Biz gündəlik həyatda plastik butulkalar, kağızlar, dəmir qutular, şüşələr və digər şeylər istifadə edirik. Bunlar zibilə atılsa, torpağı və suyu çirkləndirə bilər. Amma bu tullantılar ayrı-ayrı yığılıb emal edilsə, onlardan yeni məhsullar hazırlamaq olar.

Dərslikdə verilən şəkil təkrar istehsal işarəsidir.

- “İdeoqrafiya” sözünün izahını oxuyun və bu işarənin ideoqram olduğunu əsaslandırın.

Cavab: Təkrar istehsal işarəsi nədir? Bu, üç oxdan ibarət dairəvi bir simvoldur, adətən, yaşıl rəngdə olur və təkrar emalı, təkrar istifadəni və tullantıların yenidən emalla başqa bir şeyə çevrilməsini ifadə edir.

Əsaslandırma: söz olmasa da, fikir var; simvol bir hərəkəti və düşüncəni ifadə edir: “bir şeyi atma, yenidən istifadə et”. Bu, tipik ideoqram funksiyasıdır. Oxların dairəvi hərəkəti təkrar istifadə prosesini göstərir.

**Oxu**

**Mətnlə iş.** Verilmiş vaxt ərzində “Tullantıdan sənətə” mətni səssiz oxunur. Şagirdlər onlara tanış olmayan söz və ifadələri dəftərlərində qeyd edirlər. Müəllim həmin sözlərin mənasını izah edir.

**Dərslik, səh. 58**

**c.** “Tullantıdan sənətə” mətninə nəzər salın. Sizcə, bölmənin mövzusu ilə bu mətnin nə əlaqəsi var? Mətni oxuyun və tapşırıqları yerinə yetirin.

Layihə

Cavab: Bu mətn "Təbiət" bölməsinə uyğundur, çünki tullantıların təkrar emalı və onlardan yeni əşyalar hazırlanması təbiətin qorunmasına kömək edir. Mətn bizə göstərir ki, tullantıları düzgün istifadə etsək, həm ətraf mühiti çirkləndirmərik, həm də faydalı iş görmüş olarıq.

**Söz ehtiyatı**

**Dərslik, səh. 59**

**ç.** Uyğunluğu müəyyən edin.

Bu tapşırıq yeni sözlərin mənimsədilməsinə xidmət edir. Şagirdlər yeni tanış olduqları sözlərlə onların izahlarını uyğunlaşdırmalıdırlar. Bununla da onların sözün mənasını izah etmək bacarığı inkişaf edir.

Cavab: 1 – d, 2 – a, 3 – e, 4 – b, 5 – c.

**Dərslik, səh. 59**

**d.** Nə üçün mətndə "ikinci həyat" ifadəsi dırnaqda yazılmışdır? Fikrinizi əsaslandırın.

Cavab: "İkinci həyat" ifadəsi dırnaqda yazılıb, çünki məcazi mənada işlədilmişdir.

Burada söhbət tullantıların yenidən istifadə olunaraq faydalı əşyalara çevrilməsindən gedir. Yəni tullantılar sanki "yenidən canlanır", "yeni həyat qazanır".

**Dərslik, səh. 59**

**e. Qruplarla iş.** Hər hansı tullantıdan təxəyyülünüzə uyğun əşya düzəldin. Öz təcrübənizi bölüşmək üçün aşağıdakı plana uyğun təlimat yazın.

Təxmini cavab belə ola bilər:

Təlimat:

Plastik butulkadan qələmqabı düzəltmək

Lazım olan materiallar: 1 boş plastik butulka (0.5L və ya 1L); qayçı və ya kəsici bıçaq (böyüklərin köməyi ilə); rəngli yapışqan kağızlar, boyalar və ya markerlər (bəzək üçün); yapışqan (əgər bəzək əlavə etmək istəyirsinizsə); etiket və ya stikerlər (istəyə bağlı).

Butulkanı yaxşıca yuyun və qurudun, etiketlərini soyun. Butulkanın alt hissəsini (təxminən 10–12 sm hündürlükdə) qayçı və ya bıçaqla diqqətlə kəsin. Bu hissə qələmqabı olacaq. Kəsilmiş kənarların iti olmaması üçün kənarını lentlə bağlayın. Qələmqabını rəngli kağızlar, boyalar və markerlərlə bəzəyin. Üzərinə adınızı yaza və ya rəsmlər çəkə bilərsiniz. Qələm, karandaş, marker və digər yazı vasitələrinizi yeni, ətraf mühitə dost qələmqabınıza yerləşdirin.




Layihə

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Oxuduqları, həyatda gördükləri və təəssüratları haqqında danışır. | Tapşırıq a, b (dərslik) |
| Kontekstdən çıxış edərək söz və ifadələrin mənasını müəyyən edir. | Tapşırıq ç, d (dərslik) |
| Verilmiş situasiyaya, məqsədə uyğun kiçikhəcmli mətn yazır. | Tapşırıq e (dərslik) |

Layihə

# 1-ci fəsil
# TƏBİƏTİN MÜHAFİZƏSİ

## 1-ci DƏRS
## Qoruqlar və milli parklar

**<u>Təlim nəticələri</u>:**
- Müzakirə zamanı mövzuya uyğun fikir yürüdür (st. 2.1.4).
- Kontekstdən çıxış edərək söz və ifadələrin mənasını müəyyən edir (st. 3.1.2).
- Faktlardan istifadə etməklə mətndə açıq şəkildə ifadə olunmayan məlumatı müəyyən edir (st. 3.1.4).

**Mövzuya yönəltmə**

Müəllim uşaqlara belə suallar verə bilər:

*"Qoruq" və "milli park" sözlərini eşidəndə ağlınıza nə gəlir?*

*Azərbaycanda belə yerlər varmı? Hansılarını tanıyırsınız?*

*Sizcə, niyə heyvanların və bitkilərin yaşaması üçün təhlükəsiz yerlər yaradılır?*

**Danışma**

**Dərslik, səh. 60**

**a.** Aşağıdakı sözlərin morfoloji tərkibini müəyyən edin.

Bu tapşırığı yerinə yetirərkən əvvəlcə "Sözlərin izahı" rubrikasına diqqət yetirilməlidir. Şagirdlər "morfologiya" və "leksika" terminlərinin mənası ilə tanış olurlar.

<u>Cavab</u>:

*sın+ıq, bil+ik, bur+uq, sön+ük* sözlərində feil köklərinə dörd cür yazılan -ıq$^4$ şəkilçisi, *dara+q, qoru+q, çürü+k, dirə+k* sözlərində isə feil köklərinə -q və -k şəkilçisi artırılıb.

- Şəkilçilər arasındakı oxşar və fərqli cəhətləri izah edin.
- Sizcə, bu şəkilçiləri eyni şəkilçinin variantları hesab etmək olarmı? Fikrinizi əsaslandırın.

<u>Cavab</u>:

Şəkilçilər arasında oxşar cəhət budur ki, leksik şəkilçilərdir, feildən sifət və isim düzəldib. Fərqli cəhət: -ıq$^4$ dörd cür yazılır, sait ahənginə görə dəyişir. Bu şəkilçilər eyni şəkilçinin variantlarıdır.

**Dərslik, səh. 60**

**b.** "Qoruq" sözü ilə bu sözün kökünü leksik və qrammatik məna baxımından müqayisə edin.

<u>Cavab</u>:

"Qoruq" sözü "qoru-" feilindən -q şəkilçisi ilə düzəlmiş isimdir. "Qorumaq" sözünün mənaları: 1) hücumdan, təhlükədən, zərbədən və s.-dən mühafizə etmək; 2) pis, zərərli və ya istənilməz bir şeyin təsirindən mühafizə etmək. Feildir, iş, hərəkət bildirir.

"Qoruq" sözünün mənası: təbii-tarixi əhəmiyyəti olan bitki, heyvan və s. cinslərini qoruyub saxlamaq məqsədilə hökumət tərəfindən xüsusi mühafizə altına alınmış ərazi. "Qoruq" düzəltmə söz kimi həmin işin, hərəkətin nəticəsini və obyektini bildirir (qorunan yer).

"Söz mücrüsü" rubrikasında şagirdlər yeni sözlərlə tanış olurlar.

**Dərslik, səh. 61**

**c.** Mətndə hansı suala cavab yoxdur?

Tapşırığın məqsədi şagirdlərin faktoloji qavrama bacarıqlarını yoxlamaqdır.

Lәyihә

Cavab:

c. Son yaradılan milli park hansıdır?

**Dərslik, səh. 62**

**ç.** Mətnə əsasən "ekoturizm" və "ekosistem" sözlərinin mənasını müəyyən edin. Bu sözlərin tərkibindəki morfemlərin etimoloji izahından istifadə edin.

Cavab:

Ekosistem – canlılarla cansızların bir yerdə yaşayıb bir-birinə təsir etdiyi təbii mühit.

Ekoturizm – ətraf mühitə minimum təsir göstərən, təbiətin və yerli mədəniyyətin qorunmasına töhfə verən turizm növü.

**Dərslik, səh. 62**

**d.** Sizcə, insanları ekoturizmə cəlb etmək və bu sahəni inkişaf etdirmək üçün hansı təbliğat vasitələrindən istifadə etmək olar?

Cavab:

Televiziya və radio verilişlərində, jurnallarda, qəzetlərdə və xəbər saytlarında ekoturizm mövzusunda, onun faydaları haqqında maarifləndirici proqramlar və reportajlar təqdim etmək olar. Sosial mediada təbiət gözəlliklərini, ekoturizm marşrutlarını tanıdan **qısa videolar, fotoçarxlar** paylaşmaq, məktəblərdə ekoloji seminarlar və təlimlər keçirmək bu sahənin inkişafına kömək edər. Ekoturizm bölgələrini tanıdan plakatlar, broşürlər, bukletlərdən təbliğat vasitəsi kimi istifadə etmək olar.

**İş dəftəri, səh. 24**

**a.** İzahları sözlərlə uyğunlaşdır.

Cavab:

1 – d, 2 – e, 3 – a, 4 – b, 5 – c, 6 – ç.

**İş dəftəri, səh. 24**

**b.** Mətnə əsasən qoruqların və milli parkların xüsusiyyətlərini müəyyən et və Venn diaqramı üzrə qruplaşdır.

Bu tapşırıqda qoruqlarla milli parkların xüsusiyyətləri Venn diaqramı vasitəsilə müqayisə olunur. Tapşırıq şagirdlərin məlumatı təhlil və müqayisə etmə, öyrəndikləri məlumatları əlaqələndirmə və onların əsasında nəticəçıxarma bacarıqlarının möhkəmləndirilməsinə xidmət edir.

Şagirdlər mətndən aldıqları məlumatlar əsasında Venn diaqramındakı bilgiləri müqayisə edirlər.

Cavab:

Qoruqlar – 3, 5, 7

Milli parklar – 1, 6, 8

Hər ikisi – 2, 4

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Müzakirə zamanı mövzuya uyğun fikir yürüdür. | Tapşırıq a, b (dərslik) |
| Kontekstdən çıxış edərək söz və ifadələrin mənasını müəyyən edir. | Tapşırıq ç (dərslik) |
| Faktlardan istifadə etməklə mətndə açıq şəkildə ifadə olunmayan məlumatı müəyyən edir. | Tapşırıq c, d (dərslik) |

Layihə

# 2-ci DƏRS
# Azərbaycanın təbiət qoruqları haqqında reklam prospekti və ya buklet

**Təlim nəticələri:**
- Verbal və vizual məlumatlardan ibarət təqdimat materialı hazırlayır (st. 4.1.1).

**Mövzuya yönəltmə**
**Dərslik, səh. 62**

**a.** Mətndən aldığınız informasiyadan və aşağıdakı məlumat vərəqlərindən istifadə etməklə Azərbaycanın təbiət qoruqları haqqında reklam prospekti və ya buklet hazırlayın.

Bu tapşırığı yerinə yetirərkən əvvəlcə “Sözlərin izahı” rubrikasına diqqət yetirilməlidir. Şagirdlər “prospekt” və “buklet” sözlərinin mənası ilə tanış olurlar. Daha sonra verilmiş nümunələrə əsasən reklam prospekti və buklet hazırlayırlar. Bunun üçün ekoturizmin xüsusiyyətlərini nəzərə almalıdırlar. Tapşırığı 6 qrup yerinə yetirir. Hər qrupa qoruqlar haqqında müəyyən bir məlumat vərəqi aiddir. 6-cı qrupun məlumat vərəqi Korçay təbiət qoruğu ilə bağlıdır. Bu qoruq ən “gənc” qoruq sayılır.

**Müəllimin nəzərinə!** Şagirdlərin diqqətinə çatdırılır ki, Korçay təbiət qoruğu “ən gənc qoruq” adlanır, çünki o, Azərbaycanda digərlərindən daha sonra yaradılıb. Burada “ən gənc” sözü qoruğun yaradılma vaxtına görə işlədilib.

Azərbaycanda bu iş hələ də davam edir. Yeni qoruqlar və milli parklar yaradılır ki, heyvanlar, bitkilər və təbiət daha yaxşı qorunsun. Gələcəkdə Korçaydan da yeni qoruqlar yaradıla bilər.

**Formativ qiymətləndirmə**
Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Verbal və vizual məlumatlardan ibarət təqdimat materialı hazırlayır. | Tapşırıq a(dərslik) |

# 3-cü DƏRS
# “Qırmızı kitab”

**Təlim nəticələri:**
- Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir (st. 3.1.3).

**Mövzuya yönəltmə**
**Dərslik, səh. 66**

**a.** “Qırmızı kitab” haqqında nə bilirsiniz? Hər hansı bir canlının “Qırmızı kitab”a salınması nədən xəbər verir?

İlk tapşırıqla həm şagirdləri mövzuya yönəltmək, həm də verilən suallar əsasında şagirdlərdən bu haqda nə bildiklərini öyrənmək mümkündür.

**Dərslik, səh. 66**

**b.** Qeydlər götürməklə mətni oxuyun. Rəqəmlərə və adlara diqqət edin.

Layihə

**Oxu**

**Mətnlə iş.** Verilmiş vaxt ərzində "Qırmızı kitab" mətni səssiz oxunur. Şagirdlər onlara tanış olmayan söz və ifadələri dəftərlərində qeyd edirlər. Müəllim həmin sözlərin mənasını izah edir.

**Dərslik, səh. 67**

**c.** Mətnə əsasən suallara cavab verin.

Tapşırığın məqsədi şagirdlərin faktoloji qavrama bacarıqlarını yoxlamaqdır.

Cavab:

1. "Qırmızı kitab" nəsli kəsilmək təhlükəsində olan heyvan və bitki növlərini qorumaq məqsədilə hazırlanıb. Kitabın belə adlandırılması isə təsadüfi deyil – qırmızı rəng təhlükə və xəbərdarlıq rəmzidir. Yəni bu rəng insanlara bildirir ki, təbiət təhlükə altındadır və dərhal tədbir görmək lazımdır.
2. Bəzi heyvan və bitkilər insan fəaliyyəti və təbiət hadisələri nəticəsində yox olmaq təhlükəsi ilə üz-üzədir. Meşələrin qırılması, torpağın və suyun çirklənməsi, iqlim dəyişikliyi, ovçuluq onların yaşadığı mühitə mənfi təsir göstərir. Nəticədə həmin canlılar çoxala bilmir və sayı get-gedə azalır. Buna görə də onlar "Qırmızı kitaba" salınır ki, qorunsun və nəsilləri davam etsin.
3. Hər il dünyada minlərlə növ bitki, heyvan, həşərat, balıq, kiçik mikroorqanizmlər yox olur.
4. Dünyada ilk "Qırmızı kitab" XX əsrin 60-cı illərində çap olundu.

**İş dəftəri, səh. 25**

**a.** Mətnə əsasən hadisələrin ardıcıllığını müəyyən et.

Şagirdlər bu tapşırıqda hadisələrin ardıcıllığını müəyyənləşdirməklə mətni diqqətlə oxuduqlarını nümayiş etdirirlər.

**Ardıcıllıq belə olmalıdır:**

1. Təbiətin və Təbii Sərvətlərin Mühafizəsi üzrə Beynəlxalq İttifaqın yaradılması
2. Həmişəlik yox ola biləcək növlərin adlarını əhatə edən 5 cildlik siyahının meydana çıxması
3. Dünyada ilk "Qırmızı kitab"ın çapı
4. "Qara siyahı"nın tərtib olunması
5. Azərbaycan "Qırmızı kitab"ının ilk nəşri

**İş dəftəri, səh. 25**

**b.** Mətnə əsasən "Qırmızı kitab" haqqında doğru fikirləri seç.

Şagirdlər mətnə əsasən doğru fikirləri müəyyən edirlər. Tapşırıq şagirdlərin mətni necə qavradıqlarını müəyyən etmək məqsədi daşıyır.

Cavab:

1. "Qırmızı kitab" ekoloji problemlərə diqqət çəkən, təbiəti qorumaq üçün vacib bir sənəddir.
3. Bu kitab nəsli kəsilməkdə olan növləri müəyyənləşdirir və onların qorunmasına kömək edir.

**İş dəftəri, səh. 25**

**c.** Mətndən əldə etdiyin məlumatlardan istifadə etməklə cədvəli tamamla.

İş dəftərində təqdim edilmiş bu tapşırıq şagirdlərin mətnin məzmununu qavradıqlarını yoxlamaqla bərabər, mətnin tərkib hissələri ilə bağlı aldıqları məlumatları da möhkəmləndirir.

Cavab:

| **Xüsusiyyət** | **Beynəlxalq "Qırmızı kitab"** | **Azərbaycan "Qırmızı kitab"ı** |
|---|---|---|
| **ilkin nəşr ili** | XX əsrin 60-cı illəri | 1989-cu il |
| **miqyas** | Qlobal. Bütün dünya üçün | Milli. Yalnız Azərbaycan ərazisi üçün. |



Layihə

| | | |
|---|---|---|
| **məqsəd** | Məlumatlandırmaq və qorumaq | Məlumatlandırmaq və qorumaq |
| **məzmun** | Çox genişdir: heyvanlar, bitkilər, göbələklər | Əsasən, ölkə ərazisində yayılmış nadir və nəsli kəsilmək təhlükəsi olan yerli fauna və flora növləri |
| **funksiya** | Nəyin qlobal miqyasda təhlükə altında olduğunu göstərir. | Nəyin Azərbaycan ərazisində təhlükə altında olduğunu göstərir. |
| **canlıların sayı** | 211 heyvan və 312 quş növü | 241 fauna və 460 flora növü |

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir. | Tapşırıq c (dərslik), a, b, c (iş dəftəri) |

# 4-cü DƏRS
# “Qırmızı kitab”

**<u>Təlim nəticələri</u>:**
- Eyni mövzuda olan mətnləri məzmun və ideya baxımından müqayisə edir (st. 3.1.5).
- Mətnin tərkib hissələrini müəyyən edir (st. 3.1.5).
- Verbal və qrafik materialları şərh etməklə mövzu üzrə danışır (st. 2.1.3).

**Mövzuya yönəltmə**

**Dərslik, səh. 68**

**a.** “Qırmızı kitab” mətni ilə “Qoruqlar və milli parklar” mətnini müqayisə edin.
- Mətnlərdəki mövzu və məzmun yaxınlığını izah edin.
- Hər mətndə müəllifin məqsədini müəyyənləşdirin.

Tapşırıq şagirdlərin məlumatı təhlil və müqayisə etmə, öyrəndikləri məlumatları əlaqələndirmə və onların əsasında nəticəçıxarma bacarıqlarının möhkəmləndirilməsinə xidmət edir.

<u>Cavab</u>:

“Qırmızı kitab” və “Qoruqlar və milli parklar” mətnləri mövzu və məzmun baxımından bir-birinə yaxındır. Hər iki mətndə təbiətin qorunması ideyası əsas yer tutur. “Qırmızı kitab”da nadir heyvan və bitki növlərinin qorunmasından, “Qoruqlar və milli parklar” mətnində isə bu məqsədlə yaradılan xüsusi ərazilərdən bəhs olunur. Birinci mətndə müəllifin məqsədi insanları nəsli kəsilməkdə olan canlıları qorumağa çağırmaqdır, ikinci mətndə isə təbiətin mühafizəsində qoruqların və milli parkların rolunu izah etməkdir.

**Dərslik, səh. 68**

**b.** Mətnin abzaslarını məzmuna uyğun yarımbaşlıqlarla adlandırın.

Bu tapşırıq şagirdlərdə mətni məzmun-struktur baxımından təhlil etmək bacarığını inkişaf etdirir. Şagirdlər “Qırmızı kitab” mətnini məzmuna uyğun müxtəlif yarımbaşlıqlarla adlandıra bilərlər.

Layihə

**Dərslik, səh. 68**

**c.** Aşağıdakı diaqrama baxın və sualları cavablandırın.

**Müəllimin nəzərinə!** Əvvəlcə şagirdlərə diaqramla tanış olmağa vaxt verin. Diaqramdakı simvolik işarələri düzgün anladıqlarına əmin olun. Tapşırığın məqsədi şagirdlərin verbal və qrafik materiallardakı məlumatları rabitəli mətnə çevirmək bacarığını inkişaf etdirməkdir. Kömək məqsədilə tapşırıqda yönəldici suallar qoyulub.

Cavab:

• 1989-cu ildə kitaba flora üzrə 140, fauna üzrə isə 108 növ daxil edilmişdir.

• 2023-cü ildə kitabda 241 fauna və 460 flora növü öz əksini tapmışdır. Flora növlərinin sayı 119 növ çoxdur.

• Flora (bitkilər):
1989-cu ildə – 140 növ
2023-cü ildə – 460 növ
460 ÷ 140 = 3.2857...
Fauna (heyvanlar):
1989-cu ildə – 108 növ
2023-cü ildə – 241 növ
241 ÷ 108 = 2.231...   1989-cu ildən 2023-cü ilə qədər:
flora növlərinin sayı təxminən 3,3 dəfə, fauna növlərinin sayı isə təxminən 2,2 dəfə artmışdır.

• Ağacların kəsilməsi, torpaq və suyun çirklənməsi, iqlimin dəyişməsi, bəzi heyvanların nəzarətsiz ovlanması "Qırmızı kitab"dakı növlərin sayının artmasına səbəb ola bilər.

**Dərslik, səh. 68**

**ç.** Cədvəldəki məlumatlardan istifadə etməklə "Qırmızı kitab"da heyvanların təsnifatı haqqında rabitəli mətn qurub nəql edin.

Cədvəldə məlumatlar müəyyən meyarlar əsasında təqdim edilmişdir. Bu məlumatlardan istifadə edərək şagirdlər mətn qurub danışırlar. Cədvəl şagirdləri məlumatları təhlil etməyə, oxşarlıqları və fərqləri qiymətləndirməyə təşviq edir. Bu da onların analitik düşünmə qabiliyyətini artırır.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Eyni mövzuda olan mətnləri məzmun və ideya baxımından müqayisə edir. | Tapşırıq a (dərslik) |
| Mətnin tərkib hissələrini müəyyən edir. | Tapşırıq b (dərslik) |
| Verbal və qrafik materialları şərh etməklə mövzu üzrə danışır. | Tapşırıq c, ç (dərslik) |

Layihə

# 5-ci DƏRS
# Qoşma. Qoşmaların orfoqrafiyası

**Təlim nəticələri:**
• Kontekstdən və qrammatik formadan çıxış edərək qoşmaların qrammatik-semantik xüsusiyyətlərini izah edir (st. 4.1.3).
• Qoşmaların yazılışında orfoqrafik normalara riayət edir (st. 4.1.2).

**Mövzuya yönəltmə**

**Dərslik, səh. 69**

**a.** Aşağıdakı cümlələrdə fərqləndirilmiş hansı sözlərin yalnız qrammatik mənası var?

Motivasiya xarakterli bu tapşırıq şagirdlərin diqqətini əsas və köməkçi nitq hissələrinin fərqləndirilməsinə yönəldir. Şagirdlərin artıq bu barədə bilgiləri var. Müəllim yönəldici suallar vasitəsilə şagirdlərə əvvəlki biliklərini xatırladır.

Cavab:
1. Oxuduğun əsər **haqqında** mənə danış.
3. **Bəh-bəh,** nə dadlı yeməkdir!

**Dərslik, səh. 69**

**b.** Cümlələri müqayisə edin. İkinci cümlələrə əlavə olunan *başqa* və *tərəf* sözlərinin yaratdığı məna çalarını müəyyən edin.

Bu tapşırıq şagirdlərin diqqətini müqayisə olunan sözlərin məna çalarlarına yönəldir.

Cavab:
1. Mənim dostlarımdan heç kim gəlmədi.
2. Mənim dostlarımdan başqa, heç kim gəlmədi. (fərqləndirmə)
1. Maşın kəndə yola düşdü.
2. Maşın kəndə tərəf yola düşdü. (istiqamət)

**"Bunları bilməliyik!" rubrikası.** Burada qoşma, yaratdığı məna çalarları haqqında məlumat verilir.

**Dərslik, səh. 69**

**c.** Qoşmaları seçin, onların yaratdığı məna çalarını müəyyən edin.

Cavab:
1 – b, 2 – ç, 3 – a, 4 – c.

**"Bunları bilməliyik!" rubrikası.** Burada qoşmaların orfoqrafiyasından bəhs edilir.

**Dərslik, səh. 69**

**ç.** Qoşmaların düzgün yazılışına əməl etməklə cümlələri köçürün.

Cavab:
1. Məni qapıya (-dək) ötürərsən. – qapıyadək
2. Onlar gəmi (ilə) səyahətə çıxacaqlar. – gəmi ilə
3. Yalançını evinə (-cən) qovarlar. *(Atalar sözü)* – evinəcən
4. Bizə sarı gələn adam kimdir? – sarı

**İş dəftəri, səh. 26**

**a.** Uyğunluğu müəyyən et.

Cavab:
1 – ç, 2 – c, 3 – a, 4 – b

Layihə

İş dəftəri, səh. 26

**b.** Cümlələrdə işlənmiş *ilə* qoşmasının məna çalarını müəyyən et.
A – *birgəlik bildirir* B – *vasitə bildirir*

Cavab:
A – 1, 3, 5
B – 2, 4

İş dəftəri, səh. 26

**c.** Qoşmaları işləndiyi sözlə birlikdə cədvəlin uyğun xanasında yaz.

Cavab:

| Adlıq halla işlənən | Yiyəlik halla işlənən | Yönlük halla işlənən | Çıxışlıq halla işlənən |
|---|---|---|---|
| uşaqla | sənin üçün | sonuna qədər | işdən sonra |

İş dəftəri, səh. 26

**ç.** Qoşmaları seç və qarşısında düzgün yaz.

Cavab:
1. incitək
2. çanta ilə
3. vətən üçün
4. dünənədək

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Kontekstdən və qrammatik formadan çıxış edərək qoşmaların qrammatik-semantik xüsusiyyətlərini izah edir. | Tapşırıq b, c (dərslik), a, b, c (iş dəftəri) |
| Qoşmaların yazılışında orfoqrafik normalara riayət edir. | Tapşırıq ç (dərslik), ç (iş dəftəri) |

# 6-cı DƏRS
# Qoşmaların qrammatik sinonimliyi və omonimliyi

**Təlim nəticələri:**
• Kontekstdən və qrammatik formadan çıxış edərək qoşmaların qrammatik sinonimlik və omonimliyini izah edir (st. 4.1.3).

**Mövzuya yönəltmə**

Dərslik, səh. 70

**a.** Cümlələrdə qoşmaların ifadə etdiyi məna çalarını müəyyən edin. Onlar bir-birini əvəz edə bilərmi?

Layihə

Motivasiya xarakterli bu tapşırıq şagirdlərin diqqətini mövzuya yönəltmək məqsədi daşıyır. Tapşırıqdan əvvəl müəllim qoşmalar haqda sorğu apara bilər.

Cavab:

1. Axşama kimi / qədər bütün işlərimizi qurtararıq.
2. Döyüş səhərə qədər / kimi davam etdi.

Cümlələrdə qoşmalar zaman mənası bildirir. Onlar bir-birini əvəz edir.

**"Bunları bilməliyik!" rubrikası.** Burada qoşmaların qrammatik sinonimliyindən bəhs edilir.

**Dərslik, səh. 70**

**b.** Verilmiş cümlələrdə qoşmaları tapın və sinonimləri ilə uyğunlaşdırın.

Cavab:

1 – d, 2 – a, 3 – e, 4 – ç, 5 – c, 6 – b

**Dərslik, səh. 70**

**c.** Verilmiş cümlələrdə "kimi" qoşmasının qrammatik mənalarını fərqləndirin.

Bu tapşırıq qoşmaların qrammatik omonimliyini izah etmək üçün motivasiya rolunu oynayır.

Cavab:

1. Bacın da sənin **kimi** geyinib. – bənzətmə
2. Qatar növbəti stansiyaya **kimi** sürətlə getdi. – məsafə

**"Bunları bilməliyik!" rubrikasında** qoşmaların qrammatik omonimliyi haqqında məlumat verilir.

**Müəllimin nəzərinə!** Şagirdlərin diqqətinə çatdırılır ki, qoşmalar həm bir-biri, həm də başqa nitq hissələri ilə omonim olur.

**Dərslik, səh. 70**

**ç.** Fərqləndirilmiş sözlərin hansı nitq hissəsi olduğunu müəyyən et.

Cavab:

**1.** Nərgiz sevindiyindən quş**tək** uçmaq istəyirdi. – qoşma
**2.** Bu gün məktəbə **tək** gedəcəyəm. – zərf
**1.** Ordu düşmənə **qarşı** hücuma keçdi. – qoşma
**2. Qarşı** tərəf öz arqumentlərini irəli sürdü. – sifət

**İş dəftəri, səh. 27**

**a.** Cümlələrdə işlənmiş qoşmaları seç. Məna çalarını və sinonimini cədvəldə qeyd et.

Şagirdlər bu tapşırığı nümunəyə əsasən yerinə yetirirlər.

Cavab:

| Qoşma | Məna çaları | Sinonimi |
|---|---|---|
| başqa | fərqləndirmə | savayı |
| aid | aidlik | haqqında |
| üçün | səbəb-məqsəd | ötrü |
| kimi | bənzətmə | -tək |
| qədər | məsafə | kimi |
| tərəf | istiqamət | doğru |
| əvvəl | zaman | qabaq |

Layihə

**İş dəftəri, səh. 27**

**b.** Hansı cümlədə “tək” sözü qoşma olduğuna görə bitişik yazılmalıdır?

Cavab:
**b.** Ürəyimdə bir arzum var, bir dilək,
Dolanıram bu dağlarda maraltək. *(Osman Sarıvəlli)*

**İş dəftəri, səh. 27**

**c.** Cümlələrdə “sarı” sözünün qrammatik mənalarından çıxış edərək uyğunluğu müəyyən et.

Cavab:
1 – b, 2 – c, 3 – a

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Kontekstdən və qrammatik formadan çıxış edərək qoşmaların qrammatik sinonimlik və omonimliyini izah edir. | Dərslikdəki və iş dəftərindəki tapşırıqlar |

Layihə

# 2-ci fəsil
# TƏBİİ FƏLAKƏTLƏR

## 1-ci DƏRS
## Təbii fəlakətlər

**Təlim nəticələri:**
• Müzakirə zamanı mövzuya uyğun fikir yürüdür (st. 2.1.4).
• Verbal və vizual məlumatlardan ibarət təqdimat materialı hazırlayır (st. 4.1.1).

**Mövzuya yönəltmə**

**Müəllimin nəzərinə!** Şagirdlər əvvəlki siniflərdə "Təbii fəlakətlər" mövzusunu keçiblər. Həmin mövzu çərçivəsində onlar zəlzələ, vulkan, daşqın, sel və s. kimi hadisələrlə tanış olmuş, bu fəlakətlərin yaranma səbəblərini və nəticələrini öyrənmişdilər.

Bu dərsdə həmin biliklərə xatırlatma məqsədilə qayıtmaq, şagirdlərə təbii fəlakətlərin qarşısını almaq və ekoloji təhlükəsizliyi qorumaq yollarını düşündürmək faydalı olacaq.

"Təbii fəlakətlər" mövzusuna yönəltmə sualları şagirdlərin diqqətini mövzuya cəlb etmək və onların əvvəlki biliklərini aktivləşdirmək məqsədi daşıyır. Müəllim uşaqlara belə suallar verə bilər:

*Təbii fəlakət nədir?*

*Hansı təbii fəlakətlər var?*

**Danışma**

**Dərslik, səh. 71**

**a.** Şəkillərdə təsvir olunmuş hər bir təbii fəlakətə uyğun gələn sözü seçin.

Cavab: 1 – c, 2 – b, 3 – ç, 4 – e, 5 – a, 6 – d.

**Dərslik, səh. 72**

**b.** Digər fənlərdən əldə etdiyiniz biliklərə əsaslanaraq aşağıdakı suallara cavab verin.

Cavab: • Bu fəlakətlərin səbəbləri haqqında nə bilirsiniz?

**Sunami** – dənizin dərinliklərində baş verən zəlzələlər, vulkan püskürmələri və ya torpaq sürüşmələri nəticəsində yaranır, nəhəng dalğalar əmələ gətirir.

**Daşqın** – güclü yağışlar, qarların birdən-birə ərimsi, bəzən də bəndlərin, su anbarlarının dağılması nəticəsində çaylar dolur və sahillərini aşır.

**Tornado** – isti və soyuq hava axınlarının toqquşması nəticəsində atmosferdə yaranan çox güclü burulğandır.

**Zəlzələ** – yerin silkələnməsinə səbəb olur.

**Sel** – qısa zamanda düşən leysan yağışlar, dağlarda qarın əriməsi səbəbindən çayların birdən-birə daşmasıdır.

**Vulkan** – Yer qabığının dərin qatlarında toplanan maqma və qazların yer səthinə çıxması nəticəsində yaranır.

• Təbii fəlakətlərin qarşısını almaq mümkündürmü? Cavabınızı əsaslandırın.

Bu, mümkün deyil, çünki onlar təbiətin özündə baş verən proseslərdən qaynaqlanır (məsələn, yer qabığının hərəkəti, atmosfer dəyişiklikləri, dəniz səviyyəsinin qalxması və s.). Amma onların fəsadlarını azaltmaq və insanları qorumaq mümkündür.

• Təbii fəlakətlərin təsirini azaltmaq üçün hansı qabaqlayıcı tədbirlər görmək olar?

Zəlzələyə qarşı tədbirlər: 1) zəlzələyə davamlı binalar tikmək; 2) seysmik zonalarda tikinti qaydalarına ciddi əməl etmək; 3) məktəblərdə və ictimai yerlərdə təhlükəsizlik təlimləri keçmək.

Layihə

Sel və daşqınlara qarşı tədbirlər: 1) çay kənarlarında və dağ ətəklərində ev tikməmək; 2) bəndlər tikmək; 3) meşələri qorumaq və ağac əkmək, çünki ağaclar torpağı möhkəmləndirir və suyu tutur.

Torpaq sürüşməsinə qarşı tədbirlər: 1) dağ yamaclarında meşələr salmaqla torpaq sürüşməsinin qarşısını almaq; 2) yağış sularını yönləndirən kanallar çəkmək.

Quraqlığa qarşı tədbirlər: 1) su ehtiyatlarından qənaətlə istifadə etmək; 2) suvarma sistemlərini təkmilləşdirmək (damcı üsulu və s.); 3) yağış sularını toplamaq və anbarlarda saxlamaq.

Vulkan və fırtınalara qarşı tədbirlər: Vulkan aktiv olan zonalarda müntəzəm müşahidə aparmaq və əhalini vaxtında xəbərdar etmək.

• Hansı fəlakətə qarşı qabaqlayıcı tədbir görmək daha çətindir?

**Zəlzələyə qarşı** qabaqlayıcı tədbir görmək daha çətindir. Zəlzələlər qəfil baş verir – vaxtını, yerini və gücünü dəqiq proqnozlaşdırmaq çox çətindir. Buna görə də zəlzələnin qarşısını almaq mümkün deyil, yalnız hazırlıqlı olmaq mümkündür.

**Dərslik, səh. 72**

**c.** Sizcə, aşağıdakı xüsusiyyətlər daşqına, yoxsa selə aiddir?

Cavab: selə aiddir.

**Dərslik, səh. 72**

**ç.** Diaqramı şərh edin.
• Sizin fikrinizcə, niyə sunami ən təhlükəli təbii fəlakət hesab olunur?

Bu tapşırıq həm analitik düşünmə, həm də təbiət hadisələrinin səbəb-nəticə əlaqəsini anlama bacarığını inkişaf etdirir.

Cavab: Sunami ən təhlükəli təbii fəlakətlərdən biridir, çünki çox güclü, qəfil və geniş ərazini əhatə edən su dalğaları şəklində baş verir və qısa zamanda böyük dağıntılara səbəb olur. İnsan itkisi çox olur. Ətraf mühitə böyük zərər vurur.

**Dərslik, səh. 72**

**d.** Sizcə, Azərbaycan üçün hansı təbii fəlakətlər daha xarakterikdir?

Bu tapşırıq şagirdlərə həm yerli təbiət şəraitini, həm də ekoloji riskləri anlamağa kömək edir.

Cavab: Zəlzələ – Azərbaycan seysmik zonada yerləşir.

Sel və daşqın – güclü leysan yağışlar və qarın sürətlə əriməsi nəticəsində çaylar daşıb kəndləri su altında qoya bilər.

Torpaq sürüşməsi – yağışların çox düşdüyü və relyefi dik olan yerlərdə torpaq layları yerindən tərpənir.

**Dərslik, səh. 72**

**e.** Təbii fəlakətlərdən biri ilə bağlı maarifləndirici plakat hazırlayın. (Məsələn: Zəlzələ zamanı necə davranmalı? / Daşqına qarşı tədbirlər)

Bu tapşırıq şagirdlərin araşdırma bacarığının inkişafına xidmət edir.

**İş dəftəri, səh. 28**

**a.** Plana əsasən şəkli təsvir et.

1. Təbii fəlakətin adı və səbəbləri
2. Heyvan və bitki aləminə təsiri
3. Havanın vəziyyəti
4. Təbii fəlakətin qarşısını almaq yolları

Cavab təxminən belə ola bilər:

**Meşə yanğını**

Şəkildə meşə yanğını təsvir olunub. Meşə yanğınları, əsasən, isti və quru havalarda, həmçinin insanların ehtiyatsızlığı nəticəsində baş verir. Bəzən ildırım vurması da meşənin

Layihə

yanmasına səbəb olur. Güclü külək yanğının daha da sürətlə yayılmasına şərait yaradır.

Yanğın zamanı ağaclar, otlar, çiçəklər məhv olur, meşəlik ərazilər quruyur. Meşədə yaşayan quşlar və heyvanlar yuvalarını itirir, bəziləri həlak olur. Təbiətin tarazlığı pozulur. Yeni bitkilərin yetişməsi üçün uzun müddət lazım olur.

Yanğın zamanı hava tüstü və kül ilə dolur, nəfəs almaq çətinləşir. Havanın temperaturu artır. Tüstü atmosferə qalxdıqda hava çirklənir və bu həm insanlara, həm də təbiətə mənfi təsir göstərir.

Meşə yanğınlarının qarşısını almaq üçün meşələrdə od qalamaq, tullantı atmaq və siqaret yandırmaq olmaz. Quraq havalarda yanğın təhlükəsi barədə xəbərdarlıqlara əməl etmək vacibdir.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Müzakirə zamanı mövzuya uyğun fikir yürüdür. | Tapşırıq a, b, c, ç, d (dərslik) |
| Verbal və vizual məlumatlardan ibarət təqdimat materialı hazırlayır. | Tapşırıq e (dərslik) |

# 2-ci DƏRS
# Maqmatik vulkanlarla palçıq vulkanlarının fərqi

**Təlim nəticələri:**
- Oxuduqları, həyatda gördükləri və təəssüratları haqqında danışır (st. 2.1.2).
- Verilmiş informasiyalardan istifadə etməklə rabitəli mətn yazır (st. 4.1.1).

**Mövzuya yönəltmə.** Müəllim dərslikdəki ilk tapşırıqla şagirdləri mövzuya yönəldə bilər.

**Danışma**

**Dərslik, səh. 73**

**a.** Coğrafiya fənnindən vulkanlar haqqında əldə etdiyiniz bilikləri xatırlayın. Bu təbiət hadisəsi haqqında daha nəyi öyrənmək istərdiniz?

Tapşırıq şagirdlərin əvvəlki biliklərini xatırlamasına, onlarda araşdırma marağı formalaşdırılmasına, sualvermə bacarığının inkişafına xidmət edir.

**Yazı**

**Dərslik, səh. 73**

**b. Cütlərlə iş.** Aşağıdakı mətnləri oxuyun və birgə işləyərək verilmiş plana uyğun mətn yazın.

Bu tapşırığı yerinə yetirərkən əvvəlcə "Sözlərin izahı" rubrikasına diqqət yetirilməlidir. Şagirdlər "maqma" və "lava" sözlərinin mənası ilə tanış olurlar. Daha sonra tapşırıqda qoyulmuş plana uyğun mətn yazırlar.

**Cavab təxminən belə ola bilər:**

**Maqmatik vulkanlarla palçıq vulkanlarının fərqi**

***Plan***

- **Vulkanın baş vermə səbəbi**
- **Püskürən maddə (tərkibi və temperaturu)**
- **Partlayış gücü, dağıdıcı təsiri**
- **Baş verdiyi ərazi**

Vulkanlar yerin dərin qatlarında toplanan maddələrin üzə çıxması nəticəsində baş verir. Maqmatik



Lайihə

vulkan zamanı dərinlikdəki ərimiş maqma tektonik hərəkətlər nəticəsində yuxarı qalxır. Palçıq vulkanı isə yer səthinə yaxın olan neft-qaz yataqlarında toplanmış qazın təzyiqi ilə baş verir.

Maqmatik vulkan püskürərkən ərimiş qaya süxurları, tüstü və kül havaya qalxır. Bu maddələr lava adlanır və onun temperaturu təxminən 1000°C-yə çatır. Palçıq vulkanı zamanı isə palçıq, qaz və su qarışığı püskürür. Bu qarışığın temperaturu yüksək olmur, çünki o, yer səthinə yaxın dərinliklərdən çıxır.

Maqmatik vulkanlarda çox güclü partlayışlar müşahidə olunur. Lavanın axını kəndləri, şəhərləri dağıda bilər. Palçıq vulkanları isə zəif və ya orta gücdə püskürür, ona görə də böyük dağıdıcı təsirə malik deyil. Onlar, əsasən, palçıq və qaz çıxarır, amma ətraf mühit üçün ciddi təhlükə yaratmır.

Maqmatik vulkanlara daha çox Amerika və Asiyanın Sakit okean sahillərində, həmçinin İtaliyada rast gəlinir. Palçıq vulkanları isə Azərbaycan, Xəzər dənizi ətrafı və Qafqazda daha geniş yayılmışdır. Azərbaycan palçıq vulkanlarının sayına görə dünyada ilk yerlərdən birini tutur.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Oxuduqları, həyatda gördükləri və təəssüratları haqqında danışır. | Tapşırıq a (dərslik) |
| Verilmiş informasiyalardan istifadə etməklə rabitəli mətn yazır. | Tapşırıq b (dərslik) |

# 3-cü DƏRS
# Palçıq vulkanları – yer altında qaynayan möcüzə

**Təlim nəticələri:**
- Kontekstdən çıxış edərək söz və ifadələrin mənasını müəyyən edir (st. 3.1.2).
- Faktlardan istifadə etməklə mətndə açıq şəkildə ifadə olunmayan məlumatı müəyyən edir (st. 3.1.4).

**Mövzuya yönəltmə.** Müəllim əvvəlki dərsdə şagirdlərin vulkanlar haqda oxuduğu mətnləri xatırladır. O, şagirdlərə adi vulkanlarla palçıq vulkanlarının fərqi barədə suallar verə bilər.

**Dərslik, səh. 74**

**a.** Palçıq vulkanları haqqında bildiyiniz və bilmək istədiyiniz məlumatları aşağıdakı cədvəldə qeyd edin.

Motivasiya xarakterli bu tapşırıqda şagirdlər əvvəlcə cədvəlin “Bilirdim” və “Bilmək istəyirdim” sütunlarını, dərsin sonunda isə “Öyrəndim” hissəsini doldurulmalıdırlar.

**Oxu**

**Dərslik, səh. 74**

**b.** Mətni oxuyun və yeni öyrəndiklərinizi qeyd edin.

“Palçıq vulkanları – yer altında qaynayan möcüzə” mətni qeyd götürməklə oxunur. Oxu bitdikdən sonra şagirdlərin qeydləri müzakirə olunur. “Söz mücrüsü”ndəki yeni sözlər nəzərdən keçirilir, lüğət vasitəsilə mənaları dəqiqləşdirilir.

**Söz ehtiyatı**

**Dərslik, səh. 75**

**c.** İzahlara uyğun sözləri seçin.

Bu tapşırıq yeni sözlərin mənimsədilməsinə xidmət edir. Şagirdlər yeni tanış olduqları sözlərlə

Layihə

onların izahlarını uyğunlaşdırırlar. Tapşırığın əsas məqsədi şagirdlərin öyrəndikləri yeni sözləri kontekstə uyğun olaraq işlətmək bacarığını inkişaf etdirməkdir.

**Müəllimin nəzərinə!** Tapşırığın yerinə yetirilməsində çətinlik çəkən şagirdlərə tövsiyə edilə bilər ki, sözləri mətndə tapsınlar, hansı mənada işləndiyini müəyyənləşdirsinlər.

Cavab: 1 – ç, 2 – d, 3 – a, 4 – b, 5 – c

**Dərslik, səh. 75**

**ç.** Verilmiş terminlərin hansı elm sahələrinə aid olduğunu müəyyən edin.

Cavab: 1. arxipelaq – coğrafiya
2. atmosfer – ekologiya
3. lava, mineral – geologiya
4. mikroelement – kimya

**Dərslik, səh. 75**

**d.** Mətndə hansı suallara cavab yoxdur?

Cavab: 1. Palçıq vulkanları necə yaranır?
2. Palçıq vulkanlarının temperaturu nə qədərdir?
7. Hansı ölkələr palçıq vulkanları ilə zəngindir?

**Dərslik, səh. 75**

**e.** Mətnə əsasən "Vulkanlar yalnız məhv etmir, həm də həyat verir" fikrini izah edin.

Cavab: Vulkanlar püskürəndə ətrafdakı hər şeyi dağıda, torpağı yandıra bilər. Amma zaman keçdikcə həmin ərazilərdə yeni, çox məhsuldar torpaq yaranır. Bu torpaqda bitkilər daha yaxşı bitir, yeni həyat başlayır. Bundan başqa, vulkanların yaxınlığında istilik və enerji mənbələri olur, insanlar bu enerjidən elektrik və istilik almaq üçün istifadə edirlər. Yəni vulkanlar əvvəlcə zərər versə də, sonradan təbiətə və insanlara fayda gətirir. Palçıq vulkanlarının da əhəmiyyəti böyükdür. Bu palçıqdan inşaat işlərində, xəstəliklərin müalicəsində istifadə olunur.

**İş dəftəri, səh. 29**

**a.** Palçıq vulkanları haqqında aldığın məlumatlara əsasən cədvəli doldur.

Cavab:

| Yaratdığı təhlükələr | Faydaları |
|---|---|
| Püskürmə zamanı yerin dərinliyindən qaz çıxır. | Bir çox xəstəliklərin müalicəsində istifadə olunur. |
| Çıxan qaz yanır və alov əmələ gəlir. | Ərazidə neftin və qazın varlığından xəbər verir. |
| Güclü püskürmə yaşayış məntəqələrinə ziyan vura bilər. | Tərkibində çoxlu mineral və mikroelement var. |

**İş dəftəri, səh. 29**

**b.** Verilən fikirlərin doğru, yoxsa yanlış olduğunu müəyyən et. Mətnə istinad etməklə fikrini əsaslandır.

Cavab: 1 – doğru, 2 – yanlış, 3 – doğru, 4 – yanlış

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Kontekstdən çıxış edərək söz və ifadələrin mənasını müəyyən edir. | Tapşırıq b, c (dərslik) |
| Faktlardan istifadə etməklə mətndə açıq şəkildə ifadə olunmayan məlumatı müəyyən edir. | Tapşırıq ç, d, e (dərslik) |

# 4-cü DƏRS
# Bağlayıcıların funksiyaları

**Təlim nəticələri:**
• Kontekstdən və qrammatik formadan çıxış edərək bağlayıcıların qrammatik-semantik xüsusiyyətlərini izah edir (st. 4.1.3).

**Mövzuya yönəltmə.** Bağlayıcılar və onların funksiyaları mövzusuna keçid üçün müəllim şagirdlərə belə suallar verə bilər:

*Cümlədə iki və ya daha çox söz və ya ifadəni birləşdirmək üçün hansı nitq hissəsindən istifadə olunur?*

*Sizcə, belə sözlər cümlənin mənasına necə təsir edir?*

**Dərslik, səh. 76**

**a.** Verilmiş cümlələrdə məna fərqinin hansı vasitələrlə yarandığını müəyyənləşdirin.

Bu tapşırıq bağlayıcıların məna fərqini dərk etməyə yönəlmiş motivasiya fəaliyyətidir. Tapşırıq vasitəsilə şagirdlərin bağlayıcı mövzusuna dair ilkin bilikləri yoxlanılır, həmçinin onların diqqəti bağlayıcıların cümlədəki funksiyasına yönəldilir.

Cavab:
1. Kitabları və dəftərləri çantanıza qoyun.
2. Nə kitabları, nə də dəftərləri çantanıza qoyun.
3. Ya kitabları, ya da dəftərləri çantanıza qoyun.

Bu cümlələrdə məna fərqi və, nə... nə də, ya...ya da bağlayıcıları ilə yaranmışdır.

**"Bunları bilməliyik!" rubrikası.** Burada bağlayıcılar və onların ifadə etdiyi məna əlaqələri haqqında danışılır.

**Dərslik, səh. 76**

**b.** Cümlələrdəki bağlayıcıları onların yaratdığı məna əlaqələri ilə uyğunlaşdırın.

Şagirdlər cümlələrdəki bağlayıcıların yaratdığı məna əlaqələrini müəyyən edirlər.

Cavab: 1 – d, 2 – ç, 3 – a, 4 – c, 5 – e, 6 – b

**Dərslik, səh. 76**

**c.** Nöqtələrin yerinə uyğun gələn bağlayıcını seçin.

Cavab:
1. İlqar *həm* ingiliscə, *həm də* ispanca yaxşı danışır.
2. Bu gün uşaqlar *da*, böyüklər *də* çox sevinirdilər.
3. Mən evə tez çatmaq istədim, *amma* mümkün olmadı.
4. Uşaqların çıxışı uğurlu oldu, *çünki* onlar ciddi hazırlaşmışdılar.
5. Yer sürüşkən idi, *ona görə də* ehtiyatla yeriyirdik.
6. Səbinə deyir *ki,* böyüyəndə uşaq həkimi olacaq.



Leyline

7. *Nə* mən danışdım, *nə də* o bir söz dedi.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Kontekstdən və qrammatik formadan çıxış edərək bağlayıcıların qrammatik-semantik xüsusiyyətlərini izah edir. | Dərslikdəki tapşırıqlar |

# 5-ci DƏRS
# Bağlayıcılarda vergülün işlənməsi

**Təlim nəticələri:**

• Bağlayıcılardan əvvəl və sonra vergül işarəsindən yerində istifadə edir (st. 4.1.2).

**Mövzuya yönəltmə.** Dərsin əvvəlində müəllim bağlayıcıların xüsusiyyətlərini şagirdlərə xatırladır. Bağlayıcıların yalnız sözləri deyil, cümlələri də bir-birinə bağladığını onların nəzərinə çatdırır. Bundan başqa, bağlayıcılarda vergülün işlənmə məqamlarına da diqqət yetirmək lazımdır.

**Dərslik, səh. 77**

**a.** Hansı bəndlərdə bağlayıcı cümlələr arasında işlənmişdir?

Cavab:
1. Sinif otağının qapısı açıldı və müəllim içəri girdi.
4. Gün çıxmışdı, amma hava sərin idi.

**"Bunları bilməliyik!" rubrikası.** Burada bağlayıcılarda vergülün işlənmə məqamları nəzərdən keçirilir.

**Dərslik, səh. 77**

**b.** Hansı cümlədə bağlayıcıdan sonra vergül qoyulur?

Cavab: 2
**1.** Heç kim içəri daxil ola bilmədi, çünki qapılar bağlı idi.
**2.** Elə hərəkət et ki, sonra xəcalət çəkməyəsən. *(Atalar sözü)*
**3.** Sabah parka, yaxud kinoya gedə bilərik.

**Dərslik, səh. 77**

**c.** Verilmiş cümlələrdə vergülün işlənməsi ilə bağlı uyğunluğu müəyyən edin.

Cavab: 1 – c, 2 – ç, 3 – a, 4 – b

**Dərslik, səh. 77**

**ç.** Hansı cümlələrdəki bağlayıcıda vergül düzgün işlənib?

Cavab:
**2.** Tez gedək, yoxsa avtobusa çatmarıq.
**5.** Məktəbdə ingilis, alman, habelə başqa xarici dillər tədris olunur.

**İş dəftəri, səh. 30**

**a.** Bağlayıcıların məna növünü müəyyən et və qarşısında yaz.

Cavab:
1. Hamı bilir ki, Yer kürə şəklindədir. – aydınlaşdırma
2. Nənənin balaca, amma səliqəli evi vardı. – qarşılaşdırma
3. İstər böyüklər, istərsə də kiçiklər yazın gəlişinə sevinirdilər. – bölüşdürmə

Layihə

4. Əgər məni yaxşı tanısaydın, belə danışmazdın. – şərt
5. Payızda Yer Günəşdən uzaqlaşır, ona görə də soyuqlar düşür. – səbəb

**İş dəftəri, səh. 30**

**b.** Hansı cümlədə həm *və*, həm də *amma* bağlayıcısı işlənə bilər?

Cavab: a. Mən kitab oxuyurdum, amma qardaşım musiqiyə qulaq asırdı.
Mən kitab oxuyurdum və qardaşım musiqiyə qulaq asırdı.

**İş dəftəri, səh. 30**

**c.** *Da, də* bağlayıcısının işləndiyi cümlələri müəyyən et.

Cavab:
2. Əsgərlər gündüz də, gecə də vətənin keşiyini çəkirlər.
4. Muğan da, Şirvan da öz vətənimdir. *(Mirvarid Dilbazi)*

**İş dəftəri, səh. 30**

**ç.** Uyğun bağlayıcılar əlavə etməklə cümlələri tamamla. Uyğun yerlərdə vergül işarəsi qoy.

Cavab:
1. Komandanın tərkibinə Azəri, Muradı, habelə Rövşəni daxil etmək yaxşı olar.
2. Sən ya bizimlə gəl, ya da evdə qal.
3. Yaz deyir ki, bağlarım var,
   Güllərim var çiçək-çiçək
   Qoxla məni, ətrimi çək. *(Səməd Vurğun)*
4. Qardaşım çox yorğun idi, buna görə də erkən yatdı.
5. Həqiqəti de, yoxsa sənə inanmayacaqlar.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Bağlayıcılardan əvvəl və sonra vergül işarəsindən yerində istifadə edir. | Tapşırıq b, c, ç (dərslik); ç (iş dəftəri) |

# 3-cü fəsil
# PLANETİMİZİ BİRLİKDƏ QORUYAQ

## 1-ci DƏRS
## Yer Günü – dünyanın təbiət bayramı

**Təlim nəticələri:**
- Oxuduqları, həyatda gördükləri və təəssüratları haqqında danışır (st. 2.1.2).
- Kontekstdən çıxış edərək söz və ifadələrin mənasını müəyyən edir (st. 3.1.2).
- Dinlədiyi mətn üzrə faktoloji suallara cavab verir (st. 1.1.1).
- Dinlədiyi mətndəki fakt və hadisələri şərh edir (st. 1.1.2).

**Mövzuya yönəltmə**

Müəllim şagirdlərə əvvəlki siniflərdə təbiətin mühafizəsi ilə bağlı öyrəndiklərini xatırladır. O belə suallar verə bilər:

*Planetimiz niyə "insanların evi" adlanır?*
*Təbiət bizə hansı nemətləri bəxş edir?*
*İnsanlar Yer kürəsinə necə zərər verirlər?*
*Təbiəti qorumaq üçün hər bir insan nələr edə bilər?*

**Dərslik, səh. 78**

**a.** Verilmiş izahlardan çıxış edərək *ekologiya* sözünün mənasını müəyyən edin.
- Sizcə, burada *ev* sözü hansı mənada işlənib?

Cavab:

Burada "ev" sözü insanların yaşadığı bina mənasında deyil, Yer planetini – canlıların yaşadığı mühiti və təbii yaşayış yerini ifadə edir. Yəni "ekologiya" canlıların öz yaşayış mühiti ilə qarşılıqlı əlaqəsini öyrənən elm deməkdir.

**Danışma**

**Dərslik, səh. 78**

**b.** Ekoloji problem dedikdə nə başa düşürsünüz? Müasir dövrdə hansı ekoloji problemlər var?

Şagirdlər indiyə qədər əldə etdikləri məlumatlar əsasında bu suala cavab verirlər.

**Dərslik, səh. 78**

**c.** Aşağıdakı mətndə fərqləndirilmiş ifadənin mənasını müəyyən edin.

Cavab: b. təbiətdəki canlılar və mühit arasında yaranan düzgün və sabit münasibət

**Dərslik, səh. 78**

**ç.** Təbiət fənnindən istixana effekti haqqında öyrəndiklərinizi xatırlayın və sxemi izah edin.

Cavab:
- İstixana effekti nədir?

**İstixana effekti** – Günəş şüalarının Yer səthinə düşüb onu qızdırması və bu istiliyin bir hissəsinin atmosferdə toplanması hadisəsidir. Bunu sadə şəkildə belə də izah etmək olar: Günəş şüaları Yerə çatır və səthi qızdırır. Yer səthi bu istiliyi geri qaytarmaq istəyəndə atmosferdəki su buxarı və bəzi qazlar bu istiliyi tutub saxlayır. Nəticədə Yer səthinin temperaturu artır. Bu da qlobal istiləşməyə səbəb olur.

Layihə

• Hansı qazlar istixana qazları adlanır?

İstixana qazları – atmosferdə olan və Günəşdən gələn istiliyi tutub saxlayan qazlardır. Bunlar Yer səthinin temperaturunun artmasına səbəb olur. Həmin qazlar karbon, metan və s.-dir.

• İstixana effektinin artması hansı ekoloji problemlərə səbəb ola bilər?

İstixana effektinin artması Yer səthinin normadan artıq isinməsi deməkdir. Bu proses bir çox ekoloji problemlərə səbəb olur:

Qlobal istiləşmə – Yer kürəsində orta temperaturun yüksəlməsi.

Buzlaqların əriməsi və dəniz səviyyəsinin qalxması – qütb buzları əriyir, nəticədə bəzi sahil şəhərləri su altında qala bilər.

İqlim dəyişiklikləri – bəzi yerlərdə quraqlıq, digərlərində isə güclü yağışlar və sel hadisələri artır.

Meşə yanğınlarının çoxalması – isti və quraq hava şəraiti yanğın riskini artırır.

Canlıların yaşayış mühitinin dəyişməsi – bəzi heyvan və bitkilər yaşamaq üçün uyğun mühit tapa bilmir, növlərin azalması müşahidə olunur.

Xəstəliklərin yayılması – isti iqlim bəzi zərərverici həşəratların və xəstəlik daşıyıcılarının yayılmasını asanlaşdırır.

**İndi isə sxemi izah edək:**

Yuxarıda Günəş təsvir olunub. Günəşdən Yerə gələn istilik enerjisi atmosferdən keçir. Yer səthi bu enerjini udur və buraxılan istilik enerjisi şəklində yenidən atmosferə ötürür. Atmosferdə istixana qazları (buxar, karbon, metan və s.) qismən bu istiliyin kosmosa qayıtmasının qarşısını alır. Nəticədə atmosferdə tutulub saxlanılan enerji meydana çıxır və Yerin istiləşməsinə səbəb olur. Bu proses planetin orta temperaturunun qorunması üçün təbii olsa da, insan fəaliyyəti nəticəsində istixana qazlarının artımı həddindən artıq istiləşməyə səbəb olur.

**Dərslik, səh. 79**

**d.** Aşağıdakı şeir parçasını oxuyun. “Təbiət özü hər şeyi düşünür” nə deməkdir?

Cavab:

Müəllif demək istəyir ki, təbiət öz qanunları ilə hər şeyi nizamlayır.

Bu misra insanlara çağırışdır: təbiətin nizamını pozmamaq, ona uyğun yaşamaq, onu qorumaq lazımdır.

**Dinləmə**

**Dərslik, səh. 79**

**e.** Qeyd götürməklə “Yer Günü – dünyanın təbiət bayramı” mətnini dinləyin. Mətndəki əsas fikirlərdən çıxış edərək yaddaş xəritəsi hazırlayın.

Dinləmə mətni səsləndirilir. Şagirdlər qeyd götürürlər. Daha sonra yaddaş xəritəsi hazırlayırlar. Şagirdlər yaddaş xəritəsi hazırlamaqla mətnin məzmununu anladıqlarını nümayiş etdirirlər.

***Yer Günü – dünyanın təbiət bayramı***

*İnsan fəaliyyətinin ətraf mühitə dağıdıcı təsiri hər gün inanılmaz miqyasda artır. Əgər biz bunun qarşısını almaq üçün qəti tədbirlər haqqında düşünməsək, yaxın gələcəkdə bu, qlobal fəlakətə səbəb ola bilər.*

*Hər il aprelin 22-də bütün dünya Beynəlxalq Yer Gününü qeyd edir. Bu bayram ətraf mühitin qorunmasına, planetin yaşıllaşdırılmasına, ümumiyyətlə, təbiətə qayğı ilə yanaşmağa həsr olunub. Yer Günü ilk dəfə 1970-ci ildə Amerika Birləşmiş Ştatlarında ölkə miqyasında qeyd edilib. İllər keçdikcə bu tədbirə digər ölkələr də qoşulmağa başlayıb. 2009-cu ildə Birləşmiş Millətlər Təşkilatı dünyada keçirilən bir sıra ekoloji aksiyaları birləşdirmək qərarına gəldi və 22 aprel Beynəlxalq Yer Günü kimi rəsmi bayram elan olundu. İlk rəsmi Yer Günü 2010-cu ildə qeyd edildi.*

*Yer Günündə ağaclar əkilir, ərazilər, çimərliklər təmizlənir, müsabiqələr, marafonlar keçirilir. Həmin gün Dünya zəngi çalınır. Bu, təbiətə qayğı məsələsində beynəlxalq həmrəyliyin simvoludur. Dünya zəngi BMT-nin Nyu-Yorkdakı Baş qərargahında quraşdırılmışdır. Zəng səsi planetimizin gözəlliyini və kövrəkliyini, onu qorumağın zəruriliyini xatırladır.*



Layihə

*Yer Gününün rəsmi simvolu yunan hərfi tetadır. O, ağ fonda yaşıl rəngdə verilir. Simvol ortada üfüqi xətt – ekvator olmaqla Yer planetini xatırladır. Bu simvolun seçilməsi təsadüfi deyil. Qədim Yunanıstanda "teta" təhlükə işarəsi sayılırdı. Yer Gününün əsas ideyası da məhz budur: planetimizin təhlükə altında olduğunu dərk etmək və davranışlarımızı dəyişmək.*

*Bayramın digər simvolu – Yerin qeyri-rəsmi "bayrağ"ıdır. Bu bayraq göy fonda yerləşdirilmiş Yerin kosmosdan çəkilmiş fotosundan ibarətdir. Həmin şəkli Aya uçan "Apollon-17" kosmik gəmisinin astronavtları çəkmişlər.*

*Yer Günü dünyaya bir mesaj verir: "Bu planet bizim evimizdir – gəlin onu qoruyub gələcək nəsillərə sağlam təhvil verək!"*

**Dərslik, səh. 79**

**ə.** Mətndə hansı suala cavab yoxdur?

Cavab:

2. Yer Günü neçə ölkədə qeyd edilir?

**Dərslik, səh. 79**

**f.** Mətnə əsasən cümlələri tamamlayın.

Cavab:

1. Yer Günü ilk dəfə ABŞ-də qeyd olunub. *(harada?)*
2. Yerin bayrağındakı fotonu astronavtlar çəkmişdir. *(kim?)*
3. Dünya zəngi BMT-nin Baş qərargahında quraşdırılmışdır. (harada?)

**Dərslik, səh. 79**

**g.** Mətnə istinad edərək aşağıdakı yunan hərflərindən hansının teta olduğunu müəyyənləşdirin.

Cavab:

sıradakı 2-ci hərf

**Dərslik, səh. 80**

**ğ.** Nə üçün mətndə Yer Günü "teta" simvolu ilə əlaqələndirilir?

Cavab:

Qədim Yunanıstanda "teta" təhlükə işarəsi sayılırdı. Yer Gününün əsas ideyası da məhz budur: planetimizin təhlükə altında olduğunu dərk etmək və davranışlarımızı dəyişmək.

• Sizcə, Yer Günü üçün daha hansı simvol uyğun olardı? Öz simvolunuzu düşünün və nəyə görə məhz bu simvolu seçdiyinizi izah edin.

Şagirdlər tapşırığın tələbinə əsasən başqa bir simvol düşünüb tapmalı və öz seçimlərini izah etməlidirlər.

**Dərslik, səh. 80**

**h.** Mətnin əvvəlində "qəti tədbirlər haqqında düşünməsək, qlobal fəlakət ola bilər" deyilir. Sizcə, bu "qəti tədbirlər" nələr ola bilər?

Cavab:

Meşələrin qorunması və artırılması – ağaclar havanı təmizləyir, karbon qazını udur.

Tullantıların azaldılması və təkrar emalın artırılması – plastik, metal və digər materialların yenidən istifadəsi ətraf mühiti çirklənmədən qoruyur.

Təmiz enerji mənbələrindən istifadə – külək, günəş və su enerjisi kimi bərpa olunan mənbələrdən yararlanmaq.

Nəqliyyatda ekoloji alternativlər – ictimai nəqliyyatdan, velosipeddən və elektrikli avtomobillərdən istifadə.

Sənaye tullantılarına nəzarət – fabriklərin və zavodların havaya buraxdığı zərərli qazların miqdarını azaltmaq.

Lәvinə

Su və enerji israfının qarşısını almaq – hər kəs öz gündəlik davranışı ilə təbiəti qoruya bilər.

Maarifləndirmə və ekoloji təhsil – uşaqlara və böyüklərə təbiətin qorunmasının vacibliyini öyrətmək.

**Dərslik, səh. 80**

**x.** "Dünya zəngi"nin Yer Günü ilə əlaqəsi nədən ibarətdir və o hansı fikirləri insanlara çatdırır?

Cavab:

Dünya zəngi xalqların həmrəyliyi və dostluğunun simvoludur. Zəng səsi planetimizin gözəlliyini və kövrəkliyini, onu qorumağın zəruriliyini xatırladır.

**Dərslik, səh. 80**

**ı.** Sizcə, Yer Gününün qeyd olunması insanların təbiətə münasibətinə necə təsir edir? Fikirlərinizi əsaslandırın.

Cavab:

Maarifləndirir, məsuliyyət hissi yaradır, təbiətə sevgi və qayğı hissini artırır.

**Dərslik, səh. 80**

**i.** Mətndəki faktlara istinad edərək "Beynəlxalq Yer Gününün əsas təşəbbüskarı BMT-dir" fikrini əsaslandırın.

Cavab:

Yer Gününün beynəlxalq səviyyəyə çıxarılması, rəsmi qərar kimi qəbul edilməsi və bütün dünyaya yayılması BMT-nin təşəbbüsü və qərarı sayəsində mümkün olmuşdur.

**Yazı**

**İş dəftəri, səh. 31**

**a.** Verilmiş plana əsaslanaraq "Ətraf mühitə biganə qalsaq..." mövzusunda 10–12 cümləlik rabitəli mətn yaz. Yazında həm mətndən, həm də şəxsi fikirlərindən istifadə et.

Tapşırığın tələbinə əsasən şagirdlər mətn yazırlar. Bu mətnə həm dinləmə mətnindən əldə etdikləri bilgiləri, həm də öz fikirlərini əlavə edirlər.

**İş dəftəri, səh. 31**

**b.** Hansı fikirlər dinləmə mətninə aid deyil?

Cavab:

**2.** Zədələnmiş ekosistemlərin bərpası iqlim dəyişikliyi ilə mübarizəyə kömək edəcək.
**4.** Yer planetinin 4,5 milyard yaşı olduğu təxmin edilir.
**5.** Antarktida Yer kürəsinin ən soyuq qitəsidir.

**Müəllimin nəzərinə!** Növbəti dərs üçün şagirdlərə iqlim dəyişiklikləri haqqında araşdırma aparmaq tapşırılır.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Oxuduqları, həyatda gördükləri və təəssüratları haqqında danışır. | Tapşırıq a, ç (dərslik) |
| Kontekstdən çıxış edərək söz və ifadələrin mənasını müəyyən edir. | Tapşırıq b, c (dərslik) |
| Dinlədiyi mətn üzrə faktoloji suallara cavab verir. | Tapşırıq e, ə, f (dərslik) |

Layihə

| | |
|---|---|
| Dinlədiyi mətndəki fakt və hadisələri şərh edir. | Tapşırıq g, ğ, h, x, ı, i (dərslik) |

# 2-ci DƏRS
## Təqdimat

**Təlim nəticələri:**
• Verbal və qrafik materialları (sxem və s.) şərh etməklə mövzu üzrə danışır (st. 2.1.3).

**Mövzuya yönəltmə**
**Dərslik, səh. 80**

**a.** Araşdırma aparmaqla "Qlobal iqlim dəyişiklikləri" mövzusunda təqdimat hazırlayın. Aşağıdakı sxemdən istifadə edin və suallara cavab verin.

Cavab:
• Ətraf mühitin çirklənməsi həyatımıza necə təsir edir?
Ətraf mühitin çirklənməsi birbaşa insanların, heyvanların və bitkilərin həyatına mənfi təsir göstərir.
**Havanın çirklənməsi** – nəfəs almağı çətinləşdirir, müxtəlif xəstəliklər yaradır.
**Suyun çirklənməsi** – içməli suyun keyfiyyətini azaldır, xəstəliklərin yayılmasına səbəb olur.
**Torpağın çirklənməsi** – məhsuldarlığı azaldır, sağlam qida əldə etmək çətinləşir.
**Canlı aləmə təsir** – tullantılar və zəhərli maddələr heyvanların yaşayış mühitini məhv edir, bəzi növlər yoxa çıxır.
**İqlim dəyişiklikləri** – havanın çirklənməsi istixana effektini gücləndirir, bu da istiləşmə, quraqlıq və fəlakətlərin artmasına gətirib çıxarır.
• İnsanlar iqlim dəyişikliyi qarşısında hansı məsuliyyəti daşıyırlar? (Nümunələr gətirməklə fikrinizi əsaslandırın).
İnsanlar iqlim dəyişikliyi qarşısında böyük məsuliyyət daşıyırlar, çünki bu dəyişikliklərin əsas səbəbi məhz insan fəaliyyətidir. İnsanlar təbiəti qorumalı və ağac əkməli, tullantıları hər yerə atmamalı, enerjiyə qənaət etməlidir və s.
• Sizcə, dünya ölkələri iqlim dəyişikliyi ilə birgə mübarizə aparmaq üçün nə etməlidirlər?
Dünya ölkələri iqlim dəyişikliyi ilə mübarizə aparmaq üçün birlikdə və ardıcıl şəkildə fəaliyyət göstərməlidirlər: ölkələr bir-birinə dəstək olmalı, Günəş, külək və su enerjisindən istifadəni artırmalı, meşələri qorumalı, sənaye tullantılarına ciddi nəzarət etməli, su ehtiyatlarını qorumalıdır və s.

**Formativ qiymətləndirmə**
Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Verbal və qrafik materialları (sxem və s.) şərh etməklə mövzu üzrə danışır. | Tapşırıq a (dərslik) |

Ləyinə

# 3-cü DƏRS
## "Yaşıl dünya" naminə

**Təlim nəticələri:**
- Müzakirə zamanı mövzuya uyğun fikir yürüdür (st. 2.1.4).
- Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir (st. 3.1.3).
- Faktlardan istifadə etməklə mətndə açıq şəkildə ifadə olunmayan məlumatı müəyyən edir (st. 3.1.4).
- Mətnin tərkib hissələrini müəyyən edir (st. 3.1.5).

**Mövzuya yönəltmə**

**Müəllimin nəzərinə!** Oxuya keçməzdən əvvəl şagirdləri "Sözlərin izahı" rubrikasındakı terminlərlə tanış etmək lazımdır.

**Oxu**

**Dərslik, səh. 81**

**a.** Aşağıdakı mətni oxuyun. Sizcə, mətn niyə belə adlanır? "Yaşıl dünya" ifadəsi nəyi bildirir?

**Mətn üzrə iş.** Şagirdlər mətni səssiz oxuyur və əsas məlumatları müəyyənləşdirirlər. Yeni rastlaşdıqları söz və ifadələrin mənasını mətnin məzmununa əsasən izah edirlər.

"Yaşıl dünya" ifadəsi nəyi bildirir?

Cavab:

"Yaşıl dünya" təmiz hava, çoxlu ağac, saf su, sağlam təbiət və təhlükəsiz həyat deməkdir. Buradakı *"yaşıl"* sözünün mənası:

1. həyat, təzəlik, təmizlik və təbiətin gözəlliyi anlamını verir;
2. eyni zamanda, ekoloji baxımdan sağlam bir dünya ideyasını ifadə edir.

Mətnin adı təbiətin qorunmasına və ekoloji düşüncəyə çağırış mənası daşıyır: təbiəti qoruyaq, ağac əkək, tullantıları azaltmaqla dünyanı yaşıl və sağlam saxlayaq. Yəni hər bir insan "yaşıl dünya naminə" – təmiz bir dünya üçün çalışmalıdır.

**Dərslik, səh. 82**

**b.** Verilmiş izahların "Söz mücrüsü"ndəki hansı sözlərə aid olduğunu müəyyən edin.

Cavab:

1. çoxlu buz yığılan yer – buzlaq
2. bir şeyi ehtiyatla, az-az işlətmək – qənaət etmək
3. qüvvət, güc, kəskinlik, sərtlik – şiddət

**Dərslik, səh. 82**

**c.** Mətnə əsasən suallara cavab verin.

Cavab:

1. Yerin orta temperaturu və hava şəraitinin uzunmüddətli dəyişməsi, atmosferdəki istixana qazlarının artması, atmosferə böyük miqdarda zərərli qazların yayılması, havanın çirklənməsi.
2. COP konfranslarının məqsədi bütün dünya ölkələrini birləşdirərək Yer kürəsini qorumaq, iqlim dəyişikliyinin fəsadlarını azaltmaq və gələcək nəsillər üçün yaşanacaq bir planet saxlamaqdır.
3. İstixana qazlarının azaldılması ilə.
4. COP29 konfransı 11-22 noyabr 2024-cü il tarixində Bakıda keçirilmişdir. Ölkələr razılaşdılar ki, iqlim dəyişikliyinin qarşısını almaq üçün daha çox səy göstərəcəklər; təmiz, "yaşıl" enerji – günəş, külək və su enerjisindən daha çox istifadə edəcəklər; meşələri qoruyacaqlar; elektromobillərin istehsalını artıracaqlar və s.

Layihə

**Dərslik, səh. 82**

**ç.** Mətnə əsasən doğru fikirləri müəyyən edin.

Cavab:
2. Paris Sazişi 2015-ci ildə imzalanıb.
4. Elektromobillər iqlim dəyişikliyinə qarşı mübarizədə faydalıdır.

**Dərslik, səh. 83**

**d.** Mətnə aid fikri seçin.

Cavab:
**c.** Mətn mövzu ilə bağlı oxucuya məlumat verir.

**Dərslik, səh. 83**

**e.** Mətni iki hissəyə bölün və uyğun yarımbaşlıqlarla adlandırın.

Bu tapşırıq şagirdlərdə mətni məzmun-struktur baxımından təhlil etmək bacarığını inkişaf etdirir. Şagirdlər mətnin hissələrini məzmuna uyğun müxtəlif yarımbaşlıqlarla adlandıra bilərlər. Bu tapşırıq şagirdlərə həm də mətnləri düzgün strukturlaşdırmaq bacarığını aşılayır.

**Dərslik, səh. 83**

**ə.** Aşağıdakı sxemdən istifadə etməklə mətnin birinci hissəsini nəql edin.

Tapşırıq şagirdlərin danışma bacarığının inkişafına yönəlmişdir.

**Dərslik, səh. 83**

**f.** Sizcə, insanlar birləşib tədbir görməsələr, iqlim dəyişikliyi gələcəkdə Yer üzündə hansı dəyişikliklərə gətirib çıxara bilər?

Cavab:
Əgər insanlar birləşib ciddi tədbirlər görməsələr, iqlim dəyişikliyi gələcəkdə çox təhlükəli ola bilər.
Əsas nəticələri bunlar ola bilər: temperaturun artması, buzlaqların əriməsi və dəniz səviyyəsinin qalxması, kənd təsərrüfatına zərbə, su çatışmazlığı, təbii fəlakətlərin artması, canlıların məhvi və biomüxtəlifliyin azalması, insan sağlamlığına təsir

**İş dəftəri, səh. 32**

**a.** Mətndəki məlumatlara əsasən cədvəli tamamla.

Cavab:

| Hadisə | Tarix |
|---|---|
| Kioto Protokolu | 1997 |
| Rio-de-Janeyroda Yer Sammiti | 1992 |
| Bakıda COP29 | 2024 |
| Berlin konfransı | 1995 |
| Paris Sazişi | 2015 |

**İş dəftəri, səh. 32**

**b.** Aşağıdakı cümlələri səbəb-nəticə əlaqəsinə görə ardıcıllıqla düz.

Cavab:
1 – c, 2 – b, 3 – e, 4 – a, 5 – d

Layihə

İş dəftəri, səh. 32

**c.** Mətndə hansı suallara cavab yoxdur?

Cavab:
1. İqlim dəyişikliyi nəticəsində Yerin orta temperaturu neçə dərəcə artıb?
2. Atmosferə ən çox hansı istixana qazları buraxılır?
4. Dünyada hər il neçə hektar meşə qırılır?
6. Okeanlara hər il neçə ton plastik tullantı atılır?

**Formativ qiymətləndirmə**
Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Müzakirə zamanı mövzuya uyğun fikir yürüdür. | Tapşırıq a (dərslik) |
| Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir. | Tapşırıq c, ç (dərslik) |
| Faktlardan istifadə etməklə mətndə açıq şəkildə ifadə olunmayan məlumatı müəyyən edir. | Tapşırıq d, f (dərslik) |
| Mətnin tərkib hissələrini müəyyən edir. | Tapşırıq e, ə (dərslik) |

# 4-cü DƏRS
## "Yaşıl dünya" naminə

**Təlim nəticələri:**
• Verilmiş situasiyaya, məqsədə uyğun kiçikhəcmli mətn yazır (st. 4.1.1).

**Mövzuya yönəltmə**
Dərslik, səh. 83

**a.** Təsəvvür edin ki, siz COP konfransında Azərbaycanı təmsil edirsiniz. Konfransda çıxış etmək üçün qısa bir çağırış nitqi yazın. Nitqinizdə ətraf mühitin qorunması üçün məsuliyyətli olmağı vurğulayın.

**Cavab təxminən belə ola bilər:**
**COP konfransında Azərbaycanı təmsil edən şagirdin çıxışı**
Hörmətli konfrans iştirakçıları!

Mən Azərbaycanı təmsil edən bir şagird kimi bütün dünyaya səslənirəm: Gəlin Yer planetini qoruyaq! Çünki təbiət bizə deyil, biz təbiətə möhtacıq. Əgər bu gün məsuliyyətli davranmasaq, sabah təbiət bizdən üz döndərəcək.

Azərbaycan üçün mənim təkliflərim bunlardır:

Ağacəkmə kampaniyaları artırılsın. Çünki ağaclar havanı təmizləyir, karbon qazını azaldır və torpağı qoruyur. Bu, havada istixana qazlarının çoxalmasının qarşısını alar və iqlimin sabit qalmasına kömək edər.

Bərpa olunan enerji – külək və günəş enerjisinə keçid sürətləndirilsin. Bu yolla havaya daha az zərərli qaz buraxılar, havanın çirklənməsi və istiləşmə azalar.

Tullantıların təkrar emalı genişləndirilsin. Bu, torpağın və suyun çirklənməsini azaldar, heyvanların və bitkilərin yaşayış mühitini qoruyar.

Layihə

Su ehtiyatlarından qənaətlə istifadə edək. Bu, quraqlıq və su qıtlığının qarşısını almağa kömək edər.

Hörmətli iştirakçılar!

Ətraf mühitin qorunması yalnız hökumətlərin işi deyil, hər bir insanın borcudur. Mən inanıram ki, biz gənclər birləşsək, Yer üzünü gələcək nəsillər üçün daha yaşıl, daha təmiz və daha gözəl edə bilərik.

COP30 konfransı üçün bir neçə şüar təklifi:

"Bu gün qoruyaq, sabah nəfəs alaq!"

"Təbiət bizim evimizdir – onu birlikdə qoruyaq!"

"Yaşıl dünya – sağlam gələcək!"

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Verilmiş situasiyaya, məqsədə uyğun kiçikhəcmli mətn yazır. | Tapşırıq a (dərslik) |

Layihə

# Ümumiləşdirici təkrar

**Təlim nəticələri:**
- Kontekstdən və qrammatik formadan çıxış edərək qoşma və bağlayıcıların qrammatik-semantik xüsusiyyətlərini izah edir (st. 4.1.3).
- Bağlayıcılardan əvvəl və sonra vergül işarəsindən yerində istifadə edir (st. 4.1.2).

**Dərslik, səh. 84**

**1.** Nöqtələrin yerinə uyğun qoşmalar yazmaqla cümlələri tamamlayın.

Şagirdlər cümlələrin kontekstinə uyğun gələn qoşma yazırlar. Daha sonra həmin qoşmaların yaratdığı məna çalarını da göstərmək olar.

Cavab:
Maşın ilə getsək, daha tez çatarıq.
İclas nahara qədər davam etdi.
Qonaqlar üçün dadlı yeməklər bişirməliyik.
Hamı meydana tərəf gedirdi.

**Dərslik, səh. 84**

**2.** Hansı cümlədə qoşmanın yazılışı düzgündür?

Tapşırıqda qoşmaların yazılışı ilə bağlı qaydalar tətbiq olunur.
Cavab: 1. Otaq əlvan çiçəklərlə bəzədilmişdi.

**Dərslik, səh. 84**

**3.** Hansı cümlədə fərqləndirilmiş söz qoşmadır? Onun omonimlərinin hansı nitq hissəsi olduğunu müəyyənləşdirin.
- Həmin qoşmanın sinonimini tapın.

Tapşırığın məqsədi şagirdlərin diqqətini nitq hissələrinin qrammatik omonimlik xüsusiyyətinə yönəltməkdir.

Cavab: Gülər sinfə hamıdan qabaq gəlmişdi.
Omonimi – sifət, zərf
Sinonimi – əvvəl

**Dərslik, səh. 84**

**4.** Cümlələrdə işlənmiş bağlayıcıları məna növlərinə uyğun olaraq cədvəldə qruplaşdırın.

Şagirdlər cümlələrdəki bağlayıcıları müəyyənləşdirdikdən sonra məna növlərinə görə ayırırlar və cədvəldə yerləşdirirlər.

Cavab:

| Hadisə | Tarix |
|---|---|
| Kioto Protokolu | 1997 |
| Rio-de-Janeyroda Yer Sammiti | 1992 |
| Bakıda COP29 | 2024 |
| Berlin konfransı | 1995 |
| Paris Sazişi | 2015 |

Layihə

**Dərslik, səh. 84**

**5.** Dördündən biri fərqlidir:

Cavab: **1-ci sütun:** d. qədər
**2-ci sütun:** a. tərəf
**3-cü sütun:** b. üçün
**4-cü sütun:** c. bəri

**Dərslik, səh. 85**

**6.** *Kimi* qoşmasının işlənməsi ilə bağlı hansı fikir yanlışdır?

Cavab: c. 1-ci və 3-cü cümlələrdə qrammatik omonimdir.

**Dərslik, səh. 85**

**7.** Uyğunluğu müəyyən edin.

Şagirdlər cümlələrdəki "doğru" sözünün aid olduğu nitq hissəsini müəyyənləşdirməklə qrammatik omonimlik mövzusunu mənimsədiklərini nümayiş etdirirlər.

Cavab: 1 – c, 2 – b, 3 – a.

**Dərslik, səh. 85**

**8.** Kontekstə uyğun olaraq qoşmaları sinonimləri ilə əvəz edin.

Şagirdlər tapşırığın tələbinə əsasən kontekstə uyğun sinonimləri seçməklə qrammatik sinonimlik mövzusunu mənimsədiklərini nümayiş etdirirlər.

Cavab: 1. başqa, 2. barədə, 3. qədər, 4. qabaq.

**Dərslik, səh. 85**

**9.** Hansı cümlələrdəki bağlayıcılarda vergül düzgün işlənib?

Cavab:
1. Kitab böyük müəllimdir,
Sinəsində min aləm var.
O səni bir insan kimi
Gah güldürər, gah ağladar. (*Bəxtiyar Vahabzadə)*
3. Tədbirdə müəllimlər, şagirdlər, habelə valideynlər iştirak etdilər.

**Dərslik, səh. 85**

**10.** Nöqtələrin yerinə uyğun qoşma və bağlayıcıları yazın və məna fərqini izah edin. Bağlayıcılarda vergülün işlənmə yerini müəyyənləşdirin.

Tapşırıq şagirdlərin həm qoşma, həm də bağlayıcı üzrə biliklərinin yoxlanılmasına imkan yaradır.

Cavab:
1. Müəllim sinfə girdi ki, dərsə başlasın.
2. Müəllim dərsə başlamaq üçün sinfə girdi.
3. Müəllim sinfə girdi və dərsə başladı.
4. Müəllim sinfə girdi, amma sinifdə heç kim yox idi.

Bu cümlələrdə işlənən bağlayıcılar cümlələr arasında əlaqə yaradıb.

**İş dəftərində verilmiş tapşırıqlar keçilmiş mövzular üzrə şagirdlərin biliklərini möhkəmləndirir.**

**İş dəftəri, səh. 33**

**1.** Boşluqlara hansı qoşmaları yazmaq olar?

Cavab:
1. Ana uşağın qolundan tutub özünə tərəf çəkdi.
2. Ovçu kimi tələsərək,
Ötüb keçmə dağ yanından. *(Qəray Fəzli)*

Layihə

3. Rəfiqəm bizimlə sağollaşıb evə getdi.
4. Səndən ötrü can verməyə cümlə hazırız! *(Əhməd Cavad)*
**İş dəftəri, səh. 33**

**2.** Aşağıdakı cümlələrdə *kimi* qoşmasının yaratdığı məna çalarını müəyyən et. Hansı cümlədə onu *tək* qoşması ilə əvəz etmək olar?

Cavab:
a Dənizdə fırtına səhərə kimi davam etdi. – zaman
b Ağdama kimi qatarla getdik. – məsafə
c Onun gözləri ulduz kimi parıldayırdı. – bənzətmə
3-cü cümlədə *tək* qoşması ilə əvəz etmək olar.
**İş dəftəri, səh. 33**

**3.** Qoşmaların düzgün yazılışını müəyyən et.

Tapşırıq vasitəsilə qoşmaların orfoqrafiyası üzrə biliklər tətbiq edilir.
Cavab:
1. Filmə *axıradək* baxa bilmədim.
2. Mən körpəmi xoş *günlər üçün* bəsləyib,
Beşik üstə ağartmışam başımı. *(Mirvarid Dilbazi)*
3. Evə *gələnəcən* xeyli söhbət etdik.
**İş dəftəri, səh. 33**

**4.** Verilmiş məna növünə uyğun bağlayıcıları müəyyənləşdir və boşluqlara yaz.

Cavab:
**1. inkarlıq bağlayıcısı**
*Nə* yağış dayanır, *nə də* külək azalırdı.
**2. iştirak bağlayıcısı**
*Həm* müəllim, *həm də* şagirdlər də tədbirə hazırlaşırdılar.
**3. qarşılaşdırma bağlayıcısı**
Çox fikirləşdik, *amma* hara gedəcəyimizə qərar verə bilmədik.
**4. aydınlaşdırma bağlayıcısı**
Çinar ağacı o qədər hündür idi *ki,* kəndin hər tərəfindən görünürdü.
**İş dəftəri, səh. 33**

**5.** Hansı bağlayıcılar vergülsüz işlənir?

Cavab: **a.** və, və ya, və yaxud
**Formativ qiymətləndirmə**
Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Kontekstdən və qrammatik formadan çıxış edərək qoşma və bağlayıcıların qrammatik-semantik xüsusiyyətlərini izah edir. | Tapşırıq 3, 4, 5, 8 (dərslik); 2, 4 (iş dəftəri) |
| Bağlayıcılardan əvvəl və sonra vergül işarəsindən yerində istifadə edir. | Tapşırıq 9, 10 (dərslik); 5 (iş dəftəri) |

Layihə

Bölmə **4** 

# FƏRDİ İNKİŞAF

| Dərs | Mövzu | Məzmun xətti | Dərslik səh. | İş dəftəri səh. | Metodik vəsait səh. |
|---|---|---|---|---|---|
| | Giriş | | 86-87 | | 106-108 |
| 1-ci fəsil. **Özünə inan** | | | | | |
| 1 | Əlvida, “bilmirəm”! | Oxu | 88-91 | 34 | 109-110 |
| 2 | “Xarakterimdəki hansı zəif cəhətə “əlvida” deyərdim” mövzusunda esse | Yazı | 91 | | 111-112 |
| 3 | Ədat | Yazı | 92 | 35 | 112-113 |
| 4 | “Ki”, “da”, “də” ədat və bağlayıcı kimi | Yazı | 93 | 35 | 114 |
| 2-ci fəsil. **Təslim olma** | | | | | |
| 5 | Uğur hekayələri | Oxu<br>Danışma | 94-98 | 36 | 115-117 |
| 6 | Məruzə | Danışma | 98 | 37 | 118-119 |
| 7 | Modal sözlər | Yazı | 99 | 38 | 119-121 |
| 3-cü fəsil. **Mütaliə et** | | | | | |
| 8 | Mədəni səviyyəni necə yüksəltməli? | Oxu<br>Danışma | 100-104 | 39 | 122-125 |
| 9 | Nida | Yazı | 105 | 40 | 125-126 |
| 10 | Ümumiləşdirici təkrar | Yazı | 106 | 41-42 | 127-129 |

Layihə

# GİRİŞ DƏRSİ

**<u>Təlim nəticələri</u>:**
- Verbal materialları şərh etməklə mövzu üzrə danışır (st. 2.1.3).
- Dinlədiyi mətn üzrə faktoloji suallara cavab verir (st. 1.1.1).
- Verbal və vizual məlumatlardan ibarət təqdimat materialı hazırlayır (st. 4.1.1).

**Mövzuya yönəltmə**

Müəllim şagirdlərin diqqətini bölmənin adına yönəldir.

**Müəllimin nəzərinə!** Bu dərs üçün 2 saat ayrılmışdır. Bu səbəbdən müəllimlər dərsi iki hissəyə ayırıb keçə bilərlər.

**Danışma**

**Dərslik, səh. 86**

**a.** Uyğunluğu müəyyən edin və bu mövzudakı məlumatlarınızdan istifadə etməklə “Uğura gedən yol” mövzusunda danışın.

Tapşırığın məqsədi şagirdlərin danışıq bacarığını, fikir ardıcıllığını və müəyyən anlayışlar arasında əlaqə qurmaq qabiliyyətini inkişaf etdirməkdir. Müəllim “Uğur” anlayışı haqqında qısa söhbət açır, şagirdlərdən soruşur:

- Uğur sizin üçün nə deməkdir?
- Uğurlu insan hansı xüsusiyyətləri ilə fərqlənir?
- Sizcə, uğur insanın doğuşdan malik olduğu qabiliyyətdirmi, yoxsa zəhmət və iradənin nəticəsidirmi?

**Müəllimin nəzərinə!** Şagirdlərin diqqətini aforizmlərdəki açar sözlərə yönəltmək məqsədəuyğundur:

1. Özünəinam → **İnam**
2. Səbir → **Dözüm**
3. Kitab → **Mütaliə**

**Dinləmə**

**Dərslik, səh. 86**

**b.** “Demosfen” mətnini dinləyin. Suallara cavab verin.

***Demosfen***

*Qədim Yunanıstanda natiqlik sənəti çox dəbdə idi. Dərin biliklərə və gözəl danışma bacarığına malik olan natiqlər meydanlarda camaatın qarşısında saatlarla çıxış edir, onların rəğbətini qazanırdılar. Belə məşhur natiqlərdən biri də Demosfen olmuşdur.*

*Arıq, cılız və fiziki cəhətdən zəif olan Demosfen uşaqlıqdan “r” səsini tələffüz edə bilmirdi. Danışarkən çox həyəcanlanır, buna görə də tez-tez kəkələyirdi. Onun bir fiziki qüsuru da vardı: tez-tez çiynini atırdı.*

*Buna baxmayaraq, gənc Demosfen natiqlik sənəti ilə məşğul olmağa qərar verir. O, gözəl və mənalı bir mətn hazırlayır, nitq söyləmək üçün kütlə qarşısına çıxır. Lakin onun xalq qarşısında ilk çıxışı uğursuzluqla nəticələnir. Camaatın səs-küyü, gülüşü onun zəif səsini batırır. İşi belə görən Demosfen xəcalətindən plaşı ilə üzünü örtərək meydanı tərk edir.*

*Hər bir işini təhlil etməyi bacaran Demosfen anlayır ki, kütləni ələ almaq üçün yalnız mətnin maraqlı olması azdır. Yaxşı natiq intonasiya ilə danışmağı, səs tonunu tənzimləməyi, jest və mimikadan yerli-yerində istifadə etməyi bacarmalıdır.*

*Demosfen qüsurlarını aradan qaldırmaq üçün fəaliyyətə başlayır. O, diksiyasını düzəltmək üçün hər gün dəniz sahilinə gedir, ağzına xırda daşlar dolduraraq yüksək səslə danışmağa çalışır. Demosfen elə ucadan danışırdı ki, dənizin güclü dalğalarının səsi onun səsini batıra bil-*

layihə

*mirdi. İradəli gənc çiynini atmağı tərgitmək üçün tavandan bir qılınc asmışdı. Danışanda qılıncın altında dayanırdı. Çiynini atanda qılınc onu yaralayırdı. Beləcə, o bu vərdişini də tərgidir. Nəhayət, gənc natiq öz bədənini və səsini mükəmməl şəkildə idarə etməyi öyrənir.*

*Artıq xalq Demosfenin çıxışlarını böyük coşqu ilə qarşılayırdı. Beləliklə, Demosfen nəinki Afinada, hətta bütün dünyada ən mahir natiq kimi yaddaşlara həkk olundu.*

Cavab: 1. Demosfen Qədim Yunanıstanda yaşamış məşhur natiq olmuşdur.

2. Onun ilk çıxışı uğursuzluqla nəticələndi. Camaat onun zəif səsinə və kəkələməsinə görə gülürdü, səs-küy salırdı, buna görə də Demosfen xəcalətindən meydanı tərk etdi.

3. Demosfen “r” səsini tələffüz edə bilmirdi, tez-tez kəkələyirdi, danışarkən həyəcanlanır, çiynini atır və şax dayana bilmirdi. Həmçinin səsi zəif idi.

4. Demosfen səslənməsini düzəltmək üçün dəniz kənarında ağzına xırda daşlar qoyaraq ucadan danışırdı. Səsini gücləndirmək üçün dalğaların səsini üstələməyə çalışırdı. Çiynini atma vərdişindən qurtulmaq üçün tavandan qılınc asmışdı — çiynini atanda qılınc onu yaralayırdı. Beləcə, o, səbir və iradə ilə bütün qüsurlarını aradan qaldırdı və mahir natiq oldu.

**Dərslik, səh. 86**

**c.** Sizcə, Demosfenin uğur qazanmasının əsas səbəbi nə idi?

Cavab: Demosfenin uğur qazanmasının əsas səbəbi onun iradəsi, əzmi və öz üzərində səbirli şəkildə işləməsi idi. O, qüsurlarına görə ruhdan düşmədi, əksinə, onları aradan qaldırmaq üçün çox çalışdı. Demosfen başa düşdü ki, uğur təsadüfi deyil. O, davamlı məşq, inadkarlıq və özünəinam nəticəsində əldə olunur.

**Dərslik, səh. 86**

**ç.** Demosfenin xarakterini mətnin əsas ideyası ilə əlaqələndirib şərh edin.

Cavab: Demosfen zəif cəhətlərini qəbul edir, lakin onlarla barışmır. Əksinə, onları aradan qaldırmaq üçün səbir və əzmlə çalışır. Demosfenin bu davranışı göstərir ki, uğur insanın öz üzərində fədakarcasına işləməsi ilə əldə olunur. Mətnin əsas ideyası da məhz budur — əsl uğura aparan yol insanın iradəsi, səbir və özünəinamdan keçir. Demosfenin həyatı sübut edir ki, çətinliklər insana maneə deyil, onu daha da gücləndirən bir sınaqdır.

**Dərslik, səh. 86**

**d.** Natiq olmaq istəsəniz, özünüzdə hansı vərdişləri inkişaf etdirməlisiniz? Aşağıdakı ifadələrin mənalarını araşdırın və bu haqda danışın.

Tapşırıq şagirdləri həm özünüifadə, həm də nitq mədəniyyəti anlayışlarını mənimsəməyə yönəldir. Şagirdlərin fikirləri dinlənilir və ümumiləşdirilir. **Ümumiləşdirmə üçün nümunə**:

Natiq olmaq istəyən insan ilk növbədə özünəinamlı olmalı, aydın və ifadəli danışmağı bacarmalıdır. Bunun üçün diksiya və intonasiyanı inkişaf etdirmək, səs tonunu idarə etməyi, jest və mimikadan düzgün istifadə etməyi öyrənmək lazımdır. Eyni zamanda, natiq daim mütaliə etməli, fikirlərini məntiqli və ardıcıl şəkildə ifadə etməyə çalışmalıdır. Yaxşı natiq həm danışığını, həm də bədən dilini uyğun şəkildə tənzimləyir.

**Oxuyub-qavrama**

**Dərslik, səh. 86**

**e.** Mütaliə üçün tövsiyələri oxuyub şərh edin. Siz bu tövsiyələrdən hansına əməl edirsiniz?

Sual şagirdlərdə özünüdərk və mütaliə vərdişlərinə tənqidi yanaşma formalaşdırır. Onlar bu haqda fikirlərini söyləyirlər.

Şagirdlər “Səmərəli mütaliə üçün tövsiyələr”i oxuyur və hər hissəni qısa şərh edirlər:

• Uyğun şərait – diqqətin dağılmaması üçün vacibdir; müəllim izah edə bilər ki, səs-küy beynin konsentrasiyasını pozur.

• Qeydlər etmək – yadda saxlama və təkrar üçün vacibdir. Müəllim nümunə göstərə bilər (məsələn, “Səməd Vurğunun bu fikrinin altından xətt çəkdim, çünki mənə təsir etdi”).

Layihə

• Kitab seçimi – düzgün kitab seçmək inkişafın açarıdır. Müəllim şagirdlərə yaşlarına və maraqlarına uyğun kitab nümunələri göstərə bilər.

**Danışma**

**Dərslik, səh. 87**

**ə.** Mütaliə ilə bağlı kəlamları oxuyun. Hansı fikirlə razısınız? Seçiminizi əsaslandırın.

**Müəllimin nəzərinə!** Şagirdləri iki qrupa bölüb müzakirə aparın: biri Kolberin, digəri latın atalar sözünün tərəfdarı olsun. Hər qrup öz mövqeyini 2-3 cümlə ilə əsaslandırsın. Müzakirə sonrası müəllim nəticə çıxararaq vurğulaya bilər: hər iki fikir dəyərlidir, lakin mütaliədə məqsəd – dərin anlam və bilik əldə etməkdir.

**Dərslik, səh. 87**

**f.** Suallara cavab verməklə mütaliə vərdişlərinizin inkişafına yönələn plan hazırlayın.

Şagirdlər verilmiş sualları cavablandıraraq qısa müzakirə aparır, öz təcrübələrini paylaşırlar.

**Dərslik, səh. 87**

**g.** "Mənim oxu strategiyam" mövzusunda təqdimat hazırlayın.

**Müəllimin nəzərinə!** Təqdimat şagirdlərin seçimi ilə müxtəlif formada (plakat, PowerPoint) hazırlana bilər. Təqdimat zamanı şagirdlər aydın nitq, intonasiya və jest/mimikadan istifadə etməyə təşviq olunur. Müəllim lazım gəlsə, qısa demo təqdimat göstərərək formatı izah edə bilər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Verbal materialları şərh etməklə mövzu üzrə danışır. | Tapşırıq a, d, e, ə, f (dərslik) |
| Dinlədiyi mətn üzrə faktoloji suallara cavab verir. | Tapşırıq b, c, ç (dərslik) |
| Verbal və vizual məlumatlardan ibarət təqdimat materialı hazırlayır. | Tapşırıq g (dərslik) |

Layihə

# 1-ci fəsil
# ÖZÜNƏ İNAN

## 1-ci DƏRS
## Əlvida, "bilmirəm"!

**Təlim nəticələri:**
• Oxuduqları, həyatda gördükləri və təəssüratları haqqında danışır (st. 2.1.2).
• Kontekstdən çıxış edərək sözlərin mənasını müəyyən edir (st. 3.1.2).
• Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir (st. 3.1.3).

**Mövzuya yönəltmə.** Müəllim şagirdlərin diqqətini fəslin adına yönəldir. Şagirdlər sözün mənası və bu sözün onlarda yaratdığı assosiasiya haqqında danışırlar.

**Dərslik, səh. 88**

**Danışma**

**a.** Zəif və güclü tərəfləriniz haqqında düşünün və aşağıdakı cədvəli tamamlayın.

Bu tapşırıq həm özünüqiymətləndirmə, həm də özünüinkişaf planı hazırlamaq üçün əla vasitədir.

**Müəllimin nəzərinə!** Tapşırığı pozitiv notlara köklənmək tövsiyə edilir. Məqsəd zəif tərəfləri tənqid etmək deyil, onları inkişaf üçün stimul kimi göstərməkdir.

**Oxu**

**Mətnlə iş.** "Əlvida, "bilmirəm"! mətni müvafiq jest və mimikalardan istifadə edilməklə müxtəlif şagirdlər tərəfindən oxunur. Müəllim şagirdlərin nitqinə diqqət edir, obrazların hiss və həyəcanını ifadə etmək üçün onlara məsləhətlər verir.

**Söz ehtiyatı**

Daha sonra müəllim "Söz mücrüsü"ndə verilmiş sözlərin mənasını şagirdlərə izah edir. Şagirdlər yeni sözləri cümlələrdə işlətməklə onların mənasını anladıqlarını nümayiş etdirirlər.

**Dərslik, səh. 90**

**b.** "Anonim" sözünün izahını oxuyun. Bu sözü hansı sözlərlə işlətmək olar?

Cavab: anonim məktub, anonim məqalə

**Dərslik, səh. 90**

**c.** Cümlələrdəki "bilmək" sözü hansı mənalarda işlənib? Uyğunluğu müəyyən edin.

Cavab: 1 – c, 2 – a, 3 – b; Mətnin adındakı "bilmirəm" sözü "bacarmıram" mənasına uyğundur.

**Dərslik, səh. 91**

**ç.** "Qapalı" sözünün mətndəki mənasını müəyyən edin. Bu sözü digər mənalarında cümlədə işlədin.

Cavab: Hamıdan ayrı duran, ünsiyyətə girməyən, ürəyini heç kəsə açmayan. □ Qapalı adam.

**Oxuyub-qavrama**

**Dərslik, səh. 91**

**d.** Mətnə əsasən suallara cavab verin.

Cavab:

1. Günay müəllimin məqsədi şagirdlərin öz zəif və güclü tərəflərini dərk etməsi, "bilmirəm"lərlə vidalaşaraq özünəinam və bacarıq hissini gücləndirməsi idi.

2. • Motivasiya və giriş: Müəllim sinfə daxil olub şagirdləri salamladı, dərsin mövzusunu təqdim etdi.

Layihə

• Cədvəl tapşırığı: Şagirdlər “Nəyi bacarmıram?” və “Nəyi bilmirəm?” suallarına cavab verərək zəif tərəflərini qeyd etdilər.

• Anonim sorğu: Şagirdlər yazdıqları vərəqləri qutuya atdılar.

• Simvolik fəaliyyət: Qutu torpaqla dolduruldu və “bilmirəm”lərlə sağollaşdılar.

• Refleksiya və yekun: Müəllim şagirdlərlə dərsin nəticəsini müzakirə etdi və dərsin adını müəyyənləşdirdi.

3. Müəllim sorğunu anonim keçirdi ki, şagirdlər öz zəif tərəflərini utanmadan, sərbəst şəkildə yaza bilsinlər.

4. Nigar tərəddüd edirdi, çünki öz zəif cəhətlərini başqalarına etiraf etmək utanc və qorxu yaradırdı. O düşünürdü ki, digər şagirdlər və müəllim onun zəif tərəflərini görəcək.

5. Bəli, müəllim məqsədinə çatdı. Şagirdlər öz zəif tərəflərini dərk etdi, onları “bilmirəm”dən “bacarıram” və “bilirəm”ə çevirmək üçün hədəflər müəyyən etdilər, dərs sonunda isə pozitiv motivasiya və özünəinam hissi yarandı. Nigar artıq “bacarmıram” sözünü dilinə gətirməyəcəyinə qərar verdi və dərs onun yaddaşında qaldı.

**İş dəftəri, səh. 34**

**a.** “Əlvida, “bilmirəm” mətninə əsasən fikirlərin düzgün, yoxsa yanlış olduğunu müəyyən et. Mətndən uyğun cümlələr seçərək fikrini əsaslandır.

Cavab: 1 – Doğrudur. Mənə dərs deyən müəllimlər arasında ən çox sevdiyim Günay müəllimdir. Hətta mənim rəfiqələrimdən bir neçəsi ona oxşamağa çalışır, onun kimi müəllim olmaq istəyir.

2 – Yanlışdır. Budur, ilk dərs günüdür. Mətndə deyilir ki, hadisələr ilk dərs günü, yəni sentyabr ayında baş vermişdir.

3 – Doğrudur. Nigar öz zəif cəhətlərini yazarkən qeyd edir: “Məsələnin tənliyini qura bilmirəm”. Bu riyaziyyat fənni ilə bağlı çətinliyi göstərir.

4 – Yanlışdır. Şagirdlər vərəqləri qutuya atdılar və həmin qutunu çalaya qoyub torpaqla doldurdular.

**İş dəftəri, səh. 34**

**b.** Mətndə hansı suala cavab yoxdur?

Cavab: 4. Sorğuda neçə nəfər iştirak etmişdi?

**İş dəftəri, səh. 34**

**c.** Mətnin əsas ideyasını ifadə edən ən uyğun fikri seç və seçimini izah et.

**Müəllimin nəzərinə!** Tapşırıqda verilmiş fikirlərin üçü də seçilə bilər. Əsas meyar seçimin əsaslandırılmasıdır: şagird öz fikrini mətndən nümunələr gətirərək şərh etməli və niyə həmin fikri əsas ideya hesab etdiyini izah etməlidir.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Oxuduqları, həyatda gördükləri və təəssüratları haqqında danışır. | Tapşırıq a (dərslik) |
| Kontekstdən çıxış edərək sözlərin mənasını müəyyən edir. | Tapşırıq b, c, ç (dərslik) |
| Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir. | Tapşırıq d (dərslik), a, b (iş dəftəri) |

Layihə

# 2-ci DƏRS
# Əlvida, “bilmirəm”!

**Təlim nəticələri:**
• Bədii mətndəki obrazlara, onların davranışına, müəllif mövqeyinə münasibət bildirir (st. 3.1.4).
• Fikir və təəssüratlarını əks etdirməklə esse yazır (st. 4.1.1).

**Mövzuya yönəltmə**
Müəllim yönəldici suallar vasitəsilə “Əlvida, “bilmirəm” mətninin məzmununu xatırladır.
**Oxuyub-qavrama**
**Dərslik, səh. 91**

**a.** Mətndən müvafiq epizodları danışmaqla Günay müəllimin və Nigarın xarakterinə münasibət bildirin.

Şagirdlərin cavabları təxminən belə ola bilər:
Günay müəllimin xarakteri:
• Səmimiyyət və mehribanlıq: Müəllim sinfə daxil olanda “üz-gözündə səmimiyyət, dodağında təbəssüm” var idi, bu isə şagirdlərdə dərhal xoş ovqat yaradır.
• Empatiya və dəstək: Şagirdlərin zəif tərəflərini anonim şəkildə yazmalarını təmin edir.
• Motivasiya edici və yaradıcı: Dərsi maraqlı və yaddaqalan etmək üçün simvolik fəaliyyətlər və suallarla müzakirə təşkil edir.
**Epizod nümunəsi:** Günay müəllim “bilmirəm”lərlə dolu qutunu çalaya qoyduqdan sonra deyir: “İnanıram ki, siz onu ‘bilirəm’, ‘bacarıram’larla əvəz edəcəksiniz.” Bu, onun həm səmimi, həm də inkişaf yönümlü müəllim olduğunu göstərir.
Nigarın xarakteri:
• Özünüqiymətləndirmə: Nigar əvvəllər öz zəif tərəflərini tanımırdı, amma dərs zamanı onları “Bacarmıram” sütununda yazaraq özünü dərk etməyə başladı.
• Tərəddüd və utanc: Başlanğıcda zəif cəhətlərini paylaşmaqdan çəkinirdi (“Özümü itirdim”).
• Motivasiya və dəyişiklik istəyi: Dərsdən sonra qərar verdi ki, “bacarmıram” sözünü dilinə gətirməyəcək, zəif tərəflərini gücləndirmək üçün addımlar atacaq.
**Epizod nümunəsi:** Nigar sorğu zamanı öz zəif tərəflərinə baxıb “Mənim nə qədər zəif cəhətim varmış!” deyir. Bu, onun özünü tanımasını və inkişaf etmək istədiyini göstərir.
**Dərslik, səh. 91**

**b.** Mətndə Günay müəllim uşaqlara deyir: “İstəsəniz, yazdıqlarınızı bir-birinizlə paylaşa bilərsiniz”.
Sizcə, nə üçün müəllim bu tapşırığı göstəriş kimi deyil, təklif şəklində verir?

Şagirdlərin cavabları təxminən belə ola bilər:
Günay müəllim tapşırığı təklif şəklində verərək şagirdlərə sərbəst seçim imkanı yaradır, öz fikirlərini rahat paylaşmaq fürsəti verir.
**Dərslik, səh. 91**

**c.** Qutunun torpağa basdırılması simvolik olaraq nəyi göstərir?

Şagirdlərin cavabları təxminən belə ola bilər:
Qutunun torpağa basdırılması simvolik olaraq “bilmirəm”lərlə vidalaşmağı və zəif cəhətlərdən azad olmağı göstərir.
**Dərslik, səh. 91**

**ç.** Xarakterindəki qüsurlardan xilas olmaq üçün insan hansı keyfiyyətlərə malik olmalıdır?

Layihə

Şagirdlərin cavabları təxminən belə ola bilər: Xarakterdəki qüsurlardan xilas olmaq üçün insan özünütənqid, səbir, iradə, özünüqiymətləndirmə, məqsədyönlülük və mütaliə ilə bilik artırmaq kimi keyfiyyətlərə malik olmalıdır.

**Yazı**

**Dərslik, səh. 91**

**d.** "Xarakterimdəki hansı zəif cəhətə *"əlvida"* deyərdim" mövzusunda esse yazın.

Tapşırıq şagirdlərin esse yazmaq bacarığını inkişaf etdirir. Müəllim şagirdlərin diqqətini essenin planına yönəldir. Planın bəndləri müzakirə edilir. Özünüqiymətləndirmə, səbir, iradə, özünüinkişaf, motivasiya, inam, mübarizə, mütaliə kimi açar sözlər izah edilir.

**Müəllimin nəzərinə!** Şagirdlərə esse yazının strukturunu xatırlatmaq tövsiyə edilir. Mətnin giriş, əsas və nəticə hissəsi haqqında məlumatları xatırlatmaq vacibdir. Şagirdlərə esse yazarkən istifadə edilən standart ifadələr, keçid cümlələri məsələn, mövzu haqda fikir söyləyərkən "məncə", "mənim fikrimcə" kimi ifadələri xatırlatmaq da məqsədəuyğundur.

**Esse nümunəsi:**

Xarakter insanın davranışlarını, qərarlarını və düşüncələrini müəyyən edən daxili xüsusiyyətlərdir. Hər kəsin xarakterində güclü və zəif tərəflər olur. Onu möhkəmləndirmək üçün özünüqiymətləndirmə, səbir və iradə vacibdir.

Mənim xarakterimdə güclü cəhətlərim yaxşı ünsiyyət bacarığım və səmimiyyətimdir, amma zəif cəhətim tez əsəbiləşməyimdir. Bu zəif tərəfimdən xilas olmaq üçün mən dərin nəfəs alıb sakit qalmağı, hər vəziyyəti düşünərək qiymətləndirməyi öyrənməliyəm. Beləliklə, mən öz xarakterimi inkişaf etdirə və zəif cəhətimə "əlvida" deyə bilərəm.

Əgər mən xarakterimi mükəmməl şəkildə inkişaf etdirə bilsəm, bu mənə həyatda uğur qazanmaq, insanlarla yaxşı münasibət qurmaq və etibarlı dost olmaq imkanı verəcək. Güclü xarakter insanı həm özünə, həm də başqalarına faydalı edir.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Bədii mətndəki obrazlara, onların davranışına, müəllif mövqeyinə münasibət bildirir. | Tapşırıq a, b, c, ç (dərslik) |
| Fikir və təəssüratlarını əks etdirməklə esse yazır. | Tapşırıq d (dərslik) |

# 3-cü DƏRS
# Ədat

**Təlim nəticələri:**

- Kontekstdən çıxış edərək ədatın semantik xüsusiyyətlərini izah edir (st. 4.1.3).

**Mövzuya yönəltmə**

**Dərslik, səh. 92**

**a.** Cümlələri müqayisə edin. İkinci cümlələrdəki fərqləndirilmiş sözlərin qrammatik funksiyasını izah edin.

Motivasiya xarakterli bu tapşırıq şagirdlərin diqqətini mövzuya yönəltmək məqsədi daşıyır.

Cavab: Fərqləndirilmiş sözlər cümlələrin təsir gücünü artırıb.

**"Bunları bilməliyik!" rubrikası.** Müəllim şagirdlərin diqqətini "Bunları bilməliyik!" rubrikasına yönəldir. Rubrikadakı məlumatları şərh edir.

Layihə

**Dərslik, səh. 92**

**b.** Cümlələrdəki ədatları göy hərflərlə verilmiş elə sözlə dəyişin ki, məna fərqi yaranmasın.

Cavab:
1. Sən toyuqlara dən verməmisən ***ki***?
2. ***Təki*** yuxularım çin ola.
3. Sabir görüşə ***lap*** vaxtında gəldi.
4. ***Əsl*** mən istəyən xalçadır.

**Dərslik, səh. 92**

**c.** Verilmiş ədatları müvafiq cümlələrə əlavə edin.

Cavab:
1. ***Gəl*** əvvəlcə bu mərhələni keçək.
2. Bu mənim həyatımda ***ən*** əlamətdar hadisə idi.
3. ***Bəs*** deməmişdim ki, bu qutuya əl vurma?
4. ***Axı*** mən nə biləydim ki, işıqlar sönəcək.
5. ***Kaş*** həmin gün yağış yağmaya.

**Dərslik, səh. 92**

**ç.** Cümlələrdəki fərqləndirilmiş ədatların ifadə etdiyi məna ilə bağlı uyğunluğu müəyyən edin.

Cavab: 1 – c, 2 – ç, 3 – b, 4 – a.

**İş dəftəri, səh. 35**

**a.** Cümlələrdəki ədatların ifadə etdiyi məna ilə bağlı uyğunluğu müəyyən et.

Cavab: 1 – c, 2 – ç, 3 – a, 4 – b.

**İş dəftəri, səh. 35**

**b.** Ədatları uyğun yerlərə artırmaqla cümlələri tamamla.

Cavab:
1. ***Gəlin*** həyətdəki ağaclara su verək.
2. Bura Qızılağac qoruğudur, ***məgər***?
3. ***Kaş*** sən deyənə qulaq asaydım.
4. Qaranquşun balasına dəymək olmaz ***axı***!
5. Baxın, ***necə*** gözəl Vətənimiz var.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Kontekstdən çıxış edərək ədatın semantik xüsusiyyətlərini izah edir. | Dərslikdə və iş dəftərində təqdim edilmiş tapşırıqlar |

Leyla

# 4-cü DƏRS
# "Ki", "da", "də" ədat, bağlayıcı və şəkilçi kimi

**Təlim nəticələri:**
• Kontekstdən çıxış edərək bəzi köməkçi nitq hissələrinin və şəkilçilərin omonimliyini müəyyən edir (st. 4.1.3).

**Mövzuya yönəltmə**
**Dərslik, səh. 93**

a. Cümlədə "ki" sözünün funksiyasını müəyyən edin.

Motivasiya xarakterli bu tapşırıq şagirdlərin diqqətini mövzuya yönəltmək məqsədi daşıyır.
Cavab: Cümlələr arasında əlaqə yaradır.
**"Bunları bilməliyik!" rubrikası.** Müəllim şagirdlərin diqqətini "Bunları bilməliyik!" rubrikasına yönəldir. Rubrikadakı məlumatları şərh edir.
**Dərslik, səh. 93**

b. Cümlələrdəki "ki"nin funksiyasına diqqət edin və uyğunluğu müəyyənləşdirin.

Cavab: 1 – b, 2 – a, 3 – c.
**"Bunları bilməliyik!" rubrikası.** Müəllim şagirdlərin diqqətini "Bunları bilməliyik!" rubrikasına yönəldir. Rubrikadakı məlumatları şərh edir.
**Dərslik, səh. 93**

c. Cümlələrdəki "da", "də"nin funksiyasına diqqət edin və uyğunluğu müəyyənləşdirin.

Cavab: 1 – a, 2 – b, 3 – c.
**İş dəftəri, səh. 35**

c. Hansı cümlədə "ki" ədat kimi işlənib?

Cavab: c. Mən ki məsələni hamıdan tez həll elədim.
**İş dəftəri, səh. 35**

ç. Hansı cümlələrdə "da" və "də" ədat kimi işlənib?

Cavab: 3, 5.

**Formativ qiymətləndirmə**
Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Kontekstdən çıxış edərək bəzi köməkçi nitq hissələrinin və şəkilçilərin omonimliyini müəyyən edir. | Dərslikdə və iş dəftərində təqdim edilmiş tapşırıqlar |

Layihə

# 2-ci fəsil
# TƏSLİM OLMA

## 1-ci DƏRS
## Uğur hekayələri

**Təlim nəticələri:**
• Bədii mətndəki obrazlara, onların davranışına, müəllif mövqeyinə münasibət bildirir (st. 3.1.4).
• Yeni tanış olduğu sözə uyğun gələn izahı müəyyən edir (st. 3.1.2).
• Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir (st. 3.1.3).

**Mövzuya yönəltmə**
Müəllim şagirdlərin diqqətini fəslin adına yönəldir.
**Dərslik, səh. 94**

**a.** Aşağıdakı aforizmləri fəslin mövzusu ilə əlaqələndirib şərh edin.

Şagirdlərin cavabları təxminən belə ola bilər:
"Ən böyük qələbə ümidsizlik üzərində qələbədir" aforizmi göstərir ki, insan çətin vəziyyətlərdə ümidsizliyə qapılmayıb iradəli olduqda həqiqi uğura nail olur. Məsələn, Demosfenin natiqlik bacarığını inkişaf etdirməsi, zəif tərəflərinə baxmayaraq uğur qazanması buna misaldır. "Həyatdakı uğursuzluqların çoxu uğura çox yaxın ikən təslim olan insanlara aiddir" aforizmi deyir ki, səbir və davamlılıq uğurun açarıdır.

**Oxu**

**Mətnlə iş.** Şagirdlər qruplara ayrılır. Hər qrup mətnin müəyyən hissəsini oxuyur, qeydlər götürür və sonra məzmunu sinif qarşısında qısa və aydın şəkildə nəql edir.

**Müəllimin nəzərinə!** Müəllim şagirdlərə qeyd götürməklə bağlı müəyyən tövsiyələr verə bilər:

**Qeydlər üçün göstəriş:**
• Tarixi məlumatlar (il, yaş, hadisə) qeyd edin.
• Hər bir şəxsiyyətin uğur yolunda qarşılaşdığı çətinliklər və nailiyyətlər vurğulansın.
• Onların uğurunun səbəbləri qeyd olunsun.

**Nəqletmə üçün göstəriş:**
• Mətnin əsas ideyasını vurğulayın: səbir, davamlılıq, öz hisslərinə sadiq qalmaq uğurun açarıdır.
• Nəql edərkən əsas məlumatları ardıcıllıqla təqdim edin: başlanğıc – çətinliklər – dönüş nöqtəsi – uğurlar.
• Mətnin məzmununu öz sözlərinizlə ifadə edin.

**Dərslik, səh. 95**

**Söz ehtiyatı**

**b.** Mətndən verilmiş aşağıdakı cümləni bir daha oxuyun və kontekstə əsasən "bestseller" sözünün mənasını izah edin.

Cavab:
Mətnə əsasən "bestseller" sözü satış baxımından çox uğurlu kitabı, yəni geniş oxucu auditoriyası tərəfindən alınan və məşhur olan əsəri ifadə edir.

**Oxuyub-qavrama**

**c.** Mətndən aşağıdakı fikirləri sübut edən faktları müəyyən edin.

Layihə

Cavab:

**1. Fikir:**

*Coan Roulinq 1965-ci ildə anadan olmuşdur.*

**Fakt:**

1997-ci ildə "Bloomsbury" nəşriyyatı əsər üçün müəllifə 4000 ABŞ dolları təklif edəndə 32 yaşlı yazıçı bunu əsl uğur kimi qiymətləndirdi. Bu fakt göstərir ki, 1997 – 32 = 1965 — yəni Coan Roulinq 1965-ci ildə anadan olub.

**2. Fikir:**

Yazıçı "Harri Potter və fəlsəfə daşı" adlı romanını 4 il müddətində çap etdirə bilməmişdir.

**Fakt:**

"Yazıçı romanı təxminən üç ilə bitirmişdi. Lakin uzun müddət heç bir nəşriyyat bu əsəri nəşr etməyə razılıq vermirdi. Nəhayət, 1997-ci ildə "Bloomsbury" nəşriyyatı əsəri nəşr etdi". Bu ifadələr göstərir ki, əsər yazıldıqdan sonra bir neçə il (təxminən 4 il) nəşr olunmamış qalıb.

**Dərslik, səh. 96**

**Söz ehtiyatı**

**ç.** Mətndə fərqləndirilmiş sözlərin işləndiyi cümlələri bir daha oxuyun. Kontekstə əsasən uyğunluğu müəyyən edin.

Cavab:

1 – c, 2 – a, 3 – b.

**Oxuyub-qavrama**

**Dərslik, səh. 96**

**d.** Mətndən aşağıdakı fikirləri sübut edən faktları müəyyən edin.

Cavab:

**1. Fikir:**

*Uolt Disney ilk animasiya studiyasını təxminən 1921-ci ildə açmışdır.*

**Fakt:**

İlk animasiya studiyasını 20 yaşında açan Disney dəfələrlə iflas etmiş, lakin heç vaxt xəyallarından vaz keçməmişdi. Uolt Disney 1901-ci ildə anadan olub. Deməli, 20 yaşında — yəni təxminən 1921-ci ildə ilk studiyasını açıb.

**2. Fikir:**

*Dünyanın bir sıra şəhərlərində Disneyland parkları var.*

**Fakt:**

Disney 1955-ci ildə Kaliforniyada Disneyland əyləncə parkını açdı. Daha sonra Florida, Paris, Tokio, Şanxay və digər şəhərlərdə yeni Disneyland parkları inşa edildi.

Bu fakt göstərir ki, dünyanın bir çox şəhərlərində Disneyland parkları mövcuddur.

**Söz ehtiyatı**

**Dərslik, səh. 97**

**e.** Mətnə əsasən "azarkeş" və "fanat" sözlərinin yaxın mənalı olduğunu əsaslandırın.

Cavab:

Hər iki halda "azarkeş" və "fanat" Maykl Cordana heyran olan, onu sevən və izləyən insanlar mənasında işlənib. Buna görə bu sözlər yaxın mənalı sözlərdir.

**Oxuyub-qavrama**

**Dərslik, səh. 97**

**ə.** Maykl Cordanın fikirlərini mətnin əsas ideyası ilə əlaqələndirib şərh edin.

Layihə

Cavab:

Bu fikirlərin ümumi mənası Maykl Cordanın həyatı və uğur fəlsəfəsi ilə sıx bağlıdır. Onların hamısı uğurun yalnız inad, inam və daim cəhd etməklə əldə oluna biləcəyini ifadə edir. Mətnin məzmununa görə, Cordan ilk uğursuzluğundan sonra ruhdan düşməmiş, əksinə, daha çox çalışaraq məqsədinə çatmışdır. O, dəfələrlə məğlub olsa da, heç vaxt təslim olmamış, özünə inanmış və davamlı inkişaf etməyə səy göstərmişdir. Müsahibəsində də o, "dəfələrlə uğursuz olmuşam, amma həmişə cəhd etmişəm" deyərək bu fikirləri təsdiqləyir.

**Söz ehtiyatı**

**Dərslik, səh. 98**

**f.** Mətndən seçilmiş cümlələrdə hansı söz və ifadələr məcazi mənada işlənib?

Cavab:

***qızıl*** hərflərlə, dünyanı ***işıqlandırdı.***

**Oxuyub-qavrama**

**Dərslik, səh. 98**

**g.** Tomas Edisonun fikirlərini mətnin əsas ideyası ilə əlaqələndirib şərh edin.

Cavab:

Bu fikirlərdə deyilir ki, uğura aparan yolun səbir, davamlılıq və inadkarlıqdan keçir. Mətnin məzmununa görə, Tomas Edison da elektrik lampasını icad etmək üçün minlərlə sınaq keçirmiş, amma təslim olmamış, hər uğursuzluqdan dərs çıxarmışdır.

İş dəftərində verilmiş tapşırıqlar faktoloji məlumatların yoxlanılmasına imkan yaradır.

**İş dəftəri, səh. 36**

**a.** "Uğur hekayələri" mətninin məzmununa əsasən fikirlərin hansı şəxsə aid olduğunu müəyyənləşdir.

Cavab:

1 – C, 2 – U, 3 – M, 4 – T, 5 – U, 6 – C.

**İş dəftəri, səh. 36**

**b.** Mətnə əsasən məlumatların doğru, yoxsa yanlış olduğunu müəyyən et.

Cavab:

1 – D, 2 – Y, 3 – D, 4 – Y, 5 – D, 6 – Y.

**İş dəftəri, səh. 36**

**c.** "Uğur hekayələri"ni oxuduğun şəxsləri birləşdirən xüsusiyyətləri yaz və fikrini əsaslandır.

Cavab:

"Uğur hekayələri"ndəki şəxsləri — Coan Roulinq, Uolt Disney, Maykl Cordan və Tomas Edison — birləşdirən əsas xüsusiyyət inadkarlıq, davamlı cəhd və uğursuzluqlardan dərs çıxarmaq bacarığıdır.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Bədii mətndəki obrazlara, onların davranışına, müəllif mövqeyinə münasibət bildirir. | Tapşırıq a, ə, g (dərslik); c (iş dəftəri) |
| Yeni tanış olduğu sözə uyğun gələn izahı müəyyən edir. | Tapşırıq b, ç (dərslik) |
| Açıq şəkildə ifadə olunmuş informasiyanı mənimsədiyini nümayiş etdirir. | Tapşırıq c, d (dərslik); a, b (iş dəftəri) |

Layihə

# 2-ci DƏRS
# Məruzə

**Təlim nəticələri:**
• Hər hansı hadisə, varlıq haqqında fikir və təəssüratlarını, apardığı araşdırmaların nəticələrini rabitəli mətn şəklində təqdim edir (st. 2.1.3).

**Mövzuya yönəltmə**

Şagirdlər keçən dərsdə oxuduqları uğur hekayələrinin məzmununu xatırlayır, bu hekayələrin qəhrəmanlarını birləşdirən xüsusiyyətləri sadalayırlar.

**Dərslik, səh. 98**

a. Oxuduğunuz və dinlədiyiniz uğur hekayələrinə istinad edərək "Uğura gedən yol" mövzusunda məruzə edin.

Müəllim "Sözlərin izahı" rubrikasında verilmiş "məruzə" və "format" sözlərinin mənasını izah edir.

**1. Məruzəyə hazırlıq mərhələsi**

Şagirdlərdən əvvəl oxuduqları və dinlədikləri uğur hekayələrini xülasə etmələri tələb olunur (Coan Roulinq, Uolt Disney, Maykl Cordan, Tomas Edison və s.).

• Məruzənin əsas tezisini 1-2 cümlə ilə müəyyənləşdirin: uğura gedən yol çətinlikləri dəf etməklə, inadkarlıq və davamlı çalışmaqla mümkündür.

• Dəlil və nümunələri seçərkən şagirdlərdən fakt, sitat, şəxsi təcrübə və ya konkret nümunələr gətirməsi tələb olunur.

**2. Məruzənin strukturu və vaxt bölgüsü.** Məruzənin quruluşu, hər hissəyə ayrılan vaxt haqqında müzakirə aparılır.

**3. Məruzə zamanı davranış qaydaları**

• Bütün auditoriyanın eşidə biləcəyi aydın və düzgün səs tonu ilə danışın.
• Göz təması quraraq dinləyiciləri inandırmağa çalışın.
• Nitq zamanı jest və mimikalardan yerində istifadə edin; lakin həddindən artıq olmamalıdır.
• Əsas mövzudan kənara çıxmayın, fikirlərinizi konkret və ardıcıl təqdim edin.
• Nitqinizi verilmiş vaxt çərçivəsində bitirməyə çalışın.

**4. Əlavə tövsiyələr**

• Məruzəyə maraqlı girişlə başlayın (sitat, sual, qısa hadisə).
• Dəlilləri ardıcıllıqla təqdim edin və hər bir fikri qısa izah edin.
• Sonunda auditoriyaya təşəkkür etməyi unutmayın.

**Məruzə nümunəsi: "Uğura gedən yol"**

Hər birimiz həyatda uğur qazanmaq istəyirik. Bəzən uğura aparan yol asan görünür, amma həqiqətən böyük uğurlar səbir, davamlılıq və inadkarlıq tələb edir.

Gəlin sizinlə uğura imza atmış bir neçə şəxsin həyat yoluna nəzər salaq. **Coan Roulinq**, "Harri Potter" seriyasının yaradıcısı, uzun müddət heç bir nəşriyyatdan müsbət cavab almadı. Lakin o, təslim olmadı və nəhayət, əsəri nəşr olundu.

**Uolt Disney** kiçik yaşlarından rəssamlıqla maraqlanırdı. İlk studiyasını açanda bir neçə dəfə iflas etdi, amma xəyallarından vaz keçmədi. Sonradan Mikki Maus və digər məşhur obrazları yaratdı.

**Maykl Cordan** lisey komandası seçmələrində ilk cəhddə uğursuz oldu, çünki boyu qısa idi. Amma o, hər gün məşq edərək növbəti il komandaya seçildi və "Uçan Cordan" ləqəbi ilə bütün dünyada tanındı.

**Tomas Edison** elektrik lampasını icad etmək üçün minlərlə sınaq keçirdi. O, uğursuzluqları maneə kimi yox, öyrənmə fürsəti kimi qiymətləndirirdi: "3000 sınaq nəticəsiz oldu, amma indi bilirik ki, həmin xətaya bir daha yol verməyəcəyik."

Bu hekayələr göstərir ki, uğura gedən yol hər zaman asan olmur, amma inadkarlıq, səbir və davamlı cəhd nəticə verir. Əziz dostlar, unutmayın: uğur ən çox dəfələrlə cəhd edənlərə gəlir. Həyatınızda hər

Layihə

çətinlik qarşısında təslim olmayın, daim çalışın və inanın. Siz də öz hekayənizi yazmaq gücünüzə sahibsiniz. Diqqətinizə görə təşəkkür edirəm!

**Müəllimin nəzərinə!** Şagirdlərin məruzəsi aşağıdakı meyarlara əsasən qiymətləndirilə bilər:

**Qiymətləndirmə meyarları:**

- Tezisin aydınlığı və mövzuya uyğunluğu
- Faktlar və ya nümunələrin uyğunluğu
- Nitqin aydınlığı, səs tonu və jest/mimika
- Məruzənin vaxt çərçivəsində olması

**İş dəftəri, səh. 37**

**a.** "Uğur hekayələri" mətnində tanış olduğun şəxs haqqında məlumatlara əsasən cədvəli tamamla.

İş dəftərində verilmiş bu tapşırıq şagirdlərin mətnin məzmununu necə qavradıqlarını yoxlamağa imkan yaradır. Şagirdlər "Uğur hekayələri"nin bir qəhrəmanını seçib onun haqqında cədvəli tamamlayırlar.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Hər hansı hadisə, varlıq haqqında fikir və təəssüratlarını, apardığı araşdırmaların nəticələrini rabitəli mətn şəklində təqdim edir. | Tapşırıq a (dərslik) |

# 3-cü DƏRS
# Modal sözlər

**Təlim nəticələri:**

- Kontekstdən çıxış edərək modal sözlərin semantik xüsusiyyətlərini izah edir (st. 4.1.3).

**Mövzuya yönəltmə**

**Dərslik, səh. 99**

**a.** Hansı cümlədə festival haqqında məlumat əminliklə ifadə olunub? Cümlədəki hansı söz sizin bu qənaətə gəlməyinizə səbəb oldu?

Cavab:

2. Əlbəttə, kitab festivalını gələn həftə keçirəcəyik.

**"Bunları bilməliyik!" rubrikası.** Müəllim rubrikada verilmiş məlumatları nümunələr əsasında izah edir.

**Dərslik, səh. 99**

**b.** Modal sözlərin cümlədəki məna xüsusiyyətlərini müəyyən edin.

Cavab:

1 – ç, 2 – a, 3 – b, 4 – c, 5 – e, 6 – d.

**Dərslik, səh. 99**

**c.** Cümlələrdə modal sözləri tapın və ifadə etdiyi mənanı müəyyən edin. Uyğun yerdə vergül işarəsi qoyun.

Layihə

**“Yadda saxla” rubrikası.** Müəllim rubrikadakı məlumatı şagirdlərə nümunələr əsasında izah edir.

Cavab:

1. Sənətə olan sevgin, *sözsüz ki,* bizi heyran edir. *(əminlik)*
2. *Demək,* sən bu kitabların hamısını oxumusan. *(ümumiləşdirmə)*
3. Sən, *bəlkə,* onun dediklərini düzgün anlamamısan. *(güman, şübhə)*
4. Yağışın səsi *elə bil* musiqi sədaları kimi səslənirdi. *(bənzətmə)*
5. *Yəqin ki,* bu qalanın beş əsrdən artıq yaşı var. *(güman, şübhə)*
6. Bu hadisədən sonra onu bir daha görə bilmədik, *əfsus. (təəssüf)*

İş dəftərində verilmiş tapşırıqlar şagirdlərin modal sözlər haqqında aldıqları biliklərin tətbiqinə imkan yaradır.

**İş dəftəri, səh. 38**

**a.** Modal sözlərin cümlələrdəki məna xüsusiyyətlərini müəyyən et.

Cavab:

1 – b, 2 – e, 3 – d,
4 – a, 5 – c, 6 – ç.

**İş dəftəri, səh. 38**

**b.** Cümlələrdə modal sözləri tap və uyğun yerdə vergül işarəsi qoy.

Cavab:

1. Maşının təmir işləri, *məncə,* sabaha bitməyəcək.
2. Mən, *doğrusu,* onun bu qədər cəsur olduğunu bilmirdim.
3. *Heyif ki,* onun əməyini heç kim qiymətləndirmədi.
4. *Görünür,* bu il də qış çox sərt keçəcək.
5. *Sanki* bir pəridir, pəri yox, bir ay. (*Nizami Gəncəvi*)
6. *Beləliklə,* Əsmərin ümidi bu tərəfdən də kəsildi.

**İş dəftəri, səh. 38**

**c.** Modal sözlər əlavə edərək fikrə müxtəlif münasibət bildir.

Şagirdlər nöqtələrin yerinə təxminən bu modal sözləri yaza bilərlər:

1. Doğrudan da, tamaşa bu gün nümayiş etdirilməyəcək. (əminlik)
2. Deyəsən, tamaşa bu gün nümayiş etdirilməyəcək. (şübhə)
3. Heyif ki, tamaşa bu gün nümayiş etdirilməyəcək. (təəssüf)
4. Beləliklə, tamaşa bu gün nümayiş etdirilməyəcək. (nəticə)
5. Məncə, tamaşa bu gün nümayiş etdirilməyəcək. (fikrin mənbəyi)

**İş dəftəri, səh. 38**

**ç.** Dördündən biri fərqlidir:

Cavab:

1-ci sırada: təəssüf
2-ci sırada: elə bil
3-cü sırada: əlbəttə

**İş dəftəri, səh. 38**

**d.** Təlimata uyğun olaraq modal sözlərin iştirakı ilə cümlə qur.

Şagirdlərin cavabı təxminən belə ola bilər:

1. Təəssüf ki, sənin fikrinlə razılaşa bilməyəcəyəm.
2. Əvvəla, otağı səliqəyə salmalıyıq.
3. Səncə, müəllim təqdimatımız haqqında nə deyəcək?

Leyla

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Kontekstdən çıxış edərək modal sözlərin semantik xüsusiyyətlərini izah edir. | Dərslik və iş dəftərində verilmiş tapşırıqlar |

Layihə

# 3-cü fəsil
# MÜTALİƏ ET

## 1-ci DƏRS
## Mədəni səviyyəni necə yüksəltməli?

**Təlim nəticələri:**
- Mətndə ifadə olunmuş fikirlə bağlı mülahizəsini bildirir və onu əsaslandırır (st. 3.1.4).
- Aldığı məlumatları sadə formada şərh edir və genişləndirir (st. 2.1.3).
- Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir (st. 3.1.3).
- Kontekstdən çıxış edərək sözlərin mənasını müəyyən edir (st. 3.1.2).

**Mövzuya yönəltmə**

**Dərslik, səh. 100**

**a.** Sizcə, insan mədəni səviyyəsini yüksəltmək üçün nə edə bilər?

Şagirdlərin fikirləri dinlənilir, onların təklifləri lövhədə qeyd edilir.

**Dərslik, səh. 100**

**b.** Aşağıdakı epiqrafı oxuyub şərh edin. Sizcə, bu fəsildə nədən bəhs olunacaq?

Şagirdlərin cavabı təxminən belə ola bilər:

Epiqrafdan çıxış edərək demək olar ki, bu fəsildə, əsasən, şəxsi inkişaf, mədəniyyət və təhsil vasitəsilə insanların uğurlu olmaları mövzusu işıqlandırılacaq. Fəsildə həmçinin dünyagörüşünün genişlənməsinin, nitqin və fikirlərin düzgün ifadə edilməsinin, ağıl və fəzilətin əhəmiyyəti barədə danışılması gözlənilir.

**Oxu**

**Mətnlə iş.** Əvvəlcə şagirdlər onlara verilmiş vaxt ərzində mətni səssiz oxuyur, onlara tanış olmayan söz və ifadələri dəftərlərində qeyd edirlər. Lüğət vasitəsilə yeni sözlərin mənasını araşdırırlar.

**Dərslik, səh. 100**

**c.** Mətnə və şəxsi fikirlərinizə əsaslanaraq müzakirə edin: siz nə üçün mütaliə edirsiniz? Mütaliənin hansı faydası sizin üçün daha vacibdir?

Mətnin oxusundan sonra şagirdlərin təklifləri ilə mətndəki fikirlər müqayisə edilir və oxşar məqamlar diqqətə çatdırılır.

**Oxu**

**Dərslik, səh. 101**

**ç.** Mətndə adı çəkilən tarixi şəxs haqqında araşdırma aparın və topladığınız məlumatları da əlavə edərək mətnin məzmununu sinfə təqdim edin.

**Mətnlə iş.** Şagirdlər qruplara ayrılırlar. Hər qrup mətnin müəyyən hissəsini oxuyur, qeydlər götürür və sonra məzmunu sinif qarşısında qısa və aydın şəkildə nəql edir.

**Oxuyub-qavrama**

**Dərslik, səh. 101**

**d.** Aşağıdakı cümlələrlə mətnin hansı abzaslarını genişləndirmək olar?

Cavab: I abzas – b, II abzas – a, III abzas – ç, IV abzas – c.

**Söz ehtiyatı**

**Dərslik, səh. 101**

Ləyihə

**e.** Haşiyədəki məlumata əsasən II Sultan Mehmedin "fateh" adlandırılmasının səbəbini izah edin.

Cavab: II Sultan Mehmed 1453-cü ildə 1000 əsrlik Bizans imperiyasının paytaxtı Konstantinopolu fəth etmişdir. Onu fəth edən, yəni "fateh" adlandırmışlar.

**Dərslik, səh. 102**

**ə.** "Qul" sözünün izahına əsasən "quldar" və "quldarlıq" sözlərinin mənasını izah edin.

Cavab: quldar – qullara sahib olan adam, quldarlıq – qullara sahib olma, köləlik əsasında qurulan cəmiyyət, quruluş.

**Dərslik, səh. 102**

**f.** Avraam Linkoln hansı dəyərləri üstün tuturdu? Mətndən uyğun cümlələri oxuyaraq ona aid aforizmləri şərh edin.

Cavab: Onun əsas dəyərləri bilgi, səbir, iradə, özünəinam, ədalət və azadlıq idi.

**"Hökumətsiz yaşaya bilərsiniz, amma kitabsız əsla".**

• Mətndən uyğun cümlə: "Uşaqlığından az sayda olan kitablarını dönə-dönə oxuyaraq özünü inkişaf etdirib. Davamlı mütaliə hesabına dərin biliklər, geniş dünyagörüşü qazanıb".

• Şərh: Linkoln üçün bilik və mütaliə həyatda uğur qazanmağın əsas vasitəsi idi; kitablar insanın inkişafı üçün vacib idi.

**"Təslim olmayana qədər uğursuzluğa düçar olmaq mümkün deyil".**

• Mətndən uyğun cümlə: "Avraam Linkoln prezident olana qədər 18 dəfə müxtəlif seçkilərdə məğlubiyyətə uğrayıb, amma hədəfindən dönməyib".

• Şərh: Linkoln uğursuzluqlardan qorxmayıb, səbir və iradə ilə məqsədinə çatmağın mümkün olduğunu göstərib.

**"Uğur qazanmaq istəyirsinizsə, heç kim sizə inanmasa belə, özünüzə inanın".**

• Mətndən uyğun cümlə: "18 dəfə müxtəlif seçkilərdə məğlubiyyətə uğrayıb, amma hədəfindən dönməyib".

• Şərh: Linkoln özünəinamı itirməyərək, çətinliklərə baxmayaraq, uğur qazanıb; başqalarının şübhəsi uğur yolunda əngəl deyil.

**"Başqalarının azadlığını əlindən alanların özlərinin azad olmağa haqqı yoxdur".**

• Mətndən uyğun cümlə: "Amerika Birləşmiş Ştatlarının 16-cı prezidenti Avraam Linkoln ölkədə quldarlığı ləğv edərək Amerika xalqının milli qəhrəmanına çevrilmişdir".

• Şərh: Linkoln ədaləti və insan azadlığını yüksək tutub, başqalarının haqlarını pozanlarla mübarizə aparıb.

**Söz ehtiyatı**

**Dərslik, səh. 103**

**g.** "Fitri" sözünün izahını kontekstə əsasən təxmin edin və lüğət vasitəsilə araşdırın. "Fitri" sözü aşağıdakı sözlərdən hansı ilə işlənə bilər?

Cavab: fitri istedad, fitri qabiliyyət.

**Oxuyub-qavrama**

**Dərslik, səh. 103**

**ğ.** Atatürkə aid aforizmləri şərh edərək onun əsas tutduğu dəyərlər haqqında danışın.

Cavab:

**"Yurdda sülh, cahanda sülh!"**

• Şərh: Atatürk həm ölkədə, həm də dünyada sülhün vacibliyini vurğulayırdı. Onun dəyərləri arasında ədalət, insan hüquqlarına hörmət və sülh önəmli yer tuturdu.

**"Müstəqillik verilmir, alınır".**

• Şərh: Atatürk azadlıq və müstəqilliyi mübarizə nəticəsində qazanılan dəyər hesab edirdi. Bu,



Ləyihə

onun qətiyyət, iradə və milli azadlıq prinsiplərini göstərir.

**"Mədəni olmayan insanlar mədəni olanların ayaqları altında qalmağa məhkumdurlar".**

• Şərh: Atatürk üçün təhsil, mütaliə və geniş dünyagörüşü əsas dəyərlərdən idi; mədəniyyət insanı həm fərdi, həm də ictimai səviyyədə gücləndirir.

**"Əgər bir gün mənim sözlərim elmlə ziddiyyət təşkil edərsə, siz elmi seçin".**

• Şərh: Atatürk üçün elm, düşüncə ən üstün dəyər idi. Fikirlərini elmi əsaslarla qurmaq onun liderliyində və qərarverməsində həlledici rol oynayırdı.

**Dərslik, səh. 104**

**h.** Mətnlərdə haqqında danışılan şəxsiyyətləri birləşdirən ümumi xüsusiyyəti müəyyən edin. Sizcə, bu şəxslərin uğur qazanmasının əsas səbəbləri hansılardır? Müəllif bu nümunələri verməklə hansı əsas fikri çatdırmaq istəyir?

Şagirdlərin cavabı təxminən belə ola bilər:

Mətnlərdə haqqında danışılan şəxsiyyətlər – Fateh Sultan Mehmed, Avraam Linkoln, Mustafa Kamal Atatürk və İlon Mask – müxtəlif sahələrdə fəaliyyət göstərmiş olsalar da, onları birləşdirən bir neçə ümumi xüsusiyyət var:

• **Mütaliə və bilik sevgisi** – bu şəxslərin hamısı uşaqlıqdan kitab oxumağı sevmiş və biliklərini davamlı artırmışdır.

• **Səbir və iradə** – çətinliklərə baxmayaraq məqsədlərindən dönməyiblər.

• **Yenilikçilik və düşüncənin dərinliyi** – problemləri fərqli yanaşmalarla həll etməyə, yeni ideyalar tapmağa çalışıblar.

• **Ədalət və azadlıq** – Linkoln və Atatürk azadlıq və ədaləti yüksək tutub, Mask isə texnologiya vasitəsilə insan həyatını yaxşılaşdırmaq məqsədi güdür.

Müəllif göstərir ki, uğurlu və seçilən insanlar fitri istedadları ilə yanaşı, davamlı təhsil, mütaliə və fəzilətli dəyərlərlə özlərini inkişaf etdirirlər. Yəni bilik, iradə və əxlaqi dəyərlər uğurun və hörmətin əsas amilləridir.

**Dərslik, səh. 104**

**x.** Mütaliə vərdişlərinizi necə artıra bilərsiniz? Özünüzə hansı məqsədlər seçmisiniz? Özünüqiymətləndirmə cədvəlini tamamlayın.

Şagirdlər öz məqsədlərinə əsasən cədvəli tamamlayır və təqdim edirlər.

**İş dəftəri, səh. 39**

**a.** Aşağıdakı fikirlərin hansı tarixi şəxsiyyətə aid olduğunu müəyyən et və cümlənin sıra nömrəsini cədvəlin uyğun xanasına yaz.

Cavab: Fateh Sultan Mehmed – 2, 8; Avraam Linkoln – 3, 6, 9; Mustafa Kamal Atatürk – 5, 7; İlon Mask – 4, hamısına aid olan – 1.

**İş dəftəri, səh. 39**

**b.** Mətnə əsasən səbəb-nəticə cədvəlini tamamla.

Cavab:

1. Fateh Sultan Mehmed uşaqlıqdan müxtəlif dilləri öyrənməyə çalışırdı, *çünki o, fərqli xalqların mədəniyyətini, fəlsəfəsini və elmini yaxından dərk etmək istəyirdi.*

2. Avraam Linkoln Amerika xalqının milli qəhrəmanına çevrilmişdir, *çünki o, ölkədə quldarlığı ləğv etmiş və insanların azadlığı uğrunda mübarizə aparmışdır.*

3. Mustafa Kamal Atatürk daim kitab oxuyurdu və öyrənməyi sevirdi, *nəticədə onun fikirlərinin dərinliyi və nitqinin təsir gücü artdı.*

4. İlon Mask elmi-fantastik ədəbiyyatı xüsusilə sevirdi, *o bu əsərlərdən ilhamlanaraq SpaceX, Tesla və digər innovativ texnologiya layihələrini yaradıb dünya şöhrəti qazandı.*

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

Layihə

| Meyarlar | Materiallar |
|---|---|
| Mətndə ifadə olunmuş fikirlə bağlı mülahizəsini bildirir və onu əsaslandırır. | Tapşırıq a, b, c, f, ğ, h (dərslik) |
| Aldığı məlumatları sadə formada şərh edir və genişləndirir. | Tapşırıq ç, x (dərslik) |
| Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir. | Tapşırıq d (dərslik); a, b (iş dəftəri) |
| Kontekstdən çıxış edərək sözlərin mənasını müəyyən edir. | Tapşırıq ə, g (dərslik) |

# 2-ci DƏRS
# Nida

**Təlim nəticələri:**

- Kontekstdən çıxış edərək nidanın semantik xüsusiyyətlərini izah edir (st. 4.1.3).

**Mövzuya yönəltmə**

**Dərslik, səh. 105**

**a.** Cümlələri oxuyun. Göy rənglə verilmiş söz cümləyə hansı məna çalarını qatır?

Cavab: sevinc

**“Bunları bilməliyik!” rubrikası.** Müəllim rubrikada verilmiş məlumatları nümunələrlə şərh edir.

**Dərslik, səh. 105**

**b.** Uyğunluğu müəyyən edin.

Cavab: 1 – c, 2 – a, 3 – b, 4 – ç.

**Dərslik, səh. 105**

**c.** Cümlələrdəki nidaları müəyyənləşdirin.

Cavab: 1 – ax; 2 – ay aman; 3 – bəh, bəh, bəh; 4 – ehey.

**Dərslik, səh. 105**

**ç.** Nöqtələrin yerinə uyğun nidalar artırmaqla cümlələri tamamlayın.

Cavab: 1. **Uy**, mən bu kişidən qorxuram!
2. **Ay** oğlum, ehtiyatlı ol da!
3. **Ey** Vətən, torpağın əzizdir mənə. *(S.Rüstəm)*
4. Nə gözəl çaydır**, bəh-bəh**.
5. **Aha**, tanıdım səni!

**İş dəftəri, səh. 40**

**a.** Cümlələrdəki nidalara əsasən uyğunluğu müəyyən et.

Cavab: 1 – ç, 2 – a, 3 – b, 4 – d, 5 – c.

**İş dəftəri, səh. 40**

**b.** Nöqtələrin yerinə uyğun nidalar artırmaqla cümlələri tamamla.

Cavab: 1. **Ey**, kimsən orda, aç qapını.
2. **Bəh-bəh**, yemək çox ləzzətlidir.
3. **Vay-vay**, yazıq uşaq, nə pis yıxıldı.



Layihə

4. **Ay-hay**, məni aldada biləcəyini düşünürdün?
5. **Ura**, bizim komandamız qalibdir!
6. **Oho**, mən səni bu qədər bacarıqlı bilməzdim!

**İş dəftəri, səh. 40**

**c.** Müvafiq nidaların iştirakı ilə cümlə qur.

Şagirdlər müxtəlif cümlələr qura bilərlər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Kontekstdən çıxış edərək nidanın semantik xüsusiyyətlərini izah edir. | Dərslikdə və iş dəftərində təqdim edilmiş tapşırıqlar |

Layihə

# Ümumiləşdirici təkrar

**Təlim nəticələri:**

• Kontekstdən çıxış edərək köməkçi nitq hissələrinin semantik xüsusiyyətlərini izah edir (st. 4.1.3).

Dərslikdə və iş dəftərində verilmiş ümumiləşdirici təkrar şagirdlərin bölmə üzrə keçilmiş mövzular haqqında aldıqları bilikləri möhkəmləndirməyə imkan yaradır.

**Dərslik, səh. 106**

**1.** Cümlələrdə fərqləndirilmiş ədatların ifadə etdiyi mənanı uyğunlaşdırın.

Cavab: 1 – b, 2 – ç, 3 – d, 4 – c, 5 – a.

**Dərslik, səh. 106**

**2.** Aşağıdakı şeir parçasında fərqləndirilmiş sözlərin mənasına diqqət edin. Sizcə, müəllif "necə" sözünü sual vermək, yoxsa fikrini qüvvətləndirmək məqsədilə istifadə edib? Fikrinizi əsaslandırın.

Cavab: Fikrini qüvvətləndirmək məqsədilə istifadə edib. Çünki burada necə sualına cavab vermək mümkün deyil.

**Dərslik, səh. 106**

**3.** Cümlələrdəki fərqləndirilmiş sözlərin funksiyasına diqqət edin və uyğunluğu müəyyənləşdirin.

Cavab:

*Düz* sözünün qrammatik mənaları: 1 – b, 2 – a, 3 – ç, 4 – c.

*Çox* sözünün qrammatik mənaları: 1 – a, 2 – c, 3 – b.

**Dərslik, səh. 107**

**4.** Nöqtələrin yerinə uyğun modal sözlər artıraraq cümlələri tamamlayın.

Cavab:

1. ***Sәncә,*** şair bu misralarda hansı fikri çatdırmaq istəyib?
2. Mən bu fikirlə razılaşa bilmərəm, ***təəssüf.***
3. ***Nəhayət***, çəkdiyimiz zəhmətin bəhrəsini gördük.
4. Maraqlıdır, ***görəsən***, nə üçün əsər məhz bu adla tanınır?
5. ***Beləliklə***, çoxdan gözlədiyimiz avtomat qurğu hazır oldu.
6. Ana ürəyindən ***elə bil*** bir tel qırıldı.

**Dərslik, səh. 107**

**5.** Cümlələrdə modal sözləri tapın və ifadə etdiyi mənanı müəyyən edin. Uyğun yerdə vergül işarəsi qoyun.

Cavab:

1. *Deyəsən,* yolun təhlükəli hissəsi arxada qalmışdı. *(ehtimal)*
2. *Bəlkə də,* bu hadisə onun həyatında dönüş nöqtəsi olacaqdı. *(ehtimal)*
3. Konsert çox maraqlı idi, *təəssüf ki,* mən gecikmişdim. *(təəssüf)*
4. Filmin sonu gözlədiyim kimi olmadı, *əfsus. (təəssüf)*
5. Bu sözdən sonra *elə bil* qurbağa gölünə daş atdılar. *(bənzətmə)*
6. Özümüzü elə aparırdıq, *guya* hamımız onun sözünə inanırıq. *(bənzətmə)*

**Dərslik, səh. 107**

**6.** Nöqtələrin yerinə uyğun modal sözləri artırıb cümlələri tamamlayın.

Cavab: 1. *Ümumiyyətlə,* mən bu işə razı deyiləm.

Ləylə

2. Xan gördü ki, usta, *həqiqətən,* möcüzə yaradıb.
3. Yaz gələndə bizim yerlər *sanki* bir cənnət olur.
4. *Zənnimcə,* sən doğru qərar vermisən, narahat olmağa dəyməz.
5. *Deyəsən,* bu mövzuda məqalə də dərc olunmuşdu.

**Dərslik, səh. 107**

**7.** Cümlələrdəki nidaları müəyyənləşdirin. Uyğunluğu müəyyən edin.

Cavab: 1 – d, 2 – a, 3 – e, 4 – c, 5 – b, 6 – ç.

**Dərslik, səh. 107**

**8.** Hansı cümlədə *ay* sözü nida kimi işlənmişdir?

Cavab: 2. Ay uşaqlar, bir sakit olun!

**İş dəftəri, səh. 41**

**1.** Edisona aid xüsusiyyətləri seç və mətndən həmin xüsusiyyətləri təsdiqləyən cümlələrin altından xətt çək.

Cavab: çalışqan, əzmkar, zəhmətkeş

**İş dəftəri, səh. 41**

**2.** Nikola Teslanın Edison haqqında fikrini mətnin ideyası ilə əlaqələndirib şərh et.

Cavab: Teslanın fikri Edisonun təsadüfən yox, böyük zəhmətlə "əsrin dahisi" səviyyəsinə yüksəldiyini göstərir və mətnin əsas ideyasını gücləndirir.

**İş dəftəri, səh. 41**

**3.** Mətnin müvafiq hissələrinə istinad edərək ananın keçirdiyi hisslər haqqında yaz.

Cavab: Mətnə əsasən Edisonun anası oğluna dərindən inanan, onu qoruyan və dəstəkləyən bir ana kimi təsvir olunur. Müəllimin yazdığı kağızı oxuyanda "göz yaşları içində ucadan oxuması" göstərir ki, o həm həyəcanlanır, həm də oğlunun gələcəyi üçün narahatlıq keçirir. Lakin o, kağızdakı acı həqiqəti oğlundan gizlədərək sözləri dəyişir və "Oğlunuz əsl dahidir" deyə oxuyur. Bu, onun sevgi, ümid və qürur hissi ilə hərəkət etdiyini göstərir.

**İş dəftəri, səh. 42**

**4.** Səncə, nə üçün Edison anasını qəhrəman adlandırır?

Cavab: Ana məktəbin oğlunu qəbul etməməsinə baxmayaraq, onu tək qoymur, əksinə, Edisonun inkişaf etməsi üçün əlindən gələni edir. Edison sonradan məktubu tapıb oxuyan zaman "qəhrəman bir ana tərəfindən əsrin dahisinə çevrilmiş" sözlərini yazmaqla, anasının fədakarlığını və ona olan sevgisini qiymətləndirir.

**İş dəftəri, səh. 42**

**5.** Cümlələrdəki ədatları seç və ifadə etdiyi mənanı müəyyənləşdir.

Cavab: 1. axı – qüvvətləndirici ədat; 2. kaş – arzu ədatı; 3. bəs – sual ədatı.

**İş dəftəri, səh. 42**

**6.** Cümlələrdə modal sözləri tap və ifadə etdiyi mənanı qarşısında yaz. Uyğun yerdə vergül işarəsi qoy.

Cavab:
1. Yolçular, *nəhayət,* gəlib mənzil başına çatdılar. *(nəticə)*
2. *Doğrusu,* mən də bu işə məəttəl qalmışam. *(təsdiq)*
3. *Elə bil* qurbağa gölünə daş atdılar. *(bənzətmə)*
4. *Təəssüf ki,* hava pis olduğuna görə səfər təxirə salındı. *(təəssüf)*



Layihə

5. *Bəlkə,* bu gün axşam yağış ara verdi. *(güman, şübhə)*
6. *Zənnimcə,* bu ən gözəl təşəbbüsdür. *(fikrin mənbəyi)*

**İş dəftəri, səh. 42**

**7.** Nidaları seç və məna çalarını müəyyən et.

Cavab: 1. ey – çağırış; 2. ay can, ay can – sevinc; 3. vay, vay – narahatlıq.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Kontekstdən çıxış edərək köməkçi nitq hissələrinin semantik xüsusiyyətlərini izah edir. | Dərslikdə və iş dəftərində təqdim edilmiş tapşırıqlar |

Layihə

Bölmə **5**

# VƏTƏNİN KEŞİYİNDƏ

| Dərs | Mövzu | Məzmun xətti | Dərslik səh. | İş dəftəri səh. | Metodik vəsait səh. |
|---|---|---|---|---|---|
| | Giriş | | 108-109 | | 131-132 |
| 1-ci fəsil. **Tarixi yaddaş** | | | | | |
| 1 | Qumru yuvası | Oxu | 110-112 | 43 | 133-134 |
| 2 | Qumru yuvası | Oxu<br>Yazı | 112-113 | 44 | 135-136 |
| 3 | Qumru yuvası | Oxu<br>Danışma | 114-115 | | 137-138 |
| 4 | Təsriflənən feillər. Feilin xəbər şəkli | Yazı | 116-117 | 45 | 138-140 |
| 5 | Feilin əmr şəkli | Yazı | 117 | 45 | 141-142 |
| 2-ci fəsil. **Qəhrəmanlıq** | | | | | |
| 6 | Şuşa Gültəkini | Oxu | 118-120 | 46 | 143-144 |
| 7 | Şuşa Gültəkini | Oxu<br>Danışma | 120-121 | 47 | 144-146 |
| 8 | Mən gərək oğul doğulaydım | Dinləmə | 121 | 48 | 146-148 |
| 9 | Azərbaycan qəhrəmanları | Yazı | 122-123 | | 148-150 |
| 10 | Feilin lazım şəkli | Yazı | 124-125 | 49 | 150-152 |
| 11 | Feilin arzu şəkli | Yazı | 125 | 49 | 152-153 |
| 3-cü fəsil. **Qələbə** | | | | | |
| 12 | Müsahibə | Oxu<br>Danışma | 126-129 | 50 | 154-155 |
| 13 | Feilin vacib şəkli | Yazı | 130 | 51 | 155-156 |
| 14 | Feilin şərt şəkli | Yazı | 131 | 52 | 157-158 |
| 15 | Ümumiləşdirici təkrar | Oxu<br>Danışma | 132-133 | 53-54 | 159-162 |

Layihə

# GİRİŞ DƏRSİ

**Təlim nəticələri:**
- Mətndən əsas fikri müəyyənləşdirməyə kömək edən məqamları seçir (st. 3.1.5).
- Mətni dil-üslub xüsusiyyətlərinə görə təhlil edir (st. 3.1.5).

Müəllim şagirdlərin diqqətini bölmənin adına yönəldir və soruşur:

– Sizcə, bu bölmədə nədən danışılır?

Şagirdlər suala cavab verməklə bölmənin mövzusu haqqında fikirlərini bildirirlər. Bu mövzuda ilkin biliklərini nümayiş etdirirlər.

**Dərslik, səh. 108**

**a.** Şeir parçalarını oxuyun. Bölmənin mövzusuna aid açar sözləri seçin.

**I şeir parçasındakı açar sözlər: Vətən, bayraq, torpaq.**

• Kontekstdən çıxış edərək 1-ci misradakı "yapmaq" sözünü izah edin.

Cavab:

Birinci misradakı "yapan" sözü "edən" mənasındadır.

• Şeir parçasını nəsrə çevirərək əsas fikri öz sözlərinizlə ifadə edin.

Şagirdlər şeir parçasını təxminən belə şərh edə bilərlər:

Bayraq yalnız bir rəmz deyil, xalqın azadlıq uğrunda döyüşdə göstərdiyi qəhrəmanlığın simvoludur. Əgər torpaq uğrunda can verən insanlar varsa, yəni onu qoruyan, sevən, onun üçün ölümü gözə alanlar varsa, o zaman həmin torpaq Vətən adlanır.

**II şeir parçasındakı açar sözlər: Vətən, bayraq, torpaq.**

• Şeirdə hansı sözlər təkrar edilmişdir? Belə sözlərin şeirdəki fikirlərin təsir gücünün artırılmasındakı rolunu aydınlaşdırın.

Cavab:

Bu şeir parçasında "bayraq" sözü təkrarlanır. Eyni sözün təkrarlanması nitqin bədii və emosional təsir gücünü artırır.

• Sizcə, şeirin əsas ideyası, əsasən, hansı misralarda ifadə edilmişdir?

Cavab:

Şeirin əsas ideyası son iki misrada əks olunmuşdur. Bayraq — bir xalqın varlığının, azadlığının və milli kimliyinin ən müqəddəs simvoludur. Bayrağı qorumaq, əslində, öz mənliyini, öz azadlığını qorumaqdır.

**III şeir parçasındakı açar sözlər: Azərbaycan.**

• Şeirin ikinci misrasında müəllif Azərbaycana müraciət edir. Sizcə, şair Azərbaycana real insan kimi müraciət etməklə nəyə nail olur?

Cavab:

Şeirin 2-ci misrasında şair Azərbaycana bir şəxs kimi müraciət edir. Bununla da nitqin ifadəliliyini gücləndirir.

• Müəllif şeirin daha hansı misrasında ritorik xitabdan istifadə edib? Cavab: Şeirin 1-ci misrasında ritorik xitabdan istifadə edilib. Nə yatmısan, qoca vulkan, səninləyəm!

**IV şeir parçasındakı açar sözlər: millət, torpaq, azadlıq.**

• Şeir parçasını nəsrə çevirərək əsas fikri öz sözlərinizlə ifadə edin. Sonuncu misradakı fikri izah edin.

Cavab:

İnsanı insan edən onun qəhrəmanlığı, əməli, fədakarlığıdır. Millət yalnız uğurları ilə deyil, əziyyətləri, itkiləri və çətinlikləri ilə də bərkiyir, formalaşır. Azadlıq və müstəqillik təsadüfən qazanılmır – onun toxumu şəhidlərin qanı və canı ilə əkilir.

• Şeirdəki bədii ifadə vasitələrini müəyyənləşdirin.

Layihə

Cavab:

Şair bu şeir parçasında təkrirdən istifadə edərək (insan insan olur; millət millət olur) nitqin bədii və emosional təsir gücünü artırmışdır.

**Dərslik, səh. 109**

**b.** Oxuduğunuz şeirləri birləşdirən əsas fikir nədən ibarətdir?

Cavab:

Bu şeirləri birləşdirən əsas fikir vətənpərvərlik, milli kimlik və azadlıq uğrunda fədakarlıq ideyasıdır.

**Dərslik, səh. 109**

**c.** Aşağıdakı aforizmlərdə ifadə olunan fikirləri genişləndirərək şərh edin.

Cavab: Bütün aforizmləri birləşdirən əsas fikir budur: vətən sevgisi, milli kimlik və vətən uğrunda fədakarlıq insan həyatının mərkəzində dayanır. İnsan öz vətəninə sadiq olduqda həm şəxsiyyət, həm də millət olaraq böyüyür. Azadlıq və dövlət müstəqilliyi isə hər bir vətəndaşın əməlləri və qəhrəmanlığı ilə qorunur.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətndən əsas fikri müəyyənləşdirməyə kömək edən məqamları seçir. | Tapşırıq a, b, c (dərslik) |
| Mətni dil-üslub xüsusiyyətlərinə görə təhlil edir. | Tapşırıq a, b, c (dərslik) |

Layihə

# 1-ci fəsil
# TARİXİ YADDAŞ

## 1-ci DƏRS
## Qumru yuvası

**<u>Təlim nəticələri</u>:**
- Oxuduğu mətndəki sözlərin mənasını müəyyən edir (st. 3.1.2).
- Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir (st. 3.1.3).

**Mövzuya yönəltmə**

**Dərslik, səh. 110**

**a.** "Tarixi yaddaş" ifadəsini izah edin. Sizcə, xalqın tarixi yaddaşı nə üçün qorunmalıdır?

Şagirdlərin fikirləri dinlənilir, daha sonra müəllim onların dediklərini ümumiləşdirir. Məsələn:

"Tarixi yaddaş" – bir xalqın keçmişi haqqında topladığı və nəsildən nəslə ötürdüyü biliklərin, xatirələrin, dəyərlərin və təcrübənin cəmidir. Buraya tarixi hadisələr, şəxsiyyətlər, mübarizələr, qələbə və faciələr, mədəniyyət, dil, adət-ənənələr və milli simvollar daxildir. Tarixi yaddaş xalqın kimliyini formalaşdırır və onu bir toplum kimi birləşdirir.

**Dərslik, səh. 110**

**b.** "Qumru yuvası" mətnini oxuyun. Bu mətndə Azərbaycanın tarixi yaddaşına həkk olunmuş hansı hadisələrdən danışılır?

Tapşırıqdakı sual şagirdləri istiqamətləndirir.

**Oxu**

**Mətnlə iş.** "Qumru yuvası" mətni müvafiq jest və mimikalardan istifadə edilməklə müxtəlif şagirdlər tərəfindən oxunur. Müəllim şagirdlərin nitqinə diqqət edir, obrazların hiss və həyəcanını ifadə etmək üçün onlara məsləhətlər verir.

**Söz ehtiyatı**

Daha sonra müəllim "Söz mücrüsü"ndə verilmiş sözlərin mənasını şagirdlərə izah edir. Şagirdlər yeni sözləri cümlələrdə işlətməklə onların mənasını anladıqlarını nümayiş etdirirlər.

**Dərslik, səh. 112**

**c.** "Söz mücrüsü"ndən izahlara uyğun sözləri seçib cümlədə işlədin.

<u>Cavab</u>:
1. Səlim mərmi partlayışı zamanı ciddi ***kontuziya*** almışdı.
2. Sel zamanı kənddə böyük ***tələfat*** oldu, bir çox evlər dağıldı.
3. Uşaqlar üzüm ***çardağının*** altında palaz salıb oturmuşdular.
4. Səhər tezdən ***qumrunun*** səsinə yuxudan oyandım.
5. Rəfdəki kitabları ***sahmana salmaq*** istəyirdim.
6. Hərbi təlim zamanı yeni ***qradlar*** nümayiş olundu.

**Dərslik, səh. 112**

**ç.** Aşağıdakı sözlərin mənasını lüğət vasitəsilə araşdırın. Azərbaycan Silahlı Qüvvələrindəki hərbi rütbələri kiçikdən böyüyə ardıcıllıqla düzün.

<u>Cavab</u>:
Çavuş, gizir, leytenant, kapitan, mayor, polkovnik.

Layihə

**Oxuyub-anlama**

**Dərslik, səh. 112**

**d.** Aşağıdakı fikirlərə əsasən mətni təhlil edin.

Cavab:

**Müharibənin sivil insanlara təsiri:**

Mətndə müharibənin gündəlik həyatda yaratdığı çətinliklər vurğulanır: insanların evləri bombalanır, mülkləri məhv olur, həyatları çətinləşir.

**Bayrağın müqəddəsliyi:**

Evin üzərində dalğalanan üçrəngli bayraq milli həmrəylik və müqavimət rəmzidir. Hətta top mərmisi evə düşdükdə belə bayrağı açmırlar, bu, xalqın azadlıq uğrunda inadkarlığının nümunəsidir.

**Qarşılıqlı insan münasibətləri:**

Əvvəlcə qonşularla gərginlik, daha sonra barış və həmrəylik göstərilir.

**Vətənə sevgi və sədaqət:**

Ailə sonuna qədər bayrağı qoruyur, evin dağıntılarına baxmayaraq bayrağı açmırlar. Onların bu davranışı torpağa bağlılığı, vətənə olan dərin sevgi və sədaqəti göstərir. Bayrağın hər evdə asılması milli birliyin, vətənə sədaqətin ifadəsidir.

**Ümid, əzm və qələbə arzusu:**

Qumruların yenidən yuva qurması ümidi və həyatın davamlılığını simvollaşdırır. Hekayənin sonunda bütün kənddə bayraqların asılması və qumrunun geri dönməsi qələbə və dirçəlişi ifadə edir.

**İş dəftəri, səh. 43**

**a.** “Qumru yuvası” mətninə əsasən fikirlərin düzgün, yoxsa yanlış olduğunu müəyyən et.

Cavab:

1 – Y, 2 – D, 3 – D, 4 – Y, 5 – D.

**İş dəftəri, səh. 43**

**b.** Mətndə hansı suallara cavab yoxdur?

Cavab: 1, 3.

**İş dəftəri, səh. 43**

**c.** Mətnin məzmununa əsasən cədvəli tamamla.

Cavab:

Düşmən əsgərləri bizim evimizi hədəf seçmişdilər. *Çünki evin üzərində üçrəngli bayrağımız dalğalanırdı, bu isə onları qıcıqlandırırdı.*

Bir gün top mərmisi düz evimizin üstünə düşdü. *Üzüm çardağının bir hissəsi qırılıb töküldü. Bu vaxt yazıq qumruların yuvası da dağıldı.*

Qonşumuz isə bizimlə, neçə vaxtdır, küsülüdür. *Çünki onun da evinə bizə görə zədə dəyir.*

İndi bütün kənd evlərinin üstündə bayraq var. Qonşumuz da bizimlə barışıb. *Çünki ordumuz torpaqlarımızı işğaldan azad etmək üçün hücuma keçib. Camaatımız vətənpərvərlik və birlik nümayiş etdirmək üçün evlərinin üstünə bayraq sancıb.*

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Oxuduğu mətndəki sözlərin mənasını müəyyən edir. | Tapşırıq a, c, ç (dərslik) |
| Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir. | Tapşırıq b (dərslik); a, b, c (iş dəftəri) |

Layihə

# 2-ci DƏRS
# Qumru yuvası

**Təlim nəticələri:**
- Aldığı məlumatları sadə formada şərh edir və genişləndirir (st. 2.1.3).
- Bədii mətni məzmun-struktur xüsusiyyətlərinə görə təhlil edir (st. 3.1.5).

**Mövzuya yönəltmə**

Müəllim yönəldici suallarla keçən dərsdə oxunmuş "Qumru yuvası" mətninin məzmununu xatırladır.

**Dərslik, səh. 112**

**a.** Sizcə, müəllif aşağıdakı simvollardan istifadə etməklə oxucuya nəyi anlatmaq istəyir? Nümunəyə əsasən cədvəli tamamlayın.

Cavab:

Qumru: sülh, ümid və həyatın davamlılığına işarədir.

Qumruların yenidən yuva qurması: insanların müharibə və çətinliklərə baxmayaraq həyatlarını davam etdirmələrini və gələcəyə inamını simvollaşdırır.

Bütün evlərdə bayrağın dalğalanması: milli həmrəylik, birlik və vətənə sevgini simvollaşdırır.

**Dərslik, səh. 113**

**b.** "Qumru yuvası" mətninin əvvəlində kursivlə verilmiş hissəni bir daha oxuyun. Müəllif niyə bu qısa xəbəri əsərin əvvəlində verib? Bu hissə ilə hekayə arasında əlaqə varmı? Fikrinizi əsaslandırın.

Şagirdlərin fikirləri dinlənilir, müzakirə edilir.

**"Yadda saxla" rubrikası.** Müəllim şagirdlərin diqqətini rubrikadakı məlumata yönəldir, proloq haqqındakı məlumatı izah edir. Nümunələr əsasında proloq və epiqraf arasındakı fərqi izah edir.

**Dərslik, səh. 113**

**c.** Sizcə, aşağıdakı mətn "Qumru yuvası" mətninin proloqu ola bilərmi? "Yadda saxla" rubrikasındakı məlumatlara əsasən fikrinizi əsaslandırın.

Şagirdlərin cavabı təxminən belə ola bilər:

Bu mətn "Qumru yuvası" mətninin proloqu ola bilər. Çünki "Yadda saxla" rubrikasındakı məlumatlara görə, proloq əsərin giriş hissəsi, yəni müqəddimədir. Proloqun funksiyalarından biri oxucunu əsərdəki hadisə və qəhrəmanlarla tanış etməkdir. Nəbinin bayrağı damda sancması və "Vətən torpaqlarımızı azad edəcəyik" sözləri əsərin əsas mövzusu – vətənpərvərlik, müqavimət və milli azadlıq barədə oxucuya ilkin məlumat verir. Mətn, eyni zamanda, əsərin ideyası ilə əlaqəlidir.

**Dərslik, səh. 113**

**ç.** Mətnin son hissəsini bir daha oxuyun. Hadisələrin gedişatında hansı dəyişikliklər baş verib?

Şagirdlərin cavabı təxminən belə ola bilər:

Mətnin son hissəsindən aydın olur ki, düşmənə qarşı hücum əməliyyatına başlanılıb, kənddəki bütün evlərin üstündə bayraq sancılıb.

**"Yadda saxla" rubrikası.** Müəllim epiloq haqqında verilmiş məlumatları nümunələr əsasında şərh edir.

**Dərslik, səh. 113**

**d.** "Qumru yuvası" mətninin epiloqu oxucuda hansı hissləri yaradır? Əgər siz müəllif olsaydınız, epiloq hissəsini başqa cür necə yazardınız? Aşağıda hekayəyə uyğun epiloqların giriş cümlələri verilib. Onlardan birini seçib mətni tamamlayın.

Şagirdlərin cavabı təxminən belə ola bilər:

Layihə

"Qumru yuvası" mətninin epiloqu oxucuda ümid, sevinc və milli qürur hissləri yaradır.

**Epiloq nümunələri:**

I. Nəbi evə qayıdanda çardağın yuxarısında hündür bir dirək düzəltdi və bayrağı ora sancdı. Kənddəki bütün evlərin üstündə bayraqlar dalğalandı. Qumrular isə çardağın üstündə səssizcə yuvalarını qurur, sanki insanlarla birlikdə azadlıq sevincini yaşadırdılar.

II. Artıq bahar gəlmişdi. Ağaclar çiçək açmışdı, quşların şövqlə cəh-cəh vuran vaxtı idi. Qumrular çardağın üzərində yenidən yuva qurur, balalarını yemləyirdilər. Həyat davam edirdi. Azad torpaqlarda sakit bir həyat. İnsanlar səhərlərini qrad səsinə deyil qumruların şirin cəh-cəh səslərinə açırdılar.

**Yazı**

**İş dəftəri, səh. 44**

**a.** "Qumru yuvası" hekayəsinin ideyası əsasında "Bayraq mənliyimdir, bayraq kimliyim" mövzusunda esse yaz. Esseni yazarkən mövzuya uyğun epiqrafdan istifadə et.

Esse nümunəsi.

***Bayraq mənliyimdir, bayraq kimliyim***

*"Bir kərə yüksələn bayraq bir daha enməz!"*

*M.Ə.Rəsulzadə*

*Bayraq hər bir xalq üçün müstəqillik, azadlıq və milli kimliyin ən müqəddəs simvoludur. O yalnız parlaq rəngli parça deyil, həm də xalqın tarixi, qəhrəmanlıq ruhu və ümidini özündə əks etdirir. "Qumru yuvası" hekayəsi də bu simvolun əhəmiyyətini dərindən göstərir.*

*Hekayədə Nəbi əsgərliyə getməzdən əvvəl evin damına bayrağı sancaraq demişdi: "Ata, Vətən torpaqlarımızı azad edəcəyik. Qoy həmin günə qədər bayrağımız burada dalğalansın". Onun bu sözləri vətənpərvərlik və sədaqətin simvoludur. Hətta mərmilər düşsə də, ev dağılsa da bayraq sancıldığı yerindən açılmır, Nəbinin ailəsi onu göz bəbəyi kimi qoruyur.*

*Bayraq hekayədə həmrəyliyi göstərir. Nəbinin valideynləri bayrağı endirməyə razı olmadılar. Əvvəlcə kənd camaatı narazı olsa da, sonradan bütün kənd evlərinin üstündə bayraqlar dalğalanmağa başladı. Bu isə oxucuya göstərir ki, bayraq bir nəfərin deyil, xalqın birliyinin və mübarizəsinin rəmzidir.*

*"Qumru yuvası" hekayəsi bizə göstərir ki, vətən uğrunda mübarizə, sədaqət və birlik ruhu bayraqla simvollaşır. Bayraq xalqın mənliyini, kimliyini ifadə edir. Bayraq ümid, əzm və milli qürur deməkdir. Hər bir xalq öz bayrağını qorumaqla həm tarixini, həm də gələcəyini yaşadır.*

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Aldığı məlumatları sadə formada şərh edir və genişləndirir. | Tapşırıq a, d (dərslik) |
| Bədii mətni məzmun-struktur xüsusiyyətlərinə görə təhlil edir. | Tapşırıq b, c, ç (dərslik) |

Layihə

# 3-cü DƏRS
## Qumru yuvası

**Təlim nəticələri:**
- Verbal və qrafik materialları şərh etməklə mövzu üzrə danışır (st. 2.1.3).
- Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir (st. 3.1.3).
- Verilmiş informasiyalardan istifadə etməklə rabitəli mətn yazır (st. 4.1.1).

**Mövzuya yönəltmə**

Müəllim lövhədə "kim?", "nə?", "hara?", "necə?", "nə üçün?" suallarını yazıb soruşur:
– Sizcə, müsahibinin ətraflı danışması, fikrini izah etməsi üçün hansı suallardan istifadə olunur?

**Danışma**

**Dərslik, səh. 114**

**a.** "Qumru yuvası" mətninin mövzusu hansı real tarixi hadisələrə əsaslanır? Aşağıdakı faktların mətndəki məlumatlarla uyğunluğunu müəyyənləşdirin. Yeni məlumatları qeyd edin.

Cavab:
"Qumru yuvası" mətnindəki hadisələr I və II Qarabağ müharibəsi ilə əlaqəlidir.

**Müəllimin nəzərinə!** Tapşırığın asanlıqla yerinə yetirilməsi üçün aşağıdakı cədvəldən istifadə etmək olar. Bu üsul tarixi hadisələrlə bədii mətnin əlaqəsini anlamağa kömək edir.

| Fakt | Mətndəki məlumatlara uyğunluğu | |
|---|---|---|
| Azərbaycanın 20%-ə yaxın ərazisinin işğalı və məcburi köçkünlər. | Uyğundur. | Bax, o görünən təpə ki var, onun o üzündəki bizim kənddir. Ermənilər oranı işğal edəndən sonra gəlib bu çöllükdə ev-eşik qurmuşuq. |
| Atəşkəs dövründə də Ermənistan ordusu daim atəşkəsi pozur, Azərbaycan ərazisini atəşə tuturdu. | Uyğundur. | Amma düşmən yenə də əl çəkmir. Camaatın yaşadığı əraziləri atəşə tutur. Hər dəfə birimizin evinə mərmi düşür, dağıdır, yenə sıfırdan başlayırıq. |
| İşğal olunmuş ərazilərin azad olunması (2020-ci il və sonrası) | Uyğundur. | Hekayədə göstərilir ki, torpaqlarımızı azad etmək üçün, ordumuz hücuma keçib! |

**Oxuyub-anlama**

**Dərslik, səh. 115**

**b.** Aşağıdakı fikirlərin doğru və ya yanlış olduğunu müəyyən edin.

Cavab:

| Fikir | Doğru, yoxsa yanlış | Əsaslandırma |
|---|---|---|
| Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları 1990-cı ildən başlamışdır. | Yanlış | Ərazi iddiaları 1988-ci ildən başlanmışdır. |
| Vətən müharibəsi 44 gün davam edib. | Doğru | İkinci Qarabağ müharibəsi 27 sentyabr – 8 noyabr 2020 tarixləri arasında, yəni 44 gün davam edib. |

Layihə

| | | |
|---|---|---|
| Cəbrayıl şəhəri müharibədə azad edilən ilk şəhərdir. | Doğru | Cəbrayıl şəhəri 4 oktyabr 2020-ci ildə azad edilib və azad edilən ilk şəhər olub. |
| Şuşa 28 il 6 ay düşmən əsarəti altında olmuşdur. | Doğru | Şuşa 8 may 1992-ci ildə işğal olunmuş, 8 noyabr 2020-ci ildə azad edilmişdir. Bu, təxminən 28 il 6 ay deməkdir. |
| Ağdərə, Xankəndi şəhərləri 44 günlük Vətən müharibəsi dövründə işğaldan azad edilib. | Yanlış | Hər iki şəhər 44 günlük müharibə dövründə deyil, 2023-cü ilin sentyabrında antiterror əməliyyatları nəticəsində azad edilib. |
| Zəngilan rayonu müharibənin ilk günündə azad olunub. | Yanlış | Zəngilan müharibənin ilk günündə deyil, daha sonra 20 oktyabr 2020-ci ildə azad olunub. |

**Yazı**

**Dərslik, səh. 115**

**c.** "İşğaldan azad olunan şəhərlər" mövzusunda 6–8 cümləlik qısa mətn yazın.

Cavab nümunəsi:

2020-ci ilin 27 sentyabrında başlayan Vətən müharibəsi Azərbaycan tarixinin ən şanlı səhifələrindən biri oldu. Ordumuz 44 gün ərzində Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı, Şuşa şəhərlərini, eyni ildə Ağdam, Kəlbəcər, Laçını, 2023-cü ildə isə Ağdərə, Xocalı, Xocavənd, Xankəndi kimi mühüm şəhərləri düşmən işğalından azad etdi. Bu qələbə Azərbaycan xalqının birliyinin, əzminin və vətənpərvərliyinin nəticəsi idi.

2020-ci ilin dekabrına qədər işğal altında olan bütün ərazilərimiz azad edildi. 8 noyabr Zəfər Günü kimi tarixə düşdü və bu gün hər bir azərbaycanlının qürur mənbəyinə çevrildi.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Verbal və qrafik materialları şərh etməklə mövzu üzrə danışır. | Tapşırıq a (dərslik) |
| Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir. | Tapşırıq b (dərslik) |
| Verilmiş informasiyalardan istifadə etməklə rabitəli mətn yazır. | Tapşırıq c (dərslik) |

# 4-cü DƏRS
# Təsriflənən feillər. Feilin xəbər şəkli

**Təlim nəticələri:**
- Kontekstdən və qrammatik formadan çıxış edərək feillərin qrammatik-semantik xüsusiyyətlərini izah edir (st. 4.1.3).

**Mövzuya yönəltmə**

**Dərslik, səh. 116**

**a.** Cümlələrdəki feillərin hansı zamana və şəxsə aid olduğunu müəyyən edin.

Motivasiya xarakterli bu tapşırıq şagirdlərin diqqətini hərəkət bildirən sözlərə yönəldir. Şagirdlərin artıq zaman və şəxs şəkilçiləri haqqında bilgiləri vardır. Müəllim yönəldici suallar vasitəsilə şagirdlərə əvvəlki biliklərini xatırladır.

Cavab:

1. Heç nədən *çəkinmədin,* heç kimdən *qorxmadın,* igid əsgər! *(keçmiş zaman, II şəxsin təki)*
2. Uzaqdan sıldırım qayanın üstündə qədim bir qala *görünür. (indiki zaman, III şəxsin təki)*
3. Mühəndislər burada yeni su-elektrik stansiyası *tikəsidirlər. (zaman şəkilçisi yoxdur, III şəxsin cəmi)*
4. Biz məktəbimizdə qazilərlə görüş *keçirməliyik. (zaman şəkilçisi yoxdur, I şəxsin cəmi)*
5. Qapınıza hər zaman xeyir işlərə *gəlim. (zaman şəkilçisi yoxdur, I şəxsin təki)*

**Dərslik, səh. 116**

**b.** Cümlələrdəki feilləri seçin və cədvəl üzrə qruplaşdırın.

Cavab:

| Şəxsə görə dəyişir | Şəxsə görə dəyişmir |
|---|---|
| dinləyir | saxlayaraq |
| irəliləyirdi | uzanan |
| getdilər | düşünmək |
| çəkildi | |

**"Bunları bilməliyik!" rubrikası.** Müəllim rubrikada verilmiş məlumatları və nümunələri şərh edir.

**Dərslik, səh. 116**

**c.** Fərqləndirilmiş feillərdəki şəkilçilərə diqqət edin. Sizcə, bu feillərdə danışanın hərəkətə hansı münasibəti ifadə olunub? Uyğunluğu müəyyən edin.

Cavab:

1 – c, 2 – a, 3 – b, 4 – d, 5 – ç.

**"Bunları bilməliyik!" rubrikası.** Müəllim rubrikada verilmiş məlumatları və nümunələri şərh edir.

**Dərslik, səh. 116**

**ç.** Feilləri müvafiq zamana və şəxsə görə dəyişib cümlədə işlədin.

Cavab:

1. Qobustanda yeni palçıq vulkanları püskürür.
2. Afərin, müəllimlərinizin sizə olan inamını doğrultdunuz.
3. Axşam bayram xonçası bəzəyəcəyəm.
4. Bu məktubları neçə ildir saxlayırsan?
5. Bu xalçanı bir il müddətində toxumuşuq.
6. Ümid edirəm ki, bundan sonra daha inamla addımlayacaq.

**Dərslik, səh. 117**

**d.** Xəbər şəklində olan feilləri seçin. Seçiminizi əsaslandırın.

Cavab:

görəcəklər, görünmür, qürurlanırıq, barışdılar.

Əsaslandırma: Çünki xəbər şəkli feilin kökünə və ya başlanğıc formasına zaman və şəxs şəkilçilərini artırmaqla düzəlir. Bu sözlərdə də zaman və şəxs şəkilçiləri iştirak edib. Məsələn, gör+əcək+lər.

layihə

Dərslik, səh. 117

**e.** Feilləri müvafiq zamanda işlətməklə cümlələri tamamlayın. Onların neçənci şəxsdə işləndiyini müəyyən edin.

Cavab:
1. Hər gün, hər saat biz bu müqəddəs məqsədə doğru ***irəliləyirik***. (I şəxsin cəmi)
2. Oğul, Vətənin adını uca ***tutarsan***, onu ləyaqətlə ***qoruyarsan***. (II şəxsin təki)
3. O, döyüş yoldaşlarına ***dəstək oldu*** və onları ***qorudu***. (III şəxsin təki)
4. Qəhrəmanlar tarixdə ***iz qoyurlar*** və ***unudulmurlar***. (III şəxsin cəmi)
5. Tənbəl həmişə "xəstəyəm" ***deyər***. (III şəxsin təki)

İş dəftərində verilmiş tapşırıqlar şagirdlərin aldıqları biliklərin möhkəmləndirilməsinə yönəldilib.

İş dəftəri, səh. 45

**a.** Kontekstə əsasən uyğun feilləri seçib müvafiq zaman və şəxs şəkilçisi əlavə edərək cümlələri tamamla.

Cavab:
1. Hər yaz qumrular çardağın yuxarısında yuva ***qururlar***.
2. Dostumla xəbərləşib yeni salınmış parkda ***görüşdük***.
3. Bakını heç vaxt belə izdihamlı ***görməmişdim***; sanki bütün şəhər sakinləri mərkəzə ***toplaşmışdı***.
4. İndi mən hər sualın cavabını aydın ***başa düşürdüm***.
5. Gələn il bacım universitetə sənəd ***verəcək***.
6. Sabahdan hamı geri – öz el-obasına ***qayıdacaq***.

İş dəftəri, səh. 45

**b.** Xəbər şəklində olan feilləri cədvəl üzrə qruplaşdır.

Cavab:

| Feillər | Başlanğıc forması | İnkar şəkilçisi | Keçmiş zaman | İndiki zaman | Gələcək zaman | Şəxs şəkilçisi |
|---|---|---|---|---|---|---|
| danışmışdır | danış | – | -mış | – | – | -dır |
| soruşmaram | soruş | -m | – | – | -ar | -am |
| gözləyirik | gözlə | – | – | -yir | – | -ik |
| baxacaqlar | bax | – | – | – | -acaq | -lar |
| yıxılmaz | yıxıl | -m | – | – | -az | – |
| getmirsən | get | -m | – | -ir | – | -sən |

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Kontekstdən və qrammatik formadan çıxış edərək feillərin qrammatik-semantik xüsusiyyətlərini izah edir. | Dərslikdə və iş dəftərində təqdim edilmiş tapşırıqlar |

Layihə

# 5-ci DƏRS
# Feilin əmr şəkli

**Təlim nəticələri:**
- Feilin əmr və xəbər şəklini fərqləndirir (st. 4.1.3).

**Mövzuya yönəltmə**
**Dərslik, səh. 117**

**a.** Hansı cümlələrdə feil əmr mənasını ifadə edir?

Cavab:
2. Az danış, çox iş gör.
3. Keçmişi unutmayın.

**"Bunları bilməliyik!" rubrikası.** Müəllim rubrikada verilmiş məlumatları və nümunələri şərh edir.
**Dərslik, səh. 117**

**b.** Əmr şəklində işlənən feillərdə şəxs şəkilçilərini müəyyən edin.

Cavab:
1. Qoy cəngi çalın***sın***, igidlər döyüşə gir***sinlər***.
2. Gərək heyvanları təhlükədən xilas ed***im***.
3. Tibb bacıları yaralılara ilk yardım göstər***sinlər***.
4. Çətin vəziyyətdə qalan insanlara laqeyd qalma***yaq***, dəstək ol***aq***.
5. Bax bir daha böyüyün sözündən çıxma***yın***.

**Dərslik, səh. 117**

**c.** Cümlələrdəki feillərin xəbər, yoxsa əmr şəklində işləndiyini müəyyənləşdirin.

Cavab:
1. Tapşırığı yerinə yetirdikdən sonra cavablarınızı ***yoxlayın***. (əmr şəkli)
2. Problemin həlli üçün aidiyyəti orqanlara ***müraciət etdik***. (xəbər şəkli)
3. Gəlin əvvəlcə layihənin şərtlərinə ***nəzər salaq***. (əmr şəkli)
4. Səhər yüngül tappıltı səsinə yuxudan ***oyandım***. (xəbər şəkli)

İş dəftərində verilmiş tapşırıqlar şagirdlərin aldıqları biliklərin möhkəmləndirilməsinə yönəldilib.
**İş dəftəri, səh. 45**

**c.** "Tapşırmaq" və "getmək" feillərini əmr şəklində şəxsə və kəmiyyətə görə dəyiş.

Cavab:

| Şəxs | Tək | | Cəm | |
|---|---|---|---|---|
| | **Təsdiq** | **İnkar** | **Təsdiq** | **İnkar** |
| **I şəxs** | tapşırım<br>gedim | tapşırmayım<br>getməyim | tapşıraq<br>gedək | tapşırmayaq<br>getməyək |
| **II şəxs** | tapşır<br>get | tapşırma<br>getmə | tapşırın<br>gedin | tapşırmayın<br>getməyin |
| **III şəxs** | tapşırsın<br>getsin | tapşırmasın<br>getməsin | tapşırsınlar<br>getsinlər | tapşırmasınlar<br>getməsinlər |

Layihə

**İş dəftəri, səh. 45**

**ç.** Əmr şəklində olan feillərin daşıdığı məzmun çalarına görə uyğunluğu müəyyən et.

Cavab:
1 – c, 2 – ç, 3 – b, 4 – a.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Kontekstdən və qrammatik formadan çıxış edərək feillərin qrammatik-semantik xüsusiyyətlərini izah edir. | Dərslik və iş dəftərində verilmiş tapşırıqlar |

Layihə

# 2-ci fəsil
# QƏHRƏMANLIQ

## 1-ci DƏRS
## Şuşa Gültəkini

**Təlim nəticələri:**
• Kontekstdən çıxış edərək söz və ifadələrin mənasını müəyyən edir (st. 3.1.2).

**Mövzuya yönəltmə**

**Dərslik, səh. 118**

**a.** Ağlı və cəsarəti ilə Azərbaycan tarixinə adını yazdırmış hansı qadınları tanıyırsınız? Onların həyatı və fəaliyyəti haqqında danışın.

Motivasiya xarakterli bu tapşırıq şagirdlərin diqqətini mövzuya yönəldir, onları mövzu ətrafında danışmaq üçün istiqamətləndirir.

**Mətnlə iş.** Şagirdlər "Şuşa Gültəkini" mətnini səssiz oxuyurlar. Mətndə bəzi ifadələr fərqləndirilmişdir. Oxudan əvvəl şagirdlərə xəbərdarlıq edilir ki, həmin ifadələrin kontekstdəki mənalarına diqqət etsinlər. Oxudan sonra "Söz mücrüsü"ndəki sözlərin mənası müzakirə edilir.

**Söz ehtiyatı**

**Dərslik, səh. 120**

**b.** Mətndə fərqləndirilmiş "daşı ətəyindən tökmək" ifadəsinin kontekstə görə mənasını izah edin. Həmin ifadənin iştirakı ilə cümlələr qurun.

Cavab:
"Daşı ətəyindən tökmək", yəni fikrindən daşınmaq, rəyini dəyişmək, inadından dönmək, tərsliyindən əl çəkmək deməkdir.

**Dərslik, səh. 120**

**c.** Sübut edin ki, mətndə fərqləndirilmiş "qaynar" sözü məcazi mənada işlənib. Həmin ifadəni həqiqi mənada işlədin.

Cavab:
Burada "qaynar" döyüşün gərgin, təhlükəli və həyacanlı olduğu yerləri bildirir. Həqiqi mənada: Anam stəkana qaynar su tökdü.

**Dərslik, səh. 120**

**ç.** Müəllif "Dağ-daş da ağladı" deməklə nəyi vurğulamaq istəyib?

Cavab:
Müəllif bu ifadə ilə Gültəkinin şəhid olmasının hamını təsirləndirdiyini vurğulamaq istəyib.

**Oxuyub-qavrama**

**İş dəftəri, səh. 46**

**a.** "Şuşa Gültəkini" mətninə əsasən bu haqda fikir yürütmək olmaz:

Cavab:
d) Gültəkinin qızının gələcək taleyi

**İş dəftəri, səh. 46**

**b.** Mətnin məzmununa əsasən cümlələri tamamla.



Layihə

Cavab:

1. Bacıları və anası "körpə balanı qoyub getmə" desələr də, *Gültəkin öz qərarından dönmədi və cəbhəyə yola düşdü.*

2. Şuşa şəhəri gündən-günə boşalırdı, belə ki *qətl və qarətlər, düşmən tanklarının hücumu sakinlərin şəhəri tərk etməsinə səbəb olmuşdu.*

3. Gültəkin Şuşanın işğal olunmasından yana-yana danışıb deyirdi ki, *"Şuşanın azad olunacağı günü görsəm, ölmərəm, ana!"*

4. Azərbaycan xalqı qəhrəman övladlarını unutmur, onların adını daim əbədiləşdirir, *belə ki onun şəhid olduğu qayanı "Gültəkin qayası" adlandırmışlar. Ona ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adı verilib.*

**İş dəftəri, səh. 46**

**c.** Gültəkinə aid xüsusiyyətləri müəyyənləşdir və obraz xəritəsini tamamla.

Cavab:

**Obrazın təqdimatı:** Gültəkin Əsgərova Azərbaycanın Milli Qəhrəmanıdır.

**Cəsurdur.** Gültəkin qorxmadan ön cəbhəyə gedir, güllə yağışı altında yaralı əsgərləri xilas edir.

**Vətənpərvərdir.** Gültəkin ana və bacılarının etirazına baxmayaraq, Vətənin müdafiəsini hər şeydən üstün tutur.

**Qayğıkeşdir.** O, başqalarının dərdinə biganə qalmayan, kömək etməyi sevən bir insandır. Mətndə deyilir: *"Balacalıqdan köməyə ehtiyacı olanlara əl uzatmağa adət etmişdi".*

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Kontekstdən çıxış edərək söz və ifadələrin mənasını müəyyən edir. | Tapşırıq b, c, ç (dərslik) |

# 2-ci DƏRS
# Şuşa Gültəkini

**Təlim nəticələri:**

• Bədii və qeyri-bədii mətnləri növündən asılı olaraq məzmun-struktur xüsusiyyətlərinə görə təhlil edir (st. 3.1.5).

**Mövzuya yönəltmə. Danışma**

Müəllim keçən dərsdə oxunmuş "Şuşa Gültəkini" mətninə aid frontal sorğu keçirir. Frontal sorğu üçün sual nümunələri:

1. Gültəkin kim idi?
2. "Şuşa Gültəkini" mətninin mövzusu nədir?
3. Bu mətndə Gültəkinin hansı xüsusiyyətləri açılır?

**Dərslik, səh. 120**

**a.** Mətndə Azərbaycan tarixinin hansı səhifələri yer alıb? Mətnə əsasən, Gültəkinin həyatı və fəaliyyəti Azərbaycan tarixinin hansı dövrləri ilə bağlıdır?

Cavab: Mətndə Azərbaycan tarixinin Birinci Qarabağ müharibəsi dövrü əks olunub. Mətnə əsasən, Gültəkinin həyatı və fəaliyyəti 1990-cı illərin əvvəllərinə – Ermənistanın Azərbaycana qarşı hücum etdiyi, Şuşa və ətraf kəndlərin atəşə tutulduğu, Azərbaycanın hələ müstəqil ordusunun formalaşmadığı dövrə təsadüf edir. Bu, Azərbaycan tarixində Vətənin müdafiəsi uğrunda könüllü dəstələrin döyüşdüyü vaxtdır. Gültəkin Əsgərova da həmin dövrdə qəhrəmanlıq göstərən və şəhid olan igidlərdən biridir.

Layihə

**Dərslik, səh. 120**

**b.** Sizcə, “Şuşa Gültəkini” mətni bədii mətndir, yoxsa qeyri-bədii?

**“Xatırla” rubrikası.** Şagirdlər aşağı siniflərdə bədii və qeyri-bədii mətnlər haqqında ətraflı məlumat alıblar. Müəllimə şagirdlərə bədii və qeyri-bədii mətnlərin fərqini xatırlatmaq tövsiyə edilir. Müəllim “Xatırla” rubrikasındakı məlumatları şərh edir.

**Dərslik, səh. 120**

**c.** “Şuşa Gültəkini” mətnində müəllifin təxəyyülünə uyğun təsvir olunmuş epizodları danışın.

Cavab:

Məsələn müəllif Gültəkinin bacıları və anası ilə söhbətini təxəyyülünə uyğun yazıb.

Şuşanın təsviri də müəllifin təxəyyülünə əsasən yazılıb: Yaz fəsli idi. Lakin Şuşanın başı üstündə qara buludlar dolaşırdı. Yamyaşıl bağ-bağatın, gül-çiçəkli yamacların gözəlliyi yox olmuşdu. İsa bulağı qan ağlayırdı. Cıdır düzü yasa batmışdı.

**Dərslik, səh. 120**

**ç.** Mətni oxuyun və mətni yazmaqda müəllifin məqsədini müəyyən edin.

Cavab:

Müəllifin bu mətni yazmaqda məqsədi Azərbaycanın Milli Qəhrəmanı Gültəkin Əsgərovanın həyat və fəaliyyətini oxuculara tanıtmaqdır.

**Dərslik, səh. 121**

**d.** “Gültəkin Əsgərova” və “Şuşa Gültəkini” mətnlərini müqayisə edin. Aşağıdakı fikirlərin hansı mətnə aid olduğunu söyləyin.

Cavab:

1. Faktlar sistemli şəkildə verilib və yarımbaşlıqlar altında qruplaşdırılıb. – “Gültəkin Əsgərova” mətni
2. Mətndə müəllifin təxəyyülünə də yer verilib. – “Şuşa Gültəkini” mətni
3. Mətndə məcazi mənalı söz və ifadələr yer alıb. – “Şuşa Gültəkini” mətni

**İş dəftəri, səh. 47**

**a.** Gültəkin Əsgərovaya aid fikirlərin fakt, yoxsa təxəyyül olduğunu müəyyən et.

Cavab:

1. Gültəkin qızını bağrına basıb qara saçlarını sığalladı. **(T)**
2. Gültəkin Şuşanın işğal olunmasından yana-yana danışdı. **(T)**
3. O, 200 saylı məktəbdə təhsil almışdı. **(F)**
4. 1993-cü ildə Gültəkin Əsgərova “Azərbaycanın Milli Qəhrəmanı” fəxri adına layiq görülmüşdür. **(F)**
5. Onun qəhrəmancasına ölümünə dağ-daş da ağladı. **(T)**
6. Gültəkin Əsgərova 20 iyun 1992-ci ildə qəhrəmancasına şəhid olmuşdur. **(F)**

**Yazı**

**İş dəftəri, səh. 47**

**b.** “Gültəkin qayası” yüksəkliyini şəxsləndirməklə hekayə yaz.

**Hekayə nümunəsi.**

***Gültəkin qayası***

*Mən Gültəkin qayasıyam. Bu torpağın hər daşını, hər çiçəyini tanıyıram. Əsrlərdir ətəyimdəki yamyaşıl bağları, şəhərə gedən hər yolu, hər cığırı izləyirəm. Bir zamanlar bu yerlərdə sükut, quş səsi, uşaqların gülüşü vardı. Amma bir gün hər şey dəyişdi – müharibə başladı.*

Layihə

*O qara günlərdə göy guruldadı, torpaq titrədi. Güllələr, mərmilər sanki mənim sinəmə dəyirdi. Elə bu zaman bir qadın – Gültəkin mənim yamacıma qalxdı. Onun baxışlarında qorxu yox idi. Çiynində sanitar çantası, əlində ümid vardı. O, yaralı döyüşçüləri güllə yağışı altından xilas edir, "səni tək qoymaram" deyirdi. Mən hər dəfə onun cəsarətini görərkən qürurlanırdım. Amma bir gün yaralıları xilas edərkən düşmən gülləsi onu susdurdu. Mən onu bağrıma basdım... Torpaq, yer-göy onun ölümünə ağlayırdı.*

*Həmin gündən mənim adım "Gültəkin qayası" oldu. İnsanlar buraya gələndə onun adını ehtiramla çəkirlər. Mən hər səhər günəş doğanda sanki Gültəkinin üzünü görürəm. Gültəkinin mərdliyi, vətənə sevgisi bu torpaqda yaşayır. Mən isə əbədi olaraq onun xatirəsini qoruyuram.*

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Bədii və qeyri-bədii mətnləri növündən asılı olaraq məzmun-struktur xüsusiyyətlərinə görə təhlil edir. | Tapşırıq a, b, c, ç, d (dərslik) |

# 3-cü DƏRS
# Mən gərək oğul doğulaydım

**Təlim nəticələri:**
- Dinlədiyi mətn üzrə faktoloji suallara cavab verir (st. 1.1.1).
- Dinlədiyi və oxuduğu mətnlərdəki məlumatları müqayisə edir (st. 1.1.2).

**Mövzuya yönəltmə**

Müəllim lövhəyə "Aslanın erkəyi, dişisi olmaz" fikrini yazır. Şagirdlərə müraciət edərək soruşur:

– Sizcə, bu fikir hansı situasiyalarda istifadə olunur?

**Dinləmə**

**Dərslik, səh. 121**

**a.** Qeydlər götürməklə "Mən gərək oğul doğulaydım" mətnini dinləyin və suallara cavab verin.

***Mən gərək oğul doğulaydım***

*Salatın pasport alan günü evdə şadyanalıq qurulmuşdu. Deyib-gülür, şənlənirdilər. Birdən bacısı Zümrüd diqqətlə sənədə baxıb gülə-gülə dedi:*

*– Başıma xeyir, görün bir pasportda nə yazılıb: "Salatın Əziz oğlu Əsgərov".*

*Gülüş səsləri mənzili başına götürdü. Hamı sənədə baxıb gözü yaşarana qədər güldü. Salatın isə heç halını pozmadan dedi:*

*– Niyə gülürsünüz? Mən gərək elə oğul doğulaydım.*

*Salatın Əsgərova uşaqlıqdan şən, cəsarətli və inadkar bir qız idi. Kənd həyatını sevirdi; yay tətilini ata yurdu Füzulidə keçirirdi. Kiçik yaşlarında şeirlər, hekayələr yazmağa başlamışdı. Sonralar bu marağı onu jurnalistikaya gətirdi və "Salatın Ceyhun" imzası ilə tanındı.*

*Bir jurnalist kimi, daim ən qaynar nöqtələrdə olmağa can atırdı. 1990-cı ilin Qanlı Yanvar hadisələri zamanı minlərlə insanla birlikdə o da küçələrə çıxmış, yaralılara yardım etmişdi. Sonra Qarabağ müharibəsinin alovlandığı dövrlərdə cəbhə bölgələrinə yollanmış, əsgərlər haqqında reportajlar hazırlamışdı.*

*İşlədiyi qəzetin redaksiyasında Salatına görə çox narahat olurdular. Hər dəfə Bakıya qayıdanda dilə tuturdular ki, bir də təhlükəli bölgələrə getməsin. Amma heç kəs onu yolundan döndərə bilmirdi. O, həmişə eyni cavabı verirdi: "Mən getməyim, bəs kim getsin?"*

layihə

*Anası da yalvarırdı:*

*– Ay bala, özünü namərd gülləsindən qoru. Bir də ki, oğlun Ceyhunu düşün. Uşaq sənin üçün çox darıxır.*

*...1991-ci il yanvarın ilk günləri idi. Qarabağa yollanan Salatın anasına söz verdi: “Axırıncı dəfə gedirəm...”*

*Doğrudan da, bu, Salatının cəbhə xəttinə sonuncu səfəri oldu. Laçın-Şuşa yolunda, Qala dərəsi deyilən yerdə Salatın Əsgərovanın və üç rus zabitinin mindiyi maşın erməni silahlıları tərəfindən gülləbarana tutuldu. Salatın Əsgərova Qarabağ müharibəsində öz xidməti vəzifəsini yerinə yetirərkən şəhidlik zirvəsinə ucalan ilk jurnalist oldu.*

*Ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adı verilən Salatın Əsgərova Şəhidlər xiyabanında dəfn edildi.*

Cavab:

1. Salatının sənədində “Salatın Əziz oğlu Əsgərov” yazılmışdı, yəni onun soyadı səhv yazılmışdı.
2. Salatın uşaqlıqdan şeir və hekayə yazmaqla maraqlanırdı.
3. O, “Salatın Ceyhun” imzası ilə tanındı.
4. Onun jurnalist fəaliyyəti 1990-cı illərin əvvəllərində, xüsusilə 1990-cı ilin Qanlı Yanvar hadisələri və Qarabağ müharibəsi dövrü ilə bağlıdır.
5. Salatının son səfəri 1991-ci ilin yanvarında, Laçın-Şuşa yolunda, Qaladərəsi deyilən yerdə baş verdi və orada erməni silahlıları tərəfindən gülləbarana tutuldu.

**Dərslik, səh. 121**

**b.** Salatının xarakterindəki əsas xüsusiyyətlər haqqında danışın. Mətnə istinad etməklə fikrinizi əsaslandırın.

Cavab:

Salatının xarakterində cəsarət, inadkarlıq və vətənpərvərlik əsas xüsusiyyətlərdir.

Cəsarətlidir: O, həyatın ən təhlükəli yerlərində olmağa can atırdı, yaralılara yardım edir və cəbhə bölgələrinə yollanırdı. Mətndə deyilir: *“Həyatın ən qaynar nöqtələrində olmağa can atırdı. 1990-cı ilin Qanlı Yanvar hadisələri zamanı minlərlə insanla birlikdə o da küçələrə çıxmış, yaralılara yardım etmişdi.”*

İnadkardır: Hər kəs onu yolundan döndərməyə çalışsa da, Salatın öz qərarından dönmədi: *“Amma heç kəs onu yolundan döndərə bilmirdi. O, həmişə eyni cavabı verirdi: “Mən getməyim, bəs kim getsin?”*

Vətənpərvərdir: Salatın öz təhlükəsini düşünmədən Qarabağ müharibəsində jurnalist kimi xidmət göstərdi və şəhid oldu. Mətndə deyilir: *“Salatın Əsgərova Qarabağ müharibəsində öz xidməti vəzifəsini yerinə yetirərkən şəhid olan ilk jurnalist oldu”.*

**Dərslik, səh. 121**

**c.** Bu mətni ideya və obrazlar baxımından “Şuşa Gültəkini” mətni ilə müqayisə edin.

Cavab:

Hər iki mətn oxucuya Azərbaycan qəhrəmanlarının fədakarlığını, vətən sevgisini və cəsarətini çatdırır, lakin biri tibb bacısı, digəri isə jurnalist peşəsi vasitəsilə göstərilir. İdeya oxşardır, amma qəhrəmanların fəaliyyət sahələri fərqlidir.

**Dərslik, səh. 121**

**ç.** “Mən gərək oğul doğulaydım” mətnində verilmiş hansı məlumat təxəyyül deyil, faktdır?

Cavab:

1. Salatın bacısı Zümrüd ilə söhbət edir. **(T)**
2. O, jurnalistika sahəsində “Salatın Ceyhun” imzası ilə tanınırdı. **(F)**
3. 1991-ci ilin yanvar ayında Salatının cəbhə xəttinə sonuncu səfəri oldu. **(F)**

Ləylə

4. Laçın-Şuşa yolunda, Qaladərəsi deyilən yerdə Salatın Əsgərova şəhid oldu. **(F)**
5. Salatının anası ona cəbhə bölgəsinə getməməsi üçün yalvarır. **(T)**
6. Ölümündən sonra ona “Azərbaycanın Milli Qəhrəmanı” adı verildi. **(F)**
7. Salatın Əsgərova Şəhidlər xiyabanında dəfn edildi. **(F)**

**Yazı**

**İş dəftəri, səh. 48**

**a.** Məlumatları rabitəli mətn şəklində təqdim et.

Şagirdlərin mətni təxminən bu məzmunda ola bilər.

***Salatın Əsgərova***

*Salatın Əsgərova 1961–1991-ci illərdə yaşamış, Azərbaycan mətbuatının cəsur və vətənpərvər nümayəndələrindən biri olmuşdur. O, Azərbaycan Neft və Kimya İnstitutunda ali təhsil almış, lakin jurnalistikaya böyük marağı onu bu sahədə fəaliyyət göstərməyə yönəltmişdir. Peşəkar fəaliyyətinə qəzet müxbiri kimi başlayan Salatın Əsgərova xüsusilə Qarabağ münaqişəsi illərində cəbhə bölgələrindən hazırladığı reportajlarla tanınmışdır.*

*Salatın işğal olunmuş torpaqlarımız haqqında həqiqətləri dünyaya çatdırmaq məqsədilə təhlükəli bölgələrə dəfələrlə səfərlər etmiş və reportajlar hazırlamışdır. Sonuncu səfəri zamanı 1991-ci il yanvarın 9-da Laçın–Şuşa yolu, Qaladərəsi kəndi ərazisində qəhrəmancasına həlak olmuşdur. Salatın Əsgərova Bakı şəhərindəki Şəhidlər xiyabanında dəfn edilmişdir.*

*Qəhrəman Vətən qızının xatirəsi Azərbaycan xalqının yaddaşında əbədi yaşayır. Salatın Əsgərova “Azərbaycanın Milli Qəhrəmanı” adına layiq görülmüş, şəhid olduğu Qaladərəsi kəndi sonradan Salatınkənd adlandırılmışdır. Xalq şairi Nəbi Xəzri onun xatirəsinə poema həsr etmişdir. Onun haqqında “Vətən üçün gedirəm” adlı qısametrajlı film çəkilmişdir. Bundan başqa, ölkənin müxtəlif bölgələrində küçə və məktəblərə onun adı verilmişdir. Yaşadığı binaya xatirə lövhəsi vurulmuşdur.*

*Salatın Əsgərovanın həyat yolu Azərbaycan qadınının mərdliyini, vətənə sədaqətini və peşəsinə sonsuz sevgisini parlaq şəkildə təcəssüm etdirir. Onun adı cəsarətin, fədakarlığın və vətənpərvərliyin simvoluna çevrilmişdir.*

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Dinlədiyi mətn üzrə faktoloji suallara cavab verir. | Tapşırıq a, b, ç (dərslik) |
| Dinlədiyi və oxuduğu mətnlərdəki məlumatları müqayisə edir. | Tapşırıq c (dərslik) |

# 4-cü DƏRS
# Azərbaycan qəhrəmanları

**Təlim nəticələri:**
- Əldə etdiyi məlumatlar əsasında kiçikhəcmli informativ mətn yazır (st. 4.1.1).

**Mövzuya yönəltmə**

Müəllim lövhəyə “Qəhrəmanlar unudulmur” fikrini yazır. Şagirdlərə müraciət edərək soruşur:
– Hansı Azərbaycan qəhrəmanlarını tanıyırsınız? Bu insanları xatırlayanda hansı hissləri keçirirsiniz?

Layihə

Dərslik, səh. 122

a. Məlumat vərəqlərinə istinad edərək Azərbaycan qəhrəmanları haqqında qeyri-bədii mətn yazın. Bəzi real hadisə və faktları bədii, obrazlı şəkildə təqdim edin.

**Müəllimin nəzərinə!** Tapşırığın mərhələlərlə yerinə yetirilməsi tövsiyə olunur.

**I mərhələ**

Şagirdlər iki qrupa ayrılırlar. Bu zaman hər qrupda müxtəlif bacarıqlara sahib şagirdlərin olması məqsədəuyğundur. Məsələn:

- Tədqiqatçı: faktları sistemləşdirir, xronologiyanı müəyyən edir;
- Yazıçı: qeyri-bədii mətni yazır, bədii ifadələr əlavə edir;
- Redaktor: orfoqrafik və üslubi düzgünlüyə nəzarət edir;
- Təqdimatçı: qrupun işini sinifdə təqdim edir.

**II mərhələ**

Qruplar əvvəlcə plan tərtib edir: giriş, əsas hissə, nəticə. Hər qrup müvafiq məlumat vərəqi əsasında 10–15 cümləlik qeyri-bədii mətn yazır. Mətnlərdə faktlara əsaslanmaqla yanaşı, bədii, obrazlı ifadələr işlətmək tövsiyə olunur (məsələn, "Polad iradəli general", "kamerasını silah kimi tutan jurnalist").

**III mərhələ**

Qruplar işlərini sinif qarşısında oxuyur və qısa təqdimat edir. Digər şagirdlər dinlədikdən sonra suallar verir və fikirlərini bölüşürlər.

Müəllim qrup işlərini aşağıdakı meyarlarla qiymətləndirə bilər:

- Faktların düzgünlüyü və ardıcıllığı
- Qeyri-bədii üslubda yazı bacarığı
- Bədii və obrazlı ifadələrin uğurlu istifadəsi
- Qrup əməkdaşlığı və təqdimat bacarığı

**Yazı mətnlərinə nümunə.**

**I qrup**

***Çingiz Mustafayev – Qəhrəman jurnalist***

*Azərbaycan tarixinə adını qızıl hərflərlə yazan jurnalistlərdən biri də Çingiz Mustafayevdir. O, 29 avqust 1960-cı ildə anadan olmuş, Azərbaycan Dövlət Tibb İnstitutunu bitirərək həkim peşəsinə yiyələnmişdi. Lakin Vətənə olan dərin məhəbbəti onu başqa bir yola – həqiqətin, ədalətin və vətənpərvərliyin səsi olan jurnalistliyə gətirdi.*

*Çingiz Mustafayev 1991-ci ildən Azərbaycan Dövlət Televiziyasında reportyor kimi fəaliyyət göstərməyə başladı. O, döyüş bölgələrinə üz tutaraq xalqın azadlıq mübarizəsini, əsgərlərin fədakarlığını, müharibənin ağrısını və qəhrəmanlığını lentə alırdı.*

*Onun ən yadda qalan çəkilişlərindən biri Xocalı faciəsi ilə bağlı idi. Çingiz Mustafayev və hərbi operator Seyidağa Mövsümlü bu dəhşətli hadisəni dünyaya çatdırdılar.*

*1992-ci il iyunun 15-də Çingiz Mustafayev yenə ön cəbhəyə yollandı. Əsgəran rayonunun Naxçıvanik kəndində döyüşlər zamanı çəkiliş apararkən mərmi qəlpəsindən şəhid oldu. O, kamerasını silah kimi tutmuş, haqiqət uğrunda döyüşərək həyatını qurban vermişdi. Çingiz Mustafayev Bakıdakı Şəhidlər xiyabanında dəfn edilmişdir.*

*Çingiz Mustafayev ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüşdür. Onun xatirəsinə Şahdağda 4062 metr yüksəklikdə yerləşən zirvə "Çingiz zirvəsi" adlandırılır. Həmçinin onun adını daşıyan fond yaradılıb. Bu fond Azərbaycanın milli-mənəvi dəyərlərinin qorunmasına və təbliğinə xidmət edir.*

*Çingiz Mustafayevin ömür yolu sübut etdi ki, jurnalistin qələmi və kamerası da vətən uğrunda döyüşən bir silah ola bilər. O, təkcə hadisələri lentə almırdı, xalqın ağrısını, mərdliyini və qürurunu tarixə çevirirdi. Onun adı Azərbaycan jurnalistikasının və qəhrəmanlıq salnaməsinin qızıl səhifələrinə əbədi həkk olunmuşdur.*

Leyli̇nə

**II qrup**

***Polad Həşimov – Polad general***

*Adı xalqın yaddaşına əbədi həkk olunmuş qəhrəmanlardan biri də general-mayor Polad Həşimovdur. O, 2 yanvar 1975-ci ildə anadan olmuş, gənc yaşlarından həyatını hərbiyə həsr etmişdir. Polad Həşimov 1992–1995-ci illərdə Bakı Ali Birləşmiş Komandanlıq Məktəbində “motoatıcı” ixtisası üzrə təhsil almış, daha sonra 2014–2016-cı illərdə Silahlı Qüvvələrin Hərbi Akademiyasında magistr dərəcəsi qazanaraq hərbi idarəetmə üzrə biliklərini artırmışdır.*

*Polad Həşimovun döyüş yolu Azərbaycan Ordusunun igidlik salnaməsidir. O, Birinci Qarabağ müharibəsində, Murovdağ əməliyyatlarında və 2016-cı ilin Aprel döyüşlərində böyük cəsarət göstərmişdir. 2017–2020-ci illərdə 3-cü Ordu Korpusunun komandir müavini və qərargah rəisi kimi xidmət etmiş, hər zaman əsgərlərinə həm rəhbər, həm də dost olmuşdur.*

*2020-ci ilin iyulunda Ermənistan Silahlı Qüvvələri Tovuz istiqamətində genişmiqyaslı təxribat törətdi. Polad Həşimov döyüş meydanının önündə idi. O, əsgərləri ilə çiyin-çiyinə döyüşürdü. Polad Həşimov 14 iyul Tovuz rayonunun Ağdam və Əlibəyli kəndləri istiqamətində gedən ağır döyüşlərdə şəhidlik zirvəsinə ucaldı. O, II Fəxri xiyabanda böyük izdihamla dəfn olundu. Əsgərləri onu “Polad kimi general” adlandırırdılar. Çünki o, adı kimi “polad iradəli” bir qəhrəman idi.*

*Polad Həşimov göstərdiyi igidliyə görə 2009-cu ildə “Vətən uğrunda” medalı, 2014 və 2016-cı illərdə 3-cü və 2-ci dərəcəli “Vətənə xidmətə görə” ordenləri ilə təltif edilmişdir. Şəhidlik zirvəsinə ucaldıqdan sonra “Azərbaycanın Milli Qəhrəmanı” adına layiq görülmüşdür. Onun xatirəsinə Bakı, Qəbələ, Sumqayıt, Bursa və digər şəhərlərdə küçələr və parklar adlandırılmışdır.*

*Polad Həşimov Azərbaycan Ordusunun rəmzinə, əsgər və gənclər üçün qəhrəmanlıq nümunəsinə çevrilmişdir. O, millətin yaddaşında əbədi olaraq “Polad general” kimi yaşayacaq.*

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Əldə etdiyi məlumatlar əsasında kiçikhəcmli informativ mətn yazır. | Tapşırıq a (dərslik) |

## 5-ci DƏRS
## Feilin lazım şəkli

**Təlim nəticələri:**

• Feilin lazım şəklini fərqləndirir (st. 4.1.3).

**Mövzuya yönəltmə**

**Dərslik, səh. 124**

**a.** Hansı cümlədəki feil hərəkətin lazım olduğunu bildirir?

Motivasiya xarakterli bu tapşırıq şagirdlərin diqqətini dərsin mövzusuna yönəldir.

Cavab:

a. Biz yolun başlanğıcındayıq, hələ çox *öyrənəsiyik.*

**“Bunları bilməliyik!” rubrikası.** Müəllim rubrikadakı məlumatları şərh edərək şagirdlərə feilin lazım şəkli haqqında məlumat verir. Dərslikdə və iş dəftərində verilmiş tapşırıqlar şagirdlərin biliklərini möhkəmləndirmə xarakterlidir.

Layihə

**Dərslik, səh. 124**

**b.** Verilmiş feilləri lazım şəklində tələbə uyğun işlədərək cümlələri tamamlayın.

Cavab:
1. Mən bu kitabı sabaha qədər ***oxuyasıyam.***
2. Sən onun hər sualına ***cavab verəsi deyilsən.***
3. Biz şənbə günü kitab sərgisinə ***gedəsiyik.***
4. Siz bu dəfə yarışda ***iştirak edəsi deyilsiniz.***
5. Qonaqlar səhər tezdən ***yola düşəsidirlər.***

**Dərslik, səh. 124**

**c.** Fonetik baxımdan eyni sonluğa malik olan sözləri qruplaşdırın və nümunəyə uyğun olaraq təhlil edin.

Cavab:
1. gətirəsidir: gətir – sözün kökü, -əsi – feilin lazım şəklinin şəkilçisi, -dir – şəxs şəkilçisi
2. gedəsisən: get – sözün kökü, -əsi – feilin lazım şəklinin şəkilçisi, -sən – şəxs şəkilçisi
3. tələbəsiyik: tələbə – sözün kökü, -si – mənsubiyyət şəkilçisi, -yik – şəxs şəkilçisi
4. qalasıdır: qala – sözün kökü, -sı – mənsubiyyət şəkilçisi, -dır – şəxs şəkilçisi
5. qalasıdır: qal – sözün kökü, -ası – feilin lazım şəklinin şəkilçisi, -dır – şəxs şəkilçisi
6. qələbəsidir: qələbə – sözün kökü, -si – mənsubiyyət şəkilçisi, -dir – şəxs şəkilçisi

**Dərslik, səh. 124**

**ç.** Aşağıdakı feilləri lazım şəklində uyğun şəxsə görə dəyişib cümlədə işlədin.

Cavab:
Gülsüm sabahdan dərsə ***başlayasıdır***.
Biz Toplana evcik ***düzəldəsiyik***.
Siz bir neçə saat ***gözləyəsisiniz.***
Onlar "Vətən" mövzusunda esse ***yazasıdırlar***.
Mən təqdimatın mövzusu haqqında ***düşünəsiyəm***.
Sən bu gün tez ***yatasısan.***

**Dərslik, səh. 125**

**d.** Verilmiş nümunələrdə əmr şəklində olan feilləri seçin. Feillərin hansı şəxslərə aid olduğunu müəyyənləşdirin. Hansı feil inkardadır?

Cavab:
gətir, pozma, böyü, igid ol (II şəxsin təki), çəkim (I şəxsin təki)
dedim (I şəxsin təki), yetişsin (III şəxsin təki), sal yadına (II şəxsin təki)

**İş dəftəri, səh. 49**

**a.** "Yazmaq" və "gəlmək" feillərini lazım şəklində şəxsə və kəmiyyətə görə dəyiş.

Cavab:

| Şəxs | Tək | | Cəm | |
|---|---|---|---|---|
| | Təsdiq | İnkar | Təsdiq | İnkar |
| I şəxs | Yazasıyam<br>Gələsiyəm | Yazası deyiləm<br>Gələsi deyiləm | Yazasıyıq<br>Gələsiyik | Yazası deyilik<br>Gələsi deyilik |
| II şəxs | Yazasısan<br>Gələsisən | Yazası deyilsən<br>Gələsi deyilsən | Yazasısınız<br>Gələsisiniz | Yazası deyilsiniz<br>Gələsi deyilsiniz |

Layihə

| | | | | |
|---|---|---|---|---|
| III şəxs | Yazasıdır<br>Gələsidir | Yazası deyil<br>Gələsi deyil | Yazasıdırlar<br>Gələsidirlər | Yazası deyillər<br>Gələsi deyillər |

**İş dəftəri, səh. 49**

**b.** Hansı cümlədə lazım şəklində işlənmiş feil var?

Cavab:
b. Yaylaqdakılar bu gün şəhərə köçəsiydilər.

**Formativ qiymətləndirmə**
Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Feilin lazım şəklini fərqləndirir. | Dərslikdə və iş dəftərində təqdim edilmiş tapşırıqlar |

# 6-cı DƏRS
# Feilin arzu şəkli

**Təlim nəticələri:**
• Feilin arzu şəklini fərqləndirir (st. 4.1.3).

**Mövzuya yönəltmə**
**Dərslik, səh. 125**

**a.** Hansı cümlədə nöqtələrin yerinə “kaş” sözünü artırmaq olar? Sizcə, hansı cümlədəki feil hərəkətin arzu olunduğunu bildirir?

Motivasiya xarakterli bu tapşırıq şagirdlərin diqqətini dərsin mövzusuna yönəldir.
Cavab:
a. ... ağ günlü, ağ çörəkli olasan.

**“Bunları bilməliyik!” rubrikası.** Müəllim rubrikadakı məlumatları şərh edərək şagirdlərə feilin arzu şəkli haqqında məlumat verir. Dərslikdə və iş dəftərində verilmiş tapşırıqlar şagirdlərin biliklərini möhkəmləndirmə xarakterlidir.

**Dərslik, səh. 125**

**b.** Arzu şəklində olan feillərin hansı şəxsə aid olduğunu müəyyən edin.

Cavab: yatasan, atasan, batasan (II şəxsin təki)

**Dərslik, səh. 125**

**c.** Nöqtələrin yerinə “qoy” və “kaş” ədatlarını yazaraq cümlələri tamamlayın. Cümlədəki feillərin şəklini müəyyən edin.

**“Yadda saxla” rubrikası.** “c” tapşırığını yerinə yetirməzdən əvvəl şagirdlərin diqqəti “Yadda saxla” rubrikasına yönəldilir. Və rubrikada verilmiş məlumatlar nümunələr əsasında şərh edilir.

Cavab:
1. ***Kaş*** biz də belə uğura çataq. **(arzu şəkli)**
2. ***Qoy*** hamı bu xəbərə sevinsin. **(əmr şəkli)**
3. ***Kaş*** sən xoşbəxt olasan. **(arzu şəkli)**
4. ***Kaş*** bu xoş günlər heç vaxt bitməyə. **(arzu şəkli)**
5. ***Qoy*** heç kim haqsızlıq qarşısında susmasın. **(əmr şəkli)**

Layihə

**İş dəftəri, səh. 49**

**c.** Arzu şəklində işlənmiş feilləri seçib cədvəli tamamla.

Cavab:

| Feillər | Başlanğıc forması | İnkar şəkilçisi | Arzu şəklinin şəkilçisi | Şəxs şəkilçisi |
|---|---|---|---|---|
| keçə | keç | – | -ə | – |
| möhtac olmayasan | möhtac ol(maq) | -ma | -ya | -san |
| dönələr | dön | – | -ə | -lər |
| gələk | gəl | – | -ə | -k |

**İş dəftəri, səh. 49**

**ç.** Feilləri kontekstə əsasən kök və şəkilçiyə ayır. Həmin feillərin arzu, yoxsa əmr şəklində işləndiyini qeyd et.

Cavab:

1. Qoy bir müsabiqədən uğurla ***keç-ək***.
2. Kaş müsabiqədən uğurla ***keç-ə-k***.
1. Gəlin vəzifəmizi şərəflə yerinə ***yetir-ək***.
2. Təki vəzifəmizi şərəflə yerinə ***yetir-ə-k***.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Feilin arzu şəklini fərqləndirir. | Dərslikdə və iş dəftərində təqdim edilmiş tapşırıqlar |

Layihə

# 3-cü fəsil
# QƏLƏBƏ

## 1-ci DƏRS
## Qələbə

**Təlim nəticələri:**
• Müzakirə zamanı mövzuya uyğun fikir yürüdür (st. 2.1.4).

**Mövzuya yönəltmə**
Müəllim şagirdlərə istiqamətləndirici suallar verərək onların diqqətini mövzuya yönəldir.
Sizcə, müsahibə niyə aparılır? Jurnalistlər niyə məşhur şəxslərdən və ya şahidlərdən müsahibə alırlar?

**Dərslik, səh. 126**

**a.** Azərbaycan Respublikası Prezidentinin nüfuzlu beynəlxalq nəşrlərə, televiziya kanallarına verdiyi müsahibələrdən bir hissəni oxuyun. Jurnalistin sualına münasibət bildirin.

**Mətn üzrə iş.** Şagirdlər mətni oxuyur, əsas məlumatları müəyyən edirlər.
Şagirdlərin cavabları müxtəlif ola bilər. Lakin sonunda müəllim onların fikirlərini ümumiləşdirə bilər:
Jurnalist Qarabağın Azərbaycan üçün niyə dəyərli olduğunu öyrənmək istəyir. Və o bu dəyərin yalnız iqtisadi resurslarla bağlı olduğunu düşünür. Lakin Prezidentin cavabından aydın olur ki, məsələ resurs uğrunda mübarizə deyil. Bu, ədalətin bərpası, dövlət suverenliyinin qorunması, xalqın milli kimliyinin müdafiəsi və beynəlxalq hüququn təmin olunması məsələsidir.
**“Yadda saxla” rubrikası.** Müəllim rubrikadakı məlumatları izah edir. Müsahibə zamanı sualların düzgün qurulmasının əhəmiyyətini verilmiş nümunələrlə izah edir.

**Dərslik, səh. 127**

**b.** II Qarabağ müharibəsi iştirakçıları ilə müsahibələri oxuyun. Müsahibin nitqinə əsasən müxbirin suallarını müəyyənləşdirin. Əlavə suallar hazırlayaraq müsahibəni səhnələşdirin.

Müəllim şagirdlərdən soruşur:
– *Bir qəhrəmanla danışmaq imkanınız olsaydı, ondan nə soruşardınız?*
Müəllim şagirdlərin cavablarını lövhəyə yazır. Qapalı suallar varsa, birlikdə açıq suala çevirirlər.
Daha sonra şagirdlər qruplara ayrılırlar. Uyğun suallar yazaraq müvafiq müsahibəni tamamlayırlar.

**I qrup üçün sual nümunələri:**
– Vətən müharibəsi dövründə hansı bölgələrdə döyüşmüsünüz? Hərbi xidmətiniz nə qədər davam edib?
– Bu foto harada və hansı döyüş zamanı çəkilib? Onun yaranma tarixçəsi barədə danışın.
– Müharibədə xidmətinizə görə hansı mükafatlara layiq görülmüsünüz?

**II qrup üçün sual nümunələri:**
– Vətən müharibəsi başlayanda hansı əməliyyatlarda iştirak etdiniz və hansı istiqamətlərdə döyüşdünüz?
– Şuşa uğrunda baş verən döyüşləri necə xatırlayırsınız? Bu döyüş haqqında danışın.
– Şuşada Zəfər Bayrağını sancmaq sizin üçün nə demək idi və həmin an nə hiss etdiniz?
– Vətən sevgisinin sizin həyatınızdakı və döyüş yolunuzdakı əhəmiyyətini necə izah edərdiniz?



Layihə

**III qrup üçün sual nümunələri:**

– Zəhmət olmasa, 2016-cı ilin aprel döyüşlərində iştirakınız və həmin dövrdə baş verən hadisələr barədə danışın.

– 44 günlük Vətən müharibəsində sizin və tabeliyinizdəki şəxsi heyətin iştirak etdiyi əməliyyatlar barədə danışa bilərsinizmi?

– Qəhrəmanlıq adını alanda hansı hissləri keçirdiniz?

**İş dəftəri, səh. 50**

**a.** Müsahibələrə əsasən İkinci Qarabağ müharibəsi iştirakçıları haqqında məlumat vərəqlərini tamamla.

Şagirdlər Azərbaycanın qəhrəman oğulları haqqında məlumat vərəqi tərtib etməklə İkinci Qarabağ müharibəsi iştirakçıları haqqında aldıqları məlumatları mənimsədiklərini nümayiş etdirir.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Müzakirə zamanı mövzuya uyğun fikir yürüdür. | Tapşırıq a, b (dərslik) |

# 2-ci DƏRS
# Feilin vacib şəkli

**Təlim nəticələri:**
- Feilin vacib şəklini fərqləndirir (st. 4.1.3).

**Mövzuya yönəltmə**

**Dərslik, səh. 130**

**a.** Aşağıdakı cümlələri müqayisə edin. Hansı cümlədə hərəkətin vacibliyi bildirilir?

Motivasiya xarakterli bu tapşırıq şagirdlərin diqqətini dərsin mövzusuna yönəldir.

Cavab: B. Yeni kitabları ayırıb qabaqdakı rəflərə düzməliyəm.

**“Bunları bilməliyik!” rubrikası.** Müəllim rubrikadakı məlumatları şərh edərək şagirdlərə feilin vacib şəkli haqqında məlumat verir. Dərslikdə və iş dəftərində verilmiş tapşırıqlar şagirdlərin biliklərini möhkəmləndirmə xarakterlidir.

**Dərslik, səh. 130**

**b.** Vacib şəklində olan feillərin şəxsini, təsdiq və ya inkarda işləndiyini müəyyən edin.

Cavab: 1. Biz məktəbin qaydalarına ***əməl etməliyik***. (I şəxsin cəmi, təsdiq)
2. Vətənin bir qarış torpağını da düşmənə ***verməməliyik.*** (I şəxsin cəmi, inkar)
3. Siz bu məsələyə ***qarışmalı deyilsiniz***. (II şəxsin cəmi, inkar)
4. Uçuşa iki saat qalmış burada ***olmalısınız***. (II şəxsin cəmi, təsdiq)
5. Xoş niyyətlə danışmağa ***çalışmalısan***. (II şəxsin təki, təsdiq)

**Dərslik, səh. 130**

**c.** Əmr şəklində verilmiş feilləri vacib şəklə çevirərək cümlələri dəyişin.

Cavab: 1. Özünü alim sayan nadandan uzaq gəzməlisən.
2. İstəyirsən ki, düşmən sirrini bilməsin, onu dosta deməməlisən.
3. Hər düşündüyünü etibarsız adama deməməlisən, lakin etibarlı adamdan da gizlətməməlisən.

Leyla

4. Tez-tez kədərlənmək istəmirsənsə, paxıl olmamalısan.
5. Sabah bütün uşaqlar iməciliyə gəlməlidirlər.

**Dərslik, səh. 130**

**ç.** Fərqləndirilmiş sözlərə sual verib vacib şəklində olan feilləri göstərin.

Cavab: 1. Dilbər qonaqları gül-çiçəklə qarşılamalı idi. (nə etməli idi?)
4. Sən bu gün keşik çəkməli deyilsən. (nə etməli deyilsən?)
6. Bu gün kiçik bacım məktəb tədbirində pianoda çalmalı idi. (nə etməli idi?)

**İş dəftəri, səh. 51**

**a.** Hansı cümlədə vacib şəklində olan feil işlənib?

Cavab: c. Səhvlərinizi bir daha təkrar etməməlisiniz.

**İş dəftəri, səh. 51**

**b.** "Yatmaq" və "gözləmək" feillərini vacib şəklində şəxsə və kəmiyyətə görə dəyiş.

Cavab:

| Şəxs | Tək | | Cəm | |
|---|---|---|---|---|
| | Təsdiq | İnkar | Təsdiq | İnkar |
| I şəxs | Yatmalıyam<br>Gözləməliyəm | Yatmalı deyiləm<br>Gözləməli deyiləm | Yatmalıyıq<br>Gözləməliyik | Yatmalı deyilik<br>Gözləməli deyilik |
| II şəxs | Yatmalısan<br>Gözləməlisən | Yatmalı deyilsən<br>Gözləməli deyisən | Yatmalısınız<br>Gözləməlisiniz | Yatmalı deyilsiniz<br>Gözləməli deyilsiniz |
| III şəxs | Yatmalıdır<br>Gözləməlidir | Yatmalı deyil<br>Gözləməli deyil | Yatmalıdırlar<br>Gözləməlidirlər | Yatmalı deyillər<br>Gözləməli deyillər |

**İş dəftəri, səh. 51**

**c.** Əmr şəklində verilmiş feilləri vacib şəklinə çevirərək cümlələri dəyiş.

Cavab: 1. Həyətdəki ağacların dibini belləməli və onları sulamalısan.
2. Yeni kitabları ön sıradakı rəflərə düzməlisiniz.
3. Əvvəl düşünməli, sonra danışmalısan.
4. Yalançını mənzilinədək qovmalısan.
5. Düşmən zəif olsa da, ehtiyatı əldən verməməlisən.

**İş dəftəri, səh. 51**

**ç.** Cümlələri elə tamamla ki, hərəkətin vacibliyi diqqətə çatdırılsın.

Cavab: 1. Biz, Azərbaycan gəncləri, Vətənimizin hər qarış torpağını qorumalıyıq.
2. Vətən uğrunda, lazım gələrsə, hər bir kəs canını qurban verməlidir.
3. Uğur qazanmaq üçün hər gün çalışmalısan.
4. Hər dəfə eyni səhvi təkrarlamamaq üçün səhvini anlamalısan.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Feilin vacib şəklini fərqləndirir. | Dərslikdə və iş dəftərində təqdim edilmiş tapşırıqlar |

Layihə

# 3-cü DƏRS
# Feilin şərt şəkli

**Təlim nəticələri:**

- Feilin şərt şəklini fərqləndirir (st. 4.1.3).

**Mövzuya yönəltmə**

**Dərslik, səh. 131**

**a.** Aşağıdakı cümlələrdə şərt mənası ifadə edən feilləri seçin.

Motivasiya xarakterli bu tapşırıq şagirdlərin diqqətini dərsin mövzusuna yönəldir.

Cavab: 1. Düşmən *zəif olsa* da, ehtiyatı əldən vermə.

2. Qonşu *paxıl olmasa*, bağ çəpəri neylər?!

3. *Od olmasa*, tüstü çıxmaz.

**"Bunları bilməliyik!" rubrikası.** Müəllim rubrikadakı məlumatları şərh edərək şagirdlərə feilin şərt şəkli haqqında məlumat verir. Dərslikdə və iş dəftərində verilmiş tapşırıqlar şagirdlərin biliklərini möhkəmləndirmə xarakterlidir.

**Dərslik, səh. 131**

**b.** Fərqləndirilmiş feilləri şərt şəklində işlədin.

Cavab: 1. Sən *çalışsan,* nəticə yaxşı olacaq.

2. Onlar *kömək etsələr,* iş tez bitəcək.

3. Doğru *danışsan,* sonradan xəcalət çəkməzsən.

4. Siz mənə *güvənsəniz,* mən daha çox çalışacağam.

**Dərslik, səh. 131**

**c.** Şərt şəklində olan feilləri tapın və hansı şəxslərə aid olduğunu deyin.

Cavab: 1. bacarsan, yorulsan (II şəxsin təki)

2. görsəm (I şəxsin təki)

3. yaxşılıq etsən, ləzzət çəksən (II şəxsin təki)

4. tiksən (II şəxsin təki)

5. anmasa, alovlanmasa, yanmasa (III şəxsin təki)

**Dərslik, səh. 131**

**ç.** Uyğunluğu müəyyən edin.

Cavab: 1 – b, 2 – c, 3 – ç, 4 – a.

**İş dəftəri, səh. 52**

**a.** "Çalışmaq" və "öyrənmək" feillərini şərt şəklində şəxsə və kəmiyyətə görə dəyiş.

Cavab:

| Şəxs | Tək | | Cəm | |
|---|---|---|---|---|
| | **Təsdiq** | **İnkar** | **Təsdiq** | **İnkar** |
| I şəxs | Çalışsam<br>Öyrənsəm | Çalışmasam<br>Öyrənməsəm | Çalışsaq<br>Öyrənsək | Çalışmasaq<br>Öyrənməsək |
| II şəxs | Çalışsan<br>Öyrənsən | Çalışmasan<br>Öyrənməsən | Çalışsanız<br>Öyrənsəniz | Çalışmasanız<br>Öyrənməsəniz |

Laylə

| | | | | |
|---|---|---|---|---|
| III şəxs | Çalışsa<br>Öyrənsə | Çalışmasa<br>Öyrənməsə | Çalışsalar<br>Öyrənsələr | Çalışmasalar<br>Öyrənməsələr |

**İş dəftəri, səh. 52**

**b.** Feilləri uyğun şəkildə işlədərək cümlələri tamamla. Qarşısında feilin şəklini qeyd et.

Cavab: 1. Od olmasa (şərt), tüstü çıxmaz (xəbər).
2. Qonşu paxıl olmasa (şərt), bağ çəpəri neyləyər (xəbər).
3. Səhvlərindən dərs çıxarsan (şərt), inkişaf edərsən (xəbər).
4. Kiçik işlərə diqqətlə yanaşsan (şərt), böyük uğurlar qazanarsan (xəbər).
5. Özündən böyük səni çağırsa (şərt), gərək həmişə qulluğunda hazır olasan (arzu).

**İş dəftəri, səh. 52**

**c.** Verilmiş feilləri şərt şəklində işlətməklə nöqtələrin yerinə yaz və şeiri tamamla. Əlavə etdiyin feilləri neçənci şəxsdə işlətdin? Səbəbini izah et.

Cavab: Ağlasan, ağlaram, gülsən, gülərəm,
Yaşasan, yaşaram, ölsən, ölərəm.
Varımı səninlə yarı bölərəm,
Gəl bir də üzündən öpüm, Təbrizim. (*Süleyman Rüstəm*)
Əsaslandırma: Şeirdə müəllif Təbrizə sən deyə (yəni II şəxsə) müraciət edir.

**İş dəftəri, səh. 52**

**ç.** Hansı cümlələrdə feillər şərt şəklindədir?

Cavab: 1. Telini oxşasa bahar yelləri ...
3. Xəstədən xəbər tutsan, vəziyyətini bizə də bildir.
5. Planlı şəkildə çalışsan, məqsədinə daha tez nail olarsan.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Feilin şərt şəklini fərqləndirir. | Dərslikdə və iş dəftərində təqdim edilmiş tapşırıqlar |

Layihə

# Ümumiləşdirici təkrar

**Təlim nəticələri:**

• Feilin şəkillərini fərqləndirir (st. 4.1.3).

**Dərslik, səh. 132**

**1.** Təsriflənən feillərin neçənci şəxsə aid olduğunu müəyyən edin. Mötərizədə verilmiş şəxsə uyğun dəyişin.

Cavab:
1. Gülləri hər gün *sulama.* (II şəxsin təki)
2. Məktəbdə keçiriləcək bayram tədbirinə *hazırlaşırlar.* (III şəxsin cəmi)
3. Bu gün *gəlsək,* bu haqda söhbət edərik. (I şəxsin cəmi)
4. Layihəni vaxtında bitirmək üçün işlərini düzgün *planlaşdırsın.* (III şəxsin təki)
5. Sabaha qədər qeydiyyatdan *keçməliyəm.* (I şəxsin təki)
6. Həftəsonu Şuşaya səfərə *gedəsisiniz.* (II şəxsin cəmi)

**Dərslik, səh. 132**

**2.** Cümlələrdə fərqləndirilmiş feillərin hansı şəklə aid olduğunu müəyyən edin.

Cavab:
1 – e, 2 – ç, 3 – a, 4 – b, 5 – c, 6 – d.

**Dərslik, səh. 132**

**3.** Xəbər şəklində olan feillər artırmaqla cümlələri tamamlayın. Onların neçənci şəxsdə işləndiyini müəyyən edin.

Cavab:
1. Ekspertlər imtahanın nəticələrini *açıqladılar.* (III şəxsin cəmi)
2. Nənə nəvəsinin qumral saçlarını nəvazişlə *tumarladı.* (III şəxsin təki)
3. Yeni texnologiyalar inanılmaz imkanlar və fürsətlər *yaradır.* (III şəxsin təki)
4. Əsgərlər zəfər bayrağını şəhərin mərkəzində *ucaltdılar.* (III şəxsin cəmi)
5. Kəlağayının üzərindəki zərif naxışları çox *bəyəndik.* (I şəxsin cəmi)
6. İndi mən hər şeyi yaxşı *anlayıram.* (I şəxsin təki)

**Dərslik, səh. 132**

**4.** Əmr şəklində işlənən feillərin hansı şəxsə aid olduğunu müəyyən edin.

Cavab:
1. Gəlin tapşırığın şərtini əvvəlcədən diqqətlə müzakirə edək. (I şəxsin cəmi)
2. Qoy hər kəs öz vəzifəsini yerinə yetirsin. (III şəxsin təki)
3. Dediyiniz sözün üstündə möhkəm dayanın. (II şəxsin cəmi)
4. Səfərdən qabaq sənədləri bir daha yoxlasınlar. (III şəxsin cəmi)
5. Yaxşı dostu yaman gündə sına. (II şəxsin təki)
6. Gəlin mövzunu sizə yenidən izah edim. (I şəxsin təki)

**Dərslik, səh. 132**

**5.** Arzu şəklində olan feillərin hansı şəxsə aid olduğunu müəyyən edin.

Cavab:
bəzəyəydim, düzəydim, kəsəydim (I şəxsin təki)
yatasan, batasan, tapasan (II şəxsin təki)

**Dərslik, səh. 133**

**6.** Verilmiş feilləri lazım şəklində şərtə uyğun işlədərək cümlələri tamamlayın.

Layihə

Cavab:
1. Səyahət zamanı yolumuz dağlıq ərazilərdən *keçəsidir.*
2. Sən dərmanları hər gün *qəbul edəsi deyilsən.*
3. Bu il qış çox sərt *keçəsidir.*
4. Beşincilər bu debatda *iştirak edəsi deyillər.*
5. Biz alpinistləri sabah axşam *qarşılayasıyıq.*
6. Siz sabah kəşfiyyata *gedəsisiniz.*

**Dərslik, səh. 133**

**7.** Fərqləndirilmiş feilləri şərt şəklində işlədin.

Cavab:
1. Siz *mübarizə aparsanız,* qələbə qazanacaqsınız.
2. Qızım *yardım etsə,* ev işlərini tez bitirəcəyəm.
3. Sən özünə *inansan,* uğur qazanacaqsan.
4. Qaydaları *öyrənsək,* yazıda səhv etməyəcəyik.
5. Gün *çıxsa,* hava isinəcək.

**Dərslik, səh. 133**

**8.** Fərqləndirilmiş feilləri uyğun qrammatik formada işlətməklə cümlələri tamamlayın.

Cavab:
1. Təki müsabiqədən uğurla *keçək.*
2. Kitabı sabah *gətirəsi deyiləm.*
3. Yaxşı olar ki, başqalarının işinə *qarışma.*
4. Gənc alimlər mütləq konfransda *iştirak etməlidirlər.*
5. Bütün çıxışlardan sonra fikrini *bildirdi.*

**Dərslik, səh. 133**

**9.** Cümlələrdə işlənmiş feilləri seçin və cədvələ uyğun olaraq morfoloji tərkibini izah edin.

Cavab:

| Feil | İnkar şəkilçisi | Feil şəklinin əlaməti | Zaman şəkilçisi | Şəxs şəkilçisi |
|---|---|---|---|---|
| görəsən | – | -ə | – | -sən |
| gizlətməməlidir | -mə | -məli | – | -dir |
| inanma | -ma | – | – | – |
| görəsi | – | -əsi | – | – |
| bilsə | – | -sə | – | – |
| örtər | – | – | -ər | – |
| gəlsinlər | – | – | – | -sinlər |
| baxmayın | -ma | -ın | – | – |
| baxın | – | -ın | – | – |

Layihə

**İş dəftəri, səh. 53**

**1.** Kontekstə əsasən fərqləndirilmiş sözləri izahları ilə uyğunlaşdır.

Cavab:
1 – ç, 2 – c, 3 – b, 4 – a.

**İş dəftəri, səh. 53**

**2.** Mətndən Qarabağ haqqında hansı məlumatı almaq olmur?

Cavab:
d) mətbəxi

**İş dəftəri, səh. 53**

**3.** "Qarabağın bütün yolları Şuşaya aparır" cümləsi ilə müəllif nəyi ifadə edir? Bu cümləni mətnin ideyası ilə əlaqələndirib şərh et.

Cavab:
"Qarabağın bütün yolları Şuşaya aparır" ifadəsi Şuşanın Qarabağın ürəyi, ən uca zirvəsi və mədəniyyət mərkəzi olduğunu bildirir. Bu, Şuşanın Qarabağda xüsusi yerə sahib olmasının poetik ifadəsidir.

**İş dəftəri, səh. 54**

**4.** Cümlələrdəki feilləri cədvəl üzrə qruplaşdır.

Cavab:

| Feilin şəkilləri | | | | | |
|---|---|---|---|---|---|
| **Xəbər** | **Lazım** | **Vacib** | **Əmr** | **Arzu** | **Şərt** |
| hökmdar olmusan | görəsi | üzə vurmamalısan | dostluq elə | yetişəsən | bəsləsən |
| tərlan olmaz | | | qoyma | qoyasan | |

**İş dəftəri, səh. 54**

**5.** Feilin şəkillərinin əlamətini qeyd et və hər birinə nümunə yazaraq cədvəli tamamla.

Cavab:

| Lazım | Vacib | Arzu | Şərt |
|---|---|---|---|
| -ası$^2$ | -malı$^2$ | -a$^2$ | -sa$^2$ |
| gələsidir | gəlməlidir | gələ | gəlsə |

**İş dəftəri, səh. 54**

**6.** Hansı sıradakı feillərin inkar forması "deyil" sözü ilə düzəlir?

Cavab:
c. gələsiyəm, işləməlidirlər

**İş dəftəri, səh. 54**

**7.** Nöqtələrin yerinə uyğun sözləri yazaraq cümlələri tamamla. Cümlədəki feillərin şəklini müəyyən et.

Cavab:
1. Kaş sən də bizimlə gələydin, çox əyləncəli olardı. (arzu şəkli)
2. Qoy bir az zəhmət çəksinlər. (əmr şəkli)

3. Əgər yağış yağmasa, gəzintiyə çıxarıq. (şərt şəkli)
4. Təki sən xoşbəxt olasan. (arzu şəkli)
5. Gəl birlikdə kitabxanaya gedək. (əmr şəkli)

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Feilin şəkillərini fərqləndirir. | Dərslikdə və iş dəftərində təqdim edilmiş tapşırıqlar |

Layihə

Bölmə 6

# ADLAR VƏ DEYİMLƏR

| Dərs | Mövzu | Məzmun xətti | Dərslik səh. | İş dəftəri səh. | Metodik vəsait səh. |
|---|---|---|---|---|---|
| | Giriş | | 134-135 | | 164-165 |
| 1-ci fəsil. **Şəhər və ölkə adları** | | | | | |
| 1 | Dəmirqapı Dərbənd | Oxu | 136-138 | 55 | 166-168 |
| 2 | Əbədi şəhər | Dinləmə | 138 | | 168-169 |
| 3 | Qruplarla iş | Oxu. Danışma | 139-141 | | 170-171 |
| 4 | Eyniköklü sözlər | Yazı | 142-143 | 56-57 | 171-174 |
| 5 | Sözönü və sözsonu şəkilçilər | Yazı | 143 | 56-57 | 174-175 |
| 2-ci fəsil. **Deyimlər** | | | | | |
| 6 | Atalar sözləri | Yazı | 144-145 | 58 | 176-177 |
| 7 | Məsəllər | Dinləmə | 145 | | 177-179 |
| 8 | "Tarixi-Nadir" kitabını yarısına qədər oxumuşam | Oxu. Oxuyub-qavrama | 146-148 | 59 | 179-181 |
| 9 | Bəzi şəkilçi və qoşmaların deyilişi, yazılışı | Yazı | 149-150 | 60 | 181-183 |
| 3-cü fəsil. **Tarixi ifadələr** | | | | | |
| 10 | Qruplarla iş | Oxu. Danışma | 151-156 | 61 | 184-188 |
| 11 | Ümumiləşdirici təkrar | Yazı | 157 | 62-63 | 189-191 |

Layihə

# GİRİŞ DƏRSİ

**<u>Təlim nəticələri</u>:**

- Oxuduqları, həyatda gördükləri və təəssüratları haqqında danışır (st. 2.1.2).
- Yeni tanış olduğu sözə uyğun gələn izahı müəyyən edir (st. 3.1.2).

**Mövzuya yönəltmə. Danışma**

Mətndən əvvəlki tapşırıqlarla şagirdləri mövzuya yönəltmək olar. Əlavə olaraq müəllim bu sualları da verə bilər:

*Sizcə, insanlar bir əraziyə niyə ad qoyurlar?*

*Coğrafi adlar bizə o yer haqqında nə deyə bilər?*

*Sizcə, yer adları coğrafiya ilə necə əlaqəlidir? Yaşadığınız yerin ətrafında hansı təbii obyektlər (dağ, çay, meşə və s.) var? Ad bu obyektlərlə bağlı ola bilərmi?*

**Dərslik, səh. 134**

**a.** Yaşadığınız şəhərin (kəndin, qəsəbənin) adı haqqında nə bilirsiniz?
- Bu ad nə vaxt, necə yaranıb?
- Əvvəllər bu yerin başqa adı olubmu? Niyə dəyişdirilib?

Şagirdlər bu barədə bildiklərini söyləyə bilərlər.

**Dərslik, səh. 134**

**b.** Aşağıdakı məlumatlarla tanış olun və sualları cavablandırın.

Bu tapşırıqda şəhərlərin şəkilləri və onlar haqqında qısa məlumat verilib. Şagirdlər bu məlumatlarla tanış olduqdan sonra sualları cavablandırırlar.

**Dərslik, səh. 135**

**c.** Tanış olduğunuz şəhər adları necə yaranıb?
- Hansı adlar ərazidəki coğrafi obyektin adından götürülüb?
- Hansı ad görkəmli şəxsiyyətin adı ilə bağlıdır?
- Hansı ad həmin ərazidə məskunlaşmış tayfa adından yaranıb?

<u>Cavab</u>: Laçın və Göyçay şəhərlərinin adları coğrafi obyektin – dağ və çayın adından götürülüb.
Füzuli şəhərinin adı Məhəmməd Füzulinin adı ilə bağlıdır.
Oğuz şəhərinin adı tayfanın adından yaranıb.

**Dərslik, səh. 135**

**ç.** Adlarla bağlı dilçilik terminlərinin etimologiyası (mənşəyi) ilə tanış olun və terminoloji izahlarla uyğunlaşdırın.

<u>Cavab</u>: 1 – c, 2 – e, 3 – b, 4 – a, 5 – d.

**Dərslik, səh. 135**

**d.** Coğrafi adları cədvəl üzrə qruplaşdırın.

<u>Cavab</u>:

| Toponimlər | | | |
|---|---|---|---|
| **oykonim** | **urbanonim** | **hidronim** | **oronim** |
| Lənkəran | Neftçilər prospekti | Araz | Tufandağ |
| Ordubad | Azadlıq meydanı | Girdimançay | Şahdağ |
| Şamaxı | Nizami küçəsi | Kür | Kəpəz |

Lahiyə

| | | | |
|---|---|---|---|
| Ağdam | Dağüstü park | Maralgöl | Murovdağ |
| Quba | Sabir bağı | Arpaçay | Beşbarmaq dağı |

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Oxuduqları, həyatda gördükləri və təəssüratları haqqında danışır. | Tapşırıq a, b (dərslik) |
| Yeni tanış olduğu sözə uyğun gələn izahı müəyyən edir. | Tapşırıq ç (dərslik) |

Layihə

# 1-ci fəsil
# ŞƏHƏR VƏ ÖLKƏ ADLARI

## 1-ci DƏRS
## Dəmirqapı Dərbənd

**Təlim nəticələri:**
- Oxuduqları, həyatda gördükləri və təəssüratları haqqında danışır (st. 2.1.2).
- Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir (st. 3.1.3).
- Əlavə biliklərindən istifadə etməklə mətndəki fakt və hadisələri izah edir (st. 3.1.4).

**Mövzuya yönəltmə**

Dərslikdəki ilk tapşırıqlarla müəllim şagirdləri mövzuya yönəldə bilər.

**Danışma**

**Dərslik, səh. 136**

**a.** Nə üçün keçmişdə şəhərlər möhkəm qala divarları ilə əhatə olunurdu?

Şagirdlər bu suala tarix fənnindən əldə etdikləri bilgilər əsasında cavab verə bilərlər.

Cavab: O dövrlərdə şəhərlər tez-tez düşmən hücumlarına, quldur basqınlarına və köçəri tayfaların yürüşlərinə məruz qalırdı. Qala divarları şəhəri düşmən hücumlarından qoruyurdu və şəhərə daxil olmağı çətinləşdirirdi. Qala divarları şəhərin müdafiə sisteminin əsas hissəsi idi. Onların üstündə nəzarət məntəqələri, oxçular üçün yerlər, keşikçi qüllələri və darvazalar olurdu. Bu, şəhəri uzun müddət müdafiə etməyə imkan verirdi.

**Dərslik, səh. 136**

**b.** Dərbənd şəhəri haqqında nə bilirsiniz? Hazırda bu şəhər hansı ölkənin ərazisində yerləşir?

Şagirdlər tarix fənnindən və digər mənbələrdən əldə etdikləri məlumatlar əsasında bildiklərini söyləyə bilərlər. Hazırda bu şəhər Rusiya Federasiyasının ərazisindədir.

**Oxu**

**Mətnlə iş.** Verilmiş vaxt ərzində “Dəmirqapı Dərbənd” mətni səssiz oxunur. Şagirdlər onlara tanış olmayan söz və ifadələri dəftərlərində qeyd edirlər. Müəllim həmin sözlərin mənasını izah edir.

**Söz ehtiyatı**

**İş dəftəri, səh. 55**

**a.** “Söz mücrüsü”ndən izahlara uyğun sözləri seçərək krosvordu həll et.

Cavab: Yuxarıdan aşağı: 1. quberniya, 3. strateji, 4. basqın.

Soldan-sağa: 2. tabelik, 5. sənətkarlıq, 6. əlyazma.

**Dərslik, səh. 137**

**c.** Mətnə əsasən suallara cavab verin.

Şagirdlər mətnlə bağlı faktoloji suallara cavab verirlər, bununla da faktoloji qavrama bacarıqlarını nümayiş etdirirlər.

Cavab: 1. “Dərbənd” toponimi *bağlı qapı,* yəni *möhkəm qorunan yer* deməkdir.

2. Şəhəri əhatə edən qala divarları şimal-cənub yolunda keçilməz sədd idi. Qalınlığı 4 metrə, hündürlüyü 20–25 metrə çatan möhtəşəm divarlar Dərbəndi alınmaz qalaya çevirirdi.

Layihə

**İş dəftəri, səh. 55**

**b.** "Dəmirqapı Dərbənd" mətnində hansı suallara cavab yoxdur?

Cavab: 1. "Dərbənd" toponiminə hansı mənbələrdə rast gəlinir?
2. "Dərbəndnamə" əsərinin müəllifi kimdir?
5. Dərbənd nə üçün Rusiyaya verilmişdir?

**Dərslik, səh. 137**

**ç.** Mətnə əsasən Dərbəndin tarixində baş vermiş hadisələri xronoloji ardıcıllıqla düzün.

Şagirdlər hadisələri mətndəki ardıcıllığa uyğun şəkildə müəyyənləşdirirlər.
Cavab: 2, 1, 4, 3.

**Dərslik, səh. 137**

**d.** "Dar keçid", "qapı" mənaları ilə şəhərin coğrafi mövqeyi arasında hansı əlaqə var?

Cavab: Dərbənd Qafqaz dağları ilə Xəzər dənizi arasındakı ən dar keçiddə yerləşir. Bu keçid şimaldan cənuba hərəkət edən ordular, karvanlar üçün yeganə yol olub.

**Dərslik, səh. 137**

**e.** Sizcə, nə üçün məhz Sasani hökmdarları Dərbənd şəhərinin ətrafında qala divarları tikdilər? Tarix fənnindən əldə etdiyiniz biliklərə istinad etməklə fikrinizi əsaslandırın.

Təxmini cavab belə ola bilər:

III əsrin əvvəllərində Parfiya dövləti zəiflədi və öz yerini Sasanilər dövlətinə verdi. Şərqə doğru böyüyən Sasanilər imperiyası Azərbaycan və bütün Cənubi Qafqaz üzərində nəzarəti ələ keçirdi. Sasani hökmdarları Dərbənd ətrafında qala divarları tikməklə həm şimaldan gələn köçəri hücumlarını dayandırmaq, həm də strateji və iqtisadi cəhətdən mühüm ərazini qorumaq istəyirdilər. Onlar mərkəzləşdirilmiş, nizamlı orduya malik idilər və dövlətin təhlükəsizliyini təmin edən möhkəm sərhəd qalaları sistemi yaratmaq istəyirdilər. Dərbənd bu sistemin ən mühüm halqası idi. O, şimaldan cənuba gedən yeganə təbii yol idi. Sasanilər bu yolu tutmaq üçün qala tikdilər. Qala divarları tikməklə onlar həm müdafiə məqsədi güdür, həm də bölgədə İran hakimiyyətinin gücünü nümayiş etdirirdilər.

**Dərslik, səh. 138**

**ə.** Mətni hissələrə bölüb məzmuna uyğun yarımbaşlıqlarla adlandırın.

Şagirdlər mətni diqqətlə oxuduqdan sonra onu ayrı-ayrı hissələrə bölərək adlandıra bilərlər.

**Dərslik, səh. 138**

**f.** Mətndən tarixçilər və dilçilər üçün maraqlı olan məlumatları seçin.

Cavab təxminən belə ola bilər: Mətndə dilçilər üçün maraqlı olan məlumatlar 2-ci abzasda Dərbəndin adı haqqındakı informasiyadır.

Tarixçilər üçün maraqlı bilgilər 1, 4, 5, 6-cı abzaslardadır.

**Müəllimin nəzərinə!** Növbəti dərs üçün şagirdlərə tapşırıla bilər ki, Roma, onun tarixi, yolları barədə araşdırma aparsınlar.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Oxuduqları, həyatda gördükləri və təəssüratları haqqında danışır. | Tapşırıq a, b (dərslik) |
| Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir. | Tapşırıq c, ç (dərslik) |

| | |
|---|---|
| Əlavə biliklərindən istifadə etməklə mətndəki fakt və hadisələri izah edir. | Tapşırıq d, e, f (dərslik) |

# 2-ci DƏRS
# Əbədi şəhər

**Təlim nəticələri:**
- Dinlədiyi mətndəki fakt və hadisələri şərh edir (st. 1.1.2).
- Dinlədiyi və oxuduğu mətnlərdəki məlumatları müqayisə edir (st. 1.1.2).
- Apardığı araşdırmaların nəticələrini rabitəli mətn şəklində təqdim edir (st. 2.1.3).

**Mövzuya yönəltmə**

Dərslikdəki ilk tapşırıqlarla müəllim şagirdləri mövzuya yönəldə bilər.

Müəllim belə sual da verə bilər:

*Sizcə, qədim şəhərlərin bugünkü şəhərlərdən fərqi nədə idi?*

**Dinləmə**

**Dərslik, səh. 138**

**a.** Sual işarəsinin yerində hansı şəhərin adı yazıla bilər?

Cavab: Roma

**Dərslik, səh. 138**

**b.** Qeydlər götürməklə "Əbədi şəhər" mətnini dinləyin.

Müəllim "Əbədi şəhər" mətnini səsləndirir. Şagirdlər mətni dinlədikcə qeydlər götürürlər.

***Əbədi şəhər***

*İtaliyanın paytaxtı Roma dünyanın ən qədim şəhərlərindən biridir. O, yeddi təpənin üstündə yerləşir. Şəhərin təxminən üç min il yaşı var. Qədim əfsanəyə görə, Romanın bünövrəsini Romul və Rem adlı iki qardaş qoyub. Sonra qardaşlar arasında mübahisə düşüb, Romul Remi öldürüb və gələcək paytaxta öz adını verib. Şəhər Roma adlanıb. Beləcə, Romul Romanın yeddi hökmdarından birincisi olub. Ticarət yollarının kəsişməsində yerləşən şəhər zaman keçdikcə qüdrətli Roma imperiyasının paytaxtına çevrilib.*

*Romanı "Əbədi şəhər" adlandırırlar. Bu ifadə ilk dəfə qədim Roma poeziyasında işlədilib. Roma şairləri Tibull, Ovidi, Vergili, tarixçi Livi həmin ifadəni öz əsərlərində istifadə ediblər, Romanı "əbədi şöhrət bəxş edən şəhər", "dünyanın əbədi şəhəri" adlandırıblar. III əsrdən başlayaraq bu ifadə geniş şəkildə işlənib.*

*Roma qədim dövrlərdən bəri böyük bir imperiyanın mərkəzi, bütün tanrıların, qanunların, ordunun və ticarətin cəmləndiyi məkan idi. O, dünyanın və sivilizasiyanın mərkəzi sayılırdı. Romalıların inancına görə, Roma heç vaxt dağılmayacaqdı, dünya durduqca o da duracaqdı. Bu inamı iki amil gücləndirirdi: 1) Roma hüququ bütün imperiyanın sabitliyinin dayağı idi. 2) Roma dini mərkəz idi – şəhərin "ilahi himayədə" olduğu düşünülürdü.*

*Romanın dövlət adamları, elm və mədəniyyət xadimləri dünya tarixində mühüm yer tutmuşlar. Əsrlər boyu Roma gücün və əbədiliyin simvolu olmuşdur. Bu gün də Roma turizm və mədəniyyət materiallarında tez-tez "Əbədi şəhər" kimi təqdim olunur.*

**Dərslik, səh. 138**

**c.** Nə üçün Roma "əbədi şəhər" adlandırılır? Mətndə göstərilən dəlilləri sadalayın.

Cavab: Şəhərin təxminən üç min il yaşı var. Romalıların öz inancı belə idi ki, Roma heç vaxt dağılmayacaq, həmişə var olacaq. O, dünyanın və sivilizasiyanın mərkəzidir. Əsrlər boyu Roma gücün və əbədiliyin simvolu olmuşdur.

**Dərslik, səh. 138**

**ç.** Nə üçün romalılar şəhərin əbədi olacağına inanırdılar?

Cavab: Roma dünyanın ən qədim və qüdrətli şəhərlərindən biridir. Qüdrətli Roma imperiyasının paytaxtı olub. O, imperiyanın mərkəzi, bütün tanrıların, qanunların, ordunun və ticarətin məkanı idi. Şəhərin "ilahi himayədə" olduğu düşünülürdü. Xalq Romanı dünyanın mərkəzi hesab edirdi və belə bir mədəniyyətin yox ola bilməyəcəyini düşünürdülər.

**Dərslik, səh. 138**

**d.** Dinlədiyiniz mətndə Roma haqqında yadınızda qalanları bir neçə cümlə ilə yazın.

Şagirdlər dinləmə zamanı götürdüyü qeydlər əsasında kiçik mətn yaza bilərlər.

**Dərslik, səh. 138**

**e.** "Dəmirqapı Dərbənd" və "Əbədi şəhər" mətnlərini müqayisə edin. Müəllifin məqsədini və mətnlərin növlərini müəyyənləşdirin.

Tapşırıq şagirdlərin məlumatı təhlil və müqayisə etmə, öyrəndikləri məlumatları əlaqələndirmə və onların əsasında nəticəçıxarma bacarıqlarının möhkəmlənməsinə xidmət edir.

Şagirdlər mətnlərdən aldıqları məlumatlar əsasında Venn diaqramındakı bilgiləri müqayisə edirlər.

Cavab: "Dəmirqapı Dərbənd" – 2, 4, 6

"Əbədi şəhər" – 1, 3, 5

Hər ikisi – 7

**Dərslik, səh. 138**

**ə.** "Bütün yollar Romaya aparır" ifadəsi ilə bağlı araşdırma aparın.

Cavab təxminən belə ola bilər:

Bu cümlə eyni məqsədə çatmaq üçün müxtəlif yolların olduğunu ifadə edən deyimdir. Yol ilk dəfə eramızdan əvvəl Roma imperiyasında salınmışdır. "Bütün yollar Romaya aparır" ifadəsi də elə o vaxtlar yaranmışdır. İlk və ən məşhur Roma yolu Via Appia idi. Bu yolun əhəmiyyəti çox böyük idi. Romada yolların örtüyü daşdan idi və hər kilometrdən bir kənarlarda daş dirək qoyulmuşdu.

Tarixi mənbələr göstərir ki, Romada yaranan yol mədəniyyəti, yol hərəkəti qaydaları zaman-zaman təkmilləşib. Yol tikintisi romalıların həm strateji, həm də iqtisadi inkişafını xeyli sürətləndirdi. Bu yol şəbəkəsi Romadan başlayıb İngiltərəyə, bütün Qərbi Avropaya, Şimali Avropada İsveçə və Şərqdə İrana çatırdı. Beləliklə, Roma imperiyasının üç qitədə hökmranlıq edən yol şəbəkəsi var idi.

**İş dəftəri, səh. 55**

**c.** Dinlədiyin mətnə əsasən fikirlərin doğru (D), yoxsa yanlış (Y) olduğunu müəyyən et.

Cavab: 1 – Y, 2 – D, 3 – Y, 4 – D, 5 – D, 6 – Y.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Dinlədiyi mətndəki fakt və hadisələri şərh edir. | Tapşırıq c, ç (dərslik) |
| Dinlədiyi və oxuduğu mətnlərdəki məlumatları müqayisə edir. | Tapşırıq e (dərslik) |
| Apardığı araşdırmaların nəticələrini rabitəli mətn şəklində təqdim edir. | Tapşırıq ə (dərslik) |

Layihə

# 3-cü DƏRS
# Qruplarla iş

**<u>Təlim nəticələri</u>:**
- Təqdimat zamanı fikirlərin məntiqi ardıcıllığına riayət edir (st. 2.1.3).
- Yeni tanış olduğu sözə uyğun gələn izahı müəyyən edir (st. 3.1.2).

Müəllim uşaqlara belə suallar verə bilər:

*Sizcə, ölkələrə niyə obrazlı, bənzətməli adlar verilir?*

*Obrazlı adlar ölkə haqqında nəyi göstərir – təbiətini, tarixini, mədəniyyətini, yoxsa başqa bir xüsusiyyəti?*

*Sizcə, ölkənin coğrafiyası obrazlı adların yaranmasında hansı rol oynayır?*

*Bənzətmələr insanların ölkə adlarını daha yaxşı yadda saxlamasına kömək edə bilərmi? Necə?*

**Danışma. Oxu**

**Dərslik, səh. 139**

**a.** Mətnləri oxuyun və qeydlər götürün.
- Qeydləriniz əsasında yaddaş xəritəsi hazırlayın və müvafiq ölkə haqqında məlumatları təqdim edin.
- Digər qrupların təqdimatlarına münasibət bildirin, anlaşıqlı və məzmuna uyğun olduğunu müəyyənləşdirin.
- Mətnlərə aid 3 sual hazırlayın və auditoriyaya ünvanlayın.

**Qruplarla oxu.** Oxu prosesi qruplarla iş formasında yerinə yetirilir. Müəllim şagirdləri qruplara ayırır. Şagirdlər əvvəlcə tapşırıqda verilmiş təlimatla tanış olurlar. Daha sonra 1-ci qrupa "Dumanlı Albion", 2-ci qrupa "Qırmızı əjdaha ölkəsi", 3-cü qrupa "Gündoğar ölkə" mətnlərini oxumaq və yaddaş xəritəsi hazırlamaq tapşırılır. Müəllim qruplara mətnin oxunması üçün vaxt verir və tapşırır ki, yeni rastlaşdıqları söz və ifadələri qeyd etsinlər. Qrup üzvləri mətni səssiz oxuyur və əsas məlumatları müəyyənləşdirirlər. Yeni söz və ifadələrin mənasını mətnin məzmununa əsasən izah edirlər.

Mətnlər oxunduqdan sonra şagirdlər məlumatları təqdim edirlər. Onlar yaddaş xəritəsi hazırlamaqla mətnlərin məzmununu anladıqlarını nümayiş etdirir, mətnlərə aid suallar hazırlayırlar.

**Dərslik, səh. 139**

**b.** "Albion" sözünün həm latın, həm də kelt mənşəli izahını müqayisə edin. Hansı daha inandırıcı görünür? Səbəbini izah edin.

<u>Cavab</u>: "Albion" sözünün mənşəyi ilə bağlı iki fərqli izah var. Kelt izahına görə, "Albion" "hündür, dağlıq ada" deməkdir və bu ad coğrafi xüsusiyyətlərlə – adanın relyefi ilə bağlıdır. Latın izahına görə isə söz "ağ" mənasını verən *albus* sözündən yaranıb və bu ad Roma əsgərlərinin sahildə gördükləri ağ təbaşir qayaları ilə əlaqələndirilir.

Daha inandırıcı versiya latın mənşəli izahdır, çünki adın yaranması konkret müşahidə – ağ qayaların təsiri ilə əlaqələndirilir və tarixi faktla (Roma əsgərlərinin adaya gəlməsi) əsaslandırılır. Kelt izahı yalnız coğrafi xüsusiyyətlərlə bağlıdır.

**Dərslik, səh. 140**

**c.** Mətnə əsasən doğru fikri müəyyənləşdirin.

Şagirdlər mətnə əsasən doğru fikirləri müəyyən edirlər. Tapşırıq şagirdlərin mətni necə qavradıqlarını müəyyən etmək məqsədi daşıyır.

<u>Cavab</u>: c. İngiltərənin La-Manş sahillərində təbaşirli qayalıqlar var.

**Dərslik, səh. 140**

**ç.** Uyğunluğu müəyyən edin.

<u>Cavab</u>: 1 – c, 2 – a, 3 – ç, 4 – d, 5 – b.



Layihə

Dərslik, səh. 141

**d.** Mətnin məzmununa uyğun fikri müəyyən edin.

Cavab: b. Yaponiyanın adı “günəşin mənbəyi” mənasını verir.

Dərslik, səh. 141

**e.** Mətnə istinad edərək cümlələri tamamlayın.

Cavab: 1. Diplomatik sənədlərdə Yaponiya “Günəşin çıxdığı yer” adlanırdı, çünki digər ölkələrə görə Yaponiya Uzaq Şərqdə – günəşin doğduğu yerdə idi.

2. Günəş yaponlar üçün müqəddəs simvoldur, çünki bu simvol həm dini inanclarda, həm də dövlət ideologiyasında əsas yer tutur.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Təqdimat zamanı fikirlərin məntiqi ardıcıllığına riayət edir. | Tapşırıq a (dərslik) |
| Yeni tanış olduğu sözə uyğun gələn izahı müəyyən edir. | Tapşırıq ç (dərslik) |

# 4-cü DƏRS
# Eyniköklü sözlər

**Təlim nəticələri:**
- Sözün başlanğıc formasını müəyyənləşdirir (st. 4.1.3).
- Eyniköklü sözləri müəyyənləşdirir (st. 4.1.3).

**Mövzuya yönəltmə**

Müəllim şagirdlərin sözün kökü və şəkilçilər barədə biliklərini yoxlamaq məqsədilə sual-cavab aparır. Leksik və qrammatik şəkilçilərin funksiyalarını xatırladır.

Dərslik, səh. 142

**a.** Sözləri kök və şəkilçiyə ayırın. Hansı sözdə şəkilçilərin sayı daha çoxdur? Hansı sözlər yalnız kökdən ibarətdir?

Motivasiya xarakterli bu tapşırıq şagirdlərin diqqətini sözlərdə kök və şəkilçinin fərqləndirilməsinə yönəldir. Şagirdlərin artıq bu barədə bilgiləri var. Müəllim yönəldici suallar vasitəsilə şagirdlərə əvvəlki biliklərini xatırladır.

Cavab: bacar-ıq, tap-ıntı, duy-ğu, barmaq, qayğı-keş-lik, bulaq, şad-lıq, ad-lan-dır-maq, yardım

Ən çox şəkilçi ad-lan-dır-maq sözündədir.

Yalnız kökdən ibarət olan sözlər: barmaq, bulaq, yardım

Dərslik, səh. 142

**b.** Aşağıdakı sözlərdə işlənən şəkilçilərin növünü (leksik, qrammatik) müəyyənləşdirin.

Şagirdlər sözləri kök və şəkilçilərə ayırırlar. Bu şəkilçilərin növünü (leksik, qrammatik), sözə hansı ardıcıllıqla əlavə edildiyini müəyyənləşdirirlər.

Cavab: yat-aq-xana (2 leksik), sinif-lər-imiz (2 qrammatik), döy-üş-çü-lər (2 leksik, 1 qrammatik), torpaq-da (qrammatik), sakit-lik (leksik), güc-süz (leksik), tamaşa-çı-ya (1 leksik, 1 qrammatik)

Lәyihә

**Dərslik, səh. 142**

**c.** Verilmiş sözlərdə şəkilçiləri müəyyənləşdirin və nümunəyə əsasən izah edin.

Şagirdlər bu tapşırığı verilmiş nümunəyə əsasən yerinə yetirirlər, şəkilçilərin növünü və funksiyasını müəyyən edirlər.

Cavab: ev-imiz: -imiz – qrammatik şəkilçi, mənsubiyyət bildirir.
mehriban-lıq: -lıq – leksik şəkilçi, mücərrəd mənalı isim bildirir.
ağac-lar: -lar – qrammatik şəkilçi, kəmiyyət bildirir.
küs-əyən: -əyən – leksik şəkilçi, xasiyyət bildirir.
gəl-ir-əm: -ir – qrammatik şəkilçi, zaman bildirir, -əm – qrammatik şəkilçi, şəxs bildirir.
on-uncu: -uncu – leksik şəkilçi, sıra sayı bildirir.
dəniz-çi: -çi – leksik şəkilçi, peşə bildirir.
məktəb-də: -də – qrammatik şəkilçi, yer məzmunu bildirir.

**Dərslik, səh. 142**

**ç.** Sözlərin kökünü və başlanğıc formasını müəyyən edib cədvəlin uyğun xanalarına yazın.

Şagirdlər bu tapşırıqda sözün kökü və başlanğıc formasını müəyyən edirlər. Bununla da leksik və qrammatik şəkilçilər arasındakı fərq aydınlaşır.

Cavab: çətinlikdən, yaşıllığın, yorğunam, utancaqdır, yeddincilərdən, dayanacaqda

| Söz | Sözün kökü | Sözün başlanğıc forması |
|---|---|---|
| çətinlikdən | çətin | çətinlik |
| yaşıllığın | yaşıl | yaşıllıq |
| yorğunam | yor(maq) | yorğun |
| utancaqdır | utan(maq) | utancaq |
| yeddincilərdən | yeddi | yeddinci |
| dayanacaqda | dayan(maq) | dayanacaq |

**Dərslik, səh. 142**

**d.** Nümunəyə əsasən sözdəki şəkilçilərin iki və ya dörd cür yazıldığını müəyyənləşdirin.

Şagirdlər bu tapşırığı verilmiş nümunəyə əsasən yerinə yetirirlər.

Cavab: dərslərimizdən – dərs / -lər$^2$ /-imiz$^4$ / -dən$^2$
tikiləcək – tik / -il$^4$ / -əcək$^2$
daşımışdır – daşı / -mış$^4$ / -dır$^4$
işarələrinin – işarə / -lər$^2$ / -i$^4$ / -nin$^4$
neftçilərə – neft / -çi$^4$ / -lər$^2$ / -ə$^2$
sonuncusu – son / -uncu$^4$ / -su$^4$

İş dəftərindəki tapşırıqlar mənimsədilmiş qaydaların tətbiqinə xidmət edir.

**İş dəftəri, səh. 56**

**a.** Fərqləndirilmiş sözlərdə kök və şəkilçini müəyyən edərək cədvəli tamamla.

Tapşırıq şagirdlərin sözün kökü, başlanğıc forması, habelə leksik və qrammatik şəkilçilərlə bağlı biliklərinin möhkəmləndirilməsinə yönəlmişdir.

Lahiyə

Cavab:

| Söz | Sözün kökü | Şəkilçi | Şəkilçinin növü | Şəkilçinin variantı |
|---|---|---|---|---|
| ağıllı | ağıl | -lı | leksik | dörd cür yazılan |
| ağılsız | ağıl | -sız | leksik | dörd cür yazılan |
| dostdan | dost | -dan | qrammatik | iki cür yazılan |
| yaxşıdır | yaxşı | -dır | qrammatik | dörd cür yazılan |
| birinci | bir | -inci | leksik | dörd cür yazılan |
| bağça | bağ | -ça | leksik | iki cür yazılan |
| qəlbim | qəlb | -im | qrammatik | dörd cür yazılan |
| uçmaq | uç | -maq | qrammatik | iki cür yazılan |

**İş dəftəri, səh. 56**

**b.** Nümunəyə əsasən cədvəli tamamla.

Bu tapşırıqda da şagirdlər sözün kökü, başlanğıc forması, habelə leksik və qrammatik şəkilçilərlə bağlı biliklərini tətbiq edirlər. Cavab:

| Söz | Sözün kökü | Başlanğıc forması | Leksik şəkilçilər | Qrammatik şəkilçilər |
|---|---|---|---|---|
| dərinlikdə | dərin | dərinlik | -lik | -də |
| səyahətçilər | səyahət | səyahətçi | -çi | -lər |
| meydançanın | meydan | meydança | -ça | -nın |
| yoldaşımızdan | yol | yoldaş | -daş | -ımız, -dan |
| yaxşılaşmışam | yaxşı | yaxşılaş | -laş | -mış, -am |

**İş dəftəri, səh. 56**

**c.** "Soydaşlarımız" sözündəki şəkilçiləri müəyyən et və uyğun sütunda yaz. Sözün başlanğıc formasını müəyyənləşdir.

Cavab:

| Bir cür yazılan | İki cür yazılan | Dörd cür yazılan | Başlanğıc forma |
|---|---|---|---|
| -daş | -lar | -ımız | soydaş |

**İş dəftəri, səh. 57**

**ç.** Sözlərin yaranma yollarını müəyyənləşdir və sxemlərlə uyğunlaşdır.

Cavab: 1 – b, 2 – c, 3 – a.

**Dərslik, səh. 142**

**e.** Fərqləndirilmiş sözlərə diqqət edin. Sizcə, bu sözlərin kökü eynidir? Fikrinizi əsaslandırın.

Bu tapşırıq yeni mövzuya keçid üçün motivasiya xarakteri daşıyır. Şagirdlər fərqləndirilmiş sözləri müqayisə etməklə onların kökünü müəyyən edirlər.

Cavab: Hər iki söz düzəltmədir. Hər iki sözün kökü "əl"dir. "Əl" sözündən "ələ" feili yaranmışdır:



Layihə

əl – ələ – ələk. Bu əlaqələnmədə -ə, -k leksik şəkilçiləri iştirak edir.

əl+cək. "-caq/-cək/-çək şəkilçisi adlardan isim düzəldir". Hər iki sözün mənasında "əl" anlayışı qorunur: birində (ələk) – funksional əlaqə (əllə istifadə olunur), digərində (əlcək) – birbaşa aidiyyət (əlin üzərinə geyilir).

**"Bunları bilməliyik!" rubrikası.** Burada eyniköklü sözlərdən bəhs olunur. Müəllim rubrikada verilmiş qaydanı şərh edir. Eyniköklü sözlərlə eyni sözün müxtəlif formaları arasındakı fərqi nümunələrlə izah edir.

**Dərslik, səh. 143**

**ə.** Düzgün variantı seçməklə eyniköklü sözlər sırasını tamamlayın.

Cavab: 1 – c. yollamaq; 2 – a. ovlamaq; 3 – a. güldan; 4 – b. başlanğıc; 5 – c. sağlıq

**İş dəftəri, səh. 57**

**d.** Dördündən biri eyniköklü sözlər sırasına daxil deyil:

Cavab: 1-ci sütun: c. qıraq; 2-ci sütun: a. üzgəc; 3-cü sütun: c. donluq.

**İş dəftəri, səh. 57**

**e.** Eyniköklü sözləri seçib uyğun sütunlarda yaz.

**Müəllimin nəzərinə!** Kökləri omonim olan düzəltmə sözlərin nə üçün eyniköklü sayılmadığını şagirdlərə izah etmək lazımdır.

Cavab:

| qaz (isim) | qaz (feil) | at (isim) | at (feil) |
|---|---|---|---|
| qazlı | qazıntı | atlı | atılmaq |
| qazsız | qazılmaq | atçılıq | atıcı |
| | | | atışma |

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Sözün başlanğıc formasını müəyyənləşdirir. | Tapşırıq ç (dərslik); b, c (iş dəftəri) |
| Eyniköklü sözləri müəyyənləşdirir. | Tapşırıq ə (dərslik); d, e (iş dəftəri) |

# 5-ci DƏRS
# Sözönü və sözsonu şəkilçilər

**Təlim nəticələri:**
- Söz tərkibindəki morfemlərin semantikasından çıxış edərək sözün mənasını müəyyən edir (st. 4.1.3).

**Mövzuya yönəltmə**

Müəllim şagirdlərin sözün kökü və şəkilçilər barədə biliklərini yoxlamaq məqsədilə sual-cavab aparır. Şəkilçilərin funksiyalarını xatırladır.

Layihə

**Dərslik, səh. 143**

| |
|---|
| **a.** *Bivəfa* və *vəfasız* sözlərini leksik və morfoloji baxımdan müqayisə edin.<br>• Sözlərin kökünü müəyyənləşdirin.<br>• Şəkilçilərin semantikasını müəyyənləşdirin. |

Motivasiya xarakterli bu tapşırıq şagirdlərin diqqətini yenə də sözlərdə kök və şəkilçinin fərqləndirilməsinə yönəldir. Hər iki sözün kökü eynidir: "vəfa" sözü. Hər iki şəkilçi mənfi məna ifadə edən sifət düzəldir. Sadəcə, sözdə yeri fərqlidir. Deməli, "bivəfa" və "vəfasız" sözləri eyni mənanı bildirir.

**Müəllimin nəzərinə!** Şagirdlərin diqqətinə çatdırılır ki, bi- ön şəkilçisi vasitəsilə Azərbaycan dilindəki -sız$^4$ şəkilçisi ilə düzəlmiş sifətlərin mənasını verən sözlər, yəni sifətlər düzəlir.

**"Bunları bilməliyik!" rubrikası.** Burada sözönü və sözsonu şəkilçilərdən bəhs olunur. Müəllim rubrikada verilmiş qaydanı şərh edir.

**Dərslik, səh. 143**

| |
|---|
| **b.** Uyğunluğu müəyyən edin. |

Cavab: 1 – b, 2 – a, 3 – c, 4 – a, 5 – c, 6 – a, 7 – b, 8 – b, 9 – b, 10 – c, 11 – b, 12 – a

**İş dəftəri, səh. 57**

| |
|---|
| **ə.** Şəkilçinin yerinə görə dördündən biri fərqlidir: |

Cavab: 1-ci sətir: a. bihuş; 2-ci sətir: d. anormal; 3-cü sətir: b. natamam

**İş dəftəri, səh. 57**

| |
|---|
| **f.** Fərqləndirilmiş sözlərdə nöqtələrin yerinə uyğun şəkilçiləri yaz. |

Cavab: 1. O hadisəyə görə çox *narahat* oldum.
2. Bağdakı qızılgüllərin ətri adamı *bihuş* edirdi.
3. Evə gəldikdən sonra *antibakterial* sabunla əllərimi yudum.
4. Keçmə *namərd* körpüsündən, qoy aparsın sel səni. *(Atalar sözü)*
5. *Antisiklonlar* Antarktida üzərində əmələ gəlir.
6. Sən bu gün bir qədər *bikef* görünürsən.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Söz tərkibindəki morfemlərin semantikasından çıxış edərək sözün mənasını müəyyən edir. | Dərslik və iş dəftərində verilmiş tapşırıqlar |

Layihə

# 2-ci fəsil
# DEYİMLƏR

## 1-ci DƏRS
## Atalar sözləri

**Təlim nəticələri:**
• Kontekstdən çıxış edərək ifadələrin məcazi mənasını müəyyən edir (st. 3.1.2).

**Mövzuya yönəltmə**

Dərslikdəki ilk tapşırıqlarla müəllim şagirdləri mövzuya yönəldə bilər. Müəllim şagirdlərə belə suallar da verə bilər:

*Deyimlər dili daha maraqlı edir, yoxsa çətinləşdirir?*
*Deyimlər hansı hallarda daha çox işlənir: danışıqda, yoxsa yazıda?*
*Deyimlər xalqın hansı xüsusiyyətlərini və düşüncə tərzini əks etdirə bilər?*

**Danışma**

**Dərslik, səh. 144**

**a.** Nöqtələrin yerinə uyğun gələn atalar sözü əlavə edin.

Şagirdlər cümlələrin mənasına uyğun atalar sözünü seçirlər.
Cavab: 1 – c, 2 – a, 3 – b.

**Dərslik, səh. 144**

**b.** Məcazi məna daşıyan atalar sözünü müəyyən edin.

Cavab: C. Qələm qılıncdan itidir.

**Dərslik, səh. 144**

**c.** Atalar sözlərindəki məcazi mənanı izah edin.

Cavab: • Hər parıldayan qızıl deyil.

Hər görünən gözəl, dəyərli və yaxşı kimi təqdim olunan şey, əslində, elə olmaya bilər. Görünüş aldadıcıdır, mahiyyətə baxmaq lazımdır.

• İlanın ağına da lənət, qarasına da.

Zərərli, pis niyyətli insanın xarici görünüşü, necə olması fərq etmir – mahiyyəti pisdirsə, hər iki halda təhlükəlidir.

• Halva-halva deməklə ağız şirin olmaz.

Təkcə danışmaqla, arzu etmək və ya plan qurmaqla nəticə əldə olunmur. İşləmək və fəaliyyət göstərmək lazımdır.

• Dəmiri isti-isti döyərlər.

Bir işi vaxtında görmək, münasib şərait yaranan kimi hərəkətə keçmək lazımdır. Uyğun vaxt ötərsə, nəticə almaq çətinləşər.

• Dəyirmanda doğulan siçan göy gurultusundan qorxmaz.

Çətin şəraitdə böyüyən və hər cür sınaqlardan keçən insan sonradan daha möhkəm və qorxmaz olur. Çətinliyə öyrəşmiş adam asanlıqla sarsılmır.

**Dərslik, səh. 144**

**ç.** Qafiyəli sözlər işlənmiş atalar sözlərini müəyyən edin və həmin sözləri göstərin.

**Müəllimin nəzərinə!** Tapşırığı yerinə yetirməzdən əvvəl "qafiyə" sözünün mənası şagirdlərin diqqətinə çatdırılır: *beytlərin və ya misraların son söz və ya səslərinin uyğunluğu, həmahəngliyi*.

Layihə

Cavab: 1. Adam ağzında söz, qazan altında köz. – söz, köz
2. Birlik harda, dirilik orda! – harda, orda
4. Qorxursan pişikdən, niyə çıxırsan deşikdən? – pişikdən, deşikdən
6. Bağa baxarsan bağ olar, baxmazsan dağ olar. – bağ, dağ
8. İstəyirsən bal-çörək, al əlinə bel-kürək! – bal-çörək, bel-kürək

**İş dəftəri, səh. 58**

**a.** Hansı atalar sözlərində qafiyəli sözlər işlənib?

Cavab: 1. Uşağa buyur, dalınca yüyür. – buyur, yüyür
3. Hər şeyin təzəsi, dostun köhnəsi. – təzəsi, köhnəsi
5. Nə əkərsən, onu biçərsən. – əkərsən, biçərsən

**Dərslik, səh. 145**

**"Yadda saxla" rubrikası.** Burada atalar sözü və məsəllərin ümumi və fərqli cəhətləri nümunələr əsasında təqdim edilir.

**İş dəftəri, səh. 58**

**b.** "Arabanın beşinci təkəri" ifadəsinin yaranması ilə bağlı məlumatı oxu. Bu məsələ uyğun situasiya düşünüb yaz və mətndə həmin ifadəni işlət.

Şagirdlər verilmiş məsələ uyğun gələn situasiyaları müəyyən edirlər, həm də mətndə həmin ifadəni işlədirlər. Situasiya təxminən belə ola bilər:

*Şagirdlər sinifdə təqdimat hazırlayırdılar. Qruplar artıq formalaşdırılmışdı: hər qrupun öz rəhbəri, planı və görüləcək işləri vardı. Lakin Səid sonradan qoşulduğu üçün qrup üzvləri arasında özünə yer tapa bilmirdi. Hər kəs müəyyən tapşırıqla məşğul idi, o isə nə edəcəyini bilmirdi. Bir müddət kənarda dayanıb onları izlədikdən sonra asta səslə dedi:*

*— Mən burada özümü arabanın beşinci təkəri kimi hiss edirəm. Heç kimə mane olmuram, amma heç kimə də lazım deyiləm.*

*Bu sözlərdən sonra qrup üzvləri vəziyyəti başa düşdü və Səidə xüsusi bir tapşırıq verərək onu prosesə daxil etdilər. Səid də özünü daha yaxşı hiss etdi.*

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Kontekstdən çıxış edərək ifadələrin məcazi mənasını müəyyən edir. | Tapşırıq b, c (dərslik) |

# 2-ci DƏRS
# Məsəllər

**Təlim nəticələri:**
- Mətndə ifadə olunmuş fikirlə bağlı mülahizəsini bildirir və onu əsaslandırır (st. 3.1.4).
- Dinlədiyi mətndəki obraz, fakt və fikirlərə münasibət bildirir (st. 1.1.2).

**Mövzuya yönəltmə.** Müəllim atalar sözü və məsəllərin ümumi və fərqli cəhətləri barədə sorğu apara bilər.

Layihə

**Dərslik, səh. 145**

**a.** Sizcə, “Dava yorğan davası imiş” ifadəsi atalar sözüdür, yoxsa məsəl? Fikrinizi əsaslandırın.

Cavab: Məsəldir, çünki burada müəyyən həyat hadisəsinə aid ibrətamiz nəticə verilir. Məsəllərdə bir fikrin nəticəsi, hökmü və ya həyat dərsi olur. Bu ifadə də göstərir ki, görünüşdə böyük kimi görünən mübahisənin əsl səbəbi çox kiçik imiş.

• **Məsələ uyğun situasiya düşünüb yazın və mətndə həmin ifadəni işlədin.**

Cavab:

Şagirdlər verilmiş məsələ uyğun gələn situasiyaları müəyyən edirlər, həm də mətndə həmin ifadəni işlədirlər.

Situasiya təxminən belə ola bilər:

*Sinifdə iki dost – Əli və Rauf artıq bir həftə idi ki, bir-biri ilə danışmırdılar. Hamı düşünürdü ki, aralarında çox ciddi problem var. Müəllim səbəbini soruşanda heç biri danışmadı. Nəhayət, sinif nümayəndəsi məsələni araşdırdı və məlum oldu ki, mübahisə kimin ilk olaraq dərsə cavab verəcəyi üstündə başlayıb. Hər ikisi birinci cavab vermək istəyib, amma bir-birinə güzəştə getməyiblər.*

*Sinif nümayəndəsi təəccüblə dedi:*

*— Deməli, bu qədər küskünlük, gərginlik məhz bu səbəbə görə imiş... Yəni* ***dava, elə “yorğan davası” imiş!***

*Uşaqlar utandılar və barışdılar.*

**Dərslik, səh. 145**

**b.** Aşağıdakı məsəli və onunla bağlı şərhi oxuyun. Bu məsəlin yaranması ilə bağlı təxəyyülünüzə uyğun hadisə (rəvayət, lətifə və s.) düşünüb nəql edin.

*Məsəl: Hamıya qulaq assan, gərək eşşəyi dalına alasan.*

*Mənası: Birisi müstəqil qərar qəbul edə bilməyəndə, yaxud ətrafdakıların ziddiyyətli məsləhətlərinə qulaq asıb pis vəziyyətə düşəndə işlədilən ifadə.*

Tapşırıq şagirdlərin yaradıcı düşünməsini tələb edir.

Cavab:

*Bir gün Murad düzəltdiyi gəmi maketini məktəbə aparırdı. Yol boyu yoldaşları ona məsləhətlər verirdilər:*

*– Maketi çantana qoy, itər!*

*– Yox, çantaya qoyma, sınar!*

*– Əlində aparma, yorulacaqsan!*

*– Gərək kimsə sənə aparmağa kömək edərdi!*

*Murad hər kəsin sözünə əməl etməyə çalışdıqca daha çox qarışıqlıq düşürdü. Axırda maketi əlindən salıb qırdı. Onda başa düşdü ki, hamının məsləhətinə qulaq asmaq düzgün deyil.*

**Dinləmə**

**Dərslik, səh. 145**

**c.** “Hamıya qulaq assan, gərək eşşəyi dalına alasan” lətifəsini dinləyin və öz variantınızla müqayisə edin.

***Tülkü tülkülüyünü sübut edincə dərisi boğazından çıxar***

*Bir gün meşədə car çəkirlər ki, şahın əmri ilə bütün dəvələri tutub yük daşıtdıracaqlar. Bunu eşidən tülkü bərk qorxur və dabanına tüpürüb qaçmağa başlayır. Yolda tülkünün belə təşvişlə qaçdığını görən canavar onu saxlayıb soruşur:*

*– Ay tülkü, sənə nə olub?*

*Tülkü nəfəsini dərərək cavab verir:*

*– Eşitməmisən, dəvələri yığırlar ki, yük daşıtdırsınlar.*

*Canavar gülür:*

*– Bundan sənə nə? Şahın əmri dəvələr üçündür, axı sən tülküsən!*

Layihə

*Tülkü deyir:*

*– Elədir, mən tülküyəm. Amma elə bir dövran gəlib ki, tutub məni "dəvəsən" deyə aparsalar, mən tülkü olduğumu sübut edənə qədər dərimi boğazımdan çıxararlar.*

*Bəzən günahsız bir adamın öz təmizliyini sübut etməsi çox vaxt aparır və bu müddət ərzində o, böyük zərər görür. Belə hallarda deyirlər: "Tülkü tülkülüyünü sübut edincə dərisi boğazından çıxar". Azərbaycan şifahi xalq ədəbiyyatında bu məsəl ədalətin gecikməsinə eyham vuran ən kəsərli nümunələrdən sayılır.*

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətndə ifadə olunmuş fikirlə bağlı mülahizəsini bildirir və onu əsaslandırır. | Tapşırıq a, b (dərslik) |
| Dinlədiyi mətndəki obraz, fakt və fikirlərə münasibət bildirir. | Tapşırıq c (dərslik) |

# 3-cü DƏRS
# "Tarixi-Nadir" kitabını yarısına qədər oxumuşam

**Təlim nəticələri:**
- Yeni tanış olduğu sözə uyğun gələn izahı müəyyən edir (st. 3.1.2).
- Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir (st. 3.1.3).
- Mətnin tərkib hissələrini, struktur elementlərini (yarımbaşlıq və s.) onun əsas məzmunu ilə əlaqələndirir (st. 3.1.5).

**Mövzuya yönəltmə**

**Dərslik, səh. 146**

**a.** Mətnin başlığına diqqət edin. "O olmasın, bu olsun" filmindən bu ifadənin səsləndiyi epizodu izləyin. Sizcə, bu ifadə onu səsləndirən obrazı – Məşədi İbadı necə səciyyələndirir?

İlk tapşırıqla həm şagirdləri mövzuya yönəltmək olar, həm də verilən suallar əsasında şagirdlərdən bu haqda nə bildiklərini öyrənmək mümkündür.

**Müəllimin nəzərinə!** "O olmasın, bu olsun" bədii filmindən "Tarixi-Nadir" kitabını yarısına qədər oxumuşam..." ifadəsinin işləndiyi epizodu nümayiş etdirmək tövsiyə edilir.

**Oxu**

**Mətnlə iş.** Verilmiş vaxt ərzində "Tarixi-Nadir" kitabını yarısına qədər oxumuşam..." mətni səssiz oxunur. Şagirdlər onlara tanış olmayan söz və ifadələri dəftərlərində qeyd edirlər. Müəllim həmin sözlərin mənasını izah edir. Mətni oxuduqdan sonra "Söz mücrüsü" rubrikasındakı sözlərlə də tanış olurlar. Lüğətdən istifadə edərək sözlərin mənasını müəyyən edirlər.

**Dərslik, səh. 147**

**b.** Cümlələri oxuyun. Kontekstdən çıxış edərək "boy" sözünün mənalarını izah edin.

Cavab: Boy sözü cümlələrdə aşağıdakı mənalarda işlədilmişdir:
1 – bədənin uzunluğu, qədd-qamət;
2 – dastanlarda müəyyən hadisəyə həsr edilmiş hissə, fəsil;
3 – qəbilə, nəsil.

**İş dəftəri, səh. 59**

**a.** "Söz mücrüsü"nə əsasən krosvordu tamamla.

Cavab: Yuxarıdan aşağı: 1. tacir, 4. iddia, 6. ədib, 8. boy
Soldan-sağa: 2. çağ, 3. hikmət, 5. sərkərdə, 7. sanballı, 9. yürüş

**Dərslik, səh. 148**

**c.** Mətnə əsasən suallara cavab verin.

Tapşırığın məqsədi şagirdlərin faktoloji qavrama bacarıqlarını yoxlamaqdır.

Cavab: 1. "Tarixi-Nadir" kitabını yarısına kimi oxumuşam" ifadəsi ilk dəfə Üzeyir Hacıbəylinin "O olmasın, bu olsun" operettası əsasında çəkilmiş eyniadlı filmdə işlənib.

2. Bu ifadə Məşədi İbadın özünü ziyalı kimi göstərmək istəyini ifşa edir.

3. Bu əsər Nadir şahın (1688–1747) hakimiyyət dövrünü, hərbi yürüşlərini və o zamanın siyasi mənzərəsini əks etdirir.

4. Nadir şah Əfşarlar dövlətinin hökmdarı olub.

5. Bir adam yersiz olaraq çox qəliz danışdıqda ona müraciətlə bu ifadəni işlədirlər.

**Dərslik, səh. 148**

**ç.** Mətndə hansı tarixi faktlar yer alıb?

Tapşırığın məqsədi şagirdlərin faktoloji qavrama bacarıqlarını yoxlamaqdır.

Cavab: Mətndə Əfşarlar dövləti, Nadir şah, onun həyat və fəaliyyəti, Oğuz türkləri olan əfşarlar haqqında qısa məlumat verilib.

**Dərslik, səh. 148**

**d.** Mətni yazmaqda müəllifin məqsədini müəyyən edin və seçiminizi əsaslandırın.

Tapşırığın məqsədi mətnlə bağlı müəllifin məqsədini müəyyən etməkdir.

Cavab: b. məşhur məsəlin yaranma tarixi haqqında məlumat vermək

**Dərslik, səh. 148**

**e.** Sizcə, nə üçün Nadir şah məhz Makedoniyalı İskəndər və Napoleonla müqayisə olunur?

**Müəllimin nəzərinə!** Şagirdlərin diqqətinə çatdırılmalıdır ki, tarixi şəxsiyyətlər arasında müqayisələr təsadüfi olmur. Adətən, belə şəxslər dövləti necə idarə etməsinə, hərbi istedadına, gördükləri işlərə görə müqayisə edilir.

Cavab: 1. Hər üçü qeyri-adi hərbi istedada malik sərkərdələr idi. Onlar güclü ordu qurmuşdular, özünəməxsus müharibə taktikalarından istifadə edirdilər.

2. Nadir şah və Napoleon sadə ailədən çıxmış, öz istedadı ilə zirvəyə qalxmışdı.

3. Böyük və güclü imperiya qurmuşdular.

4. Mərkəzləşmiş, güclü hakimiyyət yaratmışdılar və islahatlar aparmışdılar.

**Dərslik, səh. 148**

**ə.** Məşədi İbadın "Tarixi-Nadir" kitabını yarısına qədər oxuması ilə bağlı iddiası niyə gülüş doğurur?

Cavab: Məşədi İbad özünü savadlı kimi göstərməyə çalışırdı. Əslində isə, savadı yox idi.

**Dərslik, səh. 148**

**f.** Aşağıdakı cümlələri hansı abzasların sonuna artırmaq olar?

Cavab: 1. Bu böyük sərkərdəni Çingiz xan və Əmir Teymur kimi böyük sərkərdələrlə müqayisə edənlər də var. Üçüncü hissədə 1-ci abzasın sonuna

2. Görkəmli Azərbaycan yazıçısı Nəriman Nərimanovun "Nadir şah" pyesi bu sərkərdəyə həsr olunmuşdur. Üçüncü hissənin sonuna

3. "Tarixi-Nadir" kitabını yarısına qədər oxumuşam" ifadəsində onu deyənin özünə qarşı ironiyası



Ləyihə

da var. Birinci hissədə 2-ci abzas (4-cü cümlədən sonra)

**Dərslik, səh. 148**

**g.** Aşağıdakı fikirləri mətnin hansı yarımbaşlıqlarına aid etmək olar?

Cavab: 1. Bu kitab Nadir şahın 11 illik şahlıq dövründən bəhs edir. İkinci hissəyə
2. Nadir şahın ölümündən sonra Əfşarlar dövləti süqut etdi. Üçüncü hissəyə
3. Üzeyir Hacıbəyli bu məşhur ifadə ilə heç də əsərin həcmini nəzərdə tutmurdu. Birinci hissəyə

**İş dəftəri, səh. 59**

**b.** Mətnin hər yarımbaşlığının məzmununu iki-üç cümlə ilə ifadə et.

Tapşırıq şagirdlərin mətni necə qavradıqlarını müəyyən etmək məqsədi daşıyır. Şagirdlər oxuduqları mətnin yarımbaşlıqlarının məzmununu qısa şəkildə yazırlar.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Yeni tanış olduğu sözə uyğun gələn izahı müəyyən edir. | Tapşırıq b (dərslik); a (iş dəftəri) |
| Mətnin tərkib hissələrini, struktur elementlərini (yarımbaşlıq və s.) onun əsas məzmunu ilə əlaqələndirir. | Tapşırıq f, g (dərslik); b (iş dəftəri) |

# 4-cü DƏRS
# Çıxışlıq hal şəkilçisinin deyilişi və yazılışı

**Təlim nəticələri:**

• Sözlərdə -dan² çıxışlıq hal şəkilçisinin [-nan²] kimi tələffüzünə əməl edir (st. 4.1.3).
• Sözlərdə -la² şəkilçisinin funksiyalarını müəyyən edir (st. 4.1.3).
• Sözlərdə -la² şəkilçisinin (bağlayıcı, qoşma, zərf düzəldən şəkilçi) düzgün yazılışı qaydalarına əməl edir (st. 4.1.2).

**Mövzuya yönəltmə**

**Dərslik, səh. 149**

**a.** Altından xətt çəkilmiş hansı sözün yazılışı və tələffüzü fərqlənir?

Cavab: 2. Telefondan çox istifadə etmək gözü yorur.

**"Bunları bilməliyik!" rubrikası.** Burada bəzi sözlərdə çıxışlıq hal şəkilçisinin deyilişi və yazılışı haqqında məlumat verilir.

**Müəllimin nəzərinə!** Şagirdlərin diqqətinə çatdırılır ki, çıxışlıq hallı bəzi sözlərin deyilişi zamanı -nan² tələffüz forması ortaya çıxır. Orfoepiya normalarına görə, -dan² çıxışlıq hal şəkilçisi m, n hərfləri ilə bitən sözlərə qoşulduqda, [-nan²] kimi tələffüz olunur: adamdan [adamnan], bədəndən [bədənnən], gözümdən [gözümnən], meydandan [meydannan] və s.

**Dərslik, səh. 149**

**b.** [-nan²] hansı cümlələrdə çıxışlıq hal şəkilçisinin tələffüz formasıdır?

Cavab: 1. Oyunnan sonra uşaqlar evə yollandılar.
2. Tərlannan ünvanı soruş.
4. Uşaq atasının əlinnən möhkəm tutmuşdu.

**Dərslik, səh. 149**



Layihə

**c.** Transkripsiyada verilmiş sözlərdə şəkilçilər hansı funksiyanı yerinə yetirir?

Bu tapşırıq yönəldici xarakter daşıyır. Şagirdlər fərqləndirilmiş sözlərin tərkibini müəyyən edirlər. Onlara sözü kök və şəkilçilərə ayırmaq bacarığı xatırladılır. Şagirdlər bu sözləri kök və şəkilçiyə ayırmaqla şəkilçilərin növünü müəyyənləşdirirlər, kökü, leksik və qrammatik şəkilçiləri fərqləndirmək bacarıqlarını nümayiş etdirirlər. Şagirdlərə tapşırılır ki, "l" samiti ilə başlanan şəkilçilərin tələffüzünə diqqət yetirsinlər.

Cavab:

1. [Elmnən] ucalır həyatda insan. – ilə qoşmasıdır
2. [Elmnən] böyük güc yoxdur. – çıxışlıq hal şəkilçisidir
3. [Elmnən] təcrübə sərkərdə və əsgər kimidir. – ilə bağlayıcısıdır

**"Bunları bilməliyik!" rubrikası.** Burada bəzi sözlərdə "l" samiti ilə başlanan şəkilçilərin yazılışı və tələffüzü ilə bağlı məlumat verilir.

**Dərslik, səh. 149**

**ç.** Altından xətt çəkilmiş hansı sözdə *-la* şəkilçisinin funksiyası fərqlidir?

Tapşırıq "l" ilə başlanan şəkilçilərin düzgün yazılış qaydası üzrə biliklərin möhkəmlənməsinə xidmət edir.

Cavab: c. Çayı konfetlə içəcəksən?

**Dərslik, səh. 150**

**d.** Uyğunluğu müəyyən edin.

Cavab: 1 – c 2 – a 3 – b.

**"Bunları bilməliyik!" rubrikası.** Burada qoşma, yaratdığı məna çalarları haqqında məlumat verilir. Məlumdur ki, -la$^2$ şəkilçisi sözlərdə zərfin şəkilçisi kimi, habelə "ilə" bağlayıcısı və qoşmasının şəkilçiləşmiş forması kimi işlənir. Bu zaman o, [-nan$^2$] kimi tələffüz olunur.

**Dərslik, səh. 150**

**e.** Fərqləndirilmiş sözləri düzgün yazın. Onların tələffüzü ilə yazılışı arasındakı fərqi izah edin.

Bu tapşırıqda əvvəlcə şagirdlər fərqləndirilmiş sözləri düzgün yazırlar, sonra onlara qoşulmuş -la$^2$ şəkilçisinin hansı nitq hissəsi olduğunu müəyyənləşdirirlər, tələffüzü ilə yazılışı arasındakı fərqi izah edirlər.

Cavab: 1. Müğənni konsertdə fanatlarıynan şəkil çəkdirdi. – fanatları ilə
2. O, qardaşıynan məktəbə gedəcək. – qardaşı ilə
3. İnternet vasitəsiynən dünyanın hər yerindən məlumat almaq mümkündür. – vasitəsilə
4. Baba nəvəsiynən bağda gəzirdi. – nəvəsi ilə
5. Mən vaxtıynan burada yaşamışam. – vaxtilə

**Dərslik, səh. 150**

**ə.** Hansı cümlələrdə fərqləndirilmiş söz səhv yazılıb? Eyni cür yazılmış sözlərin leksik və qrammatik mənaları arasındakı fərqi izah edin.

Cavab: 2. Texniki avadanlığı yeniləmək məqsədi ilə məktəbə əlavə vəsait ayrıldı.
1. Vaxtı ilə bu ərazidə köhnə evlər vardı.
2. Bayram münasibəti ilə hamını təbrik edərsən.
Eyni yazılan sözlər cümlələrdə fərqli məna və qrammatik funksiyalar daşıyır:
Bir cümlədə isim + ilə şəklində işlənərək ayrı yazılır.
Digər cümlədə isə söz səbəb, məqsəd, münasibət bildirir və bitişik yazılır.

**İş dəftəri, səh. 60**

Ləylə

**a.** Hansı sözlərdə *-dan²* şəkilçisi fərqli tələffüz olunur?

Cavab: 2. Günəş buludların arxasından görünməyə başladı.
4. Uşaqlar plastilindən fiqurlar düzəldirdilər.
**İş dəftəri, səh. 60**

**b.** Fərqləndirilmiş sözləri orfoqrafik normaya uyğun yaz.

Cavab: 1. Şahmatçı yarışı qələbəynən başa vurdu. – qələbə ilə
2. Qonaqlar ev sahibiynən görüşüb içəri keçdilər. – ev sahibi ilə
3. Siz bu məsələdə tamamı ilə haqlısınız. – tamamilə
4. Ana körpəsiynən parkda gəzirdi. – körpəsi ilə
5. Bu sözlər forma etibarı ilə fərqlidir. – etibarilə
**İş dəftəri, səh. 60**

**c.** Cümlələrdə səhv yazılmış sözləri seç və şəkilçilərin funksiyasına görə qruplaşdıraraq cədvəldə düzgün yaz.

Cavab:

| Qoşma kimi | Bağlayıcı kimi | Zərf kimi |
|---|---|---|
| medalla | boşqablarla | diqqətlə |
| quşlarla | almalarla | hərarətlə |
| tanklarla | köynəklərlə | heyrətlə |

**Formativ qiymətləndirmə**
Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Sözlərdə -dan² çıxışlıq hal şəkilçisinin [-nan²] kimi tələffüzünə əməl edir. | Tapşırıq a (dərslik), a (iş dəftəri) |
| Sözlərdə -la² şəkilçisinin funksiyalarını müəyyən edir. | Tapşırıq ç, d (dərslik), c (iş dəftəri) |
| Sözlərdə -la² şəkilçisinin (bağlayıcı, qoşma, zərf düzəldən şəkilçi) düzgün yazılışı qaydalarına əməl edir. | Tapşırıq e, ə (dərslik), b (iş dəftəri) |

Layihə

# 3-cü fəsil
# TARİXİ İFADƏLƏR

## 1-ci DƏRS
## Qruplarla iş

**Təlim nəticələri:**
- Fikrini əsaslandırmaqla fakt və hadisələrə münasibət bildirir (st. 2.1.2).
- Aldığı məlumatları rabitəli mətn halına salaraq şifahi təqdim edir (st. 2.1.3).
- Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir (st. 3.1.3).
- Müzakirə zamanı mövzuya uyğun fikir yürüdür (st. 2.1.4).

**Mövzuya yönəltmə**

Müəllim şagirdləri mövzuya yönəltmək üçün belə suallar verə bilər:

*"Tarixi ifadə" deyəndə ağlınıza nə gəlir? Belə ifadələr necə yaranır?*

*Bir sözün və ya ifadənin tarixlə bağlı olması nə deməkdir? Sizcə, belə ifadələr tarixi öyrənməkdə bizə necə kömək edə bilər?*

*Niyə bəzi ifadələr yüzillər keçsə də, hələ də işlənir?*

*Tarixi bir ifadəni eşidəndə ilk olaraq nəyi bilmək istəyirsiniz: hadisəni, şəxsi, yoxsa ifadənin mənasını?*

**Danışma**

**Dərslik, səh. 151**

**a.** Aşağıdakı dialoqu oxuyun və fərqləndirilmiş ifadə ilə bağlı suallara cavab verin.
- Bu ifadəyə görə Kamal əmi haqqında nə demək olar? Cavabınızı əsaslandırın.

Cavab:

b. Uzun ömür yaşamış təcrübəli adamdır.

**"Sözlərin izahı" rubrikası.** Mətn oxunmazdan əvvəl şagirdlər "Sözlərin izahı" rubrikasında verilmiş sözlərin izahı ilə tanış olurlar.

**"Bu, maraqlıdır" rubrikası.** Sözlərin izahı ilə tanış olduqdan sonra "Bu, maraqlıdır" rubrikasındakı məlumatlara da diqqət yetirmək vacibdir.

**Oxu**

**Dərslik, səh. 151**

**b.** Mətnləri oxuyun və məlumatları təqdim edin.

Bu dərs üçün şagirdlər qruplara bölünürlər. Onlar əvvəlcə verilmiş təlimatla tanış olurlar. Qruplar təlimata uyğun olaraq işləyirlər. Dərsin qruplarla iş formasında aparılması şagirdlərin əməkdaşlıq şəraitində işləməsini təmin etmək, biliklərini tətbiq və təhlil etmək bacarıqlarının inkişafına şərait yaradır.

**Müəllimin nəzərinə!** Şagirdlərin diqqətinə çatdırılır ki, 1-ci mətn həm gerçək məlumatlara (Çaldıran döyüşü, Taclı bəyimin əsir düşməsi), həm də xalq yaradıcılığında formalaşmış təsəvvürlərə əsaslanır. Şagirdlərə rəvayətlərin tarixdən müəyyən qədər uzaqlaşmasını, real faktlardan fərqlənməsini izah etmək vacibdir.

**Dərslik, səh. 152**

**c.** Mətnə əsasən Şah İsmayılın doğum tarixini müəyyənləşdirin.

Şagirdlər doğum tarixinin mətnə əsaslanaraq necə hesablandığını öyrənirlər. Bu, mətndən informasiya çıxarma bacarığını inkişaf etdirir.

Layihə

Cavab:

Mətnə görə Çaldıran döyüşü 1514-cü ildə baş verir və Şah İsmayıl həmin vaxt 27 yaşında olur. Deməli, onun doğum tarixini belə hesablayırıq: 1514 – 27 = 1487.

**Dərslik, səh. 152**

**ç.** Xəta nə deməkdir? Sizcə, nə üçün Şah İsmayıl bu sözü təxəllüs kimi seçib? Fikirlərdən birini seçin və əsaslandırın.

Cavab:

"Xəta" sözü ərəb mənşəlidir, "səhv", "yanlışlıq" deməkdir. Şah İsmayılın "Xətai" təxəllüsü götürməsi belə bir fikirlə bağlıdır ki, o, Taclı bəyimi döyüşə buraxmasını öz səhvi sayır və bunu səmimi etiraf edir. Yəni bu təxəllüsdə həm peşmanlıq, həm də təvazökarlıq, səmimilik ifadə olunur.

**Dərslik, səh. 152**

**d.** Sizcə, Şah İsmayılın cavabı ("Qılınc həmin qılıncdır, qol o qol deyil") hansı mənanı daşıyır?

Cavab:

Bu ifadə göstərir ki, hər bir işin nəticəsi insanın bacarığından asılıdır.

**Dərslik, səh. 152**

**e.** "Qılınc həmin qılıncdır, qol o qol deyil" ifadəsi hansı məqamda işlənə bilər?

Cavab:

d. işin öhdəsindən gələ bilmədikdə

**Müəllimin nəzərinə!** 2-ci mətn Yuli Sezarın siyasi fəaliyyəti, sui-qəsd nəticəsində öldürülməsi, Roma Respublikasında siyasi qüvvələrin dəyişilməsi barədə məlumat verir. Müəllim şagirdlərə Sezarın ölümünün təkcə şəxsi deyil, siyasi motivlərlə bağlı olduğunu da vurğulamalıdır.

**Dərslik, səh. 153**

**ə.** Sezarın sui-qəsd qurbanı olmasının əsas səbəbi nə idi?

Tapşırığın məqsədi şagirdlərin mətndə göstərilən əsas səbəbləri düzgün seçməyi və tarixi şəxslərin davranışlarını o dövrdə baş verən hadisələrlə əlaqələndirərək izah etməyidir.

Cavab:

a. siyasi motivlər

**Dərslik, səh. 153**

**f.** Sui-qəsddə Brutun iştirakı Sezar üçün niyə bu qədər sarsıdıcı oldu?

Cavab:

Brut Sezarın ən çox etibar etdiyi, oğlu kimi sevdiyi adam idi. Ona görə də Brutun sui-qəsddə iştirak etməsi Sezar üçün ən ağır mənəvi zərbə idi. Sezar düşmənlərinin zərbələrinə dözürdü, amma ən yaxın adamının xəyanətini gördüyü anda müqavimət göstərməyi dayandırdı.

**Dərslik, səh. 153**

**g.** Sizcə, tarixi dəqiqlik baxımından Plutarxın, yoxsa Şekspirin versiyası daha etibarlıdır?

Cavab:

Tarixi dəqiqlik baxımından Plutarxın versiyası daha etibarlıdır. Çünki Plutarx faktlara, şahidlərin dediklərinə və tarixi mənbələrə əsaslanmışdır. Onun yazdıqları da tarixi mənbə kimi qəbul olunur.

Şekspirin versiyası isə bədii əsərdir. O, əsəri daha təsirli etmək üçün hadisələri dəyişə, dialoqları öz fantaziyasına uyğun qura bilər. Güman edilir ki, "Sən də Brut?" ifadəsini də Şekspir əlavə etmişdir.

**Müəllimin nəzərinə!** Növbəti mətn "nökər" sözünün keçmişdəki ilkin mənasını izah edir və onun "xidmətçi" anlayışı ilə eyni olmadığını göstərir. Müəllim şagirdlərin diqqətini zaman keçdikcə sözlərin mənaca dəyişə bilməsinə yönəltməli və mətndə verilən etimoloji məlumatın bu dəyişikliyi necə izah etdiyini göstərməlidir.

Layihə

**Dərslik, səh. 154**

**ğ.** Mətnə görə yanlış fikirdir:

Cavab:
c. Nökərlər yalnız adi ailələrdən olan gənclərdən seçilirdi.

**Dərslik, səh. 154**

**h.** Aşağıdakı cümlələr hansı abzasların sonuna uyğun gəlir?

Cavab:
a. Bu da Orta əsrlərdə Azərbaycanda monqol-səlcuq hərbi ənənələrinin mövcud olduğunu göstərir. 2-ci abzasın sonuna

b. Beləliklə, “nökər” sözünün mənası getdikcə dəyişdi və indiki anlamda işlənməyə başladı.

4-cü abzasın sonuna

c. Onların hörməti, nüfuzu böyük idi və kiçik hərbi bölük komandirləri də onlarla hesablaşmağa məcbur olurdular. 1-ci abzasın sonuna

d. Görünür, “Xandan gəlmiş nökərəm...” məsəli də nökərlərin məhz bu davranışı ilə bağlı meydana çıxmışdır. 3-cü abzasın sonuna

**Müəllimin nəzərinə!** Pun müharibələri və Katon haqqında mətn Roma dövlətinin xarici siyasətini və qədim dövrdə dövlətlərarası münasibətlərin gərginliyini göstərir. Müəllim şagirdlərin diqqətini bu vacib məqama yönəltməlidir ki, Katonun israrlı mövqeyi dövlət qərarlarına necə təsir etmişdir.

**Dərslik, səh. 155**

**x.** Mətndə qeyd edilən faktlara əsaslanaraq sübut edin ki, Pun müharibələri 100 ildən çox davam etmişdir.

Cavab:
Mətndə göstərilir ki, Miladdan əvvəl 264-cü ildə müharibə başlayıb, Miladdan əvvəl 146-cı ildə Roma qələbə qazanıb. Bu iki tarix arasında 118 il fərq var (264 – 146 = 118). Bu rəqəm də müharibələrin 100 ildən çox çəkdiyini təsdiqləyir.

**Dərslik, səh. 155**

**ı.** Nə üçün Romanın Karfagenlə müharibəsi “Pun müharibələri” adlanır?

Cavab:
Romalılar karfagenliləri “pun” (finikiyalı) adlandırdığına görə bu müharibələrə “Pun müharibələri” deyilir.

**Dərslik, səh. 155**

**i.** Mark Katonun “Böyük” ləqəbi qazanması nə ilə bağlı idi?

Cavab:
Mark Katon “Böyük” adlandırılırdı, çünki onu eyniadlı nəticəsindən fərqləndirmək lazım idi. Həm də o, dövrün ən fəal siyasi xadimlərindən biri idi.

**Dərslik, səh. 155**

**j.** Mətnə əsasən Mark Katonun doğum tarixini müəyyənləşdirin.

Cavab:
Mətnə görə, Mark Katon həlledici qələbədən üç il əvvəl, yəni 146-cı ildən (Miladdan əvvəl) 3 il əvvəl – 149-cu ildə (M.ə.) dünyasını dəyişmişdir. Ölüm anında 85 yaşında idi. Deməli, doğum ili belə hesablanır: 149 + 85 = 234

Mark Katon təxminən M.ə. 234-cü ildə doğulmuşdur.

**Dərslik, səh. 156**

**k.** Mətndə müəllif doqquzlama adəti ilə bağlı hansı mənbələrə istinad edir? Bunlardan hansı daha etibarlıdır?

Cavab:

Mətnə əsasən müəllif doqquzlama adəti barədə iki əsas mənbəyə istinad edir: xalq rəvayətinə və tarixi yazılı mənbəyə (XV əsrdə Azərbaycanda olmuş italyan diplomatı Katerino Zenonun məktubu). Daha etibarlı mənbə Katerino Zenonun məktubudur, çünki bu, rəvayət deyil, o, hadisəni öz gözü ilə görüb və sənədləşdirib.

**Dərslik, səh. 156**

**q.** Uyğunluğu müəyyən edin.

Cavab:

1 – c, 2 – d, 3 – a, 4 – ç, 5 – b.

**Dərslik, səh. 156**

**l.** Müzakirə. Tarixi deyimləri öyrənmək bizə nə verir?

Şagirdlər sual ətrafında müzakirə aparır, fikirlərini bildirirlər. Müzakirələrin təşkili şagirdlərin tənqidi düşünmə bacarıqlarını inkişaf etdirir.

Cavab:

Tarixi deyimləri öyrənmək bizə keçmişdə baş vermiş hadisələri və insanların düşüncə tərzini daha yaxşı anlamağa kömək edir. Bu deyimlər nitqimizi daha təsirli və maraqlı edir, həm də tarixi biliklərimizi artırır.

**İş dəftəri, səh. 61**

**a.** Oxuduğun mətndən əldə etdiyin məlumatlara əsasən cədvəli tamamla.

Cavab:

| **Tarixi ifadə** | Doqquzluq gəlmək |
|---|---|
| **Yaranması ilə bağlı rəvayət (qısa məzmunu)** | Əmir Teymur Azərbaycana hücum edəndə Şirvanşah İbrahim ona sədaqətini göstərmək üçün qiymətli hədiyyələr aparır. Hər şey doqquzlama adətinə uyğun olaraq doqquz ədəd idi, yalnız qulların sayı səkkiz çıxır. Teymur bunu hörmətsizlik sayıb qəzəblənir. Şirvanşah isə təzim edərək deyir ki, doqquzuncu qul elə özüdür. Bu sözlərlə o həm Teymurun könlünü alır, həm də özünü ağıllı diplomat kimi göstərir. |
| **İfadə etdiyi məna** | Mətndə işlənən "doqquzluq gəlir" ifadəsi qədim "doqquzlama" adətinə əsaslanır. Hədiyyə və ya təqdim olunan əşya tam şəkildə verilmədikdə, yəni say natamam olduqda həmin adam haqqında "doqquzluq gəlir" deyirdilər. |

• Oxşar situasiya düşünüb mətn yaz və ifadəni mətndə işlət.

Şagirdlər tapşırığın tələbinə uyğun olaraq oxuduğu mətnə və situasiyaya uyğun mətn yazırlar. Bu tapşırıq mətn yazmaq bacarıqlarının möhkəmlənməsinə imkan verir.

Layihə

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Fikrini əsaslandırmaqla fakt və hadisələrə münasibət bildirir. | Tapşırıq a (dərslik) |
| Aldığı məlumatları rabitəli mətn halına salaraq şifahi təqdim edir. | Tapşırıq b (dərslik) |
| Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir. | Tapşırıq c, ə, f, ğ, h, x, ı, i, j (dərslik) |
| Müzakirə zamanı mövzuya uyğun fikir yürüdür. | Tapşırıq l (dərslik) |

Layihə

# Ümumiləşdirici təkrar

**Təlim nəticələri:**

- Eyniköklü sözləri müəyyənləşdirir (st. 4.1.3).
- Sözlərdə -la$^2$ şəkilçisinin funksiyalarını müəyyən edir (st. 4.1.3).
- Sözlərdə -la$^2$ şəkilçisinin (bağlayıcı, qoşma, zərf düzəldən şəkilçi) düzgün yazılışı qaydalarına əməl edir (st. 4.1.2).

**Dərslik, səh. 157**

**1.** Eyniköklü sözləri cədvəl üzrə qruplaşdırın.

Cavab:

| ***yağ (isim)*** | ***yağ (feil)*** |
|---|---|
| yağlı | yağış |
| yağsız | yağışlı |
| yağla(maq) | yağıntı |

**Dərslik, səh. 157**

**2.** Sözlərin tələffüzündəki [-nan$^2$] hissəciyi ilə bağlı uyğunluğu müəyyən edin.

Cavab: 1 – b, 2 – ç, 3 – a, 4 – c.

**Dərslik, səh. 157**

**3.** Fərqləndirilmiş hansı sözlərdə şəkilçinin yazılışı və tələffüzü eynidir? Səbəbini izah edin.

Cavab: 1. Bu məsəl hansı **rəvayətdən** yaranıb?
3. Toxun **acdan** nə xəbəri? *(Atalar sözü)*

**Dərslik, səh. 157**

**4.** Transkripsiyada verilmiş sözləri düzgün yazın.

Cavab: 1. [Dostumnan] mən bilet alıb teatra getdik. – dostumla
2. Uşaqlar təzə [topnan] futbol oynayırdılar. – topla
3. İndi mənə [diqqətnən] qulaq as. – diqqətlə
4. Hamı onun [qəhrəmanlığınnan] danışır. – qəhrəmanlığından

**Dərslik, səh. 157**

**5.** Verilmiş cümlələrdə səhv yazılan sözləri seçin və qaydalara əsasən izah edin.

Cavab: Qaydaya əsasən *-la$^2$* şəkilçisi [-nan$^2$] şəklində tələffüz olunur. *Zəhmətiynən, qonşularıynan, Səidəynən* sözləri səhv yazılıb. Bu sözlərin düzgün forması *zəhməti ilə, qonşuları ilə, Səidə ilə* olmalıdır.

Qaydaya əsasən *məqsədilə, münasibətilə* sözləri bitişik yazılır. Tapşırıqda onlar düzgün yazılmayıb.

**İş dəftəri, səh. 62**

**1.** Fərqləndirilmiş sözlərə əsasən uyğunluğu müəyyən et.

Cavab: 1 – b, 2 – ç, 3 – a, 4 – c.

**İş dəftəri, səh. 62**

**2.** Sözlərin tərkibini müəyyən edib cədvəli doldur.

Cavab:

Layihə

| Söz | Sözün kökü | Başlanğıc forması | Leksik şəkilçilər | Qrammatik şəkilçilər |
|---|---|---|---|---|
| hazırlayacaqsan | hazır | hazırla | -la | -yacaq, -san |
| yandırıcı | yan | yandırıcı | -dır, -ıcı | |
| uyğunsuzluq | uyğun | uyğunsuzluq | -suz, -luq | |
| dəftərinə | dəftər | dəftər | | -i, -nə |
| tapşırıqlarımız | tapşır | tapşırıq | -ıq | -lar, -ımız |
| qururlar | qur | qur | | -ur, -lar |
| çalışqandır | çalış | çalışqan | -qan | -dır |
| görüşdə | gör | görüş | -üş | -də |

**İş dəftəri, səh. 62**

**3.** Hansı sıralarda bütün sözlər eyniköklüdür?

Cavab: 2. qışlıq, qışlaq, qışlamaq
4. oduncaq, odunluq, odunçu

**İş dəftəri, səh. 62**

**4.** Verilmiş sözlərdən eyniköklü sözlər düzəlt və qarşısında yaz.

Cavab: yaşıl – yaşıllaşmaq, yaşıllıq
sərin – sərinlik, sərinkeş
dalğa – dalğalanmaq, dalğalı
işıq – işıqlanmaq, işıqlı

**İş dəftəri, səh. 63**

**5.** Aşağıdakı sözlərin tərkibini müəyyən et və cədvəlin uyğun sütunlarına yaz.

Cavab:

| ***Eyniköklü sözlər*** | ***Eyni sözün müxtəlif formaları*** |
|---|---|
| seçki, seçim, seçici | seçmək, seçdi, seçirlər |
| qayğılı, qayğıkeş, qayğısız | qayğımız, qayğılar, qayğını |
| qoruq, qoruqçu, qoruyucu | qoruyan, qoruyacaq, qorusun |

**İş dəftəri, səh. 63**

**6.** Verilmiş sözlərə *bi-, na-, anti-* sözönü şəkilçilərini əlavə edib yaz.

Cavab: naəlac, antisanitariya, biçarə, antiterror, naxoş, antireklam, biqərar, naümid, bisavad

**İş dəftəri, səh. 63**

**7.** Verilmiş izahlara əsasən sözlərə uyğun sözsonu şəkilçilər əlavə edib yaz.

Cavab: Müəyyən bir dövlət əhalisinə mənsub olan şəxs: *vətəndaş*
Kitabların toplandığı yer: *kitabxana*
Padşah, hakim: *hökmdar*
Çiçəklik: *gülüstan, güllük*

Layihə

**İş dəftəri, səh. 63**

**8.** Fərqləndirilmiş sözlərdə şəkilçilərin funksiyasını və düzgün yazılışını müəyyən et.

Cavab: 1. Qapıynan üzbəüz divara elan vurulmuşdu. ***qapı ilə (qoşma)***
2. Elnarə sənnən hansı kitabı istədi? ***səndən (hal şəkilçisi)***
3. Qaliblər fəxrnən salona daxil oldular. ***fəxrlə (zərf)***
4. Güclü küləknən yağış havanı soyutdu. ***küləklə (bağlayıcı)***
5. Quş qanadnan uçar, insan diləknən. ***qanadla, diləklə (qoşma)***
*(Bəxtiyar Vahabzadə)*

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Eyniköklü sözləri müəyyənləşdirir. | Tapşırıq 1 (dərslik), 3, 5 (iş dəftəri) |
| Sözlərdə -$la^2$ şəkilçisinin funksiyalarını müəyyən edir. | Tapşırıq 2 (dərslik), 8 (iş dəftəri) |
| Sözlərdə -$la^2$ şəkilçisinin (bağlayıcı, qoşma, zərf düzəldən şəkilçi) düzgün yazılışı qaydalarına əməl edir. | Tapşırıq 4, 5 (dərslik), 8 (iş dəftəri) |

Laylə

BURAXILIŞ MƏLUMATI

*Ümumi təhsil müəssisələrinin 7-ci sinifləri üçün*
*Azərbaycan dili (dövlət dili) fənni üzrə dərsliyin (qrif nömrəsi: 2026-)*
***metodik vəsaiti***

**Tərtibçi heyət:**

Müəlliflər: **Rafiq İsmayılov**
**Ülkər Nurullayeva**
**Reyhan Həbibli**

Dil-üslub redaktoru: **Fidan Məmmədova**
Texniki redaktor: **Nərmin Həsənova**
Korrektor: **Xalisə Mərdanova**

**© Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi**

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun
hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq,
elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.

Hesab-nəşriyyat həcmi: 19,2. Fiziki çap vərəqi: 24.
Səhifə sayı: 192. Formatı: 57×82 1/8. Kəsimdən sonra ölçüsü: 195×275.
Şriftin adı və ölçüsü: Calibri 11.3 pt. Ofset kağızı. Ofset çapı.
Bakı – 2026.

Əlyazmanın yığıma verildiyi və çapa imzalandığı tarix:

Çap məhsulunu nəşr edən:
Azərbaycan Respublikasının Təhsil İnstitutu (Bakı ş., A.Cəlilov küç., 86).

Layihə